MÜƏLLİM KİTABI

# SƏMAVİ HƏDİYYƏLƏR

İbtidai mərhələ

بسم الله الرحمن الرحیم

# Mündəricat

**Birinci hissə:** **Din təlimlərinin əsasları........................**

Müqəddimə ..........................................................................
Müəllim olma səbəbi ...........................................................
Yeniyetmə və gənclərin düşüncə və bilik səviyyəsini yüksəltmə ..
Hikmət öyrənmə .................................................................
Gözəl nəsihət .....................................................................
Müzakirə və fikir mübadiləsi ................................................
Yeniyetmə və gəncləri yaradılış aləmi ilə tanış etmək ..............
Yeniyetmə və gənclərin düşüncə və hisslərini nəzərə almaq ......
Məzmunu çatdırmağın forması: ...........................................
- Din təliminin metodları ................................................
- Ənənəvi təlim metodu ..........................................
- Təlqin edilən təlim metodu ....................................
- Tədrici təlim metodu ............................................
- Vasitəli təlim metodu ...........................................
- Nümunəvi təlim metodu ........................................
- Praktiki təlim metodu ...........................................
Din təlimləri dərsinin ibtidai mərhələsinin proqramının başlıqlarının cədvəli ..........................................................

**İkinci hissə:** **Kitabdakı əsas mövzuların tədrisi........**

1- Quran ...........................................................................
2- Allahıtanıma ...................................................................
3-4- Peyğəmbərlik və imamət ................................................
5- İslam əxlaqı ...................................................................
6- Şəriət hökmləri ...............................................................
7- İslami tədbirlər ...............................................................

**Üçüncü hissə:** **Tədrisdə nümunəvi örnəklər..............**

a) Quran təlimi .....................................................................
Birinci kitab .....................................................................
b) Din təlimləri (Səmavi hədiyyələr) ..........................................
İkinci kitab ...................................................................
Üçüncü kitab ...................................................................
Dördüncü kitab ...................................................................
Beşinci kitab ...................................................................
Altıncı kitab ...................................................................

**Dördüncü hissə:** **Şagirdlərin dərsi mənimsəməsinin qiymətləndirilməsi metodu.........**

a) Quran təlimi (Birinci kitab) ...................................................
b) Din təlimləri (Səmavi hədiyyələr) ..........................................

# Müqəddimə

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ

فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

Birinci hissə

1

# Din təliminin tədrisinin əsasları

# Din təliminin əsasları

## Müqəddimə

İnsanın tərəqqi və təkamülü üçün dinin varlığı olduqca vacib bir məsələdir. İnsan məhz din və dini inancları sayəsində dünya və axirət səadətini təmin edə bilir. Din insanı həyatın çətinlikləri qarşısında qoruya bilən ən möhkəm sığınacaqdır. Bu baxımdan uşaqlara da din və dini inanclar əsasında təlim verilməsi qaçılmaz vacib bir məsələdir. Bu amili nəzərə almadan azğınlığa doğru sürüklənən xeyli sayda uşaq vardır.

İslami etiqadlara əsasən ölümdən sonra və insanın axirət həyatına qədəm qoyduğu ilk anda ondan soruşulacaq ilk suallar məhz əməl dəftərində də qeyd edilmiş dini inancları barədə olacaq. İlk suallar o olacaq ki, sən hansı Allaha iman gətirmisən? Hansı dinə inanmısan? Hansı rəhbərin ardınca getmisən?

İmam Muhəmməd Baqir (əleyhissəlam) buyurur:

لا يَنفَعُ مَعَ الشَّكِ وَ الجُحودِ عَمَلٌ

Tərdid və inkarla heç bir əməl fayda verməz.

Üsuli-kafi, c. 2, səh. 400

İmamın bu kəlamından belə məlum olur ki, insanın hər hansı bir əməlinin faydalı olub-olmaması onun dini etiqad və inancına bağlıdır. Buna görə də insanın sözü və əməli hətta dini meyarlara

uyğun olsa belə, yalnız o vaxt Allah tərəfindən qəbul edilər ki, düzgün niyyət və etiqada əsaslansın. Əks təqdirdə insan Quranda barələrində belə buyurulmuş münafiqlərlə eyni vəziyyətdə olacaq:

يَقولونَ بِأَفواهِهِم ما لَيسَ فى قُلوبِهِم وَ اللّهُ أَعلَمُ بِما يَكتُمونَ

Ürəklərində olmayan şeyi dilləri ilə deyirdilər. Halbuki Allah onların (bütün) gizlətdiklərini çox yaxşı bilir!

Ali-İmran surəsi, 167-ci ayə

İnsanın şəxsiyyətinin daha çox kiçik yaşlardan formalaşmağa başladığını və bu dövrdə insana daha çox təsir etmək imkanının olduğunu nəzərə alaraq yaxşı olar ki, həmin dövrdə dini inanclara da ciddi yanaşılsın. Yeniyetmələrin dini təlim-tərbiyəsi fərdi, ailəvi və ictimai cəhətlərlə bilavasitə bağlı olduğu üçün, digər tərəfdən də yeniyetmələrin bu yaş mərhələsində daha çox təsir altına düşməsini və bu amillərin onun bir yeniyetmə olaraq formalaşmasındakı ciddi təsirini nəzərə alaraq müəllimlərin işi həddən artıq çətin olur. Onların üzərinə böyük məsuliyyət düşür. Həzrət Peyğəmbər (s) buyurur:

يَأْتى عَلَى النّاسِ زَمانٌ الصّابِرُ مِنهُم عَلى دِينِهِ كَالقابِضِ عَلَى الجَمر

İnsanlar üçün elə bir vaxt gəlib çatacaq ki, dinini qoruyub saxlamaq istəyən şəxs əlində od tutmuş insana bənzəyəcək.

Mizanul-hikmət, Məhəmmədi Reyşəhri, 24: 1385

İslam dini hər şeydən daha çox etiqad və inancların islah olunmasına önəm verir. Etiqada İslam dini qədər önəm verən ikinci bir məktəb, din tapmaq mümkün deyil. İslam dinində bütün əməllər, hətta yaxşı və bəyənilmiş əməllər də etiqadla ölçülür. Çünki hətta yaxşı və bəyənilmiş əməllər də düzgün etiqaddan qaynaqlanmazsa, heç bir dəyər qazanmaz.

Bununla əlaqədaq olaraq imam Sadiq (ə) buyurmuşdur:

لَو أَنَ العِبادَ وَ صَفُوا الحَقَ وَ عَملوابِهِ وَ لَم يَعقِد قُلوبُهُم عَلى أَنَّهُ الحَقُ مَا انتَفَعوا

Əgər insanlar haqq olan bir şey barəsində danışıb dediklərinə əməl etsələr, lakin qəlbən onun haqq olduğuna inanmasalar, etdiklərinin heç bir faydası olmaz.

Biharul-ənvar, c. 28, hədis 1403

Yeniyetmələrin dini və əxlaqi baxımdan tərbiyə edilməsinə önəm verilməsi onunla əlaqədardır ki, onlar həyat və yaşam tərzinə görə məsuliyyət daşıyacaqlar. Sonrakı nəsillərin yetişdirilməsində böyük rol oynayacaqlar. Buna görə də onları elə yetişdirmək lazımdır ki, özləri könüllü olaraq mənəvi saflığa, özünüislaha meyl etsinlər.

İmam Əli (əleyhissəlam) buyurur:

مَن لَم يُجهِد نَفسَهُ فى صِغَرِهِ لَم يَنبُل فى كِبَرِه

Uşaqlıqda nəfsinə qarşı mübarizə aparmayan insan böyüdükdə heç bir dəyər qazanmaz.

Ğürərül-hikəm, 606: 1410

Bu məqsədə o vaxt nail olmaq mümkündür ki, yeniyetmələrin etiqad və inancları onların daxili aləminin, vicdanının ayrılmaz bir hissəsinə çevrilsin və daha onlara nəzarət edilməsinə ehtiyac qalmasın. Əks halda cəmiyyətdə yaltaqlıq, ikiüzlülük, zahirdə görüntü yaratmaq və s. kimi hallar baş alıb gedəcək.

İnsanın etiqad və inancları onun həyatdakı bütün cəhətlərini özündə əks etdirdiyi üçün fərdi və ictimai həyatda böyük rol oynayır. Necə ki, Allah-taala Quranda buyurur:

كُلٌّ يَعمَلُ عَلى شاكِلَتِه

Hərə öz xislətinə (etiqadına) görə iş görər.

İsra surəsi, 84-cü ayə

İnsanın inancları onun şəxsiyyətini formalaşdırır. Onu bu və digər işə sövq edib yol göstərəni də məhz inanc və düşüncələridir. Əgər bu inanclar düzgün və həqiqətə uyğun olarsa, insanın həyat yolu da düzgün olar. Yox əgər inancları səhv və həqiqətə zidd olarsa, insanın həyatı azğınlığa doğru gedəcək.

Əgər dini inanclar uşaqğın daxili aləmində formalaşarsa və onun sayəsində uşaq şəkk və tərdiddən uzaq olarsa, sonrakı mərhələlərdə onun düşüncə və əməli həmin inanclar əsasında formalaşaraq onun tərəqqi və inkişafına səbəb olacaq, onu azğınlıqdan qoruyacaq. Hər hansı bir insanın sabitqədəm formalaşması üçün ən gözəl dövr uşaqlıq dövrüdür. Yaradılış aləminin sirlərindən xəbərdar olmaq istəyi uşaqlarda fitri bir ehtiyac hesab olunur.

* * *

Hansısa bir yeniyetmə və ya gəncin İslam əxlaqı ilə yetişdirilməsini istəyiriksə, bunun üçün ona təkcə İslam əxlaqı barədə məlumat vermək, onu bu və digər məlumatlarla təmin etmək kifayət etmir. Bunun üçün bir sıra başqa amillərə də ehtiyac vardır. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

### 1- Müəllimin dediklərinə özünün əməl etməsi

Söhbət dini inancların daxili aləmdə oturuşmasından getdiyi üçün yeniyetmələrlə bağlı bu vəzifənin öhdəsindən o insan gələ bilər ki, dediklərinə hamıdan əvvəl özü əməl etsin və bu inanclar ilk növbədə onun öz daxili aləmində oturuşmuş olsun. Bununla bağlı olaraq Əmirəlmöminin Əli (əleyhissəlam) buyurur:

مَن نَصَبَ نَفسَهُ للنّاس إماماً فَليبدَأ بتَعليم نَفسه قبلَ تَعليم غَيره، وَ ليكُن تَأديبُهُ بِسيرَتِه قَبلَ تَأديبُهُ بِلِسانِهِ؛ مُعَلِّمُ نَفسِهِ وَ مُوَدِّبُها أَحَقُّ بالاِجلالِ مِن مُعَلِّمِ النّاسِ وَ مُوَدِّبِهِم

Özünü camaatın rəhbəri edən insan başqalarına tərbiyə verməzdən qabaq özünü tərbiyələndirməli, başqalarına sözü ilə tərbiyə verməzdən qabaq əməli ilə tərbiyə verməlidir. Çünki özünə tərbiyə vermiş insan başqasına tərbiyə verən insandan daha hörmətli, daha dəyərlidir.

Nəhcül-bəlağə, 454: 1389

Başqa bir kəlamında belə buyurur:

اَلدّاعِی بِلا عَمَلٍ کَالرّامِی بِلا وَتَرٍ

Dediyinə özü əməl etmədiyi halda başqasını həmin işə dəvət edən insan kamanı olmayan oxatana bənzəyir.

Nəhcül-bəlağə, 506: 1389

Qurani-Kərim bir çox ayələrdə əməlin deyilən sözdə təsirinə işarə etmişdir. Özləri əməl etmədiyi halda başqalarını yaxşı işlərə dəvət edən insanlar düşüncəsiz adamlar olaraq təqdim edilmiş, onların bu hərəkətinin düşüncəsizlikdən qaynaqlandığı bildirilmişdir:

أَتَامُرونَ النَّاسَ بِالبِرِّ وَ تَنسَونَ أنفُسَكُم وَ أنتُم تَتلُونَ الكِتابَ أفَلا تَعقِلونَ

Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki özünüz kitab oxuyursunuz. Məgər (çirkin əməllərinizi) başa düşmürsünüz?

Bəqərə surəsi, 44-cü ayə

Səff surəsinin 2-3-cü ayələrində isə belə insanlar tənqid edilmişdir:

يا ايها الَّذينَ امنوا لِمَ تقولونَ ما لا تَفعَلونَ، كَبُرَ مقتاً عِندَ اللهِ اَن تَقُولُوا ما لا تفعَلونَ

Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.

Səff surəsi, 2-3-cü ayələr

İmam Əli (əleyhissəlam) buyurur:

لا تَکُن مِمَّن... یبالِغُ فِی المَوعِظَة وَ لا یتَّعِظُ؛ فَهُوَ بِالقَولِ مُدِلٌّ، وَ مِنَ العَمَلِ مُقِلٌّ

... Həddən artıq öyüd versə də dediyinə özü əməl etməyənlərdən olma. Onun sözü çox olsa da, yaxşı əməli azdır.

Nəhcül-bəlağə, 472: 1389

Öz dediklərinə əməl etməyən alimin sözünün təsirsiz qalacağı barədə imam Sadiq (ə) belə buyurmuşdur:

“Alim öz dediklərinə əməl etmədiyi təqdirdə yağış damcıları sərt qaya parçasının üzərindən sürüşüb axdığı kimi, onun da sözləri qəlblərdən sürüşüb axar.”

Praktiki olaraq "dediyi sözə əməl etmək" təbliğin ən təsirli formasıdır. Məsum imamlar da təbliğin məhz bu formasına ciddi təkid etmişlər.

İmam Əli (ə) buyurmuşdur:

إنَّ الوَعظَ الَّذى لا يَمُجُّهُ سَمعٌ وَ لا يَعدِلُهُ نَفعٌ مَا سَكَتَ عَنهُ لِسانُ القَولِ وَ نَطَقَ بِهِ لِسانُ العَقلِ

Heç bir qulağın inkar etməyəcəyi və heç bir xeyrin bərabər ola bilməyəcəyi öyüd ö oyüddür ki, dil onda sükut edib ağılın dili (əməli) danışsın.

Ğürərül-hikəm, Təmimi Amudi, 231: 1410

İmam Sadiq (əleyhissəlam) buyurmuşdur:

كونوا دُعاةً لِلنّاسِ بِغَيرِ أَلسِنَتِكُم لِيَرَوا مِنكُمُ الوَرَعَ وَ الاِجتِهادَ وَ الصَّلاةَ وَ الخَيرَ فَأَنَّ ذلِكَ داعِيَةٌ

İnsanları sadəcə dilinizlə deyil, rəftarınızla da dəvət edin ki, sizin təqvalı olduğunuzu görsünlər. Bax budur dəvət!

Üsuli-kafi, c. 2, səh. 78

## 2- Yeniyetmə və gənclərdə düşüncə və bilik qabiliyyətini gücləndirmə

İnsan ağıl və düşüncəsi hesabına Allah-taalanı dünyanın yeganə yaradanı və idarə edəni olaraq qəbul edir. Dünyada ədalət üzərində qurlulmuş bir nizam olduğuna inanır. Peyğəmbərlərin göndərilməsinin lazımlığını və onların məsum olduğunu anlayır. İnsanlar üçün imamlar göndərilməsinin vacibliyini dərk edir. Nəhayət, üsuliddinin sonuncu prinsipi olan axirət aləminin varlığına inanır. Bütün bunlar əlbəttə ki, ağıl və düşüncə qüvvəsinin düzgün istiqamətdə tərbiyə edilməsinə bağlıdır.

"Tanıma elə işlərdəndir ki, müqəddəs İslam dini öz ardıcıllarını təkidlə bu məsələyə dəvət etmiş və onu bəşəriyyətin inkarolunmaz ehtiyaclarından biri kimi təqdim etmişdir. Tanınması vacib hesab edilən işlər aşağıdakılardır: Allahı tanıma, peyğəmbəri tanıma, Allah tərəfindən seçilmiş və itaəti vacib sayılan imamları tanıma, nəhayət insanın öz həyatı üçün təyin edəcək və onun sayəsində nahaq yoldan uzaq duracaq haqq yolu tanıma".

Hüseyni Dəşti, Nəhcül-bəlağənin şərhi, 1379, c. 3, səh. 549

İmam Sadiq (ə) səhabələrinə tövsiyə edərək buyurmuşdur:

أَحسنُوا النَّظَرَ فِيما لا يَسَعُكُم جَهلُهُ وَ انِصَحُوا لأَنْفُسكُمْ فِيمَا لَا يَسَعُكُمْ جَهْلُهُ وَ مَعْرِفَةَ مَا لَا عُذْرَ لَكُمْ فِى تَرْكه فَأَنَّ للدِّين أَرْكَاناً لَا يَنْفَعُ مَنْ جَهِلَهَا شِدَّةُ اجْتِهَادِهِ فِى ظَاهِرِ عِبَادَتِهِ وَ لَا يَضُرُّ مَنْ عَرَفَهَا فَدَانَ بِهَا حُسْنُ اقْتِصَادِهِ

Barəsində nadan qalacağınız təqdirdə sizi narahat etməyəcək şeyə diqqət yetirin. Bilməməyinizin rəva olmadığı və tərk etməyinizə görə heç bir bəhanənin qəbul edilməyəcəyi şeydə özünüzə qarşı xeyirxah olun. Çünki Allahın dininin bir sıra əsasları varıdr. Bu əsasları bilmədən zahirdə nə qədər ibadət etməyin heç bir xeyri yoxdur. Həmin əsasları bildikdə isə ibadətlərdə mötədil olmaq da insana ziyan verməz.

Deyləmi, 87: 1408

İmam Əli (ə) yaxın səhabəsi Kumeyl ibn Ziyadı mərifət və bilgiyə dəvət edərək buyurur:

يا كُمَيلُ ما مِن حَرَكَةٍ إِلّا وَ أَنتَ مُحتاجٌ فيها إِلى مَعرِفَة

Ey Kumeyl, elə bir hərəkət yoxdur ki, onda mərifət və bilgiyə ehtiyacın olmasın.

Tuhəful-üqul, 171: 1404

Qurani-Kərimdə dünyada baş verənlər və bizim dərk edib anlaya biləcəyimiz işlər barədə düşünmək haqqında 45-dən artıq ayə vardır. Quranda "heş düşünmürsünüzmü?", "bəlkə düşünəsiniz" kimi ifadələrlə bəndələrin düşüncəli şəkildə, şüurlu formada yaşaması, həyatlarını ağıl və düşüncə əsasında qurmaları tövsiyə edilmişdir. Bəlkə bu yolla onlar nadanlıq girdabından xilas olalar. (Hüseyni Dəşti, Nəhcül-bəlağənin şərhi c. 7, səh. 411)

Bu məsələ ilə bağlı Qurani-Kərimə müraciət edərək bu səmavi kitabdakı metodlara istinad edirik. Allah-taala Quranda insanları Özünə doğru dəvətlə bağlı belə buyurur:

اُدعُ إِلى سَبيلِ رَبِّكَ بِالحِكمَةِ وَ المَوعِظَةِ الحَسَنَةِ وَ جادِلهُم بِالَّتى هِيَ أَحسَن

(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mücadilə et.

Nəhl surəsi, 125-ci ayə

### a) Hikmət öyrənmə

Allah-taala Ali-İmran surəsinin 164-cü ayəsində həzrət Peyğəmbəri (s) göndərdiyi üçün möminlərə lütf etdiyini, onlara minnət qoyduğunu bəyan edir. Peyğəmbərin möminlərə Allahın ayələrini oxumaqla yanaşı onun göndərilməsinin əsas səbəblərindən biri kimi insanlara hikmət öyrətmək olduğunu bildirərək buyurur:

لَقَدْ مَنَّ اللَّهُ عَلَى الْمُؤْمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِنْ أَنْفُسِهِمْ يَتلُوا عَلَيْهِمْ آياتِهِ وَ يُزَكِّيهِمْ وَ يُعَلِّمُهُمُ الْكِتابَ وَ الْحِكْمَةَ ...

Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı (Quranı) və hikməti öyrədən bir peyğəmbər göndərdi.

Ali-İmran surəsi, 164-cü ayə

Bizim din öndərlərimizin əməl və davranış baxımından övladları üçün ən nümunəvi insanlar olmasına baxmayaraq bununla kifayətlənməmiş, onların maariflənməsi, mərifət və biliyə yiyələnməsi üçün öz gözəl kəlamlarını işə salmışlar.

İmam Sadiq (ə) buyurur: Müdrik Loğman öz övladına tövsiyəsində buyurmuşdur:

وَ مَثَلُ الدِّينِ كَمَثَلِ شَجَرَةٍ نَابِتَةٍ فَالْإِيمَانُ بِاللَّهِ مَاؤُهَا وَ الصَّلَاةُ عُرُوقُهَا وَ الزَّكَاةُ جِذْعُهَا وَ التَّأَخِّي فِي اللَّهِ شُعَبُهَا وَ الْأَخْلَاقُ الْحَسَنَةُ وَرَقُهَا وَ الْخُرُوجُ عَنْ مَعَاصِي اللَّهِ ثَمَرُهَا وَ لَا تَكْمُلُ الشَّجَرَةُ إِلَّا بِثَمَرَةٍ طَيِّبَةٍ كَذَلِكَ الدِّينُ لَا يَكْمُلُ إِلَّا بِالْخُرُوجِ عَنِ الْمَحَارِمِ يَا بُنَيَّ لِكُلِّ شَيْءٍ عَلَامَةٌ يُعْرَفُ بِهَا وَ إِنَّ لِلدِّينِ ثَلَاثَ عَلَامَاتٍ الْعِفَّةَ وَ الْعِلْمَ وَ الْحِلْمَ.

Oğlum, hikmətin əxlaqının ağacı Allah-taalanın dinidir. Din yamyaşıl ağaca bənzəyir. Allaha iman onun suyu, namaz onun kökü, zəkat gövdəsi, Allah yolunda dostluq və qardaşlıq onun budaqları, gözəl əxlaq onun yarpaqları, Allaha itaətsizlikdən uzaq olmaq onun meyvələridir.

Ağac öz təmiz meyvələri ilə təkmilləşdiyi kimi, din də haramlardan uzaq olmaqla təkmilləşir.

Oğlum, hərşeyin nişanəsi olduğu kimi, dinin də üç nişanəsi vardır: İffət, elm və səbirli olmaqdır.”

Biharul-ənvar, c. 13, səh. 420

Həmşinin müdrik Loğman oğluna başqa bir tövsiyəsində belə buyurmuşdur:

يَا بُنَيَ تَعَلَّمْتُ سَبْعَةَ آلاَفٍ مِنَ الْحِكْمَةِ فَاحْفَظْ مِنْهَا أَرْبَعاً وَ مُرَّ مَعِي إِلَى الْجَنَّةِ أَحْكِمْ سَفِينَتَكَ فَإِنَّ بَحْرَكَ عَمِيقٌ وَ خَفِّفْ حِمْلَكَ فَإِنَّ الْعَقَبَةَ كَئُودٌ وَ أَكْثِرِ الزَّادَ فَإِنَّ السَّفَرَ بَعِيدٌ وَ أَخْلِصِ الْعَمَلَ فَإِنَّ النَّاقِدَ بَصِيرٌ

Oğlum, mən yeddi min hikmət öyrəndim, sən isə ondan dördünü yadda saxla ki, mənimlə birlikdə Cənnətə girə biləsən. Gəmini möhkəm elə, çünki səfərə çıxacağın dərya çox dərindir. Yükünü yüngel tut, çünki qarşında keçilməsi çox çətin olan bir boğaz vardır. Azuqəni bol elə, çünki səfər çox uzun sürəcək. Əməllərində isə səmimi ol, çünki əməlləri ölçəcək varlıq hər şeyi görür.

Biharul-ənvar, c. 13, səh. 431

## b) Gözəl nəsihət

İnsanların, xüsusilə də uşaqlar və yeniyetmələrin mərifət və biliyini möhkəmləndirməyin, dini inanclarını daha da gücləndirməyin başqa bir yolu gözəl nəsihətdir. Çünki uşaqların qəlbi safdır. Gözəl nəsihət isə insan fitrəti ilə uyğun gəldiyi üçün sözsüz ki, uşaqlarda öz təsirini göstərəcək. Əgər gözəl davranışa və dini inanclara malik olan müəllim öz dediklərinə əməl edərsə, bununla yanaşı uşaq və yeniyetmələrə Allahıtanıma və digər dini inanclarla bağlı gözəl nəsihət verərsə, bu inanclar uşaqların qəlbində dərin kök atıb onlarda daxili bir dəyişiklik əmələ gətirəcək. Bu, Allah-taalanın da istifadə etdiyi bir metoddur.

Müqəddəs kitabımız olan Qurani-Kərim öyüd-nəsihətlə doludur. Hətta Quranda peyğəmbərlərin göndərilməsinin əsas səbəblərindən

birinin məhz insanlara öyüd-nəsihət vermək olduğu göstərilmişdir. Allah-taala buyurur:

رُسُلًا مُبَشِّرِينَ وَ مُنْذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى اللَّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ

Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan olaraq göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın.

Nisa surəsi, 165-ci ayə

Quranın başqa bir ayəsində Allah-taala Öz kəlamını öyüd-nəsihət adlandıraraq buyurmuşdur:

يا أَيُّهَا النّاسُ قَدْ جاءَتْكُمْ مَوْعِظَةٌ مِنْ رَبِّكُمْ وَ شِفاءٌ لِما فِى الصُّدُورِ وَ هُدىً وَ رَحْمَةٌ لِلْمُؤْمِنِينَ

(Ey insanlar!) Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana (cəhalətə, şəkk-şübhəyə, nifaqa) bir şəfa, möminlərə hidayət və mərhəmət (Quran) gəlmişdir!

Yunus surəsi, 57-ci ayə

Əgər müəllimin öyüd-nəsihəti Allah kəlamı ilə uyğun gələrsə, onda həqiqətən də uşaq üçün, yeniyetmə üçün iksir xüsusiyyəti kəsb edib onu doğru yola yönəldəcək. Belə olduqda təbii ki, Allahın nəzəri həm uşaq və ya yeniyetmənin, həm də müəllimin üstündən əskik olmayacaq. Hədislərdən birində deyilir:

أوحَى اللهُ تَعالى إِلى موسي : يا موسى، تَعَلَّمِ الخيرَ وَ عَلِّمهُ النَّاسَ، فَأنِّى مُنَوِّرٌ لِمُعَلِّمى الخَيرِ وَ مُتَعَلِّميهِ قُبورَهُم؛ حَتّى لا يستَوحِشوا بِمَكانِهِم

Allah-taala həzrət Musaya vəhy edərək buyurdu: “Ey Musa, xeyri öyrən və camaata da öyrət! Mən həm xeyri öyrədənin, həm də onu öyrənənin qəbirlərini nurlandıraram ki, orada qorxu və narahatlıq keçirməsinlər.”

Allah-taala Quranda insanların hidayət olunması üçün mütəmadi olaraq öyüd-nəsihətdən istifadə edir. Gah bəndələri qorxudaraq buyurur:

وَ اعْلَمُوا أَنَّ اللَّهَ يَعْلَمُ ما فِي أَنْفُسِكُمْ فَاحْذَرُوهُ

Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Ondan (Allahdan) qorxun.

Bəqərə surəsi, 235-ci ayə

Gah da bəndələri yaxşı işlər görməyə dəvət edir:

يا أَيُّهَا الَّذينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَ لْتَنْظُرْ نَفْسٌ ما قَدَّمَتْ لِغَدٍ وَ اتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبيرٌ بِما تَعْمَلُونَ

Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə (axirət üçün özünə nə hazırladığına) nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır!

Həşr surəsi, 18-ci ayə

Gah qəlbləri Allah kəlamının qarşısında müti olmağa dəvət edir:

أَ لَمْ يَأْنِ لِلَّذينَ آمَنُوا أَنْ تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَ ما نَزَلَ مِنَ الْحَقِ

İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?!

Hədid surəsi, 16-cı ayə

Gah da üsuliddinin sonuncu prinsipi barədə söz açır:

وَ اتَّقُوا يَوْماً تُرْجَعُونَ فيهِ إِلَى اللَّهِ ثُمَّ تُوَفَّى كُلُّ نَفْسٍ ما كَسَبَتْ وَ هُمْ لا يُظْلَمُونَ

Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır!

Bəqərə surəsi, 281-ci ayə

Gah da Qiyamət günündə baş verəcək bəzi səhnələri canlandırır:

يَوْمَ يَكُونُ النَّاسُ كَالْفَراشِ الْمَبْثُوثِ وَ تَكُونُ الْجِبالُ كَالْعِهْنِ الْمَنْفُوشِ، فَأَمَّا مَنْ ثَقُلَتْ مَوازِينُهُ فَهُوَ فِي عِيشَةٍ راضِيَةٍ وَ أَمَّا مَنْ خَفَّتْ مَوازِينُهُ فَأُمُّهُ هاوِيَةٌ

O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək (çəyitrkə kimi bir-birinə qatışacaq). Dağlar isə didilmiş yun kimi olacaqdır! (O gün) tərəzisi ağır gələn (yaxşı əməlləri pis əməllərdən çox olan) kimsə (Cənnətdə) xoş güzəran içində olacaq! Tərəzisi yüngül gələn (yaxşı əməlləri pis əməllərdən az olan) kimsənin isə Məskəni Haviyə (Cəhənnəmin dibi) olacaqdır!

Qariə surəsi, 4-9-cu ayələr

Əslində hər bir insanın öyüd-nəsihətə ehtiyacı vardır. Hətta həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) həzrət Cəbraildən onu nəsihət etməsini istəmişdir. İmam Sadiq (əleyhissəlam) buyurmuşdur: “Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) onu nəsihət etməsini istədikdə Cəbrail (əleyhissəlam) belə demişdir:

يا مُحَمَّدُ ! عِشْ مَا شِئْتَ فَإِنَّكَ مَيِّتٌ وَ أَحْبِبْ مَنْ شِئْتَ فَإِنَّكَ مُفارِقُهُ وَ اعْمَلْ مَا شِئْتَ فَأَنَّكَ مَجْزِيٌّ بِهِ

وَ اعْلَمْ أَنَّ شَرَفَ الرَّجُلِ قِيامُهُ بِاللَّيْلِ وَ عِزَّهُ اسْتِغْنَاؤُهُ عَنِ النَّاسِ

Ey Mühəmməd, necə yaşayırsan yaşa, ancaq unutma ki, sən öləcəksən. Kimi sevirsən sev, ancaq unutma ki, ondan ayrılacaqsan. Nə istəyirsən et, ancaq unutma ki, etdiyinin qarşılığını alacaqsan.

Onu da bil ki, möminin şərəfi gecə qalxıb ibadət etməsində, izzəti isə camaata möhtac olmamasındadır.”

Biharul-ənvar, c. 72, səh. 105

Deməli, müəllimin yeniyetmələr üçün yaratmalı olduğu zəminlərdən biri də onlara öyüd-nəsihət verməsidir. Çünki qəlbi oyadan şeylərdən biri də məhz nəsihətdir.

Öyüd-nəsihətin insana bu qədər ciddi təsir etməsinə görədir ki, imam Əli (əleyhissəlam) övladı imam Həsənə (əleyhissəlam) tövsiyəsində belə buyurur:

أحی قلبکَ بِالمَوعِظَةِ

Qəlbini öyüd-nəsihətlə dirçəlt!

Şərif Rəzi, 1414, 392

### c) Müzakirə və fikir mübadiləsi

Dini inanclar haqqında müzakirə və fikir mübadiləsi aparmaq insanlarıda böyük təsir qoyan amillərdən hesab olunur. Bununla bağlı həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) belə buyurmuşdur:

إنَّ اللَّهَ عَزَّ وَ جَلَّ يَقُولُ تَذَاكُرُ الْعِلْمِ بَيْنَ عِبَادِی مِمَّا تَحيَا عَلَيْهِ الْقُلُوبُ الْمَيْتَةُ إذَا هُمُ انْتَهَوْا فِيهِ إلَى أمْرِی

Allah-taala buyurur ki, bəndələrim arasında gedən elmi söhbət Mənə gedib çıxan bir məsələ ilə yekunlaşdıqda bu, ölmüş qəlblərin dirilməsinə səbəb olur.

Koleyni, 1407, c. 1: 41

Həmçinin həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Əbuzərə belə buyurmuşdur:

يَا أَبَا ذَرٍّ الْجُلُوسُ سَاعَةً عِنْدَ مُذَاكَرَةِ الْعِلمِ أَحَبُّ إِلَى اللَّهِ مِنْ قِيَامِ أَلْفِ لَيْلَةٍ يُصَلَّى فِی كُلِّ لَيْلَةٍ أَلْفُ رَكْعَةٍ وَ الْجُلُوسُ سَاعَةً عِنْدَ مُذَاكَرَةِ الْعِلْمِ أَحَبُّ إِلَى اللَّهِ مِنْ أَلْفِ غَزْوَةٍ وَ قِرَاءَةِ الْقُرْآنِ كُلِّهِ

Ey Əbuzər, elm müzakirəsində bircə saat oturmaq Allah dərgahında hər gecəsində min rükət namaz qılınan min gecədən daha üstündür. Elm müzakirəsində bircə saat oturmaq Allah

dərgahında min cihaddan və Quranı əvvəldən-axıra qədər oxumaqdan daha üstündür.

Biharul-ənvar, c. 1, səh. 203

Əgər müəllim yeniyetmə və gənclərin din barədə fikir mübadiləsi aparması üçün şərait yaradarsa, bu iş onların qəlblərinin daha da cilalanmasına səbəb olub dini inancların onların qəlbində daha da dərin kök salması ilə nəticələnər. Təsadüfi deyil ki, din rəhbərlərimiz həmişə öz ardıcıllarına fikir mübadiləsi aparmağı tövsiyə etmişlər. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur:

تَذَاكَرُوا وَ تَلَاقَوْا وَ تَحَدَّثُوا فَإِنَّ الْحَدِيثَ جِلَاءٌ إِنَّ الْقُلُوبَ لَتَرِينُ كَمَا يَرِينُ السَّيْفُ وَ جِلَاؤُهَا الْحَدِيثُ

Bir-birinizlə müzakirə edin, görüşün, danışın. Çünki (bir-biri ilə) danışmaq qəlblərin cilasıdır. Qılınc pas atdığı kimi, qəlb də pas atır. Onun cilası isə söhbətdir.

Biharul-ənvar, c. 1, səh. 202

## ç) Yeniyetmə və gəncləri yaradılış aləmi ilə tanış etmək

Yeniyetmə və gənclərin dini inanclarını möhkəmlətməyin daha bir təsirli yolu onları təbiət və yaradılış aləmi ilə tanış etməkdir. Təbiət başdan-başa sirlərlə doludur. Bu sirlərin sayəsində Allah-taalanı tanıyıb dərk etmək mümkündür. Əmirəlmöminin Əli (əleyhissəlam) qiymətli kəlamlarından birində belə buyurur:

الْحَمْدُ لِلَّهِ الَّذِى أَظْهَرَ مِنْ آثَارِ سُلْطَانِهِ وَ جَلَالِ كِبْرِيَائِهِ مَا حَيَّرَ مُقَلَ الْعُيُونِ مِنْ عَجَائِبِ قُدْرَتِهِ وَ رَدَعَ خَطَرَاتِ هَمَاهِمِ النُّفُوسِ عَنْ عِرْفَانِ كُنْهِ صِفَتِهِ

Həmd olsun Öz qüdrət və əzəmət nişanələrindən bir hissəsini zahir etdikdə gözləri qüdrəti qarşısında heyran qoymuş, ağılları Öz varlığının mahiyyətini dərk etməkdən saxlayan Allaha!

Məclisi, 1403, c. 74, səh. 314

Təbiət dini və Allahın nişanələrini öyrənmək üçün bir məktəbdir. Bu şərtlə ki, insan düzgün görməyi və düzgün hiss etməyi bacarsın. Din tərbiyəsi insanın qəlbində kök atmalıdır. Müəllimin bacarığı ondadır ki, dünyadakı həqiqətləri yeniyetmələrə elə öyrətməlidir

ki, yeniyetmələr onları öz daxilində hiss etsinlər. Din cövhərini inci tək öz daxili aləmimizdə tapıb formalaşdırmalıyıq. Yetişdirməklə yetişmək bir-birindən fərqlənir. Birincidə tərbiyə qazanılırsa, ikincidə tərbiyə kəşf olunur. Birinci sonradan yaranan, ikinci isə təbiidir.

Cəfəri Dehkərdi, 1390

"Qurani-Kərimdə yaradılış nişanələri barədə düşünməyə dəvət müxtəlif ifadələrlə verilmişdir ki, insanların yaradılış və məada imanı daha da möhkəm olsun. Quranın əmr və qadağaları fitrət, eləcə də insanların təbiət və hisslərinə uyğun gəlir. Buna görə də təbiətin qanunları və sirləri ilə hisslər və tədqiq etmək yolu ilə tanış olmaq lazımdır. Yalnız bundan sonra onları təfəkkür və sübut üçün əsas qərar vermək mümkündür ki, insan yaradılış aynasında Allahın hikmət, qüdrət və sifətlərini müşahidə edə və son məqsədinə çata bilsin. Düşüncə və əxlaqi baxımdan daha da irəli gedərək və təbiətin sirlərini kəşf edərək öz həyatını təmin, varlıqların daxilində gizlənmiş güc və faydalardan daha səmərəli istifadə edə bilsin."

Qurani-Kərim bir çox ayələrdə bizi yaradılış aləmi barədə düşünməyə dəvət edir:

اِنَّ فى خَلقِ السّمواتِ وَ الاَرض وَ اختِلافِ الَّيلِ وَ النَّهارِ لَاياتٍ لِاُولِى الاَلبابِ،
اَلَّذين يذكُرونَ اللهَ قِياماً وَ قُعوداً وَ عَلى جُنوبِهِم وَ يتَفَكَّرونَ فى خَلقِ السَّمواتِ وَ
الاَرض رَبَّنا ما خَلَقتَ هذا باطِلاً سُبحانَک فَقنا عذابَ النّار

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən paksan, müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!

Ali-İmran surəsi, 190-191-ci ayələr

Məsum imamlar öz ardıcıllarını həmişə Allahın nişanə və yaratdıqları barədə düşünməyə dəvət etmiş, bunu ən üstün ibadət adlandırmışlar. İmam Əli (əleyhissəlam) övladı imam Həsənə (əleyhissəlam) tövsiyəsində belə buyurmuşdur:

لاَ عِبَادَةَ كَالتَّفَكُّرِ فِي صَنْعَةِ اللَّهِ (عَزَّ وَ جَلَّ)

Allahın yaratdıqları barədə düşünmək kimi (üstün) bir ibadət yoxdur.

Tusi, 1414: 146

O həzrət başqa bir kəlamında belə buyurmuşdur:

اَلتَّفَكُّرُ فی آلاءِ اللهِ نِعمَ العِبادَةُ

Allahın nemətləri barədə düşünmək nə gözəl ibadətdir!

Təmimi Amudi, 1401: 61

"Təbiət bütün cilvələri və görüntüləri ilə bəşəriyyətin səssiz və təsirli müəllimidir. Təbiətin dilini başa düşmək üçün uşaqlıq dövrü ən gözəl dövrdür. Təbiətin dilini anlayan uşaqlar həmişə gözə görünməz bir müəllim tərəfindən yetişdirilirlər. Uşaqların daxilində olan bir qüvvə həmişə onları nəyəsə təşviq edib nədənsə çəkindirir. Bu daxili qüvvənin təsiri müəllim və tərbiyəçilərin müxtəlif proqramlar formasında həyata keçirdiyi işlərdən daha təsirli, daha faydalı olur." (Kərimi, 1387)

Buna görə də yaxşı olar ki, müəllim yeniyetmə və gənclərin Allahın yaratdıqları barədə daha yaxşı düşünə bilməsi, onların ətraf mühit və təbiətlə tanışlığı üçün müəyyən proqram hazırlasın. Bu işə həm Quran ayələrində, həm də hədislərdə kifayət qədər tövsiyə edilmişdir. Bu iş yeniyetmələrin daxili inanclarının möhkəmlənməsində müstəsna rol oynayır. Təsadüfi deyil ki, müdrik Loğman da oğluna məhz Allahın təbiətdəki nişanələri

barədə düşünməyi tövsiyə edərək buyurur:

يَا بُنَيَّ اتَّقِ النَّظَرَ إِلَى مَا لَا تَمْلِكُهُ وَ أَطِلِ التَّفَكُّرَ فِي مَلَكُوتِ السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ الْجِبَالِ وَ مَا خَلَقَ اللَّهُ فَكَفَى بِهَذَا وَاعِظاً لِقَلْبِكَ

Oğlum, sahibi olmadığın şeyə baxma. Göylərin, yerin, dağların və Allahın yaratdığı hər şeyin barəsində yaxşı-yaxşı düşün. Çünki Allahın yaratdıqları barədə düşünmək sənin qəlbinin ən yaxşı öyüd-verənidir.

Biharul-ənvar, c. 13, səh. 431

### 3- Yeniyetmə və gənclərin düşüncə və hisslərini nəzərə almaq

Uşaq və yeniyetmələrin düşüncə və hisslərinə diqqət olduqca mühüm məsələlərdəndir. Müəllim bu cəhəti qətiyyən unutmamalı, həmişə nəzərində saxlamalıdır. Din təlimləri təsirli olmaqdan və axtarışında olduğumuz daxili dəyişiklik baş verməsindən ötrü, mütləq, dini hissləri gücləndirməklə müşayiət olunmalıdır. Bu gün bir çoxlarında gördüyümüz odur ki, kifayət qədər dini məlumatı olsa da, həmin məlumatlar dini hisslərlə müşayiət olunmadığı üçün insanın fitri istəklərinə münasib cavab vermir. Bunun da nəticəsi olaraq daxili dəyişiklik baş vermir. İnsanda fitri olan dini inanclar onun daxili aləminin əsas hissəsinə çevrilmir.

Buradan belə nəticə əldə edirik ki, əgər din təlimləri dini hisslərin yetişdirilməsi ilə müşayiət olunmazsa, nəinki fitri təmayüllərin güclənməsinə kömək etməyəcək, əksinə, özü fitri təmayüllər qarşısında böyük bir maneəyə çevriləcək. Mərhum Ayətullah Xomeyni demişkən, nəfsin saflaşması olmazsa, tövhid elmi heç bir fayda verməz. Yəni, əgər tövhid elmi daxili və mənəvi bir təmizlənmə, qəlb bağlılığı ilə müşayiət olunmazsa, bunun özü də böyük bir maneəyə çevrilər.

Uşağın istər bioloji, istərsə də mənəvi baxımdan inkişaf etməsinin əsas cəhətlərindən biri də onun hissləridir. Uşağın düşüncə və hissləri

inkişaf etmədikcə onun bioliji inkişafının xeyri olmadığı kimi, dini hisslərinə cavab tapa bilməyən uşağın ruhu da qidasız qalacaq və fitri olaraq verilmiş Allahı axtarma istəyi lazımi səviyyədə inkişaf etməyəcək.

Əgər uşağın bu istəyi təmin olunarsa, onun psixologiyasına ediləcək təsir əbədi iz buraxacaq. Buna görə də müəllim uşaqların mənəvi inkişafını artırmaq və dini inancları onların daxili aləminin ayrılmaz bir hissəsinə çevirmək üçün uşaqların hisslərini, düşüncələrini, mütləq, nəzərə almalı, onları daxilən dəyişməyə çalışmalıdır. İnsanın qəlbi böyük insanların həmişə diqqət mərkəzində olmuşdur. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur:

ألقَلبُ مَلِکٌ وَ لَهُ جُنودٌ فَأذا صَلُحَ المَلِکُ صَلُحَت جُنُودُهُ وَ إذا فَسَدَ المَلِکُ فَسَدَت جُنُودُهُ

Qəlb hökmdardır, onun qoşunları vardır. Hökmdar islah olsa, qoşunları da islah olar, hökmdar korlansa, qoşunları da korlanar.

İmam Mühəmməd Təqi (əleyhisəalam) belə buyurmuşdur:

الْقَصْدُ إِلَى اللَّهِ تَعَالَى بِالْقُلُوبِ أَبْلَغُ مِنْ إِتْعَابِ الْجَوَارِحِ بِالْأَعْمَالِ

Allaha doğru qəlb ilə getmək əməllər vasitəsilə bədən üzvlərini əziyyətə salmaqdan daha təsirlidir.

Əslində müəllim uşaqların qəlbini layiq olduğu və onları səadətə çatdıracaq işlərə doğru yönəltməlidir. Onlara dini inancları qəlbən qəbul etdirməyi bacarmalıdır. Onların qəlbinə qarşı heç vaxt biganə qalmamalıdır.

İnsanın qəlbu çox güclü dəyişiklik qabiliyyətinə malikdir. Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) buyurmuşdur:

لَقَلْبُ ابْنِ آدَمَ أَسْرَعُ تَقَلُّبًا مِنَ الْقِدْرِ إِذَا اسْتَجْمَعَتْ غَلَيَانًا

İnsanın qəlbi qaynar qazandan da daha dəyişkəndir.

O həzrət insanın ürəyini çöldə bir ağacdan asılmış ipə bənzədir. Hər dəfə külək əsdikcə həmin ip də küləyin əsməsi nəticəsində istiqamətini dəyişəcək.

إنّما مَثَل القلبِ مَثَلُ ريشَةٍ بِالفلاةِ تَعلّقت فِی أصل شَجَرَةٍ يُقَلّبُهَا الرّيح ظَهرا لبطن

Uşağın qəlbinin dəyişkənliyi böyüklərin ürəyk dəyişkənliyindən daha çoxdur. Bunu nəzərə alaraq müəllimin öhdəsinə düşən əsas vəzifə odur ki, yeniyetmələrin qəlbinə təsir etməklə dini inancları onların daxili inanclarına çevirmək üçün zəmin yaratsın.

Müəllim elə şərait yaratmalıdır ki, yeniyetmələrlə məşğul olduğu vaxt onların qəlbini ələ ala bilib təsir etmək imkanına malik olsun. Həzrət Əli (əleyhissəlam) buyurmuşdur:

إنَّ لِلْقُلوبِ شَهْوَةً وَ إِقْبالاً وَ إِدْبَاراً فَأْتُوهَا مِنْ قِبَلِ شَهْوَتِهَا وَ إِقْبالِهَا فَأنَّ الْقَلْبَ إِذَا أُكْرِهَ عَمِی

Qəlblərin istəyi, üz tutması və arxa çevirməsi vardır. Buna görə də qəlbləri istəkli olduğu və üz tutduğu zaman cəlb edin. Çünki qəlblər istəkli olmadan bir işə vadar edildikdə kor olar.

Nəhcül-bəlağə: 503

Qəlblərin hazırlığı barədə imam Rza (ə) belə buyurmuşdur:

إنَ لِلْقُلوبِ إِقْبَالاً وَ إِدْبَاراً وَ نَشَاطاً وَ فُتُوراً فَإذَا أَقْبَلَتْ بَصُرَتْ وَ فَهِمَتْ وَ إِذَا أَدْبَرَتْ كَلَّتْ وَ مَلَّتْ فَخُذُوهَا عِنْدَ إِقْبَالِهَا وَ نَشَاطِهَا وَ اتْرُكُوهَا عِنْدَ إِدْبَارِهَا وَ فُتورِهَا

Qəlblərin üz tutma və arxa çevirməsi, habelə fəal və süst olması vardır. Qəlblər üz tutduqda görən və anlayan, arxa çevirdikdə isə yorğun olur. Buna görə də qəlbləri üz tutduqda və fəal olduqda işə cəlb edin. Arxa çevirib yorğun olduqda isə onları boşlayın.

Müəllim yuxarıda deyilənləri, mütləq, nəzərə almalı, mövqe tanıyan və mövqe yaratmağı bacaran olmalıdır. Yeniyetmələrin qəlbi hazır olmadıqda onları işə cəlb edərsə, yeniyetmələrə heç vaxt aradan qaldırılmayacaq bir zərbə vurmuş olar. Əmirəlmöminin Əlinin (əleyhissəlam) təbirincə desək, onların qəlbinin kor olmasına səbəb olar. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) də buyurmuşdur ki, ən pis korluq qəlbin kor olmasıdır.

شَرُّ الْعَمَى عَمَى الْقَلْب

Ən pis korluq qəlbin kor olmasıdır.

Biharul-ənvar, c. 67, səh. 51

Yuxarıda deyilənləri nəzərə alaraq əgər müəllim yeniyetmələrdə daxili bir dəyişiklik yaratmaq istəyirsə, bunun üçün sinifin mühitini mənəvi bir atmosferdə qoruyub saxlamalıdır. Məhz belə olduqda dini inanclar yeniyetmə və gənclərdə daxili inanclara çevrilir.

## Nəticə

Deyilənlərdən belə nəticə əldə edilir ki, ibtidai mərhələdə dərs deyən müəllim dini inancların şagird və yeniyetmələrin daxili inanclarına çevrilməsi üçün bəzi şərtlərin olması zəruridir. Bunlar əsasən aşağıdakılardır:

**1.** Birinci şərt ilk növbədə müəllimin özünün dediklərinə əməl etməsidir. Çünki o, yeniyetmələr üçün örnək, təlim-tərbiyə prosesinin aynasıdır. Bu məsələyə bir çox ayə və hədislərdə də təkid edilmişdir ki, hər hansı bir şəxs öz dediyinə əməl etməzsə, onun sözü başqalarına da təsir etməz. Məlum məsələdir ki, müəllimin ən kiçik hərəkəti belə şagirdlərin gözündən yayınmır. Deməli, onun istənilən hərəkəti şagirdlərə öz təsirini göstərə bilər.

**2.** İkinci şərt yeniyetmə və gənclərdə düşüncə və bilik qabiliyyətini gücləndirməkdir. Dini inancların daxili inanclara çevrilməsində biliyin müstəsna rolu vardır. Yeniyetmələr müxtəlif sahələrdə müəyyən bilik və məlumatlar əldə etməyincə onların daha yuxarı səviyyələrə çatacağına ümid etmək yersiz olar. İnsan ilk növbədə nəyisə bilməli, ondan sonra isə onun dərinliyinə getməlidir. Bir çox ayə və hədislərdə qeyd edilmişdir ki, dini təlim-tərbiyə zamanı əqli qüvvələrin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Bunu nəzərə alaraq şagirdlərin bilik və məlumatlarının artırılması məqsədilə müəllimlərin müəyyən proqramlar hazırlaması tövsiyə edilir. Çünki məhz bilik və məlumatlar nəticəsində iman qəlbə nüfuz edə bilir. Məsum imamların həyatında yeniyetmə

və gənclərdə düşüncə və bilik qabiliyyətini gücləndirmək üçün hikmət öyrətmə, öyüd-nəsihət, fikir mübadiləsi, onları yaradılış aləmi ilə tanış etmək və s. kimi müxtəlif yollar göstərilmişdir.

**3.** Üçüncü şərt yeniyetmə və gənclərin düşüncə və hisslərini nəzərə almaqdır. Xüsusilə də ibtidai sinif şagirdləri öz yaş mərhələsinin tələbinə uyğun olaraq onların hissləri daha güclü olur. Buna görə də müəllim hər şeydən öncə sinifdə tam arxayın və rahat, eyni zamanda mənəviyyatla dolu bir atmosfer yaratmalıdır.

Ayə və hədislərdən də başa düşüldüyü kimi, insanların daxili dəyişikliyinin mərkəzi hesab edilən qəlb bizi o həqiqətə yönəldir ki, yeniyetmələrin maarifləndirilməsi zamanı dini hisslər nəzərə alınmadan dini təlimin heç bir faydası olmaz, əksinə, bu cür təlim insanda müsbət təsir qoymaq əvəzinə onun fitri meyillərinə qarşı çıxar. Buna görə də dini maarifləndirmə ilə paralel olaraq yeniyetmələrin düşüncə və hissləri də, mütləq, nəzərə alınmalıdır.

## Məzmunu çatdırmağın forması və onun tənzimlənmə forması

Məzmunu çatdırmaq və onun tənzimlənmə formasında bir neçə məqam nəzərə alınmalıdır:

### 1. Şagirdlərin yaşı və inkişaf psixologiyasının xüsusiyyətləri

Qarşımızdakı şəxxə çatdırmaq istədiklərimizi hansı formada seçmək üçün onun hansı yaş dövründə olduğunu bilmək çox önəmlidir. İbtidai sinif şagirdi olan uşaq yuxarı səviyyəli məlumatları başa düşmək iqtidarında deyil. Buna görə də ona dini məlumatı başa salarkən bəsit, ibtidai səviyyədə olan məlumatları öyrətmək lazımdır. Məsələn, Allah məfhumunu ona başa salmaq üçün Allahın varlığının isbatı kimi məsələlər əvəzinə Allahın mehriban, bağışlayan olması, Onun bizə verdiyi nemətləri barədə danışmaq lazımdır ki, uşaq onları başa düşə bilsin.

### 2. Dini məfhumların təlimi zamanı dolayısı yollarından daha çox istifadə etmək

Müxtəlif metodlarla bəyan etmək qabiliyyəti dolayısı yolla ifadə tərzinin ən təsirli metodlarındandır. Məsələn, bu və digər əxlaqi bir məsələ müəyyən əhvalat formasında elə təqdim edilə bilər ki, uşaq psixologiyası ilə daha uyğun olub digər metodlarla müqayisədə daha çox təsir göstərə bilər. Münasib faydalanmanın digər bir metodu isə şəkil və ya görüntüdən istifadə etməkdir. Onun təsiri mətndən daha güclü olur. Əgər şəkil və ya görüntü şagirdin diqqətini cəlb edə bilərsə, təsiri ikiqat artıb onun yaddaşında silinməz iz buraxar.

### 3. Şagirdlərin hələ kifayət qədər inkişaf etməməsi səbəbilə bəzi məsələlərin

**yanlış anlaşıla bilməsinin qarşısını almaq məqsədilə bır sıra məqamlara toxunmamaq**

Dini bilgiləri uşaqların öz səviyyəsinə uyğun olaraq, həm də başa düşə biləcəyi formada onlara çatdırmaq lazımdır. Burada proqramdakı ardıcıllıq nəzərə alınmalı, qətiyyən tələskənliyə yol verilməməlidir.

**4. Məzmunu müxtəlif formalarda çatdırmaq**

Dini məlumatlar adətən yazılı formada şagirdlərə çatdırılır. Lakin ibtidai mərhələdə çalışmaq lazımdır ki, başqa metodlardan istifadə edilsin. Ola bilər ki, gözəl bir şəklin təsiri yazılı formadan daha artıq olsun. Eləcə də məzmunu çatdırmağın daha bir təsirli forması öyrənmə fəaliyyətləridir. Məsələn, şagirdin öhdəsinə buraxılan və ya müəllimin öz rəftarında əks etdirdiyi vəzifələr kimi hallar daha yaxşı mənimsəməyə şərait yaradır. Məzmunu çatdırmağın başqa bir yolu şagirdin öyrənmə prosesində yiyələndiyi bacarıqlardır. Bir çox hallarda bu metod ona öyrədilən metodlardan daha səmərəli olur. Başq bir yol isə (məktəbdən kənar) öyrənmə mühitlərini genişləndirməkdən ibarətdir. Məsələn, görüşlər təşkil etmək, məscid və ya ziyarətgahlara getmək, təbiətin qoynuna çıxmaq və s. Bütün bunlar bilgi və məlumatların artmasına səbəb olur.

## Din təliminin metodları

Düzgün təlim metodlarından istifadə bütün müəllim və tərbiyəçilərin nəzərə almalı olduğu çox önəmli məsələlərdəndir. Çünki bu günkü dünyamız müxtəlif metodlardan istifadə etmə dünyasıdır. Bununla əlaqədar olaraq imam Rza (əleyhissəlam) çox gözəl buyurmuşdur:

“Kim hansısa bir işi öz qaydası ilə görərsə, büdrəməz. Əgər büdrəsə də, bir çıxış yolunu tapar.”

Biharul-ənvar, c. 71

**Bəzi din təlimi metodları aşağıdakılardan ibarətdir:**

Ənənəvi metod, təlqin edilən metod, tədrici metod, vasitəli metod, nümunəvi metod

## Ənənəvi təlim metodu

Ənənənin dörd növü vardır: Şüurlu və faydalı ənənə (müsbət işlərdəki ənənə kimi), şüurlu və zərərli ənənə (mənfi və bəyənilməz işlərdəki ənənə kimi), şüursuz və faydalı ənənə (söz danışmaqdakı ənənə kimi), şüursuz və zərərli ənənə (uşağın pis sözlər öyrənməsindəki ənənə kimi).

Ənənənin ilk iki növü başqalarından müsbət və ya mənfi örnək götürməkdir. Bu barədə nümunəvi təlim metodundan danışarkən məlumat verəcəyik. Ənənənin dördüncü növünə Quranda kafirlərlə bağlı olaraq işarə edilmişdir:

"Onlara (bütpərəstlərə): "Allahın göndərdiyinə (Qurana) tabe olun!" - deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik! "-deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə? (Yenədəmi onlara tabe olacaqlar?)"

(Bəqərə surəsi, 170-ci ayə)

Deməli, şüursuz və heç bir məntiqi sübuta əsaslanmayan təqlid tamamilə bəyənilməzdir. Şair demişkən:

Xəlqi təqlid ilə yellərə verdiz,
Yüz qat lənət olsun belə təqlidə.

Uşaqların, xüsusilə də daha kiçik yaşlarda daha çox təqlid etdiyini, görüb götürdüyünü nəzərə alsaq, onda öz danışıq və rəftarımıza çox ciddi nəzarət etməliyik. Misal üçün belə bir nümunəni qeyd edə bilərik. İdman məşqləri zamanı məşqçi sol ayağında ağrı hiss etdiyi üçün dizliyi sol ayağında bağlayır və bir neçə gün məşqi bu şəkildə davam etdirir. Bir neçə gün keçdikdən sonra məşqçi baxıb görür ki, bəzi idmançılar heç bir ağrı olmadan dizliyi sol ayaqlarına bağayıblar. Bu, onu göstərir ki, müəllim, tərbiyəçi və ya məşqçilərin istənilən hərəkəti qarşısındakılara nə qədər təsir edib onların təqlidinə çevrilə bilər.

## Təlqin edilən təlim metodu

Təlim-tərbiyə prosesində istifadə edilə biləcək metodlardan biri də insanın həm özünə, həm də başqasına təlqin etmə metodudur. Hətta yorğunluq, pessimizm, ümidsizlik, vasvaslıq kimi bir sıra psixoloji xəstəliklərin müalicəsi də məhz təlqin etmədir. Əmirəl-möminin Əli (əleyhissəlam) bu təlim metoduna işarə edərək buyurmuşdur: "Səbirli deyilsənsə də, özünü səbirli kimi apar. Çünki özünü hansısa bir dəstədən olmadığı halda onlara qoşan çox nadir insan axırda onlar kimi olmaz." (Nəhcül-bəlağə, Feyzülislamın tərcüməsi) Mərhum Ayətullah Xomeyni buyurmuşdur: "İnsan üçün faydalı ola biləcək amillərdən biri də təlqindir. Təlqin insana ən çox təsir edən amillərdən biridir."

Deyilənləri nəzərə alaraq təlim-tərbiyə prosesi zamanı əgər təlqin etmə metodu məcburi və mənfi şəkildə deyil, müsbət, şüurlu və azad şəkildə olarsa, bunun çox böyük təsiri olar.

## Tədrici təlim metodu

Psixoloqlardan biri deyirdi: "Təlim-tərbiyə prosesi zamanı cəlb etmək yaradıcılıqdan öncə olmalıdır." Başqalarını cəlb etmək adətən əlverişli şərait tələb edir. Təlim-tərbiyə prosesi zamanı tədrici təlim metodundan istifadə etmək də əlverişli şərait hesab olunur.

Quran ayələrinin nazil olması və onların Allahın sevimli peyğəmbəri həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) tərəfindən insanlara çatdırılması təlim-tərbiyənin ən gözəl metodlarını özündə əks etdirir. Ayələrin 23 il ərzində, özü də tədricən nazil olması bunun ən bariz nümunəsidir. (İsra surəsi, 106-cı ayənin məzmunu) Oruc, zəkat, cihad və bu kimi şəriət hökmlərinin insanlar üçün izahı, Rum surəsinin 39, Nisa surəsinin 161, Ali-İmran surəsinin 130 və Bəqərə surəsinin 275-279-cu ayələrində sələmin, eləcə də Bəqərə surəsinin 219, Nisa surəsinin 43 və Maidə surəsinin 90-91-ci ayələrində spirtli içkilərin tədricən haram edilməsi təlim-tərbiyə prosesində tədrici təlim metodunun nə dərəcədə əhəmiyyətli olduğundan xəbər verir. Mövlana demişkən:

Həqq qadir deyildir yaratsın fələk?
Şəksiz bir söz ilə, “Ol” kəlməsiylə?
Bəs niyə altı gün bu iş uzandı?
Hər gün də min ilə bərabər oldu?
Nədən doqquz aya yaranır körpə?
Cünki, tədric olub Onun şüarı!
Xilqəti Adəmin qırx gün uzandı,
Tədricən yoğruldu onun torpağı.

Qeyd etmək lazımdır ki:

a) Təlim-tərbiyə prosesi zamanı tədrici təlim metodundan istifadə etmək o demək deyil ki, ilkin mərhələdə əsassız təlimlərvə ya yanlış dəlil-sübutlardan da istifadə etmək olar.

b) Təlim-tərbiyə prosesi zamanı tədrici təlim metodundan təkcə dəlil-sübut təqdim edərkən deyil, eyni zamanda mövzuların təqdim edilməsində də istifadə edilməlidir. Məsələn, bir sıra dəqiq irfani, yaxud dərin fəlsəfi məsələləri və ya bəyənilmiş əxlaqi işləri və gecə namazı kimi müstəhəb əməlləri hələ bunları dərk etmək iqtidarında olmayan yeniyetmə və gənclərə izah etmək nə dərəcədə doğru olar?

c) Təlim-tərbiyə prosesi zamanı düşünmə səviyyəsi, dərk etmə bacarığı, habelə şagirdlərin yaş, elmi, mədəni, iqtisadi və ictimai səviyyəsi, mütləq nəzərə alınmalıdır. Eyni xəstəliyə tutulmuş insanların hamısına eyni müalicəni yazmaq olmaz axı.

Bəlkə də elə bunu nəzərə alaraq məsumlarımız məsələn, fərqli insanlar tərəfindən ən üstün əməllə bağlı verilmiş eyni suala fərqli-fərqli cavablar vermişlər.

## Vasitəli təlim metodu

Bir baxımdan məqbul hesab edilən təlim metodları vasitəli və vasitəsiz olmaq üzrə iki hissəyə ayrılır. Müəllimlərin xüsusiyyətlərinə, eləcə də zaman və məkan şəraitinə uyğun olaraqbəzi vaxtlar vasitəli təlim metodu işə yaradığı halda, bəzi vaxtlarda isə vasitəsiz təlim metodu işə yarayır. Elə təsəvvür edilməməlidir ki, vasitəli təlim metodu həmişə faydalı ola bilər. Buna görə də Allah-taala Qurani-Kərimdə bəzi hallarda vasitəsiz müraciətdən istifadə edərək: "Ey insanlar!", yaxud: "Ey iman gətirənlər" və ya: "Ey kafirlər!" – deyə xitabdan istifadə etmişdir. Bəzi vaxtlarda isə vasitəli xitablardan istifadə eməklə, məsələn, həzrət İsaya (əleyhissəlam): "Ey Məryəm oğlu İsa! Sənmi insanlara:" Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!"- demişdin?" – deyə buyurmuşdur. (Maidə surəsi, 116-cı ayə)

Yuxarıdakı ayədə açıq şəkildə gördüyümüz kimi, Allah-taala həzrət İsaya (əleyhissəlam) bilavasitə xitab edərək onun ardıcıllarına İsanı və anası Məryəmi tanrı hesab etmələrinin yanlış və şirk olduğunu vasitəli şəkildə başa salır.

İmam Həsənlə (əleyhissəlam) ilə imam Hüseynin (əleyhissəlam) yaşlı kişiyə vasitəli yolla dəstəmazın düzgün alınma metodunu öyrətməsi və psixoloqların "eyham vurmaq açıq şəkildə bildirməkdən daha təsirlidir" kimi fikirlərə təkid etməsi də təlim-tərbiyə prosesində vasitəli təlimin nə dərəcədə təsirli olduğunu göstərir.

Təlim-tərbiyə prosesi zamanı vasitəli təlim metodundan istəfadə ilə bağlı bir neçə önəmli məsələni qeyd etmək zəruridir:

**a)** Tədris porosesi zamanı şeir, hekayə, əhvalat, xatirə, başqalarının bioqrafiyasından nümunələr, tapmaca, film, səhnəcik və bu kimi vasitələrdən istifadə etmək vasitəli təlim növlərindən hesab edilə bilər.

**b)** Vasitəli təlim formaları təqdim edildikdə onlardan nəticə çıxarmaq şagird və dinləyicilərin öz öhdəsinə düşür.

**c)** Bəzi hallarda müəllim, tərbiyəçi və ya valideynlər çatdırmaq istədiyi söz və ya fikri özləri deyil, başqa insanların vasitəsilə də çatdıra bilərlər.

## Nümunəvi təlim metodu

İnsanın xüsusiyyətlərindən biri də onun üstünlük və kamillik istəyində olmasıdır. Buna görə də insan dini şəxsiyyətlərdə, siyasi, ictimai, incəsənət və idman xadimlərində bu və digər müsbət cəhət gördükdə öz fərdi və ictimai həyatında onlardan örnək götürməyə çalışır. Mövlana demişkən:

Hansı işdə olsa ustad məşur,
Şagirdi də olar ol işdə məruf.
Bəs ustad həmən nəhvi[1] ola,

1. Ərəb qramatikasının mühim bir hissəsi.

Şagirdi də ol kəsin nəhvi olar.

Buna görə də təlim-tərbiyə prosesi zamanı faydalı ola biləcək metodlardan biri də nümunəvi təlim metodudur. Burada müəllim, tərbiyəçi və valideynlərin üzərinə düşən məsuliyyət ondan ibarətdir ki, dəyərlərin müəyyən edilməsində şagirdlərə düzgün istiqamət verməkdə yardımçı olsunlar. Əks təqdirdə şagirdlər, yeniyetmə və gənclər uyğun olmayan dəb, mod, adətin ardınca düşərək yanlış yolda addımlayacaqlar. İqbal Lahuri demişkən:

Eşq yolu tutaraq məhbub istəyən,
Nuhun gözün, Əyyub qəlbi istəyən,
Gülün qönçəsindən kimya[1] çıxarar.
Kamalın qədəmin öpər biqərar.

Allah-taala da Quranda nümunəvi təlim metodunu nəzərə almışdır. Həm həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) (Əhzab surəsi, 21-ci ayə), həzrət İbrahim (əleyhissəlam) və onun ardıcıları (Mümtəhənə surəsi, 4-cü ayə), Fironun həyat yoldaşı (Təhrim surəsi, 11-ci ayə) kimi müsbət örnəkləri, həm də Həzrət Nuh (əleyhissəlam) və həzrət Lutun (əleyhissəlam) həyat yoldaşıları kimi mənfi və bəyənilməz örnəkləri qeyd etmişdir.

İmam Zaman (əccələllahu fərəcəh) gözəl bir hədisdə belə buyurmuşdur: "Peyğəmbərin (səlləllahu əleyhi və alih) qızı Fatimə (səlamullahi əleyha) mənim üçün gözəl örnəkdir."

Örnəklə bağlı bir neçə məsələni qeyd etmək yerinə düşər:

**a)** Bütün müəllim və tərbiyəçilər istisnasız olaraq öz gözəl hərəkət və davranışları ilə şagirdlər üçün gözəl örnək ola bilərlər.

**b)** Şagirdlərin müxtəlif ehtiyac və bacarıqlarını nəzərə alaraq müəllim və tərbiyəçilər onlara müxtəlif sahələrlə bağlı örnəkləri təqdim etməli, təkcə bir sahədə örnək təqdim etməklə kifayətlənməməlidirlər.

**c)** Müəllimlər bir-birinə zidd olan örnəklər göstərməkdən çəkinməlidirlər. Çünki bu iş ümumiyyətlə örnək götürmək prinsipinə zidd ola bilər. Bu isə olduqca ziyanlı bir amildir.

## Praktiki təlim metodu

Nümunəvi təlim metodunda qeyd etdiyimiz kimi, gözəl təlim metodlarından biri də praktiki təlim metodudur. Təəssüflər olsun ki, bu metoda çox az diqqət yetirilir. İmam Sadiq (əleyhissəlam) buyurmuşdur:

"İnsanları sözlərinizlə deyil, əməllərinizlə (Allaha doğru) dəvət edin."

Bəzi psixoloqların təqdim etdiyi statistikaya görə öyrənmənin 73 faizi göz, 13

1. Hikmət, qüdrət.

faizi isə qulaq vasitəsilə həyata keçir. Belə bir deyim var ki, bir şəkil min sözdən daha ifadəlidir. Mövlana demişkən:

İdrakın bir anda gördüklərini,
İllərcə dil ilə anlatmaq olmaz.

Deməli, müəllimin şagirdin heç nəyi qaçırmayan gözü qarşısındakı rəftarı təlim-tərbiyə prosesində müstəsna rol oynaya bilər. Çünki şagird müəllimin dediklərini onun dilindən eşitməzdən qabaq onun öz əməllərində görmək istəyir. Bu, şagirdin öz müəllimindən alacağı ən böyük dərsdir.

Böyüklük söz ilə, deməklə deyil,
Yüz kərə söyləmək bir əməl deyil.

Digər tərəfdən əgər şagirdlər müəllim və tərbiyəçilərin sözləri ilə əməlləri arasında ziddiyyət görsələr, bu, onlarda müəllimlərə qarşı etimadsızlıq yaradar. Bunun nəticəsi olaraq şagirdlərin öz düşüncə və əməllərində də özlərinə qarşı etimadsızlıq yaranar.

Ey Sədi danışmaq, məsləhət vermək,
Səninçün əməldən heç üstün deyil.

Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, hər hansı bir din və ya cərəyanın uğur qazanması və yaxud da uğursuzluğa düçar olması onun ardıcıllarının nəzəri bilgilərinə deyil, bildiklərinə əməl etməsinə bağlıdır.

Zatında yoxudur eybi İslamın,
Gər varsa, bu eybidir müsəlmanın.

Buna görə də:

**a)** Səff surəsinin 2və 3-cü ayələrindəki tənqid bizə aid olmasın deyə, sözümüzlə əməlimizin bir olmasını hamımız Allahdan istəməliyik.

**b)** Dediklərimizə özümüz əməl etmədiyimiz təqdirdə başqalarının bizim sözümüzə əməl etməsini necə tələb edə bilərik? “Özü xurma yeyən şəxs başqasını xurma yeməkdən necə çəkindirə bilər?” (Həzrət Peyğəmbərlə (səlləllahuəleyhi və laih) bağlı bir əhvalata işarədir.) Şair demişkən:

Ey aləmdən bixəbər, səy et xəbərdar olasan,
Yol ötənlərdən deyil, göstərən sarban olasan.

**c)** Biz Allah-taalanın buyurduğu hökmlərə əməl etməklə, həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və məsum imamların (əleyhimussəlam) davranışına tabe olmaqla bütün yeniyetmə və gənclərimizə örnək olmalıyıq.

| Din təlimləri dərsinin ibtidai mərhələsinin proqramının başlıqlarının cədvəli | | | | | |
|---|---|---|---|---|---|
| Mövzular | Birinci və ikinci mərhələ | Üçüncü mərhələ | Dördüncü mərhələ | Beşinci mərhələ | Altıncı mərhələ |
| Allahı tanıma | - Allahın mehribanlığı<br>- İlahi nemətlər<br>- Dua, Allahla söhbət etməyin yolu | - Allahın bağışlayan olması<br>- İnsanın Allahın nemətlərinə ehtiyacı<br>- Allahın nemətlərinə görə şükr etmək | - Allahın bilikli və qüdrətli olması<br>- Allahın bilikli və qüdrətli olması insanı arxayınlaşdırır | - Allahın yeganə və bənzərsiz olması<br>- Bizim tənha yardımçı və dayağımız Allahdır<br>- Məsumların (ə) duaları | - Yaradılışdakı varlıqlar Allahın qüdrət nişanələridir<br>- Yaradılışdakı varlıqlarda olan nizam tövhidə bir sübutudur<br>- Allaha ibadət və Ondan yardım diləmək |
| Peyğəmbərlik | - Allahın böyük peyğəmbərləri<br>- İslam Peyğəmbəri-nin (səlləllahu əleyhi və alih) uşaqlara qarşı mehribanlığı | - Həzrət İbrahim – Allahın böyük Peyğəmbərlərin-dən biri<br>- İslam peyğəmbərinin (səlləllahu əleyhi və alih) uşaqlığı<br>- Asiya – mömin qadınlar nümunəsi | - Həzrət Musa – Allahın böyük peyğəmbərlərin-dən biri<br>- İslam peyğəmbərinin (səlləllahu əleyhi və alih) qohumlara qarşı əxlaqı və davranışı<br>- Həzrət Xədicə – mömin qadınlar nümunəsi | - Həzrət İsa – Allahın böyük peyğmbərlə-rindən biri<br>- İslam peyğəmbərinin (səlləllahu əleyhi və alih) rəftarının camaata təsiri<br>- Həzrət Məryəm – mömin qadınlar nümunəsi | - Allahın hidayətinə ehtiyac hissi<br>Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) dini hidayətçi və dünyəvi rəhbər kimi |

| | | | | | |
|---|---|---|---|---|---|
| İmamət | - Məsum imamlar - ən gözəl insanlar<br><br>- Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) Əhli-beyti<br><br>Birinci, ikinci və üçüncü imam<br><br>- On ikinci imam | - Dördüncü, beşinci və altıncı imam<br><br>- İmam Zaman (əccələllahu fərəcəh)<br><br>- Həzrət Zəhra ən dəyərli xanım və ana<br><br>- Həzrət Zeynəb (səlamullahi əleyha) Kərbəla qəhrəmanı | - Yeddinci, səkkizinci və doqquzuncu imam<br><br>- İmam Zamanın (əccələllahu fərəcəh) öz ardıcıllarına qarşı mehribanlığı | - Onuncu, on birinci və on ikinci imam<br><br>- İmam Zaman (əccələllahu fərəcəh) qeybdə olduğu dövrdə ardıcıllarının vəzifələri<br><br>- İmamətin mənası<br><br>- İmanlı və təqvalı din alimlərinin müasir dövrdə məsum imamların (ə) ardıcıllarından biri kimi | - Əhli-beyt (əleyhimussəlam) ən gözəl örnək<br><br>- İmamlara qarşı sevgi, zalımlara qarşı nifrət<br><br>- Həzrət Qasimi nəzərə alaraq imam Hüseyn (əleyhissəlam) və ardıcıllarının dinin müdafiəsindəki rolu |
| Axirət dünyası | | - Həyatda əməllə onun nəticəsinin uyğunluğu<br><br>- Axirət dünyası – mükafat və cəza yurdu<br><br>- Cənnət və Cəhənnəm –yaxşı və pis əməllərin axirət yurdundakı qarşılığı | - Allahın bizim bütün əməllərimizdən hətta başqalarının görmədiyi əməllərimizdən xəbərdar olması<br><br>- Dünyadakı bütün əməllərimizdəki niyyət | - Bu gün daha çox çalışmaq sabah daha artıq nəticə verəcək<br><br>- Məad – dinin əsas prinsiplərin-dən biri kimi | - Məada etiqadfın həyatdakı təsiri<br><br>- Məada etiqad nəticəsində əməllərin islah olması |
| Quran | Quran mesajları | Quran mesajları | Quran mesajları | Quran müsəlmanların dini kitabı | Quran mesajları |
| Ədəb və əxlaq (Etika və əstetika) | Salamlaşma-ğın ədəb qaydaları<br><br>- Təmizlik<br><br>- Yeyib-içmək | - Hicab və İslam geyimi<br><br>- Nizam-intizam<br><br>- Ata-anaya və müəllimə hörmət<br><br>- Təbiəti qoruyub qayğısına qalmaq | - Qohumlar, dostlar və qonşularla gözəl rəftar<br><br>- Yaxşı dost<br><br>- Başqalarına kömək etmək | Danışmağın ədəb qaydaları<br><br>- Proqram tərtib etmək<br><br>- Qənaət etmək | - Quran və qiblə əsasında müsəlmanların vəhdət amillərini tanımaq<br><br>- Uğur qazanmaq üçün çalışmağın rolu<br><br>- Ünsiyyət və qonaqlığın ədəb qaydaları<br><br>- Elm öyrənməyin ədəb qaydaları<br><br>- Bədən tərbiyəsi və yaxşı istirahətlər |

| | | | | | |
|---|---|---|---|---|---|
| Şəriət hökmləri | - Dəstəmaz<br>- İkirükətli namaz<br>- Azan vaxtları | - Həddi-büluğa çatmaq və onun müqəddimələri<br>- Üçrükətli və dördrükətli namazlar<br>- Oruc<br>- Təharət<br>- Hicab<br>- Təqlid | - Ayət namazı<br>- Təyəmmüm<br>- Camaat namazı<br>-İkinci və üçüncü şəriət məsələlərinin təkrarı | - Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pisişlərdən çəkindirmə)<br>- Cümə qüslü və cümə namazı<br>- Halal və haram mal | - Məhrəm və naməhrəm, İslam geyimi<br>- Səfərdə olan şəxsin namaz və orucunun hökmləri |
| İslami mərasimlər | - Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mövlud mərasimi<br>- İmam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimi<br>- Namaz bayramı | - Ramazan ayı və Fitr (Ramazan) bayramı<br>- Qızların həddi-büluq bayramı<br>- Həzrət Fatimənin (səlamullahi əleyha) mövludu – Analar günü<br>- Aşura | - Məbəs bayramı<br>- Ziyarət<br>- Camaat namazı<br>- Məscidə getmək | - Cümə namazı<br>Qədir-xum bayramı | - Həcc ziyarəti və Qurabn bayramı<br>- Şəhidin məqamı və müdafiənin dəyəri |
| Dini şəxsiyyətlər | | - Həzrət Zeynəbə (səlamullahi əleyha) daha çox sevgi hissi | - Həzrət Xədicəyə (səlamullahi əleyha) və onun əməllərinə rəğbət hissi<br>- Onun əməllərinə rəğbət və ehtiram hissi | - Həzrət Məryəmə (səlamullahi əleyha) və onun əməllərinə rəğbət hissi | Həzrət Məsumə (səlamullahi əleyha)<br>- Həzrət Əhməd ibn Musa (əleyhissəlam)<br>- Həzrət Əbdüləzim (əleyhissəlam) |
| Özünütanıma | - İnsanın Allahın məhbubu olaraq özünə diqqəti<br>- İnsanın öz təmizliyinə münasibəti | - İnsanın Allahın nemətlərinə olan ehtiyacına diqqəti<br>- İnsanın həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlığından ibrət götürməkdə ehtiyacını aradan qaldırmaq istəyi | - İnsanın öz əməllərinin həyatdakı təsir və nəticələrinə diqqəti<br>- İnsanın öz tayları ilə münasibətdə ehtiyaclarını aradan qaldırmaq istəyi | - İnsanın din rəhbərlərinin həyatından ibrət götürməkdə ehtiyacını aradan qaldırmaq istəyi | - Din rəhbərlərindən örnək götürmək |

İkinci hissə

2

# Mövzuların tədris bələdçisi

## Mövzuların tədris bələdçisi

### 1- Quran təlimi (İbtidai mərhələnin birinci hissəsi)

Quran səmavi kitab olub İslam aləminin ən mötəbər mənbəyi hesab edilir. Quran İlahi maarif mənbəyi olmaqla insanların dini baxımdan tərbiyə edilməsində müstəsna rola malikdir. İmam Əli (əleyhissəlam) oğlu imam Həsənə (əleyhissəlam) yazdığı məktubunda tərbiyənin nə qədər önəmli olduğuna toxunduqdan sonra təlim-tərbiyənin ilk olaraq Quran, onun maarifi, halal və haramının təlimi ilə başlamağın vacib olduğunu bildirmişdir:

**... وَ اَن ابتدئك بتعليم كتاب اللّه و تأويله وشرايع الاسلام و احكامه و حلاله و حرامه لا اجاوز ذالك بك الى غيره ...**

Əvvəlcə sənə Allahın kitabını və onun yozumunu öyrədim. İslam şəriətini, onun halal və haramını sənə izah edim. (Başlanğıcda) Qurandan başqa şeylə başlamayım.

Nəhcül-bəlağə, 31-ci məktub

O həzrət həmçinin oğlu Məhəmməd Hənəfiyyəyə xitabən belə buyurmuşdur: "... Quran oxuyub ona əməl et. Onun halal və haramını, əmr və qadağalarına tabe ol. Gecə-gündüz Quran oxumağı özünə vacib bil. Çünki Quran Allah-taala tərəfindən bəndələrinə bir əhddir. Buna görə də hər bir müsəlmanın hər gün öz əhdnaməsinə baxması, hətta əlli ayə olsa da oxuması lazımdır."

Raci Qummi Məhəmməd, Ataların övladlarına nəsihətləri, səh. 162-163

Yuxarıda deyilənləri, eləcə də digər tövsiyə və tələbləri nəzərə alaraq təlim-tərbiyənin Allahın kitabı ilə başlanılmasının zərurəti məlum olur. Buna görə də uşaqlar Quranın bir sıra kiçik surələrini əzbərləyərkən Quranın sadə oxunuş qaydalarını da öyrənmiş olurlar. Habelə müəllimin köməyi ilə Quran mesajlarında verilmiş bəzi ifadələrin də mənasını başa düşürlər.

Bu mərhələdəQuran təlimi ilə din təlimi bir kitabda verilmişdir. Təbii ki, burada Quran təlimində əsas məqsəd ilk növbədə növbəti illərdə və daha yuxarı mərhələlərdə uşaqları Quran öyrənməyə hazırlaşdırmaqdır.

Quran təlimində səy edilmişdir ki, uşaqlar Quranın söz və ifadələrini oxumaq bacarıqlarına yiyələnməklə yanaşı onların mənasını başa düşüb təfəkkür etmək, bəzi Quran mesajları barəsində ilkin təfəkkür qabiliyyəti ilə tanış olsunlar. Yeri gəlmişkən, bu əsnada uşaqlarda dörd bacarığı

formalaşdırmaq lazımdır. Bunlardan ilk üçün Quran savadına aiddirsə, dördüncüsü onun nəticəsidir.

### Quran savadının tərifi

"Quran savadı Quranı-Kərimə etiqad və onu öyrənməyə maraq, bu mərhələdəki bilgilərdən faydalanaraq Qurandan ömürlük isrifadə etmək, onunla ünsiyyətdə olmaq bacarığına yiyələnməkdir."

### Quran oxumağı öyrənməkdə göz və qulağın rolu

İnsanın ətraf mühitdən əldə etdiyi bilgilərin əksəriyyəti görmək vasitəsilə olur. (Psixoloqların dediyinə görə, bu, 73 faiz təşkil edir.) Bu amil Quran oxumaqda daha böyük rol oynayır. Bununla belə bədən üzvləri arasında ən tənbəli də məhz gözdür. Belə ki, göz gördüklərinin hamısını beyinə ötürmür. Bunu nəzərə alaraq bəzi hallarda müəllimlər öyrənmənin asanlaşdırılması məqsədilə görmə vasitəsindən istifadə əvəzinə eşitmə vasitəsinə üstünlük verirlər. Bu isə ən böyük səhvlərdən biridir. Ümumiyyətlə, bilmək lazımdır ki, göz və qulaq Quran öyrənməsində bir-birinə zidd olan iki fərqli üzvlərdir. Belə ki, biz şagirdlərin qulaqlarını Quran təliminə nə qədər cəlb etsək, onların gözləri hərəkə və nişanələrə bir o qədər diqqətsiz olacaq.

Görmə metodu ilə eşitmə metodunun Quran təlimi zamanı ikinci fərqi ondan ibarətdir ki, Quranı üzündən oxuyarkən şagirdlər yavaş-yavaş, həm də sözləri hecalara bölərək oxusunlar. Sözləri hecalara böldükdə biz bəzi qiraət qaydalarını ötəri də olsa, onlara öyrədirik. Bu və digər qiraət qaydasını qətiyyən şifahi şəkildə izah etmirik. Lakin Quranı eşitmə metodu əsasında oxuyarkən bizim əsas işimiz səs, avaz və təcvid qaydaları üzərində işləmək olur. Bunların heç biri ibtidai mərhələ müəlliminin işi və vəzifəsi deyil.

İbtidai mərhələnin birinci hissəsində şagirdlər yalnız hərflər, bir də sükun və təşdid işarələri, oxunmayan hərflərlə tanış olurlar. Digər işarələri isə sonrakı hissələrdə öyrənirlər. Ancaq bu proqramda şagirdlərə elə öyrədilir ki, dini kitablardakı Quran mesajlarını növbəti illərdə oxuya bilsinlər.

### Surələrin öyrədilməsi

Birinci kitabda surələrin öyrədilməsi ümumi şəkildə olur. Yəni, burada şagirdlərdən kitabda verilmiş yeddi surənin hər birini hecalara bölərək oxuması tələb edilmir. Sadəcə müəllim cümlə və ayələrə işarə etməklə, yaxud da disk vasitəsilə, ya da müəllim özü oxuyaraq surələri onlara öyrədir.

## Təlim lövhəsi

İbtidai mərhələnin birinci kitabını tədris edən müəllimin mütləq şəkildə istifadə etməli olduğu vasitələrdən biri təlim lövhəsidir. Bu lövhə ibtidai mərhələdə Quran təlim edən müəllimin zəruri vasitələrindən hesab olunur. Uşaqlara Quranı təlimi zamanı lövhədən istifadə etmək onların görmə metodunu həddən artıq gücləndirir. Lövhədə tapşırıqların yerinə yetirilməsi zamanı müəllim sözlərin hecalarını göstərməklə şagirdlər sözləri hecalara bölərək oxuyurlar.

## Quran sözlərini və sözlərin hərəkələrini düzgün göstərmək

Müəllim işarə növlərini, mütləq, bilməlidir. Lövhə vasitəsilə öyrədərkən iki növ işarədən istifadə edilir:

## Sabit işarə və tərpənən işarə

Sabit işarə dedikdə müəllimin işarəni göstərərkən əlinin sabit qaldığı, tərpənmədiyi işarə nəzərdə tutulur. Tərpənən işarə dedikdə isə müəllimin işarəni göstərərkən əlinin tərpəndiyi işarə nəzərdə tutulur. Hər iki halda müəllim (tədris metodunu göstərən videogörüntüyə uyğun olaraq) yalnız saitlərə işarə etməlidir.



**Qeyd:** Sabit və tərpənən işarə metodu ilə yaxşı tanış olmaq üçün, mütləq, tədris metodunu göstərən video görüntüyə baxmaq lazımdır.

**Quran oxuyarkən səhvi aradan qaldırmağın yolu**

Bu məsələdə riayət etməli olduğumuz ilk məqam odur ki, şagirdə oxumasını nəzərdə tutduğumuz hissəni sonadək oxumasına icazə verək. Əgər oxunuşda səhvə yol veribsə, bir daha diqqətlə oxumasını istəyək. Təkrar oxuduqda o, həm nisbətən yavaş oxuyacaq, həm də hərf və hərəkələrə daha çox diqqət yetirəcək. Adətən şagirdlərin yarısı ikinci oxunuşda öz səhvlərini düzəldirlər. Əgər ikinci dəfə də səhvə yol verilsə, onda səhvi aradan qaldırmaq üçün hecalayaraq oxumaq, yaxud müqayisəli şəkildə oxumaq kimi digər vasitələrdən istifadə etmək olar. Hecalayaraq oxumaq dedikdə şagirdin səhv oxuduğu sözü hecalayaraq oxuması nəzərdə tutulur. Yaxud da şagirdin səhv oxuduğu sözü lövhəyə yazıb yalnız onun, ya da bütün şairdlərin həmin sözü hecalayaraq oxumasını istəyək.

Səhvi aradan qaldırmaq üçün müqayisəli şəkildə oxumaq dedikdə isə səhv oxunulmuş sözü lövhədə həm doğru, həm də yanlış formada yazaraq şagirddən onları müqayisəli şəkildə oxuyub hansının düzgün olduğunu bildirməsini istəmək nəzərdə tutulur.

**Qeyd:** Səhvləri aradan qaldırarkən bütün səhvlərin düzəlişinə çox da fikir vermək lazım deyil. Əsasən o səhvləri tutmaq lazımdır ki, adətən, şagirdlərin əksəriyyəti onda səhvə yol verir. Həddən artıq xırdalıqlara fikir verməyə ehtiyac yoxdur.

**Quran qiraəti zamanı nə vaxt səsli fayllardan istifadə edək?**

Məlum olduğu kimi, buraya qədər bizim Quran təlimi ilə bağlı keçdiyimiz bütün mərhələlər görmə metoduna əsaslanır. Başlanğıcda nə səs fayllarından, nə də danışan kitabdan istifadə etmirik. Nə özümüz şagirdlər üçün oxumuruq, nə də fəal şagirdlərdən oxuyub başqalarının dinləməsini istəmirik. Sadəcə şagirdlərin hər birini fərdi şəkildə oxutdururuq. Yəni, əvvəlcə şagirdlərin hər biri ayrı-ayrılıqda oxuyur, ondan sonra müxtəlif dəstələrə bölünərək

oxuyur, yalnız bundan sonra bütün sinif kollektiv şəkildə oxuyur. Sonuncu mərhələdən sonra, yəni, üzdən oxumadakı səhvlər aradan qaldırıldıqdan və oxunmuş ayələrin mənası başa düşüldükdən sonra daha yaxşı öyrənmək və oxunuşun gözəllikləri ilə tanışlıq məqsədilə, həm də nisbətən daha sürətli oxunuş üçün səsli fayllardan istifadə edilir.

## Ayələrdəki sözlərin mənasını anlamaq

Quran təlimi zamanı şagirdlərə öyrədilməli olan ikinci bacarıq Quran ayələrindəki söz və ifadələrin mənasını başa düşmək bacarığıdır. Bunu şagirdlərə Quranın üzdən oxunuşunu təlim edərkən öyrətmək olar. Əvvəlcə nisbətən tanış olan və ərəb dilindən öz dilimizə keçərək işlənən müştərək sözlərin mənasına diqqət yetirmək lazımdır ki, şagirdlərin ayələri oxuduqca sözlərin mənası ilə ilkin tanışlığı olsun və oxuduqlarının qismən də olsa mənasını başa düşsünlər. Bunu ibtidai mərhələdən, hətta şagirdlərin Quran oxumasına başlamazdan qabaq da həyata keçirmək mümkündür. Məsələn, dərslərin başladığı ilk günlərdə müəllimin hələ eşitmə metodundan istifadə etdiyi vaxtlardan şagirdlər Quranın qısa surələrini dinləyib təkrar etdikdə onlara tanış olan sözlərin mənasını deməyi istəmək olar.

## Fikirləşmə və düşünmə

Quran təlimi zamanı şagirdlərə öyrədiləcək üçüncü bacarıq oxuduqları Quran ayələri barədə fikirləşib düşünməkdir. Bununla əlaqədar olaraq imam Əli (əleyhissəlam) buyurmuşdur:

لا خَيرَ فى قِرائهٍ لَيسَ فيها تَدَبُّرٌ

Düşünülmədən oxunulan Quran qiraətində heç bir fayda olmaz.

Quran təlimində əsas məqsəd şagirdlərin dini baxımdan yetişdirilməsi olmalıdır. Quran ayələri barədə düşünmək hidayətlə nəticələnməlidir. Başqa sözlə desək, ayələr barədə düşünməyin mehvəri hidayət olmalıdır. Hətta deyə bilərik ki, bütün təlim proseslərinin mehvəri hidayə tolmalıdır. Çünki insanda yaxşı mənada dəyişiklik yaradan məhz düşünməkdir. Ondan əvvəl isə Quran oxuyub onun mənasını dərk etmək lazımdır.

Quran ayələri barədə düşünməyin ən uyğun və əlverişli yeri Quran mesajlarıdır. Quran mesajlarında verilmiş ayələrdə ayənin mənasını bilmək və onu əzbərləmək tələb olunmur. Burada əsas məqsəd ayələrlə qarşılaşdıqda necə düşünmək lazım olduğunu bilməkdir. Bu, əslində şagirdlərin müxtəlif qruplar formasında verilmiş Quran mesajı barəsində bir-biri ilə necə fikir mübadiləsi aparmağı öyrətmək üçün bir vasitədir. Bu yolla onlarda bir-biri ilə fikir mübadiləsi aparmaq, öz fikrini çatdırmaq qabiliyyəti formalaşmağa başlayır. Habelə şagirdlər vasitəli yolla da olsa Quran ayələri barədə düşünməyi təcrübədən keçirir, ömür boyu Quran təlimlərindən istifadə etmək bacarığına yiyələnirlər. Bir sözlə, bunun nəticəsində şagirdlər Quranla ünsiyyətdə olurlar.

## Quranla ünsiyyət

Quran təlimi zamanı nəzərə almalı olduğumuz dördüncü məqam Quranla mütəmadi olaraq ünsiyyətdə olmaqdır. Bir məsələni, mütləq, yadda saxlamalıyıq ki, biz şagirdlərə Quranı sevdirməyi bacarsaq da, lakin onlara Quran oxumağı öyrətməsək, deməli, işimizdə uğur qazana bilməmişik. Eləcə də əgər şagirdlər Quran qiraətində nə qədər irəli getsələr də, ancaq Quranla ünsiyyətdə olmasalar, deməli, yenə də işimizdə uğur qazana bilməmişik. Bizim əsas məqsədimiz o olmalıdır ki, uşaqlara Quran öyrətməklə gün ərzində heç olmasa bircə səhifə də olsa, onlar öz istəkləri ilə, daxildən gələn bir istəklə oxusunlar. Yəni, biz necə edə bilərik ki, onlarda Quran oxumaq istəyi, Quran oxumaq mədəniyyəti yaradaq?

Biz şagirdlərdə belə bir daxili dəyişikliyi o vaxt yarada bilərik ki, ilk növbədə özümüz daxilən dəyişək. Quranda bu məsələyə dəfələrlə işarə edilib ki, öz dediyinə əməl etməyən şəxsin davranışı ağılsızlıqdan irəli gəlir. (Bəqərə surəsi, 44-cü ayənin məzmunu) “Səff” surəsinin 3 və 4-cü ayələrində bu cür davranış tənqid edilmişdir. İmam Əli (əleyhissəlam) sözlə əməlin uyğun gəlməsinə, əməlin sözü üstələməsinə təkid edərək buyurmuşdur: “(Dediyimizə özümüz) əməl etməyincə şimşək olub çaxa bilmərik. Yağış olub yağmadıqca sel ola bilmərik.”

Əgər özümüz gündə Qurandan bir neçə ayə oxusaq, onda şagirdlərimizdən də belə bir gözləntimiz ola bilər. Çünki qəlbdən çıxan söz qəlbə yatar.

### Müəllimdən örnək alaraq Quranla ünsiyyətdə olmaq

Bu mövzu ilə bağlı biz belə hərəkət edə bilərik ki, hər dəfə Quran dərsi başlayarkən sinifə daxil olduqda uşaqlara Quran oxumağı, ayələrin mənasını başa düşməyi, ayələr barədə düşnməyi öyrətməzdən qabaq onlara belə deyək: “Uşaqlar, mən bu gün filan surədən filan qədər ayə oxumuşam. Sizdən kimlər bu gün və ya dünən Quran oxuya bilib?” Ola bilər ki, ilk dərslərdə çox az şagird Quran oxuduğunu bildirsin. Lakin bir neçə dərsdən sonra inanın ki, şagirdlərin əksəriyyəti Quran oxumağı özü üçün bir şərt olaraq qoyacaq. Hətta növbəti dərslərə başlamazdan qabaq eyni sualı soruşmaq yadımızdan çıxsa belə, şagirdlər özləri deyəcəklər ki, müəllim, bu gün nə qədər Quran oxuduğumuzu soruşmaq istəmirsiniz?

## 2- Allahı tanıma

Uşaq evdə gördüyü tərbiyənin nəticəsi olaraq Allahın hər şeydən və hamıdan böyük olduğunu bilir. O, Allahı hansısa bir yerdə yaşayan insan kimi təsəvvür edir.

Yaxud ən azından belə düşünür ki, Allahı heç vaxt əldən buraxmaz. O, Allahın barəsində məhz bu cür təsəvvür edir. Ola bilər ki, Allahı böyük bir sarayda, buludlardan da hündürdə təsəvvür etsin. Elə düşünür ki, böyüklər dua edərkən başlarını və əllərini yuxarı qaldırırlarsa, deməli, O, göydədir. Əgər uşağın ata-anası Allahın mehriban, səmimi və hər şeyi bilməsi barədə danışıblarsa, onda uşağın Allah barəsindəki təsəvvürü müsbət olub Ona arxalanacaq. Yox əgər valideynlər Allahı uşağın bütün hərəkətlərinə nəzarət edən bir varlıq olaraq təqdim ediblərsə, onda uşaq Allahı övladının bütün hərəkətlərinə ciddi şəkildə nəzarət edən bir ata kimi təsəvvür edib Ondan çəkinəcək.

Uşağın Allah-taalanı həmişə cisim olaraq, həm də öz təxəyyülündəki kimi təsəvvür edir. Onunla da məhz öz məhdud təsəvvür və təxəyyülü əsasında ünsiyyət qurur. Lakin sonradan öyrəndikləri, müəllim və valideynlərinin verdiyi məlumatlar əsasında uşaq öz ilkin məlumatlarına yenidən baxmaq qərarına gəlir. Uşağın Allah barəsindəki təsəvvürü maddi olduğu üçün ona Allahın qeyri-maddi, mücərrəd və s. olması onu çaş-baş salır. Digər tərəfdən uşağın Allah barəsindəki yanlış təsəvvürlərini dəstəkləmək də olmaz. Buna görə də yaxşı olar ki, ona Allahın məxluqatı

yaratması, mehriban olması kimi mövzulardan danışılsın. Allahın varlığı, mahiyyəti kimi mövzulara isə qətiyyən toxunulmasın.Əgər hansısa uşaq: “Allah nədir?” – deyə soruşarsa, əvvəlcə onun özünün Allah barəsində təsəvvürünün nədən ibarət olduğunu deməsini istəyək. Sonra isə onun təsəvvürünə düzəlişlər etməklə düzgün cavab demək lazımdır ki, Allahın tam olaraq nə olduğunu deyə bilmərik.

Bu cavabı uşağa vermək üçün əvvəlcə onu hazırlamalı, münasib zəmin yaratmalıyıq. Yalnız bundan sonra deməliyik: “Allah o qədər əzəmətlidir ki, biz Onu tam olaraq dərk edib anlamaq iqtidarında deyilik.” Məsələn, əgər uşaq böyüklüyü barədə sual verərcə, onun cavabında belə demək lazımdır: “Mən tam olaraq bilmirəm ki, Allah nə qədər böyükdür. Ancaq onu dəqiq bilirəm ki, O, dünyada olan hər şeydən böyükdür. Günəşdən, dağlardan, ulduzlardan, səmadan da böyükdür. O, bütün yaratdıqlarını və bəndələrini sevir.” Sonuncu cümlə səbəb olacaq ki, uşaq Allahın böyüklüyü barədə eşitdiklərindən sonra Onun əzəmətini dərk edib özünü Ona daha yaxın bilməkdən ötrü Ona qarşı səmimi bir hiss keçirsin.

Bəziləri elə bilirlər ki, uşaqda Allah və Onun əzəməti barədə maddi təsəvvür yarana bilsin deyə, onun suallarına dəqiq və abstrakt olmayan misallarla cavab vermək lazımdır. Bu, tamamilə yanlış fikir olub əksər hallarda uşağı çaşbaş salır. Çünki dəqiq və abstrakt olmayan misallarla onda başqa suallar yaranacaq və ilkin cavablarla qane olmayacaq.Buna görə də ona elə cavab vermək lazımdır ki, növbəti sualları ilə çıxılmaz vəziyyətə düşməyək. Uşaq başa düşməlidir ki, bəzi sualların cavabını heç kim bilmir. Buna görə də bəzi sualların cavabsız qalması qətiyyən problem yaratmır.

Yuxarıda deyilənləri nəzərə alaraq uşağın verdiyi bütün sualların cavabını bilməsinə çalışmamalıyıq. O, özünün, ata-anasının və bütün insanların Allah qarşısında çox kiçik olduğunu başa düşdükdə bütün işlərdə özünün Allaha ehtiyaclı olduğunu daha yaxşı anlayıb özünü Ona daha da yaxınlaşdırmağa çalışacaq.

Uşaqda Allah barədə təsəvvür yaratmaq üçün yaxşı olar ki, Allahın uşağın başa düşə biləcəyi sifətlər barəsində məlumat verilsin. Allahın mehriban, bağışlayan, qüdrətli, bilikli olması, bütün məxluqatı görməsi, bütün səsləri eşitməsi, bəndələri mehriban bir ana kimi nəzarət edib qoruması, unutqan olmamasıbütün məxluqatı yaratması və onların ehtiyaclarını

təmin etməsi, bütün məxluqatı sevib onların qayğısına qalması kimi xüsusiyyətlər uşaqda Allahı tanıma ruhiyyəsini möhkəmləndirəcək sifətlərdir. Uşağa başa salmaq lazımdır ki, rəngbərəng gülləri, cürbəcür gözəl və dadlı meyvələri, müxtəlif ağacları Allah biz insanlar üçün yaratmışdır. O, həmişə bəndələrini düşünüb onların qayğısına qalır.

Yaxşı olar ki, uşaqlara deyəcəyimiz mövzular gözəl hekayə, şeir, gözəl təbiət mənzərələri şəklində olsun. Allahı onlar üçün elə vəsf edək, ki, Onun gözəlliklərini başa düşə bilsinlər. Allah hər şeyin ən gözəli olduğu və insanın  da fitri olaraq gözəlliyi sevdiyi üçün biz də uşaqlara Allahın gözlliyini yaxşı formada çatdırıb izah etməliyik. Bu yolla uşaqlarda həm gözəlliyə meyl hissini gücləndirmiş, həm də onda Allaha qarşı sevgi yaratmış olarıq. Gözəl mövzular uşaqların Allahı dərk etməsi üçün kifayət qədər təsirli ola bilər.

İnsanın hər bir şeyin həqiqətini axtarıb tapmaq istəyini nəzərə alaraq uşaqlar üçün Allah barəsində danışacağımız mövzular onların təfəkkür, düşünmə qabiliyyətini artırmalı, əsaslandırma, məntiq bacarığını gücləndirməlidir. Bu xüsusda uşaqları Allahın sifətləri və əzəməti barədə öz fikirlərini ifadə etməyə təşviq etmək lazımdır.

Allahın sifətləri barədə uşaqların başa düşə biləcəyi səviyyədə gözəl məlumatlar vermək onlarda ehtiram və qədirdanlıq hissini də möhkəmləndirə bilər. Bu yolla həm də onlarda ibadət etməyə həvəs yaratmaq mümkündür. Böyüklər Allahın nemətlərinə görə şükr edib ibadət vasitəsilə Ona təşəkkür bildirdiyi kimi, uşaqları da təşviq etmək olar ki, namaz qılmaq, dua etmək, Allahın göstərişlərinə tabe olub ibadət etməklə Onun verdiyi nemətlərə görə Ona təşəkkür edib öz sevgilərini bildirsinlər.

Biz şagirdlərin müəllim və tərbiyəçiləri olaraq Allahı tanıma mövzusu ilə bağlı Allahı onlara elə formada tanıtdırmalıyıq ki, Onun barəsində yalnız xoş fikirdə olsunlar. Əgər uşağın dünyanı yaradanla ünsiyyəti Ona sevgi ilə müşayiət olunarsa, onda onun həm özünə, həm bəndələrə, həm də ümumiyyətlə məxluqata qarşı ünsiyyəti sevgi əsasında formalaşar. Məhz belə olduqda özünü tanıyıb özünə dəyər verər, öz qədrini bilər. Bəndələrə Allahın yaratdıqları olduğu üçün ehtiram edər. Allahın yaratdıqlarına, təbiətə sevgi gözü ilə baxar.

İnsanın Allah axtarışında olan fitrətinin bizə verilmiş bu əmanətləri öz

doğru istiqamətinə yönəltməyimiz üçün nə etməliyik? Necə edə bilərik ki, uşaqlar öz fitrətlərinə uyğun olaraq Allahı tanıyıb Ona yaxın olmaq istəsinlər və bunun da nəticəsi olaraq Allahın göstərişlərinə tabe olub buyurduqlarına əməl etsinlər?

2010-cu ildə Devid Sinius uşaqların mənəvi cəhətdən yetişdirilməsi metodları və onların Allahı tanıması ilə bağlı apardığı araşdırmalardan sonra "Allahı tanımağın dörd yolu və uşaqların mənəvi cəhətdən yetişdirilməsi metodları" adlı bir kitabça tərtib etmişdi. Onun apardığı araşdırmalar 7 yaşdan 11 yaşa qədər olan uşaqları əhatə etmişdi. Eynilə bizim təmasda olduğumuz ibtidai sinif uşaqları yaşında olan uşaqlar. Araşdırmalar nəticəsində uşaqların Allahı tanıya bilməsinin dörd yolu göstərilmişdir. Məhz bu yollarla uşaqlar özlərini Allaha daha yaxın hesab edirdilər. Bunlar aşağıdakılardır:

**1.** Təqdim edilən birinci metodda söz mənəviyyatı əsas meyar kimi götürülmüşdür. Araşdırmaçı Allahı tanımanın iman əsasında gerçəkləşdiyini, ağıl və məntiqin isə Allahı tanıma üçün önəmli bir vasitə olduğunu qeyd edir. Onu da bildirir ki, bəzi uşaqlar Allahı tanıma yolu ilə təcrübədən keçirir və Onun barəsində bir-biri ilə danışmaqla özlərini Ona yaxın hesab edirlər. Araşdırmaçı həm də qeyd edir ki, belə uşaqların əksəriyyəti bir çox şeyləri ağıl vasitəsilə qəbul edirlər. Allah və digər dini inanclar barədə də məhz bu yolla düzgün təsəvvür formalaşdırırlar.

**2.** Siniusun təqdim etdiyi ikinci metodda hisslər mənəviyyatda əsas meyar kimi götürülmüşdür. Onun fikrincə bəzi uşaqlar özlərini o vaxt Allaha yaxın hesab edirlər ki, hissləri təhrik olub yaradıcılıq bacarıqlarının, hisslərini ifadə etməyin və Allaha meylin bir həqiqət olduğunu bəyan edir. Əslində musiqi təbii bir insanın hisslərini ifadə etməsidir. Deməli, uşaqların həyati hisslərini bir-birinə vurmaq da öz növbəsində Allaha yaxınlıq hissini anlamağa kömək edir. Siniusun fikrincə incəsənət bu qəbildən olan uşaqlar üçün əsas açar rolunu oynayır.

**3.** Siniusun təqdim etdiyi üçüncü metodda zahiri görünüş mənəviyyatda əsas meyar kimi götürülmüşdür. Onun fikrincə mənəviyyatın zahiri görünüşdə əsas meyar kimi götürülməsində sözlər Allahı vəsf etməkdə acizdir. Buna görə də Allahı bəzi nişanələrlə tanımaq olar. Təxəyyül və sükut insanı ətraf mühitdən, bu dünyadan kənarlaşdıra bilər. Təbiət aləmi bu metodun əsas özəlliklərindən biri hesab edilir. Bu metod həmçinin sirr

və nişanələrlə bol olması ilə də səciyyələnir. Siniusun fikrincə uşaqların təbiətin qoynunda səs-küysüz bir yerdə olması onlarda Allaha yaxınlıq hissini oyadır.

4- Siniusun təqdim etdiyi dördüncü metodda əməl mənəviyyatda əsas meyar kimi götürülmüşdür. O, bu metodu mənəviyyatın ən kamil metodu hesab edir. Bu metoda aid olan uşaqlar ictimai ədalətin təzahür formalarından hesab edilən başqalarına bir xidmət etdikdə, başqa sözlə desək, başqalarının ədalətli davranışının təsiri altına düşdükdə özlərində Allaha yaxınlıq hiss edirlər.

**Bu araşdırmadan belə nəticə əldə edirik:**

Bir dəfə Karl Canq belə yazmışdı: “Bir nəfərin ayağının ölçüsünə uyğun gələn ayaqqabı başqa birisinin ayağını vurur. İnsanların yaşaması üçün konkret bir göstəriş yoxdur.” Bu məsələ Siniusun apardığı araşdırmada iştirak etmiş uşaqların da barəsində keçərlidir. Onların hər biri Allahı tanıdığı öz yolunu metod olaraq qeyd etmişdir. Bunu nəzərə alaraq ortaya dörd mənəvi metod ortaya çıxmışdır. Birincisi əqli yol, ikincisi hissi yol, üçüncüsü nişanə yolu və nəhayət, dördüncüsü ədalət yolu. Buna görə də uşaqların mənəvi cəhətdən yetişdirilməsi ilə özlərinə xas olan metodlarla məşğul olan metodlarla  məşğul olmaq istəyən beynəlxalq təşkilatlar müxtəlif mənəvi metodları nəzərdən keçirməlidir ki, nəticədə uşaqların real həyatında Allahın barəsində tanışlıq yaransın. Təbii ki, buna ciddi şəkildə fəal olmaq nəticəsində çatmaq mümkündür.

Qeyd etmək yerinə düşər ki, əslində uaşaqların dini, mənəvi baxımdan təlim-tərbiyəsi ilə məşğul olan müəllim və tərbiyəçilər çalışmalıdırlar mənəvi metodların hamısını nəzərdən keçirə bilmək üçün sinifdə sağlam mühit yaratsınlar. Məhz bu yolla uşaqların hamısında mənəviyyatı hiss etmək mümkün olar. Belə etməyən müəllimlər istənilən nəticəni əldə edə bilməyəcəklər. Çünki sinifdə arzu olunan atmosfer yaradılmadıqca uşaqlar mənəviyyatdan uzaqlaşacaqlar. Deməli, mənəviyyatın müxtəlifliyi başqalarına da təsir etmiş olur.

## Uşaqların Allah barəsində verdiyi sualları cavablandırma metodları

Uşağın Allaha ibadət etməsində əsas məqsədi adətən böyüklərlə ünsiyyətdə ola bilib istədiyi sualı verə bilməkdən ötrü özünün də varlığını sübut etməkdir. Bunu nəzərə alaraq onların suallarına aşağıdakı formalarda cavab vermək olar:

**1.** Uşağın fikrini dəyişmək: Uşağın Allah, Onun yeri, məkanı, nə üçün gözə görünməməsi və bu kimi şeylər barəsində verdiyi suala cavab vermək əvəzinə əvvəlcə ondan soruşmaq lazımdır ki, o, bu sualı ilk dəfədir verir, yoxsa belə suallar artıq onun beynində çoxdan formalaşıb? Əgər ilk dəfədirsə və ya nadir halda fikrində belə suallar yaranırsa, onda yaxşı olar ki, onun fikrini başqa suallara yönəldək. Əgər uşağın fikri həmin sualdan başqa mövzuya yönələrsə, belə nəticəyə gələcəyik ki, uşağın verdiyi sual onun əsas məqsədi deyilmiş. Onun fikrini başqa mövzuya yönəltməklə verdiyi sualı unudur. Belə olan halda hələ ki, onun Allahın barəsində verdiyi sualı cavablandırmağa ehtiyac yoxdur.

**2.** Konkret və gözlə görülə biləcək şeylər vasitəsilə cavab vermək:Əgər uşağın fikri dəyişdikdən sonra o, yenə də öz sualında israrlı olarsa, uşağın başa düşə biləcəyi misallarla, məsələn, üzünə hava üfürməklə, yaxud əlinin arxasına azacıq ağrını hiss edəcək səviyyədə yavaşca vurub onadan: "Əlin ağrıdımı?" – deyə soruşmaq kimi suallarla başa salmaq lazımdır ki, ətrafımızda olan və baş verən hər şeyi heç də gözlə görmək mümkün deyil. Allahı da gözlə görə bilmərik.

**3.** Uşağın Allah barəsində olan anlayışının səviyyəsini bilmək məqsədilə ona bəzi suallar vermək: Uşağın verdiyi sualı özünə qaytarmaqla onun Allah barəsində hansı təsəvvürü olduğunu öyrənək və onun verdiyi cavaba uyğun cavablarla ona cavab verək. Məsələn, əgər uşaq desə ki, Allah göydədir, ancaq biz Onu görə bilmirik, deməli, uşağın Allah barəsində təsəvvürü Onun məkana sahib olması, Onu əzəmətli təsəvvür etməsidir. Ola bilər ətrafındakı insanların dua edərkən əllərini göyə qaldırmasını gördüyü üçün Allahın göydə olduğunu düşünmüşdür. (Münasib imkanlar düşdükcə onun bu cür yanlış təsəvvürlərini islah etmək lazımdır.) Uşağa: "Allah nə iş görür?" – sualını versə, ola bilər o belə cavab versin ki, Allah bizi qoruyur, gül yaradır və s. Müəllim onun münasib cavablarına bir qədər də düzəlişlər verməklə deməlidir ki, o, eyni zamanda böyüklərə də kömək edir. Belə olduqda uşaq öz ətrafı barədə daha çox və düzgün məlumat

əldə edir, böyüdükcə Allahın da barəsində məlumatı artır. Beləliklə, müəllim ona başa salır ki, böyüdükcə Allahın barəsində müəllim və ya valideynlərinə suallar verməklə məlumatı daha da artar.

## 3- Peyğəmbərlik və imamət

Uşaq öz olduğu mühitdə artıq həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və bəzi imamların adını eşitmişdir. O, artıq başa düşür ki, bu insanlar olduqca hörmətli, böyük şəxsiyyətlərdir. İnsanlar onları hətta valideynlərindən də çox sevirlər. Onların sevincinə sevinib kədərinə üzülürlər. O, başa düşüb ki, həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və məsum imamlar (əleyhimussəlam) Allahın sevimli bəndələridirlər. Uşaqda onların barəsində artıq müsbət fikir formalaşmışdır. Təbii ki, uşağın yaşadığı mühitdən və mənsub olduğu ailədəki atmosferdən asılı olaraq bu barədə uşaqların təsəvvürü fərqli ola bilər. Bu fərqlilikdən istifadə edərək məlumatı daha çox olan uşaqları dilə tutub bu barədə danışmağa təşviq edə bilərik.

Allahı tanıma mövzusunda söhbətin əsas mövzusu gözəlliyə meyl, həqiqət axtarışı, xeyir və gözəl işlərə meyl, ibadət istəyi olduğu kimi, peyğəmbərlik və imamət mövzusunun da əsas müzakirə obyekti peyğəmbərlər və məsum imamların əxlaqının gözəlliyi olmalıdır. Uşaqlarda peyğəmbərlər və məsum imamların gözəl əxlaqı barədə təsəvvür yaradaraq onları bu barədə düşünməyə sövq etməliyik. Bu məqsədlə aşağıdakı metodlardan istifadə etmək olar:

1- Müxtəlif şeir, qrup işləri və səhnəciklər vasitəsilə şagirdlərə tədricən həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və məsum imamların (əleyhimussəlam) adlarını, eləcə də ata və babalarının adlarını öyrədə bilərik. Bu işdə uşaqların öz ata-babalarının adları kimi ailə məlumatlarından istifadə etmək olar.

2- Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mövlud gününü qeyd etməklə şagirdlərə Peyğəmbər və imamlar haqqında ilkin məlumatlar vermək mümkündür.

3- Şagirdlərə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) məsum imamların babası olduğunu başa salmaqla onlara tədricən Peyğəmbərin məsum imamların müəllimi olduğunu izah etmək lazımdır ki, o həzrətin necə böyük bir məqam sahibi olduğunu anlasınlar.

4- Şagirdlərə Allahın və mələklərin Allaha salavat göndərdiyini və möminlərdən də ona salavat göndərməsini istədiyini başa salaraq onlara: “Allahumməsəlli əla Muhəmməd və ali-Muhəmməd” cümləsini düzgün şəkildə başa salıb həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) və məsum imamlara salavat göndərməyi öyrətmək lazımdır.

5- Şagirdlərə yavaş-yavaş başa salmaq lazımdır ki, məsumlar bizi valideynlərimizdən də artıq istəyirlər. Bizim narahatlığımıza görə narahat olub çətinliklərimizin aradan qalxması üçün dua edirlər. Çətin anlarda bizi nəzarətdə saxlayırlar. Şagirdlərdə bu cür təsəvvür yaratmaq lazımdır ki, onlarda kiçik yaşlarından başlayaraq məsumlara qarşı güclü sevgi hissi yaransın.

6- Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və məsum imamların həyatından uşaqlar və böyüklərlə mehriban davranışına dair əhvalatlar qeyd etmək lazımdır ki, şagirdlər onları özləri üçün örnək qərar versinlər.

7- Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və məsum imamların (əleyhimussəlam) davranışı, elmi, fəziləti haqqında şagirdlərə elə maraqlı məlumatlar vermək lazımdır ki, o dahi insanları kamil insanlar olaraq qəbul edib istər fərdi, istərsə də ictimai həyatın bütün sahələrində onları özlərinə örnək etsinlər.

Peyğəmbərlik və imamət mövzusunda əsas məqsəd şagirdləri həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və məsum imamların (əleyhissəlam) həyatı ilə tanış etmək, onları özləri üçün örnək götürməkdir. Yəni, məqsəd odur ki, şagirdlərə Peyğəmbər və imamların həyatından örnək götürə biləcək məqamlara çatdırılsın. Lakin bu böyük şəxsiyyətləri tanıtdırarkən bəzi vaxtlar bəzi nöqsanlara yol vermiş oluruq. Bu nöqsanların ardınca bir sıra mənfi hallar özünü göstərir.

### Örnəkləri təqdim edərkən qarşıya çıxan mənfi hallar

1. Örnəklərin səviyyəsini normadan artıq qaldırmaqla həddi aşmaq: Örnəklərin barəsində həddi aşmaq şagirdlərin onları əlçatmaz kimi qəbul etməsinə gətirib çıxarır. Bu isə onlardan örnək götürməməsi ilə nəticələnir. Əslində isə şagirdlərin bu yaş dövrünə uyğun olaraq onlara Peyğəmbərin (səlləllahu əleyhi və alih) və məsum imamların (əleyhimussəlam) barəsində həddi aşmaq əvəzinə onların gözəl rəftarı barədə məlumat verməklə onları gözəl əxlaq, böyük kəramət və fəzilət sahibi olmuş

insanlar kimi təqdim etmək lazımdır ki, şagirdlər onları özlərinə örnək qərar versinlər. Eləcə də əgər şagirdlərə məsumların möcüzə və kəraməti barədə həddən artıq çox danışılarsa, şagirdlərdə məsumların bəşər övladı olmadığı təsəvvürü yarana bilər. Belə olan halda isə şagirdlər yenə də onları özlərinə örnək qərar verməzlər. Halbuki Allah-taala Quranda: "Allahın Rəsulunda sizin üçün gözəl örnək vardır" – deyə buyurmaqla bizim o həzrətdən örnək götürməyimizi çatdırmaq istəmişdir. Habelə Quranda dəfələrlə müxtəlif peyğəmbərlərin dilindən: "Mən də sizin kimi bəşərəm" – deyə bildirilmişdir. Biz şagirdlərə əslində onu başa salmalıyıq ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) insanalrın fövqündə olan bir varlıq deyil, o, sadəcə üstün bir insandır.

2. Örnəkləri bir cəhətli təqdim etmək: Həzrət Peyğəmbəri (səlləllahu əleyhi və laih) və məsum imamları (əleyhimussəlam) yalnız təqva cəhətdən təqdim etdikdə şagirdlərdə belə təsəvvür yarana bilər ki, onlar yalnız təqva və ibadət sahəsində örnək sayıla bilərlər. Biz əslində dini rəhbərlərimizi layiq olduqları kimi düzgün şəkildə təqdim edə bilməmişik. Biz onları bir tərəfli təqdim etməklə digər cəhətləri nəzərə almırıq. Bu dərslərdə səy göstərmişik ki, bu məqama diqqət yetirilsin.

## 4- İslam əxlaqı və ədəb qaydaları (İslam etikası və estetikası)

Uşaq təlim-tərbiyənin ikinci mərhələsində ətrafında olan insanların əxlaqını təqlid edib onlar kimi rəftar etməyə başlayır. Bunu nəzərə alaraq ibtidai mərhələdə təlim-tərbiyənin əsas hissəsini İslam əxlaqı və ədəb qaydalarına həsr etmək lazımdır. Əgər hər hansı bir rəftar kimdəsə adət halına çevrilsə, onu yerinə yetirmədikdə narahat olacaq. Buna görə də çalışmaq lazımdır ki, uşağın fitrətindən faydalanaraq İslam əxlaqını və ədəb qaydalarını onda adət halına çevirək. Uşaq vasitəli metoddan istifadə etməklə, həm də ətrafında olanlarda müşahidə etdiyi düzgün davranış tərzini görməklə onlardan təqlid etməyə başlayacaq. Düzdür, ola bilər bəzi çatışmazlıqları da olsun. İslam əxlaqı və ədəb qaydalarını özündə adət halına çevirə bilməsi üçün uşağa kömək etmək lazımdır ki, gələcəkdə tənbeh qorxusuna və ya təşviqə görə deyil, İslam əxlaqının öz gözəlliyinə görə onlara riayət etsin.

Əxlaqi meyarların təlimi zamanı tanıma cəhəti, hisslər və davranış olduqca böyük önəm kəsb edir. Tanıma cəhətləri uşağı yaxşı və pis işlərlə tanış etmə, eləcə də yaxşı işlərlə pis işlər barəsində fikir bildirməkdən

ibarətdir. Yaxşı işləri həyata keçirdikdə razı qalmaq, həyata keçirmədikdə isə narazı qalmaq hisslər cəhətinə aiddir. Habelə real mövqelərdən istifadə etmək, təkrarlamaq, məşq etmək və müxtəlif vəziyyətlərdə mütəmadi şəkildə xatırlamaq bu hissənin vacib işlərindən sayılır. Burada bilavasitə izahdan, öyüd-nəsihətdən, müqayisədən və s. ciddi şəkildə uzaq olmaq lazımdır. Çünki bu yaş dövründə uşaqlar artıq özlərində bu və digər əmələ görə günah hissi keçirirlər. Əxlaqi meyarların təlimi zamanı şiddətə yol vermək uşaqlarda belə bir hissin formalaşmasına səbəb olur.

Əxlaq təlimində nəzəri təlimdən daha çox praktiki təlimin üzərinə ağırlıq düşür. Nəzərə almalıyıq ki, bizim müəllim olaraq doğru bir hərəkətimiz saatlarla danışıb məlumat verməyimizdən daha təsirli olur. Şagirdlərin bizim rəftarımızdan təsirlənməsi sözlərimizdən təsirlənməsindən qat-qat artıq olur. Şagirdlər bizim istənilən hərəkət və rəftarımızı öz beyinlərində, öz aralarında müzakirə edərək fikir bildirirlər. Bu, o demək deyil ki, əxlaqi məsələlərin nəzəri cəhətinə qətiyyən əhəmiyyət verməyək. İstənilən halda əxlaq sahəsində də nəzəri bilgilərə ehtiyac vardır. Lakin uşaqlıq dövründə nəzəri bilgilərdən daha çox praktiki təlimə üstünlük vermək lazımdır.

Uşaq bizim sadəcə dediklərimizin deyil, eyni zamanda hərəkət və davranışlarımızın da təsiri altına düşür. Əgər bunu nəzərə almasaq, onda uşağa imam Əlinin (əleyhissəlam): “Deyilənə bax, deyənə baxma” kəlamını dəfələrlə də desək, uşaq yenə deyilənə deyil, deyənə baxacaq. Bəli, bizim ən kiçik bir səhv hərəkətimiz saatlarla dərsin müsbət nəticəsini bir andaca puç edə bilər. Buna görədə mümkün qədər çalışmaq lazımdır ki, əxlaqi məsələlərin təlimində nəzəri cəhətdənsə praktiki cəhətə üstünlük verilsin.

Yuxarıda deyilənləri nəzərə alaraq əxlaq təlimində məqbul sayılacaq metodlardan biri də müşahidə metodu ola bilər. Belə ki, müəllim öz gözəl rəftar və davranışı ilə şagirdlər üçün gözəl örnək ola bilər. Dindar bir cəmiyyətin qələbə və ya məğlubiyyəti dindarların dini məlumatlarından daha çox onların əməlinə bağlıdır. Şagirdlər də müəllimin dediklərindən daha çox onun hərəkət və davranışına fikir verirlər.

Öyrənmə və öyrətmə prosesində hər hansı bir davranışın səhnələşdirilməsi üçün şagirdlərin özlərinin də iştirak edəcəyi rol oynama metodu da əxlaq təlimi zamanı müsbət təsir göstərə bilər. Habelə dastan söyləmə, sual-cavab, yaxud uşağın düşünüb nəticə çıxara bilməsinə imkan verən istənilən metod əxlaq təlimi prosesində faydalı ola bilər. Eləcə də

şagirdlərlə vaxtında ünsiyyətdə olmaq, bu və digər əxlaq prinsiplərinə riayət edib-etmədiyini maraqlanmaq, onların bəyənilmiş əxlaqi qaydalara əməl etməsini alqışlamaq və bu kimi hallar şagirdlərə əxlaqi qaydalara əməl etməkdə kömək edə bilər.

## 5- Şəriət hökmləri

Bəzi uşaqların müsəlman bir şəxsin bilməli olduğu paklıq və murdarlıq, namaz, oruc və bu kimi məsələlərə aid ilkin şəriət qaydaları haqqında məlumatları vardır. Hədislərdə də valideynlərə tövsiyə edilmişdir ki, uşaqlarına kiçik yaşlardan şəriət qaydalarını öyrətməyə başlasınlar. Buna görə də uşaq hələ yeddi yaşına çatmamış onda bəzi dini ayinlər haqqında fikir formalaşdırıb onu təşviq etmək lazımdır.

Şəriət qaydalarının uşaq vaxtlarında öyrənməyin iki önəmi vardır. Biri uşaqlarda dini ayinlərə maraq yaranması, digəri isə xüsusilə də daha tez həddi-büluq yaşına çatan qız uşaqlarının uşaq yaşlarında öyrəndiklərini təkmilləşdirməsidir.

Şəriət qaydaları ilə bağlı mövzuların əksəriyyəti şagirdlərdə müəyyən bacarıqları formalaışdırmalı olduğu üçün yaxşı olar ki, şagirdlərə öyrətməkdən ötrü məşq etməyə imkan verən şəriət qaydaları seçilsin. Təkrar və məşq etməklə təlim edilən şəriət qaydaları uşaqlara daha asan gələcək.

Şəriət qaydalarının təlimi zamanı bir neçə məsələyə diqqət etmək lazımdır.

1. Tədricilik və məşq: Şəriət qaydalarının təlimi zamanı bu məqama xüsusi diqqət yetirmək lazımdır.

2. Düzgünlük: Şagirdlərə öyrədiləcək şəriət qaydaları düzgün və doğru şəkildə öyrədilməlidir. Yeri gəlmişkən, şəriət qaydaları bilavasitə öyrədilməlidir ki, şagirdlər dəstəmaz almaq, namaz qılmaq və bu kimi əməlləri öz gözləri ilə yaxından görə bilsinlər.

3. Çətinlik yaratmamaq: Şəriət qaydalarının təlimi zamanı bir neçə səbəbə görə şagirdləri çox da çətinə salmaq olmaz. Bir səsəbi odur ki, çətinlik şagirdlərdə bu və digər din ayininə nifrət hissi yarada bilər. İkinci səbəb odur ki, çətinlik şagirdlərdə vasvaslıq və psixoloji gərginlik əmələ gətirə bilər. Oğlan uşaqlarının həddi-büluğ yaşına çatmasına hələ çox vaxt qaldığı üçün onlara daha artıq məşq etmək imkanı verilə bilər.

**İbtidai sinif şagirdlərinə bu mərhələni təlim edərkən aşağıdakıları da nəzərə almaq lazımdır:**

**1-** İbtidai mərhələdə uşaqlara öyrədilcək şəriət qaydalarının seçilməsi. Bütün şəriət qaydalarının öyrənilməsi şagirdlər üçün mümkünsüz və ya həddən artıq çətin olduğu üçün onların yaşına uyğun, həm də əsasən daha çox lazım olan məsələlər seçilməlidir. Digər şəriət qaydaları isə sonrakı yaş mərhələlərində tədris olunmaq üçün kənara qoyulmalıdır. Bu iş bir tərəfdən təlim prosesini asanlaşdırır, digər tərəfdən də şagirdlərin öyrənməsi üçün daha səmərəli olur.

**2-** Oğlan və qız şagirdləri arasında cins fərqinin olduğunu nəzərə almaq lazımdır. Qız uşaqlarının üçüncü sinifdə olarkən həddi-büluğ yaşına çatdığını və onların artıq şəriət qaydalarına əməl etməli olduğunu nəzərə alsaq, onların bilməli olduğu şəriət qaydalarını izah etmək lazımdır.

Başqa bir məqam şəriət qaydalarının təlimində mötədilliyi qorumaq, həddən artıq yüklənmə və geri qalmaqdan uzaq olmaqdır. Şəriət qaydalarının təlimi zamanı həddən artıq tələbkar olmaq və ya həddən artıq etinasız yanaşmaq problemlər yarada bilər. Həddən artıq tələbkar olmaq uşaqlarda narahatlıq, hətta vasvaslıq kimi psixoloji gərginliyin yarana bilməsinə səbəb ola bilər. İbtidai sinif şagirdi hər hansı bir qaydanı (xüsusilə də şəriət qaydasını) sevdiyi bir şəxsdən eşitdikdə onu əyər-əskiksiz öyrənməyə çalışır. Bu isə onda müəyyən narahatlıq, vasvaslıq əmələ gətirə bilər. Buna görə də şəriət qaydalarının təlimi zamanı yersiz tələbkarlıqdan çəkinmək, mülayim davranmaq, məşq və təkrar etməklə şagirdlər üçün münasib zəmin yaratmaq lazımdır.

Şəriət qaydalarının təlimi zamanı müxtəliv cəlbedici metodlardan istifadə etmək də nəzərdə saxlamalı olduğumuz məqamlardan biridir. Bu mərhələdəki şəriət qaydaları uşaqlar üçün bir qədər çətin olduğu üçün, həm də çox maraqlı olmadığına görə biz müxtəlif maraqlı metodlardan istifadə etməklə çətiniyi nisbətən aradan qaldırmış olarıq.

Şəriət qaydalarının təlimi zamanı şagirdlərə kifayət qədər vaxt vermək lazımdır ki, çox çətinlik çəkmədən dini əməlləri düzgün şəkildə öyrənə bilsinlər.

## 6- İslami tədbirlər

İslami mərasimlər dinin simasının müxtəlif təzahür formalarıdır. İbtidai mərhələ belə tədbirlərin keçirilməsi üçün ən uyğun və münasib zamandır. Məhz bu yolla din təlimləri uşaqların yaddaşına daha yaxşı şəkildə həkk olur.

Önəmli olan odur ki, uşaqlar belə tədbirlərin keşirilməsində fəal iştirak etsinlər. Ancaq onları böyüklərin yerinə qoymaq olmaz. Onlara hələ başa düşə bilməyəcəyi şeyləri öyrətmək lazım deyil. Uşaqları həm sevincli və kədərli tədbirlərə, həm də cümə namazı, oruc, həcc kimi vacib əməlləri özündə əks etdirən tədbirlərə qatmaq olar. Bu şərtlə ki, onlar sərbəst və təbii ola bilsinlər deyə, həmin tədbirlərdə uşaq rolunu ifa etsinlər, çox da yüklənməsinlər.

Şagirdləri bayramlar, əzadarlıq, ibadət ayinləri kimi tədbirlərlə tanış edən dərslərin məktəbdə keçirilməsi daha məqsədəuyğun hesab edilir. Bu dərslərin daha təsirli və yaddaqalan olması üçün onları açıq dərs formasında, həm də müxtəlif münasibətlərlə əlaqədar keçirilməsi daha yaxşı olar. Tədbirlərin keçirilməsi zamanı çalışmaq lazımdır ki, əsas iş şagirdlərin öhdəsinə düşsün. Müəllimlər isə sadəcə şagirdlərin hər birini öz rolunu ifa etmək üçün onları səhnədəki yerinə gətirməklə kifayətlənək. Uşaqlar bu cür həmkarlıqdan çox zövq almış olacaqlar.

Üçüncü hissə

3

# Tədrisdə nümunəvi örnəklər

İbtidai mərhələnin birinci hissəsi

# a) Quran təlimi

## Tədrisdə nümunəvi örnəklər 1
## İbtidai mərhələnin birinci hissəsi

### Birinci dərs: Allahın adı ilə, Bismillah



Nəzərdə tutulanlar:

1) Quran öyrənmək məqsədilə şad və cəlbedici bir atmosfer yaratmaq
2) Bütün işlərə “Bismillahir Rəhmanir Rəhim” cümləsi ilə başlamaq qaydasını öyrətmək
3) Quran mesajı və “Bismillahir Rəhmanir Rəhim” cümləsi ilə, eləcə də onun iki sözü ilə tanışlıq
4) Tövhid surəsinin ayələrini eşitmək istəyini artırmaq
5) Tövhid surəsini kollektiv şəkildə oxumaq bacarığını öyrətmək
6) Başqaları ilə ünsiyyət zamanı onlara salam vermək qaydasını öyrətmək
7) Mehriban olan Allahın yaratdıqları barədə düşünməyə həvəsləndirmək
8) Gündəlik Quran oxumağa həvəsləndirmək

## Metodik vəsaitlər

Dərslik kitabı, təlim kaseti və ya diski, müəllim kitabı

<table>
<tr><th>Dərs</th><th>Dərsin mövzusu</th><th>Dərs</th><th colspan="3">Birinci dərsin yekunlaşdırılması (tarixlər göstərilməklə)</th></tr>
<tr><td rowspan="7">Birinci</td><td rowspan="7">Allahın adı ilə, Bismillah</td><td rowspan="7">14</td><td rowspan="7"></td><td colspan="2">Birinci həftə, birinci və ikinci dərs Quran başlanması tədbiri, “Allahın adı ilə, Bismillah”</td></tr>
<tr><td rowspan="2">İkinci həftə</td><td>Birinci dərs: “Quran mesajları”</td></tr>
<tr><td>İkinci dərs: “Birlikdə oxuyaq” tapşırığı</td></tr>
<tr><td rowspan="2">Üçüncü həftə</td><td>Birinci dərs: Birinci tablo “Tövhid surəsi”</td></tr>
<tr><td>İkinci dərs: “Birlikdə oxuyaq” tapşırığı</td></tr>
<tr><td rowspan="2">Dördüncü həftə</td><td>Birinci dərs: “Salam aleykum” Quran mesajı</td></tr>
<tr><td>İkinci dərs: Tapşırıqları yerinə yetirmək<br>1- “Salam aleykum” Quran mesajını oxumaq<br>2- Diskin müşayiəti ilə Tövhid surəsini oxumaq<br>3- Salam verməyi səhnələşdirmək<br>4- Salam mövzusunda rəsm çəkmək</td></tr>
</table>

## Öyrətmə və öyrənmə metodları

### Birinci və ikinci dərs

Quran başlanması tədbiri sinif otağının və ya məktəbin bəzədilməsi, valideynlər, şagirdlər, müəllimlər, məktəb və ərazi rəhbərliyinin iştirakı ilə daha mötəbər şəkildə keçirilə bilər.

### Birinci dərs

### Quran mesajı

بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim



**1-** Sinifə daxil olub dərsə başlamazdan qabaq qətiyyətlə “Bismillahir Rəhmanir Rəhim” deyin. Şagirdlərdən hansı birinin bu cümlənin mənasını bildiyini soruşun. Yeri gəlmişkən, “Bismillahir Rəhmanir Rəhim” cümləsinin işlədildiyi bəzi görüntüləri də sinifdə göstərə bilərsiniz.

**2-** Sonra Quran mesajını özündə əks etdirən diski oxutdurursunuz. Şagirdlər diskdə oxunulmuş Quran mesajını bir neçə dəfə birlikdə oxuyurlar.

**3-** Ən çox işlənən “ism” və “Allah” sözlərinin işlədilməsinə və mənasına diqqət yetirirsiniz.

## Tədris təklifi

"İsm" və "Allah" sözlərinin başa salamq

Üzümüzü şagirdlərdən birinə tutub soruşuruq ki, sənin adın nədir?

Başqa bir şagirdə üzümüzü tutaraq deyirik ki, ad və soyadını söylə. Allah sözünü harada eşitmisiniz?

Qeyd: Çalışmaq lazımdır ki, öyrətmək istədiklərimiz gündəlik həyatımızla əlaqədar şeylər olsun.

3- Quran mesajını başa düşməkdən ötrü verilmiş şəkillərdən daha çox istifadə və bu xüsusda şagirdlərlə daha çox söhbət etmək lazımdır. Verilmiş şəkillərdən hər biri aşağıdakı mənaları çatdırır:

Birinci şəkil: "Bismillahir Rəhmanir Rəhim" cümləsini yazaraq dilinə gətirən müəllim dərsə başlayır.

İkinci şəkil: "Bismillahir Rəhmanir Rəhim" cümləsini deyən qız uşağı evdən çıxaraq məktəbə gedir.

Üçüncü şəkil: "Bismillahir Rəhmanir Rəhim" cümləsini dilinə gətirən qız yemək yeməyə başlayır.

Dördüncü şəkil: "Bismillahir Rəhmanir Rəhim" cümləsini deyən şagirdlər Quran oxumağa başlayırlar.

### 4- Danışıq

a) Müəllim şagirdlərdən soruşur ki, daha hansı işləri Allahın adı ilə başlayırsınız?

b) Siz harada və hansı insanları görmüsünüz ki, hər hansı işə başladıqda Allahın adını çəkirlər?

c) Uşaqlara deyirik ki, hamı dərs kitabını partanın üzərinə qoyub ilk səhifəni açsın. İlk səhifə hansı cümlə ilə başlayıb?

ç) Televizorda hər hansı bir veriliş (kino, xəbərlər, uşaq verilişləri) başlamazdan qabaq hansı cümlə işlədilir? Proyektor vasitəsilə hansısa bir film, xəbərlər və ya uşaq verilişinin başlanğıcını göstərə bilərik.

## İkinci dərs

### Allahın adı ilə, Bismillah

Təlim mərhələləri



1- "Allahın adı ilə, Bismillah" cümləsinin deyildiyi kaset və ya diski oxutdururuq. Şagirdlər müəllimlə birlikdə ona qulaq asırlar.

2- Kaset və ya diskdən istifadə etmədən verilmiş şeiri şagirdlərlə bir yerdə oxuyuruq.

**Tədris zamanı münasib mühit yaratmaq**

a) "Bismillah" ifadəsini yazıb printerdən çıxardaraq bir kartonun üzərinə yapışdıra bilərik. Şeiri oxuyarkən "bismillah" ifadəsinə çatdıqda onu bir qədər məntiqi vurğu ilə, həm də şeirin ritminə uyuğun olaraq oxumaqla şagirdlərə göstəririk.

b) Şagirdlərə tapşırırıq ki, evdə hər biri "bismillah" ifadəsini kartonun üzərinə yazıb gətirsin. Şeiri kollektiv şəkildə oxuyarkən "bismillah" ifadəsinə çatdıqda hamı kartonu yuxarı qaldırsın.

**Diqqət:** Digər dərslərdəki boş vaxtlarda kitabda verilmiş şeirləri təkrarlaya bilərsiniz.

## Birinci dərs

Tapşırıq: Əvvəlki dərsdə verilmiş Quran mesajını şagirdlərlə birlikdə xorla oxuyuruq.




Birinci tablodan istifadə etmək qaydası

Şagirdlər hələ yazıb oxumağı bacarmadığına görə dərsin başladığı ilk aylarda kiçik surələrin yazıldığı hər tablonu sinifdə hamının görə biləcəyi bir yerə vururuq. Sonra isə kaset və ya diskin müşayiəti ilə şagirdlər ayələri oxumağa başlayırlar. Müəllim isə ayələrin altından çubuqla göstərməklə hər ayənin başlanğıc və sonunu şagirdlər üçün müəyyən edir.

**Tədrisin gedişatı**

1- Yeni dərs ilinin başlanğıcında valideynlərlə görüş zamanı ilk üç ayda qiraətin əsasən üzdən baxıb oxumaq olduğunu, mütləq, onların diqqətinə çatdırmaq lazımdır ki, hörmətli valideynlər də təhsil müddətində evdə uşaqlar üçün münasib şərait yaradıb tələskənliyə yol verməsinlər.

**2-** Quranın otuzuncu cüzünün kiçik surələri adətən məktəbdən əvvəl bağçalarda tərbiyəçilər, eləcə də evdə valideynlər tərəfindən uşaqlara öyrədilir. Bunu nəzərə alaraq həmin surələrin təkrar edilməsi üçün tədrisin ilk ayları ən gözəl fürsətdir. Bu zaman əgər hansısa şagird bu və digər sözün yerini qarışdırırsa, yaxud hər hansı başqa bir səhvə yol verirsə, səhvini aradan qaldırmış olar.

Qeyd: Quran təliminin növbəti üç ayında şagirdlər ana dili dərsində hərfləri də öyrənməklə artıq bu səhvlər aradan qalmış olacaq.

## İkinci dərs

### Tövhid surəsi şeirinin təlim mərhələləri

1- Tövhid surəsi şeirinin kaset və ya diskini oxutdurmaq

2- Kaset və ya diskin müşayiəti ilə şagirdlərlə birlikdə şeiri oxumaq



3- Şeiri şagirdlərdən könüllü olaraq cavab vermək istəyənlərdən soruşmaq

Suallarda Tövhid surəsinin ehtiva etdiyi məzmunu əsas diqqət mərkəzində saxlamaq lazımdır. Məsələn: Heç kim Allahın bənzəri ola bilməz. Dağı, ağacı, dənizi O, yaradıb. Bizim üçün ata-anamızı da O yaradıb.

## Birinci dərs

### Təlim mərhələləri

1- Tövhid surəsinin verildiyi tablonu sinifdə münasib yerdən asırsınız. Sonra isə kaset və ya diskin müşayiəti ilə surənin ayə və sözlərini göstərə-göstərə şagirdlərlə birlikdə oxuyursunuz.



2- Quran mesajını izah edərkən əvvəlcə kaset və ya diski bir neçə dəfə oxutdurur, sonra isə şagirdlərlə birlikdə bir neçə dəfə təkrar edirsiniz.

Daha sonra isə verilmiş şəkillərin köməyi ilə Quran mesajı barədə şagirdlərlə birlikdə bir-birinizlə söhbət edirsiniz.

Öz çıxması ilə bütün məxluqları salamlayan Günəşin şəkli

Sanki Günəş öz çıxışı ilə bütün məxluqları salamlayır. Məxluqlar da ona baxaraq sanki onun salamını alırlar və onu görməklə sevincək olurlar.

### Təlim məsləhətləri

Şagirdlərə başa salmaq lazımdır ki, bəzi sözlər ərəb dili ilə ana dilimizdə müştərək işlədilir. Məsələn, salam, kitab, nur sözləri.

## İkinci dərs

Bu dərsdə əvvəlki beş dərsdə keçirilənlər təkrar edilir. O cümlədən:



1- “Bismillahir Rəhmanir Rəhim” Quran mesajı

2- Tövhid surəsi şeirini kollektiv şəkildə oxumaq

3- “Salam aleykum” Quran mesajını təkrarlayıb yadda saxlamaq

4- Şagirdlər salam verməklə bağlı ən gözəl şəkli müəyyən edilmiş yerdə çəksinlər.

**Qeyd:** Səhnəcik zamanı bizim əsas məqsədimiz Allah tərəfindən bəyanilmiş gözəl xüsusiyyətləri uşaqlarda adət halına çevirməkdir. Səhnəcik zamanı aşaöğıdakılara xüsusi diqqət yetirmək lazımdır:

1- Özümüz də salam vermək mövzusunda iştirak edək. Çünki biz sinifin müəllimi olaraq şagirdlər üzərində daha çox təsir gücünə malikik.

2- Salam verməyin müxtəlif formalarını səhnəciklər formasında təqdim edək. Xüsusilə də nəzərə almaq lazımdır ki, şagirdlər gündəlik həyatda bəzi insanların yanlış salam verdiyini (məsələn, “saam aleykum” dediyini) görürlər. Bu cür yanlışlıqlar səhnəciklərdə aradan qaldırılmalı, şagirdlərə gözəl şəkildə salam vermək öyrədilməlidir.

## Nümunəvi tədris örnəkləri 2
## İbtidai mərhələnin birinci hissəsi

### Dördüncü dərs



**Nəzərdə tutulanlar:**

1. Quran oxumaq həvəsini artırmaq üçün münasib şərait yaratmaq

2. Hərfləri və hərəkələri birləşdirərək Quranın bəzi sadə sözlərini hecalayaraq birlikdə oxumaq

3. Təlim kaseti və ya diskindən Nas surəsini dinləmək həvəsini artırmaq

4. Nas surəsini kollektiv şəkildə oxumaq bacarığı

5. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) pak Əhli-beyti, habelə onların Quran öyrənməyə, bir-birinə və başqalarına qarşı davranışı ilə tanışlıq

6. Nas surəsi və şeirinin ümumi məzmunu ilə tanışlıq. Məsələn, Allahın insana sevgisi, insanın yaxşı işlər görməkdə Ondan kömək istəməsi, pis işlərdən uzaq olması.

7. Quranın Allahın kəlamı olması ilə tanışlıq

8. Dua etmək və Allah-taala ilə danışmaq həvəsini artırmaq

9. Gündəlik Quran oxumaq həvəsini artırmaq

**Metodik vəsaitlər:**

Dərslik kitabı, təlim kaseti və ya diski, müəllim kitabı

<table>
<tr><th>Dərs</th><th>Dərsin mövzusu</th><th>Səhifə</th><th colspan="3">Dördüncü dərsin yekunlaşdırılması</th></tr>
<tr><td rowspan="8">Dördüncü</td><td rowspan="8">Quran oxuyaq<br>Nas surəsi<br>Ən mehriban müəllim<br>Dəyərli hədiyyə</td><td rowspan="8">38</td><td rowspan="8"></td><td colspan="2">Birinci həftə, birinci və ikinci dərs Quran başlanması tədbiri, “Allahın adı ilə, Bismillah”</td></tr>
<tr><td rowspan="2"></td><td></td></tr>
<tr><td></td></tr>
<tr><td>İkinci həftə</td><td>İkinci dərs: Birlikdə oxuyaq “Şeir</td></tr>
<tr><td rowspan="2">Üçüncü həftə</td><td>Birinci dərs: Ən mehriban müəllim</td></tr>
<tr><td>İkinci dərs: On birinci və on ikinci tablo</td></tr>
<tr><td rowspan="2">Dördüncü həftə</td><td>Birinci dərs: Dəyərli hədiyyə</td></tr>
<tr><td>İkinci dərs: Təkrar</td></tr>
</table>

## Öyrətmə və öyrənmə metodları

### İkinci dərs



1. “Quran oxumaq” mövzusu üzrə şəkilə baxıb danşmaq

* Dərslik kitabındakı şəkilləri göstərməzdən qabaq müəllim proyektor vasitəsilə Quran oxumaq mövzusuna dair bir video görüntü təqdim edir (yaxşı olar ki, birinci sinifə uyğun video görüntü olsun) və ya bir neşə şagirdin qiraətini göstərir.

* Sonra şagirdlərdən şəkillər barədə danışmasını istəyək.

* Quran dərsində olarkən şagirdlərdən Allahdan nə arzu etdiklərini soruşaq.

* “Mənim arzum” şeirini həmin şeirin səsləndirildiyi qovluğun müşayiəti ilə şagirdlərlə birlikdə kollektiv şəkildə oxuyaq.

## Birinci dərs

### 2. Dördüncü və beşinci tablo



* Dərsə başlayarkən şagirdlərdən nə arzu etdiklərini soruşaq. Əvvəlki dərsdə verilmiş şeiri və danışılmış söhbətləri nəzərə alaraq şagirdlər Quran oxumaq bacarıqlarına işarə edəcəklər. Bundan sonra isə “Mənim arzum” şeirin birlikdə oxuyaq.

* Dördüncü və beşinci tabloları bütün şagirdlərin görə biləcəyi yerdən asaq. Şagirdlərə deyək ki, müəllimin işarəsi ilə hərf və hərəkələri oxusunlar.

* İbtidai mərhələnin birinci hissəsində Quran təlimini nəzərə alaraq müəllim yalnz və yalnız hərəkələri göstərməlidir. Şagird müəllimin göstərdiyi hərəkənin işarə və dayaqlarına fikir verərək onu oxumalıdır.

* Müəllim Quran sözlərindəki hərəkələri göstərərkən özü qətiyyən oxumamalıdır.

* Müəllim tablonun kənarında elə dayanmalıdır ki, bütün şagirdlər onun işarələrini və sözün düzgün oxunuşunu görə bilsinlər.

* Müəllim Quran sözlərinə işarə edərkən, mütləq, aram olmalıdır. Belə ki, bəzi səhvlər müəllimin şagirdin səhvinə işarə edən azacıq dayanması ilə aradan qaldırıla bilər. Quran sözlərinin hərəkələrinə işarə etməkdə qətiyyən tələsmək lazım deyil.

* Kitabın müqəddiməsində ayələrin və hərəkələrin düzgün işarəsi haqqında məlumat verilmişdir. Dərsə başlamazdan qabaq müqəddiməni, mütləq, diqqətlə oxuyub təkrarlamaq lazımdır.

* Şagirdlərə demək lazımdır ki, müəllimin göstərdiklərini birlikdə oxusunlar. Qabağa getməsinlər, geri də qalmasınlar.

* Şagirdlər bu Quran qiraətində mərhələdə nəzərdə tutulmuş qabiliyyətə yiyələnməkdən ötrü onlara kifayət qədər fürsət vermək lazımdır. Şagirdlərin fərdi bacarıqlarını nəzərə alaraq hamısının eyni vaxtda eyni səviyyədə olacağını gözləməməliyik.

## İkinci dərs

### 3. Altıncı və yeddinci tablo



* Şagirdlər təkrar məqsədilə dördüncü və beşinci tablonu kitabdan öz qrupları üçün oxuyurlar. Sonra isə müəllimin seçimi ilə qruplardan biri onu ucadan oxuyur.

* Şagirdlərin müəllimin işarəsi ilə Quran sözlərini oxuduğunu nəzərə alaraq öz arzularına çatıb gələcəkdə Quranı daha yaxşı oxuya bilməkdən ötrü onlara “Mənim arzum” şeirini birlikdə oxutduraq.

* Altıncı tablonu düzgün işarələrlə öyrədirik. Təzə keçirilənlər qırmızı rəngdə verilmişdir. Növbəti tablolara keçdikdə isə həmin sözlər artıq qara rənglə verilir.

* “Əlif” hərfinin üzərindəki mədd işarəsini göstərərkən onun üzərində bir qədər dayanaq ki, şagirdlər onu uzun “a” səsi kimi tələffüz etsinlər.

* Əgər şagirdlərdən hansısa biri oxunuşda çətinlik çəkərsə, sinifin diqqətini tabloya yönəldib bir daha çətin olan həmin sözü hecalayaraq düzgün şəkildə oxuyaq. Sonra isə bütün şagirdlərə həmin sözü birlikdə xorla, özü də hecalara bölərək oxutduraq. Daha sonra isə həmin sözü oxumaqda çətinlik çəkmiş şagirdə sözün hecalarına işarə etməklə oxumasını istəyək.

* Yaxşı olar ki, tabloda verilənləri izah etdikdən sonra Qurandakı ana dilimizdə də işlənən bəzi sözləri müəyyən edib mənasını bildirək. Məsələn, Adəm, nur sözləri.

## Birinci dərs

### 4. Səkkizinci tablo




* Şagirdlər əvvəlki dərsdə keçirilmiş altıncı və yeddinci tabloları təkrar məqsədilə kitabdan öz qrupları üçün oxuyurlar. 5 dəqiqə sonra isə müəllimin seçimi ilə şagirdlərdən biri həmin ifadələri uca səslə sinif yoldaşları üçün oxuyur.

* Nas surəsinin yazıldığı səkkizinci tablonu sinifdə hamının görə biləcəyi münasib bir yerdən asırıq. Sonra Nas surəsinin olduğu audio faylı səsləndiririk. Şagirdlər Nas surəsinin yazıldığı tablonu diqqətlə izləyərək səsləndirilən faylın müşayiəti ilə surəni oxuyurlar.

* Nas surəsini bilən şagirdlərdən könüllü olaraq oxumasını istəyirik. O oxuduqca digər şagirdlər onu dinləyirlər.

## İkinci dərs



5. Təkrar və “birlikdə oxuyaq” tapşırığı

* Şagirdlər Nas surəsinin verildiyi tabloya baxaraq həmin surənin audiofaylının müşayiəti ilə surəni birlikdə oxusunlar.

* Şagirdlər beşinci və yeddinci tablonu kitabdan öz qrupları üçün oxuyur, sonra isə müəllimin seçimi ilə aralarından bir nəfər onu bütün yoldaşları üçün uca səslə oxuyur.

* Şagirdlər Nas surəsi şeirini həmin şeirin verildiyi audiofaylın müşayiəti ilə birlikdə oxuyur və fayl üçün uyğun bir ad seçirlər.

## Birinci dərs

### 6. “Ən mehriban müəllim” hekayəsi



* Bu dərsin bir həssəsini Nas surəsinin verildiyi tablo üzərində işləməyə sərf edirik. Tablonu sinifdə bütün şagirdlərin asanlıqla görə biləcəyi münasib bir yerə qoyuruq. Sonra Nas surəsinin audiofaylını səsləndiririk. Şagirdlər audiofaylın müşayiəti ilə Nas surəsini birlikdə oxuyurlar.

* “Ən mehriban müəllim” hekayəsini şagirdlər üçün danışın. Əhvalatı danışmazdan qabaq şagirdlərdən şəkildə verilənlərin kimlər və əhvalatın nədən ibarət olduğu barədə fikirlərini soruşaq.

* “Ən mehriban müəllim” hekayəsi

Həsənlə Hüseyn otaqda oyun oynayırdılar. Həzrət Əli isə ev işlərində həyat yoldaşı həzrət Fatiməyə kömək edirdi. Birdən qapı döyülür. Uşaqlar sevincək həyət qapısına tərəf qaçıb qapının arxasından soruşurlar ki, kimdir? Baba gülümsəyərək deyir: “Salam uşaqlar, mənəm, babanız.” Uşaqlar sevincək halda, gülümsəyərək qapını açıb babaya salam verirlər. Həzrət Mühəmməd uşaqları qucağına götürüb öpərək evə doğru hərəkət edir. Bu vaxt həzrət Əli ilə həzrət Fatimə də evdən çıxıb Peyğəmbərə tərəf gəlir, ona salam verib evə dəvət edirlər. Peyğəmbər onların salamına cavab verdikdən sonra uşaqlarla birlikdə evə daxil olur. Peyğəmbər Həsənlə Hüseynə dizləri üstündə otuzduraraq onlara deyir ki, uşaqlar, istəyirsinizmi indi sizə Qurandan bir surə öyrədim? Uşaqlar sevincək halda cavab verirlər ki, bəli, istəyirik.

Həzrət Peyğəmbər Quranın gözəl surələrindən birini onlar üçün oxuyub onlara deyir ki, ayələri onunla birlikdə təkrar etsinlər. Həzrət Əli ilə həzrət Fatimə gülümsəyərək bu gözəl mənzərəni seyr edib bu cür gözəl övladları olduğu üçün Allaha şükr edirlər. Onların mehriban müəlliminə də təşəkürlərini bildirirlər.

## 7. Quran oxuyaq, doqquzuncu və onuncu tablo



* Əvvəlki dərslərdə olduğu kimi, bu dəfə də Quran tablosu üzərində düzgün və dəqiq işarələrlə işləyəcəyik.

* Şagirdlər müəllimin işarəsi ilə verilmiş Quran ifadələrini kollektiv şəkildə oxuyurlar.

* Dərsin sonuna az qalmış şagirdlərə kitabın üzündən bəzi ayələri oxutdururuq.

* Eləcə də şagirdlər "Ən mehriban müəllim" hekayəsini danışırlar.

## İkinci dərs



8. On birinici və on ikinci tablo

* Əvvəlki dərslərdə və tapşırıqlarda olduğu kimi, bu dəfə də şagirdlərlə birlikdə onuncu tablonu oxuyub təkrar edirik. Sonra isə həmin tabloda verilənləri şagirdlərə kitabın üzündən tək-tək oxutdururuq.

* Şagirdlər Nas surəsini kollektiv şəkildə oxuyurlar.

## Birinci dərs



9. “Dəyərli hədiyyə” hekayəsi

* Əvvəlki dərslərdə olduğu kimi, bu dəfə də şagirdlər iki nəfərlik qruplara bölünərək Nas surəsini təklikdə təkrar edirlər.

* Şagirdlər “Ən mehriban müəllim” hekayəsini yanında oturmuş sinif yoldaşı üçün danışırlar.

* Şagirdlərdən istəyirik ki, “Dəyərli hədiyyə” hekayəsi ilə bağlı verilmiş şəkilə baxaraq söhbətin nədən getdiyini təxmin edib bizə danışsınlar.

“Dəyərli hədiyyə” hekayəsi

İmam Hüseyn (əleyhissəlam) belə qərara gəlir ki, övladının oxuduğu məktəbə gedib ona dərs deyən müəllimə təşəkkürünü bildirsin. Bu məqsədlə o, bir gün məktəbə gedir. Müəllim uşaqlara dərs keçir, uşaqlar da maraqla müəllimin dediklərinə qulaq asırdılar. İmam Hüseyni (əleyhissəlam) görməklə bütün uşaqlar sevinirlər. İmam müəllimə və uşaqlara salam verir. Onlar da imamın salamını alıb ona xoşgəldin deyirlər.

İmam Hüseynin (əleyhissəlam) övladı atasına deyir ki, bizim mehriban müəllimimiz bizə Həmd surəsini öyrədib. Ata sevinir və uşaqlardan həmin surəni onun üçün oxumasını istəyir. Uşaqlar da sevincək halda surənin bəzi ayələrini onun üçün oxuyurlar.

İmam Hüseyn (əleyhissəlam) razılıqdan xəbər verən təbəssümlə uşaqlara baxır. Mehriban müəllimə təşəkkürünü bildirərək ona bir hədiyyə verir. İmam Hüseyni (əleyhissəlam) çox sevən müəllim də bu dəyərli hədiyyəyə görə ona təşəkkür edir.

## Nümunəvi tədris örnəkləri 3
## İbtidai mərhələnin birinci hissəsi

### Təkrar 1




### Tapşırıq 1

* Bu həftə bu vaxta qədər keçirilmiş ayələr, Quran mesajları və hekayələr təkrar ediləcək.

* Birinci tapşırıqda keçirilmiş dörd surəni təkrarlayıb üzərində işləyirik. Bunlar Tövhid, Kövsər, Əsr və Nas surələridir.

* Şagirdlər bu surələri iki və ya üç nəfərlik qruplara bölünərək təkrar edirlər.

* Sonra şagirdlərə surələri kollektiv şəkildə oxutdururuq.

* Daha sonra isə surələri əzbər bilən şagirdlərədn könüllü olaraq oxumaq istəyənlərə surələri əzbər oxutdururuq.

### Tapşırıq 2

* İkinci tapşırıqda şagirdlər yemək yeyilməsi qaydalarından danışırlar. Şagirdlərdən Quranın hansı ayəsini yeməyə başlayarkən (Bismillahir Rəhmanir Rəhim), hansı isə yeməyi bitirdikdə (Əlhəmdu lillahi Rəbbil aləmin) dediyimizi işarələrlə bildirmələrini istəyirik.

* Əgər şagirdlər bu Quran ayələrini üzdən oxuya bilməsələr, bütöv şəkildə oxumaqla da kifayətlənmək olar.

## Tapşırıq 3

* Şagirdlər Quran mesajlarından birini kollektiv şəkildə səhnələşdirirlər.

* Şagirdlər birinci dərsdən dördüncü dərsə qədər beş Quran mesajı ilə tanış olublar. Əvvəlcə beş Quran mesajının beşini də təkrarlayırıq. Bu zaman hər mesaja aid videogörüntünü proyektor vasitəsilə şagirdlərə göstərə bilərik. Videogörüntünün müşayiəti ilə Quran mesajlarını birlikdə oxuduqdan sonra şagirdlər onları səhnələşdirirlər.

## Tapşırıq 4

* Verilmiş Quranın söz və ifadələrini şagirdlərə hecalayaraq oxutdururuq.

* Əvvəlcə şagirdlərə fürsət veririk ki, Quranın söz və ifadələrini təklikdə oxusunlar. Sonra isə onları kollektiv şəkildə hecalara bölərək oxumağa başlayırlar. Axırda da çalışmalıyıq ki, bütün şagirdlərə müəllimin öz seçimi əsasında bir-iki sözü ucadan oxudaq.

**Qeyd:** İbtidai mərhələnin birinci hissəsində Quranın söz və ifadələrini üzdən oxumaqda əsas məqsəd Quran ifadələrini düzgün şəkildə oxuya bilmək qabiliyyətinə yiyələnməkdir. Oxu keyfiyyətinə gəldikdə isə bir sıra mərhələlər vardır ki, şagirdlər əvvəlcə söz və ifadələri hecalara bölərək oxuyurlar. Zaman keçdikcə isə tədricən söz və ifadələri yavaş-yavaş hecalamadan oxumağa başlayırlar.

Şagirdlərdən heç birini bir mərhələdə oxu keyfiyyətinə (hecalara bölmək, yavaş-yavaş hecalamadan oxumaq, rəvan oxumaq) görə saxlamayacağıq.



## Tapşırıq 5

* Bu tapşırıqda şagirdlərdən kartondan Quran rəhili düzəltməsi tələb olunur. Bu dərsin əsas məqsədi həm də riyaziyyat və texnologiya dərsləri ilə bağlılıq yaratmaqdır.

* Şagirdlərdən bu işi valideyn və ya müəllimin köməyi ilə etməsini istəyəcəyik.

* Quran dərsləri olan gün şagirdlər düzəltdiyi rəhilləri özləri ilə gətirə, məktəbin namaz otağındakı Quranları onun üzərinə qoyub oxuya bilərlər.

## Nümunəvi tədris örnəkləri 4
## İbtidai mərhələnin birinci hissəsi

### Yeddinci dərs: Allahın peyğəmbərləri



**Nəzərdə tutulanlar:**

1. Allahın beş böyük peyğəmbəri ilə tanışlıq
2. Quran oxumaq həvəsini artırmaq üçün münasib şərait yaratmaq
3. Quranın bəzi sadə sözlərini hecalayaraq birlikdə oxumaq bacarığı
4. Audiofayldan Nəsr surəsini dinləmək həvəsini artırmaq
5. Nəsr surəsini və şeirini kollektiv şəkildə oxumaq bacarığı
6. Salavat deməyi öyrənmək və salavat demək həvəsini artırmaq
7. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və onun pak Əhli-beytinə sevgini artırmaq
8. Gündəlik Quran oxumaq həvəsini artırmaq

**Metodik vəsaitlər:**

Audiofayllar, müəllim kitabı

| Dərs | Dərsin mövzusu | Səhifə | Dördüncü dərsin yekunlaşdırılması | | |
|---|---|---|---|---|---|
| Yeddinci | Allahın peyğəmbərləri<br>Nəsr surəsi<br>Həzrət Musa peyğəmbərin uşaqlığı | 70 | | Üçüncü həftə | Birinci dərs: Quran oxuyaq, İyirmi üçüncü tablo, təşdid |
| | | | | | İkinci dərs: İyirmi dördüncü tablo: Hərflərin birləşməsi |
| | | | | Dördüncü həftə | Birinci dərs: Yeddinci dərs, Allahın peyğəmbərləri |
| | | | | | İkinci dərs: Quran oxuyaq, iyirmi altıncı və iyirmi yeddinci tablo |
| | | | | Birinci həftə | Birinci dərs: İyirmi səkkizinci tablo, Nəsr surəsi |
| | | | | | İkinci dərs: Birlikdə oxuyaq, Nəsr surəsinin şeiri |
| | | | | Üçüncü həftə | Birinci dərs: Həzrət Musa (əleyhissəlam) peyğəmbərin uşaqlığı |
| | | | | | İkinci dərs: Quran mesajı |
| | | | | Dördüncü həftə | Birinci dərs: İyirmi doqquzuncu və otuzuncu tablo |
| | | | | | İkinci dərs: Otuz birinci və otuz ikinci tablo – təkrar |

## Öyrətmə və öyrənmə metodları

**Birinci dərs**

**1. Allahın peyğəmbərləri mövzusunda şəkil üzərindən danışma**

Bu dərsdə beş şəkil verilmiş, hər şəkildə Allahın beş böyük peyğəmbərindən (həzrət Nuh (əleyhissəlam), həzrət İbrahim (əleyhissəlam), həzrət Musa (əleyhissəlam), həzrət İsa (əleyhissəlam) və həzrət Mühəmməd (səlləllahu əleyhi və alih)) birinin həyatı əks olunmuşdur. Əvvəlcə şagirdlərdən şəkillərin hansı peyğəmbərlərin həyatına aid olduğunu təxmin etmələrini istəyək. Sonra isə onlara şəkillər barədə doğru məlumat verməyə çalışaq.

**Diqqət:** Verilmiş şəkillərdən hər biri haqqında qısa bir videogörüntü hazırlayıb şagirdlərə göstəririk. Məsələn, həzrət Nuh (əleyhissəlam) peyğəmbərin həyatına dair bir cizgi filmini proyektor vasitəsilə şagirdlərə göstərə bilərik. Hər peyğəmbərin həyatına dair videogörüntü başa çatdıqdan sonra şagirdlərdən hansı videogörüntünün hansı şəkilə aid olduğunu müəyyənləşdirsinlər. Daha sonra isə müəllimin seçimi əsasında şagirdlərdən bir nəfər videogörüqntünün qısa məzmununu danışır. Bu yolla sinifdə olduqca maraqlı bir atmosfer yaranır. Həm də şagirdlər verilmiş şəkillərin hamısının məzmununu öyrənmiş olurlar.




Həzrət Məhəmməd (s) Allahın ayələrini oxuyarkən

Həzrət İsa (ə) körpə olduğu halda anasının qucağında danışır.

Həzrət Musa (ə)

Həzrət Nuh (ə)

Həzrət İbrahim (ə) və oğlu həzrət İsmail (ə) tərəfindən Allahın evinin təmir edilməsi

## İkinci dərs

1. Bu dərsdən başlayaraq Quran surələrinin verildiyi tablolar axıra qədər davam etdirilir. İyirmi altı, iyirmi yeddi və iyirmi səkkizinci tablolarda Nəsr surəsi və ona aid şeir verilmişdir. Habelə otuz ikinci tabloya qədər davam etdirilir. Bu tablolardan düzgün istifadə qaydası ondan ibarətdir ki, ayələrin oxunuşu zamanı nəzərə çatdırılmalı olduğumuz məqamlara riayət edək. Bu dərslərin çoxu təkrar xarakterli olub şagirdlərin Quranın bu və digər söz və ifadəsindəki səhvlərini aradan qaldırmaq məqsədi güdür. Audiofaylı olan tablolarda, məsələn, Nəsr surəsinin verildiyi iyirmi səkkizinci tabloda, mütləq, audiofaylı səsləndirmək lazımdır. Şagirdlər audiofaylın müşayiəti ilə birlikdə surəni kollektiv şəkildə oxuyurlar. Habelə Nəsr surəsinin şeiri də həmin audiofaylda mövcuddur. Onu da şagirdlər üçün səsləndiririk.

Bu dərs həzrət Musanın (əleyhissəlam) həyatının əks olunduğu şəkil əsasında keşirilir. Şəkil ətrafında keçirilən digər dərslərdə olduğu kimi, bu dərsdə də şagirdlər şəkilə baxaraq onun ətrafında danışırlar. Yaxşı olar ki, həmin şəkilin dini inanclarımıza uyğun gələn cizgi filmi formasında video görüntüsünü hazırlayaq. Şəkil ətrafında danışdıqdan sonra həmin cizgi filminə baxaq.

### 2- “Mühəmməd Allahın peyğəmbəri” mövzusunda Quran mesajı

* Dərsin əvvəlində Nəsr surəsinin verildiyi tablonu və həzrət Musa (əleyhissəlam) peyğəmbərin həyatının əks olunduğu şəkli təkrar etməklə yanaşı, həm də Quran mesajı ilə məşğul oluruq.

* Şagirdlərə deyirik ki, şəkillərə diqqətlə baxsınlar. Yuxarıdakı şəkil həzrət Mühəmməd (səlləllahuəleyhi və alih) peyğəmbərin türbəsi, aşağıdakı şəkil isə imam Rzanın (əleyhissəlam) türbəsidir. Kitabda verilmiş Quran mesajı barədə uşaqlardan soruşaq görək salavat zikrini və “Mühəmməd rəsullullah” cümləsini haralarda eşidiblər?

* “Mühəmməd Rəsulullah” cümləsinə daha çox diqqət yetirilməsi məqsədilə yaxşı olar ki, azanın audiofaylı səsləndirilsin. Bu zaman peyğəmbərin adı çəkilərkən uşaqların hansı reaksiya verəcəyinə diqqət yetirmək lazımdır. Onlardan soruşmaq lazımdır ki,

müsəlmanlar həzrət Peyğəmbərin adını eşitdikdə nə edirlər?

* Mövzu ilə əlaqədar olaraq bir neçə dəfə salavat zikrini özündə əks etdirən audiofaylı səsləndirə bilərik. Audiofaylın müşayiəti ilə hamı birlikdə salavat deyə bilər.

* “Rəsul – elçi, peyğəmbər” sözünün mənasına diqqət yetirərək onu şagirdlərə öyrədək.

* İmam Rzanın (əleyhissəlam) həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) ilə nə kimi qohumluq münasibəti olub? Bu mövzuda danışmazdan qabaq imam Rzanın (əleyhissəlam) türbəsindən video görüntülər təqdim edək. Xüsusilə də zəvvarların salavat dediyi anların görüntülərini verək.

* Çalışmaq lazımdır ki, dərsdə verilmiş Quran mesajını daha yaxşı başa düşməkdən ötrü sinifdə uyğun mühit formalaşdıraq.

## Təkrar 2

Bütün dərs ili boyunca keşirilmiş mövzular burada təkrar edilir.

Tapşırıq 1. Şagirdləri yeddi qrupa bölürük. Sonra onlara tapşırırıq ki, hər qrup Tövhid, Kövsər, Əsr, Nas, Həmd, Fələq və Nəsr surələrindən birini seçib qrup halında digər yoldaşları üçün oxusun.

Tapşırıq 2-3. Şəkillər əsasında öyrəndiklərimizi şəkillərə baxaraq daha ətraflı təkrar etməyə səy göstərək. Verilmiş ayələri şəkillərlə uyğunlaşdırmaq da bu tapşırıqların bir hissəsidir.

Tapşırıq 4. Dərslikdə verilmiş Quran mesajlarından birini müxtəlif qruplar şəklində səhnələşdirmək.

Tapşırıq 5. Şagirdlərin bilik səviyyəsini yoxlamaq məqsədilə onlara Quran oxutdururuq. Əgər qiraət zamanı hər hansı söz və ya ifadədə səhvə yol versələr, səhvləri aradan qaldırmaq üçün onlara fürsət veririk. Ehtiyac yarandığı təqdirdə ayələri lövhədə yazıb işarələrlə düzgün oxunuşunu bir daha izah etmək lazımdır.

## Yay tətilində Quran

İbtidai mərhələdə tədris edilən Quran dərsinin əsas məqsədlərindən biri də şagirdlərə bütün həyatı boyunca bu müqəddəs səmavi kitabla ünsiyyətdə olmağı, ondan faydalanmağı aşılamaqdır. Buna isə yalnız gündəlik Quran oxumaq mədəniyyəti yaratmaqla nail olmaq mümkündür. Bundan ötrü ilk növbədə özümüz gündəlik Quran oxumalıyıq. Daha sonra isə şagirdlərin valideynlərinə başa salmaq lazımdır ki, evdə uşaqlara hər gün Quran oxutdursunlar. Hətta yay tətilində dərslər olmadığı zaman da uşaqlar evdə ata-analarının nəzarəti ilə Quran oxumağa davam etsinlər.

Üçüncü hissə

3

# Din təlimləri (səmavi hədiyyələr)

İbtidai mərhələnin ikinci hissəsi

# Birinci fəsil – Din təlimləri (Allahıtanıma)

## Tədrisdə nümunəvi örnəklər 5

## İbtidai mərhələnin ikinci kitabı

### 1 - Allahın hədiyyələri



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Allahın verdiyi nemətlər vasitəsilə Onun mehriban olması ilə tanışlıq

2. Şagirdlərdə Allahın nemətlərinə qarşı xoş fikirdə olmağı artırmaq

3. Şagirdlərin Allahın bol nemətlərinin gözəlliyini bəyan etməsi

4. Allahın insanın özündəki nemətləri (özünütanıma ətrafında)

**Metodik vəsaitlər:**

1. Dərslik kitabı

2. Müəllim kitabı

3. Cücə, su, günəş, səma, bağ və dərs boyu dərsin gedişatına kömək edəcək əyani vəsaitlərdən ibarət şəkillər

4. Gözü bağlamaq üçün örtük

5. Tapşırıqlara aid videogörüntülər

6. Kitabdakı tapşırıqlara aid şeirləri özündə əks etdirən audiofayl

## Öyrətmə və öyrənmə metodları

Dərslik kitabının müqəddiməsində qeyd edildiyi kimi, dərsin adı bəzi hallarda vasitəli şəkildə, bəzi hallarda isə bilavasitə verilir. Gələcək dərslərdədə görəcəksiniz ki, dərsin adı onun əsas məzmununun xülasəsini təşkil edir. "Allahın nemətləri" mövzusunda da bilavasitə Allahın nemətlərinə işarə edilmişdir. Buna görə də dərsin adından əsas mövzuya giriş edə bilərik.

Bilməliyəm ki...



### Birinci tövsiyə

Dərsi keçməzdən qabaq dərsin mətnini diqqətlə oxumalıyıq. Bəzi məsələləri xüsusi şəkildə qeyd etmək lazımdır. O cümlədən, aşağıdakı ifadələri:

a) Mehriban Allah (səh. 13)

b) Bizi sevən Allah (səh. 13)

c) Bizə günəş, yağış, meyvələr və s. kimi çoxlu nemətlər vermiş Allah (səh. 13)

ç) Uşaqlar bir neçə anlıq gözlərinizi bağlayın. (səh. 13)

Birinci tövsiyədə bəzi ifadələrin xüsusi şəkildə qabardılmasının səbəbi odur ki:

1) Təəssüflər olsun ki, bəzi valideynlər yanlış olaraq uşaqları nəzarət altında saxlaya bilməkdən ötrü onlara: "Əgər sözümə qulaq asmasan, Allah səni Cəhənnəmə aparar" kimi sözlər deyirlər. Səmavi hədiyyələr kitabında səy göstərilmişdir ki, Allahın mehriban olması uşaqlara daha qabarıq şəkildə çatdırılsın.

2) Sizi sevən insan qarşısında siz nə iş görərsiniz? Ona qarşı hansı hissləri keçirərsiniz?

Kitabda qəti şəkildə qeyd edilmişdir ki, Allah sizi çox sevir.

Uşaqlar Allahın onları sevdiyini necə başa düşə bilərlər?

Ətrafımızda olan nemətlər barədə vasitəli şəkildə və ya bilavasitə suallar verməklə, eləcə də bu nemətlərin faydası və təsiri haqqında

suallarla uşaqlarda belə bir hiss yarada bilərik ki, onları nəinki sevən, həm də daha çox sevən bir varlıq vardır.

3) Biz nemətin qədrini o vaxt biləcəyik ki, əlimizdən çıxsın. "Uşaqlar, bir neçə anlıq gözlərinizi bağlayın" cümləsi də məhz bu mövzuya işarədir. Bunu daha yaxşı başa düşməkdən ötrü yaradıcı tapşırıqlardan istifadə etmək olar. Bu yolla uşaqlarda Allaha qarşı yaxşı fikir formalaşdıra bilərik.

**Xatırlatma 1.** Dini dərs və İslam maarifini tədris etməyin əsas problemlərindən biri odur ki, müəllimlər özləri birbaşa sinifə gedib sinifi ələ almağa çalışırlar. Dinləyicilərini nəzərə almadan hər şeyi özləri deyir, özləri də nəticə əldə edirlər. Dərsin axırında da şagirdlərdən soruşurlar ki, uşaqlar, başa düşdünüzmü? Uşaqlar isə heç nə başa düşməsələr də, cavab verəcəklər ki, bəli, başa düşdük. Çalışmaq lazımdır ki, bu cür faydasız tədris metodundan uzaq olaq.

## Gözəl başlanğıc

### Birinci plan:

Sinifə daxil olarkən uca və aydın səslə: "Bismillahir Rəhmanir Rəhim (Bağışlayan və mehriban Allahın adı ilə)" deyin. Uşaqlar sinifə gəlməzdən qabaq bu cümləni hətta lövhəyə də yaza bilərik.

Sonra uşaqlardan aşağıdakı sualları soruşuruq:

Uşaqlar siz kimə bağışlayan deyirsiniz?

Nə üçün Allah bağışlayandır?

Siz kimə mehriban deyirsiniz?

Tanıdığınız ən mehriban adamlardan birinin adını çəkin.

Ola bilər ki, uşaqlar ana, yaxud ata-analarının adını çəksinlər.

Dərsin mətnində qeyd edilib ki, ata-ana da Allah tərəfindən bizə hədiyyədir.

Anadan daha mehriban kimdir? Birinci kitabda verilmiş "Anadan daha mehriban" şeirini birlikdə oxuya bilərik. Bu arada uşaqların diqqətini Allahın nemətlərinə yönəldə bilərsiniz. Lakin bunu



məqsədli şəkildə verilmiş sual-cavab formasında etməyiniz və nəticəni özünüz deyil, uşaqların öhdəsinə buraxmağınız daha yaxşı olar.

## **İkinci plan:**

Kitabı aşmadan uşaqlara deyirik ki, “Səmavi hədiyyələr” kitabını partanın üzərinə qoysunlar. Dərsə başlamaq üçün kitabın adından istifadə edə bilərik.

Yazı lövhəsinə böyük hərflərlə “Səmavi hədiyyələr” yazaq.

Uşaqlardan səmavi hədiyyələrin nə demək olduğunu soruşaq.



Bu vaxta qədər səma bizə hədiyyə veribmi? Hansı hədiyyəni verib? (Şəkillərdən də istifadə edə bilərik.)

Allahın bizə göydən göndərmiş olduğu hədiyyə kimi Quranı da göstərmək olar. Lakin bunu bilavasitə demirik. Bunu demək üçün əvvəlcə uyğun bir zəmin yaradırıq ki, onlar özü bunu başa düşə bilsinlər.

Allahın nemətləri mövzusunun daha yaxşı başa düşülməsi üçün şəkillərdən istifadə edilməsi daha məsləhətdir.

## Üçüncü plan:

Oyun və yarışma

1- Şagirdləri iki və ya üç nəfərlik qruplara bölürük. Sonra yazı lövhəsində üç dairə çəkirik. Sonra hər qrupdan bir nəfərin gözünü bağlayırıq. Ona deyirik ki, qrup yoldaşlarının köməyi ilə yazı lövhəsinə tərəf gedib müəllimin göstərişi ilə çəkilmiş dairələrdən birinə (göz, qulaq, burun, saş və bu kimi) işarələr qoysun.

Oyun bitdikdən sonra qulağın faydası və bu neməti ona kimin verdiyi barədə danışa bilərik. Habelə uşaqların özündə olan, ancaq çox da önəm vermədiyimiz nemətlərə də toxuna bilərik.

Hörmətli həmkar! Sizin bu dərsə girməyiniz üçün gözəl başlanğıc nədən ibarətdir? Gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

### Kitabın tapşırığı

Düşünürəm: Dərsin gedişatında şagirdlər Allahın nemətlərindən digər nümunələr tapmaq üçün fikirləşməyə təşviq edilirlər.

İstəyirəm: Dərsə yaxşı başlanğıc edə bilsək, şagirdlərdə təşəkkür etmək hissi yaranacaq. Bu tapşırığı yerinə yetirərkən onlar deyəcəklər ki, ...

Bir-biri ilə danışmaq: Əvvəlcə şagirdlərdən soruşacağıq ki, əgər Günəş olmasaydı, nə baş verərdi? Onda artıq şagirdlər Günəşin necə faydalı olduğunu başa düşəcəklər.

Aşağıdakı cədvəlin köməyi ilə çox asanlıqla müqayisə apara bilərik.

| Mən günəşi çox sevirəm, çünki: | Günəş olmayanda ... |
|---|---|
| Məsələn: O, hər yeri işıqlandırır. | |
| | |
| | |
| | |

Günəşin söndüyü və olmadığı vaxtda baş verən hadisələrə dair bir videogörüntü

**Oyun və səhnəcik:**

Şagirdlərdə çox yaxşı təsir qoyan və dərsi daha yaxşı öyrənməkdə faydalı olan işlərdən biri səhnəciklərdir. Bu dəfə su nemətinin əldən çıxmasını səhnələşdiririk.

Səhnəcikdən sonra uşaqların səhnəcik zamanı yol verdiyi səhvləri yazı lövhəsində qeyd edirik. (Cədvəl formasında)

Axtar tap: Şagirdlər başa düşürlər ki, ətraflarına yaxşı-yaxşı baxmaq lazımdır. Şəkildə gördüklərini qeyd edirlər. Onların qeyd etdikləri barədə bir daha söhbət etmək mümkündür.

Birlikdə oxuyaq: "Kəpənəklərin Allahı" şeiri özünə məxsus qafiyə və ahənginə görə sinifdəki atmosferi müsbət mənada dəyişəcək. Yeri gəlmişkən, bu dərsdə sinifdə edilmiş söhbətlərin nəticəsi olaraq şagirdlər bu şeiri səmimi qəlbdən oxuyacaqlar.

**Təklif:**

Yaxşı olar ki, şeirdə deyilən məqamların şəkillərini hazırlayaq. Dərsə yaxşı başlanğıc etmək üçün həmin şəkilləri sinifdən asıb məhz onların vasitəsilə dərsə başlayaq. "Birlikdə oxuyaq" tapşırığına çatdıqda şeiri oxuyarkən oxuduğumuz hər məqamın şəklinə işarə edək. Məsələn, "İlahi, Günəş də, su da Sənin tərəfindəndir, ulduz, səma, bədirlənmiş ay da Sənin tərəfindəndir" beytini oxuyarkən Günəşin, suyun, ulduzun, səmanın və ayın şəkillərini göstərək. Bu yolla sinifdəki atmosferi yaxşı mənada dəyişmiş oluruq.

Günəş, axar su, yaxud yağış suyu,qönçə, gül, ot, bədirlənmiş ay, bağ, yer, maşınlar, səma, dəniz və digərlərinin əks olunduğu videogörüntüdən istifadə

**Xatırlatma 2:**

1- Bu dərsdə verilənlər ən azı iki dərsdə keçirilməlidir.

2- "Ailə ilə tapşırıq" istisna olmaqla bu kitabın bütün tapşırıqları sinifdə həll edilməlidir.

## Qiymətləndirmə

1- Tədris zamanı şagirdlər suallara cavab verərkən və tapşırıqları yerinə yetirərkən onların hərəkət və sözlərinə diqqət yetirilməlidir. Çünki dərsdə qiymətləndirmə aparmaq üçün bu, ən gözəl fürsətdir.

Əgər şagirdlər aşağıdakılara toxunar və ya işarə edərlərsə, deməli, biz öz məqsədimizə nail olmuşuq:

* Allahın nemətlərindən dərsdə qeyd edilənlərdən başqa digər nümunələrə də işarə edirlər.

* Allahın onların öz varlıqlarındakı digər nemətlərinə də işarə edərək onu qeyd edir və ya şəklini çəkirlər.

* Özlərinin və ya dostlarının ətrafına yaxşı-yaxşı diqqət yetirir, dərsdə deyilmiş nemətlərdən əlavə gördükləri digər nemətləri də sadalayırlar.

**Qeyd:**

Şagirdlərin qiymətləndirilməsində nəzərə alınmalı olan bir məqam da ondan ibarətdir ki, onlar kitabda verilmiş tapşırıqlara dair çoxlu nümunələr qeyd etsinlər. (Sadə və uşaqların başa düşəcəyi dildə)

# İkinci fəsil - Din təlimləri (Allahın peyğəmbərləri)

## Tədrisdə nümunəvi örnəklər 6
## İbtidai mərhələnin ikinci kitabı

### Altıncı dərs: Allahın peyğəmbərləri



**Nəzərdə tutulanlar:**

1. Allahın böyük peyğəmbərlərinin adlarını öyrənmək
2. İslam peyğəmbəri həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) adını öyrənmək
3. Allahın böyük peyğəmbərlərinə qarşı sevgi hissi
4. Allahın böyük peyğəmbərlərini daha yaxından tanımağa səy göstərmək

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Peyğəmbərlər haqqında film və ya cizgi filmlərindən fraqmentlər
4. Peyğəmbərlərin möcüzələrinin şəkillərindən istifadə

### Öyrənmə və öyrətmə metodları

Müəllim cənab Əmiri yazı lövhəsinə üç söz yazdı: Allah, peyğəmbər və insanlar sözləri. O, bu sözləri yazdıqdan sonra şagirdlərdən bu sözləri cümlədə işlətmələrini istədi. Şagirdlərin yazdığı cümlələr arasından Səidin yazdığı cümlə ən yaxşı cümlə seçildi.

### İncəlik:

Bu dərsdə şagirdlərin sadəcə Allahın böyük peyğəmbərlərinin adlarını öyrənmələri, biz müsəlmanların peyğəmbərinin həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) olduğunu və hər bir peyğəmbərin öz vəzifəsi olduğunu bilmələri kifayətdir.

Bilmək lazımıdır ki, ... 

1. Keçən dərslərdə Allahı tanıma mövzusundan danışarkən uşaqların Allahın mehriban olub bəndələri sevməsini, bizə həddən artıq çoxlu nemətlər verməsini öyrənmişlər. Bu dərsdə isə onlar öyrənəcəklər ki, Allah bizi çox sevdiyi üçün Allah bizim yaşamağın doğru yolunu tanımağımızdan və səhv əməllərlə yanlış yola getməməyimizdən ötrü peyğəmbərlər göndərmişdir.

2. Allahı tanıma mövzusu ilə bağlı ilk dərsdə "Allahın hədiyyələri" mətnini keçərkən öyrəndik ki, Allahın bizə verdiyi hər bir şey Onun tərəfindən olan bir nemətdir. Biz bu nemətlərin qədrini bilməliyik. Allahın göndərdiyi peyğəmblər də bizlər üçün nemətdir. Onların da qədrini bilmək lazımdır. Onların qədrini bilməyin yolu ondan ibarətdir ki, peyğəmbərlərin buyurduqlarına əməl edək. Əgər belə etsək, onda Allah da bizdən razı qalar. Bu məsələyə dərslik kitabının "istəyirəm ki, ..." hissəsində toxunulmuşdur.

3. Şagirdlərə öyrətməli olduğumuz əsas məsələlərdən biri də odur ki, peyğəmbərlərin sözünün eynilə mehriban Allahın sözü olduğunu onlara başa salmalıyıq. Peyğəmbərlər ona görə göndərilmişlər ki, Allahın sözlərini insanlara çatdırsınlar. Deməli, peyğəmbərlərin

sözlərinə qulaq asmaq əslində elə bizi çox sevən mehriban Allahın sözünə qulaq asmaqdır. Bu məsələyə "Əmin və Mina" tapşırığında toxunulmuşdur.

### Gözəl başlanğıc

1. Peyğəmbərlərin həyatından bəhs edən film və ya cizgi filmlərini uşaqlara göstərək. Çalışaq ki, müsəlman ölkələrinin kitomatoqrafçıların istehsalı olan filmlərdən istifadə edək.

2. Peyğəmbərlərin möcüzələri ilə birlikdə adlarının yazıldığı kartlar hazırlayaq. Həmin kartları şagirdlərə paylayaq. Sonra isə şagirdlərdən hansı möcüzənin hansı peyğəmbərə aid olduğunu soruşaq.

### İncəlik:

Kartlara digər peyğəmbərlərin də adlarını yaza bilərik. Möcüzələrə gəldikdə isə yalnız beş böyük peyğəmbərin möcüzələrini kartlara yazmaq lazımdır. Beləliklə, şagirdlər digər peyğəmbərlərin də adlarını öyrənmiş olarlar.

3. Aşağıda verilmiş cədvəl kimi bir cədvəli yazı lövhəsinə çəkək:

| Sıra | Peyğəmbərin adı | Onun möcüsəi |
|---|---|---|
| 1 | | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |

Sonra şagirdləri dördnəfərlik qruplara bölək. Hər qrupdan bir nəfər peyğəmbərlərin adları yazılmış kartları bir-bir açıb göstərsin. Qrupun ikinci üzvü həmin peyğəmbərə məxsus möcüzənin yazıldığı kartı göstərsin. Qrupun üçüncü üzvü isə həmin peyğəmbərin adını yazı lövhəsində qeyd etsin. Bu qayda ilə dördnəfərlik beş qrup növbə ilə yazı lövhəsinə çıxırlar.

4. Peyğəmbərlərin adlarının hərflərini ayrı-ayrı yazıb şagirdlərdən hərfləri birləşdirərək hansı peyğəmbərin adının yazıldığını soruşub həmin peyğəmbərin adını tam olaraq yazmasını istəyək.

5. Uşaqlardan istəyək ki, adlarını bildiyi peyğəmbərlərin adlarını desinlər. Onlar adları dedikcə biz də yazı lövhəsinə yazaq. Əgər hər hansı peyğəmbərin həyatı ilə bağlı kiçik əhvalatlar bilirlərsə, onları da sinif uşaqları üçün danışsınlar. Beləliklə, uşaqların qeyd etdiyi peyğəmbərlərin arasından beş böyük peyğəmbərə işarə etmiş olarıq. Peyğəmbərlərin vəzifələri barədə də uşaqlara məlumat verək.

6. Dərsə başlamazdan qabaq  dərsin mətninə oxşar cümlələrlə də dərsə başlaya bilərik.

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

## Qiymətləndirmə

Bu dərsdə nəzərdə tutulan əsas məqsədlərdən biri sırf Allahın böyük peyğəmbərlərinin adlarını öyrənməkdir. Əgər şagirdlər böyük peyğəmbərlərin adlarını ehtiram hissi ilə, həm də ardıcıl şəkildə çəkə bilsələr, deyə bilərik ki, biz öz məqsədimizə nail olmuşuq. Dərs deyərkən və tapşırıqları yerinə yetirərkən bu məsələni diqqət mərkəzində saxlamaq lazımdır.

# Tədrisdə nümunəvi örnəklər 7
# İbtidai mərhələnin ikinci hissəsi

## Yeddinci dərs: Kiçik qonaq



### Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlarla mehriban davranışı ilə tanışlıq

2. Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) sevgini artırmaq

3. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlarla mehriban davranışı ilə daha çox tanış olmağa səy göstərmək

### Metodik vəsaitlər

1. Kitabda verilmiş əhvalat və yaxud həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlarla davranışına dair başqa bir əhvalatın video görüntüsündən istifadə

## Öyrənmə və öyrətmə metodları

Yetim bir uşaq məsciddə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanına gedib ona özü və ailəsi barədə danışır. Uşağın ədəbli olduğundan məmnun qalan həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Bilala tapşırır ki, evə gedib uşaq üçün yemək gətirsin. Bilal evə gedib uşaq üçün 21 ədəd xurma gətirir. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) uşağa nəvaziş göstərərək xurmaları ona verir.

Bu əhvalat haqqında ətraflı məlumatı Maun surəsinin təfsiri ilə bağlı "Məcməül-bəyan" təfsirinin 10-cu cildinin 76-cı səhifəsindən əldə edə bilərsiniz.

Bilmək lazımdır ki, ... 

1. Allahıtanıma mövzusu ilə bağlı keçən dərslərdə deyilənləri və peyğəmbərlik mövzusu ilə bağlı 6-cı dərsi nəzərə alaraq Allahın mehriban olmasını və bizim üçün göndərdiyi peyğəmbərlərin də mehriban olduğunu, insanlara həddən artıq qayğı göstərdiyini öyrəndik.

2. Bu dərsdə yetimləri sevindirib onların qəlbini şad etmək mövzusuna toxunulur ki, şagirdlərimiz də ata və ya anasını (yaxud da hər ikisini) itirmiş şəxslərə qarşı mehriban olmağı öyrənib onların qəlbini şad etməyə çalışsınlar.

3. Bu mövzu ilə bağlı altı dərsdə (8, 12, 15, 17, 18 və 19-cu dərslərdə) ötəri olaraq məscid sözü işlədilmişdir. Hər dəfə bu sözün işlədildiyi anda bir yaxşı iş görülmüşdür. Beləliklə, dolayı yolla olsa da uşaqlarda belə bir yaxşılıq hissini yaratmış oluruq ki, hər dəfə məscid sözünü eşitdikdə onlarda yaxşılıq barədə fikir formalaşsın. Onlar belə başa düşsünlər ki, yaxşı işlər məhz məscidlərdə həyata keçirilir. Necə ki, bu dərsdə də həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) yetim uşağa qarşı məhz məsciddə yaxşılıq etmiş olur.

4. Bu dərsdə başqalarına qarşı ədəbli davranmaq da gözəl bir iş kimi təqdim edilmişdir. Necə ki, bu dərsdə uşağın həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) qarşı ədəbli davranışına işarə edilmişdir.

5. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) yetim uşağa qarşı mehriban rəftarı şagirdlər üçün bir nümunə ola bilər. Belə ki, bu nümunədən ilhamlanaraq onlar da özlərindən kiçiklərə qarşı mehriban və qayğıkeş olarlar. (Özündən kiçik qardaş və ya bacılarına, məktəbdə özlərindən kiçik şagirdlərə qarşı və s.)

### Gözəl başlanğıc

1. Bu əhvalatı səhnəcik şəklində sinifdə nümayiş etdirə, sonra isə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mehribançılığına dair uşaqlara daha ətraflı məlumat verə bilərik.

2. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mehribanşılığına dair dərslikdə verilmiş əhvalatın və ya başqa bir əhvalatın cizgi filmi formasında təqdim edilən video görüntüsünü uşaqlara göstərə bilərik.

3. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlara qarşı mehribançılığına dair başqa bir əhvalatı gözəl intonasiya ilə oxuyuruq.

4. Bəzi (yaxşı və pis) xüsusiyyətləri vərəqlər üzərinə yazıb uşaqlardan bəyəndikləri xüsusiyyətləri ayırmağı istəyək. Daha sonra Peyğəmbərin (səlləllahu əleyhi və alih) adını bir vərəqin üzərinə yazıb uşaqlardan soruşaq ki, bəyəndikləri xüsusiyyətlərlə Peyğəmbərin arasında nə kimi bağlılıq vardır?

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

### Qiymətləndirmə

Bu dərsin tədrisində nəzərdə tutulanları nəzərə alaraq uşaqların həzrət Peyğəmbərə (səlləllahuəleyhi və alih) qarşı ehtiram hissi bildirəcəyinə və o həzrətin uşaqlara qarşı mehribançılığına dair digər nümunələr qeyd edəcəyinə ümid edirik.

# Üçüncü fəsil - Din təlimləri (İmamət)

## Tədrisdə nümunəvi örnəklər 8

## İbtidai mərhələnin ikinci kitabı

### Qayğıkeş ata



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Həzrət Əli (əleyhissəlam) ilə daha çox tanışlıq

2. Həzrət Əlinin (əleyhissəlam) şəxsiyyətinə hörmət və sevgi hissi yaratmaq

3. İmam Əlidən (əleyhissəlam) örnək götürməyə səy göstərmək

**Metodik vəsaitlər**

1. Dərslik kitabı

2. Müəllim kitabı

3. Dərslik kitabında verilmiş əhvalata dair film və ya cizgi filminin nümayiş etdirilməsi

4. Şəhid ailələri ilə görüşdən videogörüntülər

Din təlimlərinin tədris edilməsində əsas məqsədlərdən biri şagirdlərdə din rəhbərlərinə qarşı sevgi hissi yaratmaqdır ki, bu yolla din rəhbərlərinin, xüsusilə də məsum rəhbərlərimizin əxlaq və davranışını həm özümüz, həm də övladlarımız üçün örnək qərar verə bilək.

Məsum rəhbərlərimiz olduqca nümunəvi həyat sürmüş və insanlara qarşı həddən artıq mehriban davranmışlar.

Kitabda verilmiş əhvalat "Biharul-ənvar" kitabından (c. 41, səh. 51) götürülmüşdür.

Dərsin əsas məqsədi şagirdlərdə İslam rəhbərlərinə qarşı müsbət bir fikir formalaşdırmaqdan ibarətdir.

Bu dərsdə imam Əlinin (əleyhissəlam) əxlaqına, onun yetimlərə qarşı nəvaziş və mehribançılığına toxunulmuşdur.

Bilmək lazımdır ki, ... 

Dərsin əsas məqsədi imam Əlini (əleyhissəlam) tanımaq olsa, da bir sıra digər məqsədlər də nəzərdə tutulmuşdur. O cümlədən:

1. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailəsinin mehribançılığı. Bu mövzuya 10-cu dərsdə toxunulmuşdur.

2. İmam Əlini (əleyhissəlam) örnək götürərək yetimlərə, şəhid ailələrinə və ehtiyacı olanlara yardım etmək mədəniyyətini formalaşdırmaq.

3. İmam Əlinin (əleyhissəlam) uşaqlara qarşı mehriban rəftarını göstərməklə uşaqlarda o həzrətin barəsində xoş təəssürat yaratmaq.

4. Mətndə "məscid" sözü iki dəfə təkrar edilmişdir ki, qoy bu söz uşaqların xatirində yaxşı və müqəddəs bir yer kimi yadda qalsın. Bu dərsdə həm də imam Əlinin (əleyhissəlam) məsciddə, özü də ibadət halında şəhid edilməsi məsələsinə toxunulmuşdur ki, bu da bir daha məscidin nə qədər önəmli bir yer olduğunu göstərir.

5. "Ətraflı öyrənək" bölməsində şagirdlər imam Əlinin (əleyhissəlam) həyatı və şəxsiyyəti barədə daha çox məlumat öyrənəcəklər. Uşaqlarda istər-istəməz belə bir fikir formalaşacaq

ki, həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) sonra müsəlman cəmiyyətinə rəhbərlik etməyə ən layiq şəxs həzrət Əli (əleyhissəlam) olmuşdur. “Peyğəmbərin evində böyümək”, “İslamı qəbul etmiş ilk kişi”, “əksər vaxtlar Peyğəmbərlə bir yerdə olmaq” ifadələri, habelə “həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həzrət Əliyə (əleyhissəlam) münasibəti”, “insanların ən biliklisi kimi təqdim edilməsi” kimi məsələlərin hamısı bu iddiaya sübutdur.

### Gözəl başlanğıc

1. Yaxşı olar ki, bu dərsə başlamazdan qabaq əvvəlki dərs təkrar edilsin. Yaxud həzrət Əlinin (əleyhissəlam) ailəsinin mehribançılığına dair videogörüntü təqdim edilsin və ya verilmiş əhvalat uşaqların öz dilindən nəql edilsin.

2. Dərsə “mehriban ata” və ya “səmavi kişi” ifadələri ilə də başlaya bilərik. Bu iki ifadəni yazı lövhəsinə yazıb uşaqlara deyə bilərik ki, bu ifadələr haqqında başa düşdüklərini söyləsinlər, yaxud ifadələri cümlədə işlətsinlər. Uşaqlar əvvəlcə öz atalarının mehribanlığı haqqında danışacaqlar. Bu təcrübə ilə söhbətə başlayacaqlar. Bu zaman atasını itirmiş şagirdlər də diqqətimizdən qaçmamalıdır. Dərsə başlamazdan qabaq atasını itirmiş uşaqları tanıyıb onlara qarşı xüsusi qayğı ilə dərsi izah edək.

3. Şəhid ailələri, şəhid övladları ilə görüşlərini əks etdirən videogörüntülər də bu dərs üçün gözəl başlanğıc ola bilər.

4. Şagirdlər imam Əlinin (əleyhissəlam) şəxsiyyəti ilə daha çox tanış ola bilsinlər deyə, o həzrətin həyatına dair bir cizgi filmi nümayiş etdirmək də məqsədə uyğun hesab edilir.

5. Uşaqlara deyək ki, əgər həzrət Əlinin (əleyhissəlam) həyatı ilə bağlı hər hansı bir əhvalat bilirlərsə, onu sinif yoldaşları üçün danışsınlar.

6. Bu dərsi tapmaca və ya oyun formasında da keçə bilərik. Məsələn, həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və ya imam Əlinin (əleyhissəlam) şəxsiyyəti barədə bəzi xüsusiyyətlər, məlumatlar veirb sonra isə şagirdlərdən həmin məlumatların kimə aid olduğunu soruşaq.

Yazı lövhəsində həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və imam Əlinin (əleyhissəlam) hər birinin adlarındakı hərflərin sayına uyğun boş xanalar çəkək. Sonra isə verəcəyimiz məlumatlara əsasən uşaqlardan söhbətin kimdən getdiyini müəyyən etmələrini istəyək.

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

## Qiymətləndirmə

Dərsin sonunda şagirdlər çalışacaqlar ki, həzrət Əlinin (əleyhissəlam) rəftarı barədə öyrəndiklərini ən yaxşı formada yerinə yetirsinlər. Bunun ən gözəl meyarı uşaqların sinifdən kənar biri-biri ilə davranışıdır. Biz də məhz bundan ötrü çalışmalı və imkan daxilində şagirdlərə başa salmalıyıq ki, bu məlumatları bilməklə iş bitmir. Əsas odur ki, başqaları ilə ünsiyyətdə olarkən burada deyilənlərə əməl edək.

## Dördüncü fəsil - Din təlimləri (İslam əlxaqı və ədəb qaydaları)

### Tərdisə nümunəvi örnəklər 9

### İbtidai mərhələnin ikinci kitabı

### Gözəl təbiət



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Təmizlik və səliqənin əhəmiyyətini başa düşmək, özümüzün də təmizlik və səliqəyə ehtiyacımızın olduğunu anlamaq. (Özünü tanıma anlayışını nəzərə alaraq)

2. Təmizlik və səliqə qaydaları ilə İslam əxlaqının bir hissəsi olaraq tanışlıq

3. Müxtəlif yerlərdə və müxtəlif şəraitdə təmizlik və səliqəyə riayət etməyə meyl

4. Müxtəlif yerlərdə və müxtəlif şəraitdə təmizlik və səliqəyə riayət etməyə çalışmaq

5. Allahın təmizlik və səliqəyə səbəb olan nemətlərindən birinə dair Quran mesajı ilə tanışlıq

## Metodik vəsaitlər

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Ətraf mühit və təbiətlə bağlı videogörüntülər

## Öyrənmə və öyrətmə metodları

Bu dərs bayram günlərini təbiətin qoynunda keçirən ailələr haqqındadır. Burada bəzi insanlar ətrafa atılmış zibilləri toplayır. Dərsdə Əli adlı bir uşaqla onun atası arasında söhbət gedir. Dərsin əsas qayəsi ətraf mühit və təbiətin təmizliyinin qorunmasından ibarətdir.

Bilmək laızmdır ki, ... 

1. Bu dərsdə təmizlik və səliqəyə təkid edilmişdir. Lakin bu dərslə əvvəlki dərslərin fərqi ondan ibarətdir ki, əvvəlki dərslərdə insanın öz şəxsi səliqəsinə fikir verməli olduğu qeyd edilmişdisə, bu dərsdə yaşadığımız ətraf mühit və təbiətin təmizlik və səliqəsinə fikir verməli olduğumuz ön plana çəkilmişdir.

2. Birinci dərsdə biz Allahın nemətləri ilə tanış olub öyrəndik ki, bizim nəyimiz varsa, hamısı Allahın verdiyi nemətlər, Onun bizə hədiyyəsidir. Təbiət, çöllük, səhra, meşə və yer üzündə olan nə varsa, Allahın nemətləri və bizə olan hədiyyəsidir. Heç kim istəməz ki, ona dostu tərəfindəın verilmiş hədiyyə korlansın. Hamı çalışır ki, ona verilən hədiyyəni qoruyub saxlasın.

3. Yaxşı işlərdə həmkarlıq edib əlbir olmağa diqqət. Çalışmaq lazımdır ki, yaxşı işlərə təşəbbüs göstərən insanlarla əlbir olaq. Öz davranışımızla başqalarını da yaxşı işlər görməyə dəvət edək. Dərsin sonunda da qeyd edilmişdir ki yavş-yavaş ətrafda olan insanlar ayağa qalxıb ətrafa səpələnmiş zibilləri toplayırlar. Beləliklə də çöllük əvvəlki təmiz vəziyyətinə qayıdır. Onu da qeyd edək ki, başqalarının həmkarlığı ilə görülən iş çox tez başa çatır.

4. Bu dərsdə Allahın bizə verdiyi daha bir nemətə – su nemətinə işarə edilmişdir.

### Gözəl başlanğıc

1. İnsanlar tərəfindən korlanmış təbiət şəkillərini özündə əks etdirən videogörüntü və ya şəkillərdən istifadə edib dərsə başlamazdan qabaq onu uşaqlara göstərə bilərik.

2. Yaxud olduqca gözəl və səliqəli görünən, lakin insanlar gəlib əyləşdikdən sonra çirkləşən təbiətlə bağlı videogörüntü və ya şəkillər göstərə bilərik. Belə videogörüntü və ya şəkillər şagirdlərdə müqayisə qabiliyyətini yüksəldib onların daha yaxşı nəticə çıxara bilmək bacarığını artıra bilər.

3. Ətraf mühitin insanlar tərəfindən çirklənməsi və ya çirklənmiş təbiətin insanlar tərəfindən təmizlənməsi ilə bağlı daha əvvəl televiziya kanallarında yayımlanmış fraqmentləri əldə edib proyektor vasitəsilə dərs başlamazdan qabaq uşaqlara göstərmək.

4. Bütün dünya üzrə ətraf mühitlə bağlı fraqmentlər və ya qrafika əsasında hazırlanmış görüntülər təqdim etmək.

5. Dərsdə verilmiş Quran mesajını şagirdlərdən biri uca və gözəl səslə oxusun və ya şagirdlər hamısı onu birlikdə xorla oxusunlar.

6. Su haqqında görüntülər təqdim edib uşaqlardan su və ondan istifadə halları haqqında danışmalarını istəyək.

7. Küçə və prospektlər, keçid məntəqələri və su arxlarının yerli əhali tərəfindən təmizlənməsi barədə görüntülər təqdim etmək.

### Qiymətləndirmə

Dərsin sonunda uşaqlar öz yaşadıqları ətraf mühitin təmizliyi barədə məsuliyyət hiss edəcəklər. Sinifi (öz partalarının altını) təmiz saxlamaqla yanaşı məktəbin, məhəllənin və təbiətin də təmizliyinə fikir verəcəklər.

Dərsdəki Quran mesajı şagirdlər tərəfindən oxunduqdan sonra onun barəsində izah verilir və onu öz həyatlarına şamil edirlər.

## Beşinci fəsil - Din təlimləri (Şəriət hökmləri)

### Tədrisdə nümunəvi örnəklər 10

### İbtidai mərhələnin ikinci kitabı

### Dəstəmaz alıram



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Dəstəmaz almaq və dəstəmaz alınması lazım olan hallarla tanışlıq
2. Şagirdlərdə dəstəmaz almağa qarşı xoş hissləri artırmaq
3. Dəstəmaz almağı onun şərtlərinə və ardıcıllığına riayət etməklə bacarmaq
4. Dəstəmaz almağın təmizliyə səbəb olmasını öyrənmək (özünütanımanı nəzərə alaraq)

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Dəstəmaz şeirinin videogörüntüsünü təqdim etmək
4. Dəstəmaz almaq üçün lazımi şərait hazırlamaq

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə şagirdlər dəstəmaz almağın müxtəlif mərhələlərini izah edərək praktiki şəkildə göstərirlər. Bu, icmal şəklində tanışlıqdır.

Dəstəmaz almağı daha dəqiq öyrənmək üçün isə təkrar və məşq edilməsi daha yaxşı olar. Çalışmaq lazımdır ki, dərs ilinin sonuna qədər bütün şagirdlər müəllimin iştirakı ilə dəstəmaz almağı öyrənsinlər.

Bilmək lazımdır ki, ... 

1- Bir nəfərlə görüşə getməzdən qabaq güzgüyə baxıb özümüzü səliqə-sahmana salırıq. Təmiz və gözəl paltarlarımızı geyinib görüşə gedirik. İndi təsəvvür edin, əgər bizi həddən artıq çox istəyən bir dostumuzun görüşünə hazırlaşarıqsa, deməli, əvvəlkilərdən daha artıq özümüzə fikir verməli, üst-başımızı qaydasına salıb görüşə gedərik. Allahıtanıma mövzusu ilə bağlı əvvəlki dərslərdə Allahı bizə yetərində nemətlər vermiş mehriban bir dost olaraq təqdim etdikdə qeyd etmişdik ki, Allahın verdiyi nemətlərə təşəkkür etməyin bir yolu da namaz qılmaqdır. Namaz qılaraq Allah-taala ilə danışmaq istədikdə yaxşı olar ki, təmiz, səliqə-sahmanlı olaq.

### Gözəl başlanğıc

1. Dərsə başlamazdan qabaq uşaqlardan soruşmaq lazımdır ki kim başqalarının dəstəmaz aldığını görüb? Heç olubmu ki, bu vaxta qədər özləri də dəstəmaz alsınlar?

Şagirdlər arasından bacaranları lövhəyə çıxarıb praktiki olaraq dəstəmaz almasını istəyək. Dəstəmaz aldıqdan sonra isə onun dəstəmazı düzgün alıb-almaması barədə şagirdlərlə fikir mübadiləsi aparaq.

2. Dərsə başlamazdan qabaq şəhid Mütəhhərinin “Doğruların hekayəsi” əsərindən “Qoca və uşaqlar” hekayəsini oxuya və ya bu hekayənin videogörüntüsünü nümayiş etdirə bilərsiniz. Hər halda bu, daha yaxşı olar.

Yaşlı bir qoca dəstəmaz alırdı. Ancaq o, dəstəmazın düzgün alınması qaydasını bilmirdi. O vaxt balaca uşaqlar olan imam Həsənlə imam Hüseyn qocanın yanlış dəstəmaz aldığını gördülər. Təbii ki, yanlış yolda olana səhvini başa salmaq lazım idi. Buna

görə də onlar qocaya dəstəmaz almağın düzgün qaydasını başa salmaq qərarına gəldilər. Ancaq əgər ona açıq şəkildə: “Sən dəstəmazı düzgün almırsan” – desəydilər, onun xətrinə dəyməklə yanaşı, həm də onda dəstəmaz haqqında həmişə pis xatirə qalacaq. Həm də haradan bilmək olar ki, ona deyiləcək sözləri o, özünə qarşı təhqir kimi qəbul etməyəcək?

Bu iki balaca uşaq fikirləşib belə qərara gəlirlər ki, ona məsələni dolayısı yolla başa salsınlar. Bu məqsədlə onlar əvvəlcə bir-biri ilə mübahisə etməyə başlayırlar. Biri deyir ki, mənim dəstəmazım düzdür, digəri isə deyir ki, yox, mənim dəstəmazım düzdür. Sonra belə razılığa gəlirlər ki, qocanın qarşısında dəstəmaz alsınlar, qoca da onlardan hansının dəstəmazının düzgün olduğuna qərar versin. Belədə edirlər. Hər ikisi qocanın qarşısında düzgün şəkildə dəstəmaz alır.

Onların dəstəmaz aldığını görən qoca başa düşür ki, düzgün dəstəmaz necə alınmalıdır. O, öz dünya görüşü ilə bu iki uşağın fərasətinə heyran qalıb onlara deyir: “Sizin hər ikiniz düzgün dəstəmaz aldınız. Yanlış dəstəmaz alan isə mənəm. Öz babanızın ümmətinə olan ehtiramınızla mənim səhv dəstəmaz aldığımı mənə başa saldığınıza görə sizə təşəkkür edirəm.”

Şagirdlər bu hekayəni sinifdə səhnəcik formasında da təqdim edə bilərlər. Lakin səhnəcikdən qabaq uşaqlara dəstəmaz almağın düzgün qaydası başa salınmalıdır. Yaxud da səhnəciyin icrası zamanı yuxarı sinif şagirdlərini dəvət etmək olar.

3- Şagirdləri tədricən və hissə-hissə məktəbin dəstəmazxanasına aparıb kiçik qruplar halında onlara düzgün dəstəmaz almağı öyrətmək lazımdır.

4- Dəstəmazın müxtəlif mərhələlərini kağızlar üzərinə yapışdırıb şagirdlər arasında yarış keçirmək olar. Belə ki, şagirdləri dörd nəfərlik qruplara bölüb şəkilləri düzgün ardıcıllıqla düzmələrini tələb edək.

## Qiymətləndirmə

Şagirdlər dəstəmaz alınması tələb olunan halları izah edir və düzgün şəkildə dəstəmaz alırlar. Eyni zamanda öz təmizliklərinə fikir verib həmişə təmiz olmalarına önəm verirlər.

# Tədrisdə nümunəvi örnəklər 11
# İbtidai mərhələnin ikinci kitabı
## Namaz qılaq



### Dərsin tədrisində nəzərdə tutulanlar:
1. İki rükətli namazın qılınma qaydasını öyrənmək
2. Şagirdlərin namaza olan sevgisini artırmaq
3. Şərtlərinə riayət edərək iki rükətli namaz qılmaq

### Metodik vəsaitlər
1. İki rükətli namazın qılınmasını göstərən videogörüntü
2. İki rükətli namazdan müxtəlif şəkillər
3. Namaz qılmaq qaydasını öyrədən audiofayl

### Öyrənmə və öyrətmə metodları
İbtidai mərhələnin ikinci kitabında namazla bağlı nəzərdə tutulan məqsəd ondan ibarətdir ki, şagirdlər namaz qılmağı və namaza aid məsələləri bilmədikləri üçün dərs ilinin sonuna qədər namaz qılmağa həvəslənib iki rükətli bir namaz qılmağı öyrənsinlər.

**Qeyd:** Bu məqsədə nail olmaqdan ötrü yaxşı olar ki, dərs ili başa çatana qədər şagirdlərin hər biri ayrı-ayrılıqda müəllimin iştirakı ilə iki rükətli namaz qılsın.

Bilmək lazımdır ki, ... 

1. Uşaqlar bilməlidirlər ki, namaz qılmağı öyrənməyin əsas yolu düzgün şəkildə namaz qılan şəxsin yanında dayanıb onunla birlikdə namaz qılmaqdır. Bu, evdə valideyn də ola bilər, müəllim özü də ola bilər, məhəllə məscidinin pişnamazı da.

2. Unutmaq olmaz ki, namazı düzgün qılmağı öyrənmək yalnız gündəlik təkrar və məşq etməklə mümkündür. Kitabda da buna dəfələrlə işarə edilmişdir.

3. Namaz qılarkən uşaqlar sakit qalmayıb daim o tərəf-bu tərəfə hərəkət etdiyi üçün onlara başa salmaq lazımdır ki, namazın əsas vacib əməllərindən biri də namaz qılarkən bədənin sakit qalmasıdır. Bu məsələ dərslik kitabında "üzü qibləyə sakit şəkildə dayanırıq" cümləsi ilə bildirilmişdir.

**Qeyd:** Hörmətli həmkar, namazın vacib zikrlərini izah edərkən ən az miqdarla kifayətlənmək lazımdır. Dərsdə də qeyd edildiyi kimi, namazın müstəhəb zikrlərinə toxunmaq lazım deyil. Bu iş şagirdlərin namazı daha rahat şəkildə öyrənə bilməsinə səbəb olar. Bu məqsədlə dərslik kitabında rükunun "subhanə rəbbiyəl əzimi və bihəmdih" və səcdənin "subhanə rəbbiyəl əla və bihəmdih" zikrlərinin əvəzinə üç dəfə "subhanəllah" zikrinin təkrar edilməsi qeyd edilmişdir. Eləcə də qunut üçün hər hansı bir zikr qeyd edilməmişdir.

4. İkinci dərsdə qeyd edildiyi kimi, Allah-taala ilə danışmağın ən gözəl yolu namaz qılmaqdır. Dərsdə bu məsələ Zeynəbin anasının dilindən izah edilir.

## Gözəl başlanğıc

1. Yaxşı olar ki, namazı uşaqlara hissə-hissə öyrədək. Belə ki, hər dəfə namazın bir hissəsi uşaqlara öyrədilsin. Əgər belə olarsa, onda həm şagirdlərin hamısı namazı yaxşı öyrənə bilər, həm də müəllim hər dəfə uşaqlara öyrətdiyi hissəni onlardan yaxşı soruşa bilər.

**Qeyd:** Qiraətin düzgün olmasına çox da ciddi yanaşmaq lazım deyil. İmkan verək uşaqlar özləri bizim düzgün qiraətimizə və ya namaz audiofaylındakı düzgün qiraətə öyrəşsinlər.

Namaz qılmaq uşaqlar üçün ibadətdən daha çox oyun və əyləncə xarakteri daşıyır. Düzdür, bunu deməyə ehtiyac yoxdur. Ancaq uşaqların hələ başa düşə bilməyəcəyi və öyrənməkdə çətinlik çəkəcəyi şeyləri deməyə də tələsmək lazım deyil.

Çalışmaq lazımdır ki, uşaqlara namazı öyrədərkən onlarda maraq yaradaq. Onlar üçün zövq alacaqları təcrübə imkanı yaradaq. Çünki onların növbəti illərdə də namaz və onunla bağlı məsələləri öyrənmək üçün fürsəti olacaq.

## Qiymətləndirmə

Qeyd etmək lazımdır ki, bütün il boyu mütəmadi olaraq namaz qılmaq üzərində təkrar və məşq şagirdlərin ilin sonuna qədər namaz qılmağı öyrənməsinə şərait yaradacaq. Ümid edirik ki, dərs ilinin sonuna qədər uşaqlar iki rükətli namaz qılmağı öyrənəcək və məktəbdə gündəlik qılınan namaza fəal şəkildə qoşulacaqlar.

## Ailə

Uşaqlara tapşırmaq lazımdır ki, evdə ata-anaları namaz qılarkən onların yanında dayanıb iki rükətli namaz qılmağı məşq etsinlər. Özləri üçün canamaz və möhür hazırlayıb böyük namaz qılarkən onların yanında dayanaraq iki rükətli namaz qılsınlar.

# Altıncı fəsil - Din təlimləri (İslami mərasimlər)

## Tədrisdə nümunəvi örnəklər 12
## İbtidai mərhələnin ikinci kitabı
### Böyük bayram



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Şagirdlərin imam Zamanın (əccələllahu fərəcəh) mübarək adı ilə tanışlığı
2. İmam Zamana (əccələllahu fərəcəh) sevginin artırılması
3. İmam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimini təşkil etmək və bu tədbirdə iştirak etmək istəyi

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. İmam Zamanın (əccələllahu fərəcəh) mövluduna dair audiofayl

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasiminin keçirilməsi bir uşağın dilindən nəql olunur. Bu dərs əsasən həzrət Mehdinin (əccələllahu fərəcəh) mübarək adı ilə icmal tanışlığa və onun mövlud günü ilə bağlı keçirilən tədbirə həsr olunur.

**Qeyd:** Bu dərsdə imam Zamanın (əccələllahu fərəcəh) bütün xüsusiyyətləri barədə məlumat verməyə ehtiyac yoxdur. Onsuz da növbəti illərdə şagirdlər o həzrətin xüussiyyətləri, onun barəsində daha ətraflı məlumatlar keçəcəklər. Təbii ki, bu, şagirdlərin yaş səviyyəsinə uyğun şəkildə keçirilir.

Bilmək lazımdır ki, ... 

1. Bu dərsdə ictimai və qrup işi mədəniyyətindən də söhbət edilir.
2. Dərsdə məscidə gedib imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimində iştirak etməkdən danışılır.
3. İmam Zaman (əccələllahu fərəcəh) ilə bağlı maraqlı bir şəkil şagirdlərdə o həzrətə qarşı maraq, sevgi və onun mövlud tədbirində iştirak etmək istəyi yarada bilər.

## Gözəl başlanğıc

1. Şagirdlər imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimi ilə əlaqədar olaraq məhəllə və ya məscidin bəzədilməsi ilə bağlı təəssüratlarını sinif yoldaşları ilə bölüşsünlər.
2. Şagirdlərə imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimi ilə əlaqədar olaraq məhəllə və ya məscidin bəzədilməsinə dair şəkillər göstərmək
3. Uşaqlara Cəmkəran məscidi və imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimi ilə əlaqədar olara həmin məscidin bəzədilmiş şəkillərini təqdim etmək
4. Sinif otağını bəzəyək və imam Zamanın (əccələllahu fərəcəh) mövlud mərasimi ilə əlaqədar olaraq uşaqların hər birinə müəyyən bir iş tapşıraq.
5. Əgər imam Zamanın (əccələllahu fərəcəh) mövlud günü dərs ili günlərinə düşərsə, bu dərsi məhz həmin ərəfədə keçək. Çünki bu dərsin imamın mövludu ərəfəsində keçirilməsi şagirdlərin yaddaşında daha dərin iz buraxar. Onlar həmin ərəfədə cəmiyyətdə də bir canlanmanın şahidi olacaqlar.

Qiymətləndirmə

Ümid edirik ki, dərsin sonunda uşaqlar imam Zamanı (əccələllahu fərəcəh) böyük ehtiram hissi ilə anacaq və onun mövlud mərasimində fəal şəkildə iştirak edəcəklər.

Üçüncü hissə

3

# Tədrisdə nümunəvi örnəklər Din təlimləri

## (səmavi hədiyyələr)

İbtidai mərhələnin üçüncü hissəsi

# Birinci fəsil - Din təlimləri (Allahıtanıma)

## Tədrisdə nümunəvi örnəklər 13

## İbtidai mərhələnin üçüncü kitabı

### Boş qollar



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Allahın nemətlərini nəzərə alaraq Onun bağışlayan və mehriban olmasını öyrənmək
2. Allaha sevgi ilə yanaşı Ona möhtac olmaq hissini gücləndirmək
3. Allahın sonsuz nemətlərinə görə uyğun bir tərzdə şükr etmək
4. Şagirdlərin Allahın çoxsaylı nemətlərini bəyan etməsi
5. Allahın insanın öz bədənində yaratdığı nemətlər (özünütanımanı nəzərə alaraq)
6. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Kitabdakı və digər şəkillərdən istifadə
4. Dərslik kitabında verilmiş ayələrin audiofaylı

## Öyrənmə və öyrətmə metodu

Bildiyiniz kimi, biz dərsin adından istifadə edərək dərsin tədrisində nəzərdə tutulan məqsədə bilavasitə giriş edə bilmərik. Buna görə də dərsə başlamazdan əvvəl müəllim kitabına müraciət etmək lazımdır. Əgər müəllim kitabını əldə edə bilməsək, onda heç olmasa dərsin tapşırıqlarını nəzərdən keçirməliyik. Çünki tapşırıqlarda dərsin tədrisində nəzərdə tutulmuş məqsədə müəyyən işarələr vardır.

Bu dərsdə verilmiş mətn çörək almaq üçün çörək sexində növbəyə dayanmış bir uşaq haqqındadır. O, özündən bir qədər irəlidə çörək növbəsinə dayanmış bir kişini görür. Kişinin əynində palto olsa da, onun qolları boş idi. Uşaq öz-özünə fikirləşir ki, bu kişinin qolları yoxdursa, bəs çörəyi necə tutacaq? Uşaq bir anlıq özünü həmin kişinin yerində təsəvvür edib çörəyin pulunu necə verəcəyi, çörəyi necə tutacağı barədə çıxış yolları fikirləşməyə başlayır.

Bilmək lazımdır ki, ... 

1. İkinci kitabda “Allahın nemətləri” dərsində Allahın nemətləri mövzusunu təkrar edərək Allahın nemətlərinin əhəmiyyəti və təsiri barədə danışdıq.Üçüncü kitabda isə səy göstərilmişdir ki, başqa bir formada (nemətin əldən şıxması formasında) Allahın bizə verdiyi nemətlərin əhəmiyyətinə işarə edilsin.

2. Bu dərsdə öyrənə biləcəyimiz başqa bir məqam ondan ibarətdir ki, mətndəki əhvalatda verilmiş yeniyetmələrin ətrafda baş verənlərə biganə qalmamasıdır. Onlar ətrafda baş verənlərdən tamamilə xəbərdardırlar.

3. Qeyd edilesi daha bir məqam odur ki, uşaqlar və yeniyetmələr ətrafa diqqətlə baxsınlar. Ətrafda olanları yaxşı izləyə bilsinlər. Yeri gəldikcə yaxşı və maraqlı suallar verməyi bacarsınlar. Onları yaxşı suallar verməyə həvəsləndirmək lazımdır. Buna isə yalnız ətrafda olanları yaxşı izləməklə nail olmaq mümkündür.

4. Mətndə verilmiş əhvalatın qəhrəmanının rəftarında diqqəti cəlb edən təqdirəlayiq bir hal da gördüyü şəxsin əl nemətindən məhrum olmasına görə ona ürəyinin yanmasıdır. Çalışmaq lazımdır ki, həmişə başqalarını da fikirləşib köməyə ehtiyacı olanlara yardım əlimizi uzadaq. Özümüzü onların yerinə qoyub mövcud vəziyyətlərini başa düşməyə çalışaq. Bu, olduqca gözəl və təqdirəlayiq haldır. Uşaq və yeniyetmələrdə bu hissi gücləndirmək lazımdır.

5. Bu dərsdə işarə edilmiş məqamlardan biri də həm dil, həm də əməli şəkildə təşəkkür bildirməkdir. O da bildirilir ki, verdiyi saysız-hesabsız nemətlərə görə Allaha təşəkkür etməyin yolu odur ki, Onun verdiyi nemətlərdən düzgün və yaxşı şəkildə istifadə edilsin.

### Gözəl başlanğıc

1. Bu dərsə dərslikdə oyun şəklində verilmiş tapşırıqlarla da başalaya bilərik. Baş barmaqdan istifadə etmədən paltarın düyməsini bağlamaq, gözübağlı halda səs gələn tərəfə getmək və bu kimi oyunlardan istifadə etmək mümkündür.

2. Əli göstərərək soruşa bilərik ki, əldə nələr var? Ovucun işindəki cizgilər, barmaqların bəndləri, barmaqlar üzərindəki dırnaqlar və s. Sonra da uşaqlardan soruşaq ki, məsələn, dırnaq nə kimi işə yarayır? Uşaqlar müxtəlif cavablar verə bilərlər. Məsələn, kimisi deyə bilər ki, dırnaq barmaqlara gözəllik verir, kimisi deyə bilər ki, dırnaq barmaqlar üçün dayaqdır. Başqa birisi deyə bilər ki, dırnaq barmaq uclarını və barmağın ucundakı ətləri qoruyur. Başqa birisi deyə bilər ki, dırnaq hər hansı yapışmış bir şeyi qopartmaq, bədəni qaşımaq və s. üçündür. Yaxşı, əgər dırnağımız olmasa, onda nə baş verər? Belə olarsa, onda uşaqların verdiyi cavablardakı işlərin heç biri mümkün olmaz. Buna bənzər sualı eynilə barmaqların bəndləri haqqında da verə bilərik. Bu suala da şagirdlər müxtəlif cavablar verə bilərlər. Axırda belə nəticəyə gələcəyik ki, əgər barmaqların bəndləri olmazsa, barmaqlarımızı qatlaya bilmərik.

3. Kitabda verilmiş əhvalatın özünü də sinifdə səhnəcik formasında təqdim edə bilərik.

4. Bədənin dügər üzvlərini (məsələn, göz, qaşlar, dodaqlar və s.)

əks etdirən şəkillərdən istifadə edib onların gündəlik həyatımızdakı əhəmiyyəti və təsirindən danışa bilərik. Bu üzvlərin olmayacağı təqdirdə nələrin baş verəcəyini müzakirə etmək olar.

5. İnsanın ayaq barmaqlarının ucundan tutmuş başa qədər bədənindəki bütün nemətlərin adlarını yazın. Sonra isə uşaqların hər biri onları oxusun.

6. Kitabda verilmiş şəkillər, yaxud dərslə bağlı ayələrin audiofaylından istifadə edərək bu mövzu barədə fikir mübadiləsi aparmaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

أَلَمْ نَجْعَل لَّهُ عَيْنَيْنِ. وَلِسَانًا وَشَفَتَيْنِ

Məgər Biz ona iki göz vermədikmi?! Eləcə də bir dil və qoşa dodaq (vermədikmi)?!

Bələd surəsi, 8-9-cu ayələr

اذْكُرُوا نِعْمَتَ اللَّهِ عَلَيْكُمْ

Allahın sizə olan nemətini yada salın.

Fatir surəsi, 3-cü ayə

## Qiymətləndirmə

Dərsin sonunda şagirdlərdən gözləntilərimizdən biri də odur ki, kitabda verilmiş və ya müəllim tərəfindən hazırlanmış tapşırıqlardan sonra şagirdlər insanların, eləcə də digər varlıqların bu və digər ehtiyacları, habelə onların təmin edilməsi yolları ilə bağlı müxtəlif nümunələr qeyd edəcəklər. Yazılı mətn formasında və ya şifahi şəkildə Allahın nemətlərinə görə Ona təşəkkürünü bildirəcəklər.

Dərsdə verilmiş Quran mesajını oxuyub mənasını başa düşəcək və bir neçə nümunə ilə onu izah edəcəklər.

### Ailə

Valideynlər Allahın onlara verdiyi ən böyük nemətin nədən ibarət olduğunu qeyd edib öz fikirlərini sübutlarla əsaslandırsınlar. Şagirdlər valideynlərin qeydlərini məktəbə gətirib sinifdə oxusunlar.

# Tədrisdə nümunəvi örnəklər 14
# İbtidai mərhələnin üçüncü kitabı
## Bir bahar gününün sonu



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Allah-taala ilə danışmağın və Ondan istəklərimizi diləməyin yolu olaraq dua etməklə tanışlıq
2. Allah-taala ilə danışıb dua etməyə meyl
3. İnsanın Allahın nemətlərinə möhtac olduğunu anlamaq
4. İnsanın öz arzu və istəklərini sadə bir dua formasında Allahdan istəməsi
5. Allahın sonsuz nemətlərinə görə Ona uyğun bir şəkildə şükr etmək
6. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Təbiətlə bağlı müxtəlif şəkil və videogörüntülər
4. Uşaqların dua etməsinə dair şeirin videogörüntüsü və yaxud onunla əlaqədar cizgi filmi
5. “Ayın xatirəsi” dərsinə aid şəkil qalereyası

## Öyrənmə və öyrətmə metodları

"Boş qollar" dərsinin davamında Allahın bizə verdiyi nemətlərə görə Ona şükr etmək hissi aşılanır. Allaha şükr etməyin yollarından birinin dua etmək olduğu bildirilir. İbtidai mərhələnin ikinci kitabında "Ayın xatirəsi" adlı dərsdə də bu mövzuya, habelə dua etməyin ədəb qaydalarına toxunulmuşdu.

Dua bizim mehriban olan Allah ilə əlaqə yaratmağımız üçün bir vasitədir. Allah-taala Qurani-Kərimdə buyurur ki, ey peyğəmbərimiz, ümmətinə de ki, əgər sizin duanız olmasaydı, Allah sizə qətiyyən diqqət yetirməzdi.

Bilmək lazımdır ki, ... 

1. Şagirdlərə öyrətməli olduğumuz məsələlərdən biri odur ki, onlara dua edib Allah-taala ilə ünsiyyətdə olmaq üçün bir vaxt ayırmalarını başa salmalıyıq. Dua etməyin yolu, ədəb qaydaları haqqında bizə məsumlardan gəlib çatmış məlumatlar vardır. Ümumiyyətlə, hər bir insan gününün müəyyən bir vaxtını duaya həsr etməlidir.

2. Hədislərdə qeyd edildiyinə əsasən, dua etmək üçün ən gözəl vaxtlardan biri yağış yağan vaxtdır.Yağış Allahın mərhəmətidir. Buna görə də yağış yağan vaxt dua etmək üçün ən münasib zamandır. Duanın qəbul edilməsi üçün daha təsirli ola biləcək başqa vaxtlar da vardır. O cümlədən:

a) Quran səsi eşidildikdə
b) Azan səsi eşidildikdə
c) Ata-ananın üzünə sevgi və məhəbbətlə baxdıqda
ç) Kəbə evi yuyulduqda

3. Dərsdə də işarə edilmiş duanın ədəb qaydalarından biri duanın vaxtıdır. Digər bir qayda isə əvvəlcə başqaları üçün dua edilməsidir. Yalnız bundan sonra insan özü üçün dua etməyə başlamalıdır.

4. Bu dərsdə dua etməyi öyrənməklə yanaşı Allahın bizə verdiyi və uşaqların əvvəlki kitablardan da nemət olaraq tanıdığı bəzi nemətlərə də işarə edilmişdir. (Məsələn, ata, ana, bacı, qardaş, baba, nənə, qohumlar, müəllim, yağış.)

5. Dərsdə aşağıdakı məqamlara dolayısı yolla işarə edilmişdir:

a) Boynumuzda haqqı olan insanlar, məsələn, müəllim, ata-ana və s. üçün dua etmək
b) Xəstə insanlar üçün dua etmək və onlara qayğı göstərmək

c) Başqalarının uğurlarına paxıllıq etməmək, onların daha da uğur qazanmasını arzulamaq

ç) Dost-tanışlarla, yaxın insanlarla mübahisə etməmək, dalaşmamaq

d) Yaşlı və qocalara, zəif adamlara kömək etmək, lazım gəldikdə onlara baş çəkmək

e) Ata-anaya ehtiram və onların razılığını cəlb etmək

ə) Bacı-qardaşa ehtiram və onları sevmək

### Gözəl başlanğıc

1. Dərsin mətnini aramla oxumağa başlayaraq gözəl başlanğıc edə bilərik. Kitabdakı dualara yetişdikdə hamı birlikdə "İlahi, amin" deyə bilərik. Habelə oxumaq dua etmək istəyən könüllü şagirdlərdən dua etməsini istəyib birlikdə amin deyə bilərik.

2. Dərsə gözəl başlanğıc etməyin daha bir yolu o ola bilər ki, kitabdakı "tamamlayın" tapşırığının surətini çıxraıb uşaqlara paylayaq. Onlara tapşıraq ki, sevdikləri insanların adlarını yazıb onlar üçün dua etsinlər. Uşaqlar öz müəllimlərini sevdiyi üçün təbii ki, onun da adını yazacaqlar. Buna görə də yaxşı olar ki, müəllim də öz sinifini qeyd edib bütün uşaqların adlarını yazsın və onu uca səslə oxusun. Uşaqlara qabardılmış şəkildə çatdırmaq lazımdır ki, bizə pisliyi dəymiş və indi adını yazıb-yazmamağımız barədə tərəddüd etdiyimiz şəxslərlə bağlı onu demək olar ki, Allah bağışlayan olduğu üçün biz də həmin şəxslərin səhvlərinə göz yumuruq. Qoy Allah da bizim səhvlərimizə göz yumub Öz mərhəmətini bizə də şamil etsin.



**Qeyd:** Bu yolla bir-birindən incimiş şagirdləri də barışdırmış olarıq.

3. Allahın müxtəlif nemətlərinin əks olunduğu fotoqalereyadan istifadə edə bilərik. Bu nemətlərin bəzisi kitabdada verilmişdir. Nemətlərlə bağlı uşaqlarla fikir mübadiləsi aparaq.

4. "Allahım yaradıb" şeirini uşaqlarla birlikdə oxuyaq. Şeirin hər beytinə aid şəkillər hazırlayıb beytləri oxuduqca hər beytə aid şəkillərə işarə edək. Bu yolla şeir haqqında uşaqların fikrində bir görüntü yaratmış olarıq.

Şeiri oxuyarkən şəkillərdə verilənlərlə (çöllük, bağ, meşə, yer, gül, ləçək, gecə, ulduz və s.) bağlı videogörüntüdən də istifadə edə bilərik.

5. Uşaqlara deyək ki, hər biri Allahdan olan istəyini bir kağıza yazıb büksünlər. Sonra hamı öz kağızını qatlayıb bir güldana və ya bir karton

qutuya atsın. Sonra da uşaqlardan biri kağızları götürüb bir-bir uca səslə oxusun.

Uşaqlar öz qəlbinin dərinliyindən gələn istəklərini eşitdikdə ürəkdən: “İlahi, amin” – deyəcəklər. Beləliklə, sinifdə çox fərqli bir atmosfer yaranacaq.

rinə şükr edin.




6. Dərsdə verilmiş Quran mesajı şagirdlərdən biri öz gözəl səsi ilə oxuya, ya da uşaqlar hamısı birlikdə oxuya bilərlər. Quran mesajında verilmiş ayənin audiofaylından da istifadə edə bilərik.



7. “Ayın xatirəsi” mətninə aid görüntülərdən də istifadə edilə bilər. İbtidai mərhələnin ikinci kitabında verilmiş bu mətni təkrar etmək də bu dərs üçün gözəl başlanğıc sayıla bilər. Çünki hər iki dərsdə eyni məqsəd güdülür.

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

## Qiymətləndirmə

Bu dərsdən sonra gözləmək olar ki, şagirdlər qısa bir cümlə ilə öz istəklərini dua şəklində dilə gətirəcəklər. Eləcə də verdiyi nemətlərə görə Allaha şükr etməyi öyrənəcək, kiçik bir mətn şəklində Allaha təşəkkürlərini bildirəcəklər.

Şagirdlər dərsdə verilmiş Quran mesajını oxuyub uşaq dili ilə onu izah edərək nümunələr çəkəcəklər.

### Ailə

Şagirdlərə tapşıraq ki, evdə ailələri ilə birlikdə Allahın bəzi nemətilərini qeyd edərək bir neçə sətirdə bu nemətlərə görə Allaha öz təşəkkürlərini bildirsinlər. Dərslikdə də belə bir tapşırıq verilmişdir. Biz ailə üzvlərinin (ata, ana, və s.) bir neçə mətnini, şagirdlərin isə bir mətnini seçib sinifdə oxuya bilərik.

## Tədrisdə nümunəvi örnəklər 15

# İbtidai mərhələnin üçüncü kitabı

## Həmişə mənimlə



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlıq həyatı və xüsusiyyətləri ilə tanışlıq
2. Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) və onun əməllərinə, davranışına qarşı sevgi
3. Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) ehtiram
4. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyat və şəxsiyyətindən örnək götürmək
5. Quran mesajı ilə tanışlıq

### Metodik vəsaitlər

Bu dərsdə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlıq dövrünə, onun (süd anası) Həlimə ilə keçirdiyi illərə işarə edilmişdir. Balaca Mühəmməd çox kiçik olduğu üçün Həlimənin uşaqları ilə birlikdə çölə gedə bilməsə də çölə getmiş qardaşlarının

(Həlimənin uşaqlarına) qarşılaşdığı çətinliklərə görə narahatdır. Balaca Mühəmməd süd anası Həlimədən istəyir ki, onu da uşaqlarla birlikdə çölə göndərsin. Lakin Həlimə də öz növbəsində ona tapşırılmış əmanətin başına bir iş gələ biləcəyindən qorxub ehtiyat edir. Buna görə də onun boynuna güya onu təhlükələrdən qoruyacaq bir boyunbağı asır. Ancaq balaca Mühəmməd boyunbağını boynundan çıxarıb ədəblə deyir ki, anacan, bu boyunbağı heç nəyə qadir deyil. Məni qoruyan bir varlıq həmişə mənimlədir. O, məni bütün təhlükələrdən qoruyur.

Bu əhvalatda həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) uşaqlıq dövründəki gözəl davranışı, onun hətta kiçik yaşlarında belə Allaha imanı və təfəkkür əhlindən olması göstərilir.

Bilmək lazımdır ki, ... 

1. Bildiyimiz kimi, bəzi dərsləri il ərzindəki müəyyən əlamətdar hadisələr ərəfəsində keçmək lazımdır. Belə dərslərdən biri də məhz bu dərsdir. Yaxşı olar ki, bu dərs həzrət Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mövlud günü və ya Məbəs bayramı ərəfəsində keçirilsin. Təbii ki, həmin günlər tətil vaxtına düşmədiyi təqdirdə. Əgər həmin günlər tətil vaxtına düşərsə, onda müəllim sinif uşaqlarında gözəl bir halla qarşılaşdıqda və ya onlardan hər hansı bir bəyənilməz xüsusiyyət müşahidə etdikdə bu dərsi keçmək üçün ən münasib zaman məhz o vaxtdır.

2. Təəssüflər olsun ki, cəmiyyətdə bir sıra əsassız fikirlər inanc kimi formalaşmışdır. Belə hallardan birinə bu dərsdə açıq şəkildə işarə edilmişdir. Şagirdlərə başa salmaq lazımdır ki, boyunbağı, yaxud bilərzik və bu kimi şeylər insanı heç bir təhlükədən qoruya bilməz. Buna görə də sırf İslam təlimlərinin də buyurduğu kimi, yalnız Allaha təvəkkül etməklə və Allahın buyurduqlarına əməl etməklə öz taleyimizi müəyyənləşdirə bilərik.

3. Nə üçün həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) anasının deyil, dayə, yaxud süd anasının yanında qalırdı? Bu, uşaqların, mütləq, soruşacağı bir sualdır. Onların cavabında belə deyə bilərik:

Bəni-Səd qəbiləsindən olanlar hər il Məkkə şəhərinə gəlirdilər ki, südəmər uşaqları özləri ilə aparıb onlara dayəlik edib bu yolla qazanc əldə etsinlər. Həm də Məkkə şəhərinin uşaqları:

a) Səhranın təmiz havasında böyüsünlər

b) Şəhərdə daha çox olması ehtimal edilən xəstəliklərdən uzaq olsunlar

c) Dözümlü və aktiv olsunlar

ç) Səhra adamlarının arasında qalıb ərəb ədəbi dilini təmiz öyrənsinlər.

Həlimə ilə həyat yoldaşı da həmin il qəbilə adamları ilə birlikdə Məkkəyə gəlmişdi. Həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) anası Aminə xanım oğlunu Həliməyə tapşırır ki, onu səhraya aparıb orada böyütsün.

### Gözəl başlanğıc

1. Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) filmindən Kəbə evindəki bütlərin sındırılması fraqmentinin videogörüntüsünü təqdim etmək. Burada da o həzrət uşaqlıq dövründə olduğu kimi, Allaha pərəstiş etməsini nümayiş etdirir, bütpərəstliyə, şirkə nifrət etdiyini göstərir.

2. Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) filmindən Peyğəmbərin gecə ikən gizlicə Məkkəni tərk edib Mədinə istiqamətinə getməsi, Allah düşmənlərinin təhlükəsindən amanda qalmaq üçün Sur mağarasında gizlənməsi, Allahın izni ilə mağaranın giriş hissəsində bir hörümçəyin tor qurması və quşun yumurta qoyması fraqmnetini təqdim etmək.

3. Dərsə başlamazdan qabaq bu iki hadisəyə aid şəkilləri də uşaqlara göstərə bilərik. Şəkilləri göstərərkən uşaqlar şəkillərə aid hadisələri bildiyi təqdirdə danışmalarını istəyək.

4. Dərsdəki Quran mesajında verilmiş Yusuf surəsinin 64-cü ayəsini birlikdə oxuyaq və ya həmin ayənin audiofaylını səsləndirək. Əgər sinifdəki uşaqlardan həmin ayəni gözəl səslə,

tərtil formasında oxuya biləcək şagird varsa, oxutduraq. Sonra isə həmin ayənin mənası barədə düşünüb şagirdlərin hər birinin fikrini öyrənək.

5. Bu dərsdə verilmiş əhvalatı əks etdirən cizgi filmi tapa biləriksə, onu sinifdə proyektor vasitəsilə uşaqlara göstərək.

6. Sinifdəki atmosferi daha da cəlbedici etməkdən ötrü həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) uşaqlıq dövrünü səhnələşdirə də bilərik. Səhnəciyi göstərməzdən qabaq "Aminə", "yetim", "səhra", "Əmin" (inanılmış), "Abdullah", "cəsur", "Allaha pərəstiş edən", "mehriban və qayğıkeş", "şəhər", "kənd", "qorxaq", "Allaha pərəstiş etmirdi", "mərhəmətsiz", "rəhimsiz" və bu kimi söz və ifadələri kağızlara yazıb səhnəciyə əsasən hər uşaq kağızlardan birini seçsin. Eyni zamanda seçdiyi kağızın seçmə səbəbini bildirsin.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsdən sonra uşaqlar həzrət Peyğəmbərin (səlləllahuəleyhi və alih) uşaqlıq dövrü haqqında məlumatı öyrənmiş olub öyrəndiklərinin bir hissəsini danışacaqlar. Eləcə də Peyğəmbərin (səlləllahuəleyhi və alih) həyatı barədə daha ətraflı məlumat öyrənmək istəyəcəklər. Uşaqlar o həzrətin uşaqlıq dövrü ilə bağlı digər məlumatlar da öyrənib danışa bilərlər. Eləcə də çalışacaqlar ki, özlərini o həzrətə oxşatsınlar.

Uşaqlar həmçinin dərsdə verilmiş Quran mesajını yaxşı-yaxşı oxuyub onu öz həyatındakı nümunə və misallarla izah edə bilərlər.

### Ailə

Valideynlər həzrət Məhəmməd (səlləllahu əleyhi və alih) haqqında ən yadda qalan bir əhvalatı uşaqlara danışsınlar. Uşaqlar da həmin əhvalatı yazsın və ya onun barəsində rəsm çəksinlər.

# Tədrisdə mümunəvi örnəklər 16
# İbtidai mərhələnin üçüncü kitabı
## Nəmrudun sarayında



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Allahın böyük peyğəmbərlərindən biri olaraq həzrət İbrahimin (əleyhissəlam) həyatı ilə tanışlıq
2. Həzrət İbrahim (əleyhissəlam), onun əməl və davranışına qarşı sevgi
3. Həzrət İbrahimə (əleyhissəlam) Allahın böyük peyğəmbərlərindən biri olaraq ehtiram
4. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

"Nəmrudun sarayında" mətni həzrət İbrahim (əleyhissəlam) peyğəmbərin zəmanəsinin hökmdarı Nəmrudla söhbətinə aiddir. Bu əhvalata Quranın Bəqərə surəsinin 258-ci ayəsində toxunulmuşdur. Həzrət İbrahim (əleyhissəlam) Allahın beş böyük peyğəmbərindən biri, eyni zamanda bizim peyğəmbərimizin ulu babası olmuşdur. İslam peyğəmbəri kimi, o da uşaq vaxtlarından Allahpərəst olsa da, Allahdan qeyrisinə ibadət edən insanların arasında yaşamışdır.

Bilmək lazımdır ki, ... 

Bu dərsdə aşağıdakı məsələlərə toxunulmuşdur:

1. Allaha ibadət edən insan Allahdan başqa heç kimdən və heç nədən qorxmaz.
2. Həzrət İbrahim (əleyhissəlam) Nəmrudun narazılığına baxmayaraq öhdəsinə düşəni yerinə yetirirdi. Belə ki, yaşadığı ölkənin hökmdarı onun əməllərindən narazı olsa da, o həzrət yalnız və yalnız yaxşı işlər görməyə

çalışırdı. Hətta görəcəyi işlər Nəmrudu narahat etsə də o, öz işlərindən əl çəkmirdi. Biz də həmişə ancaq yaxşı işlər görmək fikrində olmalıyıq. Hətta bəzi dostlarımız görəcəyimiz işləri xoşlamasalar da, öz fikrimizdən dönməməli, qarşımızdakı ən güclü insan olsa belə, heç vaxt haqq sözü deməkdən çəkinməməliyik.

3. Bu dərsdə işarə edilmiş məsələlərdən biri yaxşılığa dəvət (əmr be-məruf) və pislikdən çəkindirmə (nəhy əz-münkər) mövzusudur. Bunun mənası o deməkdir ki, insan heç vaxt ətrafındakı başqa insanların səhv hərəkətlərinə göz yummamalıdır. İmkan daxilində onlara səhvlərini başa salmalıyıq ki, başqaları da həmin səhvlərdən uzaq olsunlar.

4. Nəhayət, bu dərsdə toxunulmuş sonuncu məsələ hətta düşmən olsa belə başqaları ilə gözəl və təmkinlə davranmaqdır. Bəziləri elə düşünürlər ki, başqalarını yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirərkən bir qədər sərt danışmaq lazımdır. Dərsdə verilmiş hekayədə isə göstərilir ki, Nəmrud nə qədər fəryad edib qışqırsa da, həzrət İbrahim (əleyhissəlam) çox sakit, aram və təmkinlə danışır, qətiyyən əsəbləşmir.

## Gözəl başlanğıc

1. Bəqərə surəsinin 258-ci ayəsinin audiofaylını səsləndirib ayənin tərcüməsini verməklə dərsə gözəl başlanğıc etmiş olarıq.

2. Dərs başlayan kimi hekayəni sinif uşaqlarının bir qisminin iştirakı ilə səhnələşdirə bilərik. Səhnəcikdən qabaq ehtiyac duyulan avadanlıqların müqəvvasını hazırlamaq lazımdır ki, səhnəcikdə onlardan istifadə edilsin. (Məsələn, taxta büt, saxsı büt və s.)

3. Sinifə daxil olarkən həmişəkindən fərqli, bir qədər də obrazlı ifadələrlə salam verməklə dərsin ümumi məzmununa işarə edək. Məsələn, “Salam olsun ay üzlü insanlara”, “Salam olsun Allahın gözəl bəndələrinə” kimi cümlələrdən istifadə etmək olar.

Salam olsun peyğəmbərlərə, salam olsun Musaya, salam olsun İbrahimə, salam olsun Mühəmməd Mustafaya!

4. həzrət İbrahimin (əleyhissəlam) həyatından bəhs edən film və ya cizgi filminin dərsin məzmunu ilə uyğun gələn hissəsinin videogörüntüsünü uşaqlara təqdim etmək.

5. Bu dərs üçün gözəl sayıla biləcək başlanğıclardan biri də “bax və de” tapşırığında verilənlərə uyğun şəkillərdən istifadə etməkdir. Misal üçün, İbrahim (əleyhissəlam) peyğəmbərin əmisi Azərin büt düzəldərkən həzrət İbrahimin (əleyhissəlam) onun qarşısında dayandığı anın təsvirini vermək olar.

6. Peyğəmbərlərin möcüzələrinin şəkli verilmiş vərəqlərdən istifadə edək. Vərəqləri göstərməklə şagirdlərə şəkildə verilmiş möcüzə haqında məlumat vermək olar. Əgər şagirdlər bilərsə, həmin möcüzə haqqında onlardan sorğu-sual etmək də mümkündür. Məsələn, gülüstana çevrilmiş

od, əsanın əjdəhaya çevrilməsi, Quran, Nuhun gəmisi və içərisində heyvanlar, həzrət Musanın (əleyhissəlam) əsası ilə Nil çayının iki yerə ayrılması kimi şəkillərdən istifadə etmək mümkündür.

7. Kəbənin təsviri əks olunmuş şəkli uşaqlara göstərib onlara belə bir sual vermək olar: Bu şəkildə hansı şeylər sizə həzrət İbrahimi (əleyhissəlam) xatırladır?

a) Zəmzəm bulağı

b) İbrahim məqamı

c) İsmail məqamı

ç) Səfa və Mərvə dağları arasında səy etmək

d) Kəbə evinin həzrət İbrahim (əleyhissəlam) və həzrət İsmail (əleyhissəlam) tərəfindən yenidən inşa edilməsi

e) Qurban bayramı

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər həzrət İbrahim (əleyhissəlam) peyğəmbərlə bağlı başqa əhvalatlar da danışıb o həzrətin şəxsiyyəti barədə hörmət hissi ilə məlumat verəcəklər. Eləcə də dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub sadə dildə onun izahını çatdırmağı bacaracaqlar.

### Ailə

Dərslik kitabında verilmiş tapşırıqlardan birində uşaqlara ata-analarının köməyi ilə Quranın on dördüncü surəsinin adının nə olduğu və onun dərslə nə kimi bağlılığı olduğunu müəyyənləşdirmək tapşırılmışdır.

Bu tapşırıqla yanaşı uşaqlara ev tapşırığı kimi belə bir tapşırıq verə bilərik ki, Quranın on dördüncü surəsindən bir neçə ayəni valideynlərinin yanında oxuyub onun mənasına diqqət yetirsinlər. Növbəti dərsdə isə evdə yerinə yetirilmiş tapşırıq haqqında uşaqlardan sual-cavab edək.

# Üçüncü fəsil - Din təlimləri 17

## İbtidai mərhələnin üçüncü kitabı

### Atasının anası (Ümmi əbiha)



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Həzrət Fatimə (səlamullahi əleyha) ilə mömin xanımların ən üstünü və imam Həsənin (əleyhissəlam) anası olaraq tanışlıq
2. Həzrət Fatimə (səlamullahi əleyha), onun əməllərinə və rəftarına qarşı sevgi
3. Həzrət Fatimənin (səlamullahi əleyha) həyat, əxlaq və davranışından örnək götürmək
4. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

"Atasının anası" mətni həzrət Fatimənin (səlamullahi əleyha) həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyatındakı rolundan bəhs edir. Mətndə həzrət Fatimənin (səlamullahi əleyha) həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) qızı olmaqla yanaşı, sanki atasına analıq da etmişdir. Buna ən gözəl sübut tarixdir. Həzrət Fatimə (səlamullahi əleyha) həm anası Xədicənin (səlamullahi əleyha) vəfatından sonra hələ atasının evindən olarkən atasına qəmxar çıxıb ona arxa-dayaq durmuş, həm də ərə köçdükdən sonra müharibə və döyüşlərdə, çətin məqamlarda atasına əlində gələn köməyi etmişdir.

Mümkün olduğu təqdirdə bu dərsin həzrət Fatimə (səlamullahi əleyha) ilə əlaqədar tədbir olan günlərdən birində, yaxud Analar günündə keçirilməsi daha məqsədəuyğundur.

Bilmək lazımdır ki, ... 

1. Bu dərsdə şagirdlər həzrət Fatimənin (səlamullahi əleyha) həyatı, böyük şəxsiyyəti və bir sıra xüsusiyyətləri ilə qısa şəkildə tanış olurlar. Dərsdə həm də o həzrətin şücaəti, atası Peyğəmbərə olan sevgisi, beş yaşında olarkən anasını itirməsi, həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) ona həddən artıq sevgi və ehtiramı, çətin anlarda atası ilə sirdaş olması mövzusuna da ötəri olaraq toxunulmuşdur.

2. Dərsdə verilmiş əhvalat Öhüd döyüşünün son anlarına aiddir. Həzrət Fatimə (səlamullahi əleyha) bəzi vaxtlar döyüşlərdə tibb bacısı kimi iştirak edərək yaralılara ilkin tibbi yardım göstərmişdir.

3. Bu dərsdə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həzrət Fatimə (səlamullahi əleyha) barədə buyurduğu və müxtəlif mənbələrdə qeyd edilmiş iki mübarək kəlamına da toxunulmuşdur. Biri odur ki, həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) bəzi vaxtlar həzrət Fatiməni (səlamullahi əleyha) qoxulayaraq buyurardı: “Sənin bədənindən Cənnət ətrini hiss edirəm.” İkincisi isə o həzrətin məşhur “atasının anası” ifadəsidir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) bunu həzrət Fatimənin (səlamullahi əleyha) ona şəfqətlə yanaşmasına görə buyurardı.

## Gözəl başlanğıc

1. Dərslikdə verilmiş və ibtidai mərhələnin ikinci kitabına aid şəkillərdən istifadə etmək. Bu şəkilləri şagirdlərə göstərərək verilmiş əhvalatı uşaqlara danışırıq.

2. Dərsin lap başlanğıcında uşaqlarla birlikdə Kövsər surəsini oxumaq. Yaxud şagirdlərdən təkcə biri də həmin surəni oxuya bilər. Ya da Kövsər surəsinin audiofaylını səsləndirək. Sonra isə həmin surə barədə uşaqlarla fikir mübadiləsi aparıb onlardan soruşmaq lazımdır ki, bu surə sizə kimi xatırladır?

3. Sinifə bir təsbeh gətirib uşaqlara aşağıdakı suallar kimi suallar vermək lazımdır:

* Siz bu təsbehi gördükdə nəyi xatırlayırsınız?
* Bu təsbehlə hansı sözlərin deyildiyini kim bilir?
* Bu təsbehin dənələrini indiyə qədər sayanınız olubmu?
* Təsbehi daha çox haralarda görmüsünüz?
* Təsbehin nə anlamı var?

Bu qəbildən olan suallar dərs üçün gözəl başlanğıc sayıla bilər.

4. Hekayəni elə bir uyğun intonasiya ilə oxumaq lazımdır ki, şagirdlər özlərini hekayənin içərisində hiss etsinlər.

5. Dərsə hekayənin məzmununu əks etdirən cizgi filmi ilə başlamaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

6. Hekayəni divar qəzetinə bənzər pasport şəklində hazırlayıb hekayə qəhrəmanının bütün şəxsi göstəricilərini qeyd edək. Məsələn:

a) Adı:
b) Doğum yeri:
c) Doğum tarixi
ç) Atasının adı
d) Anasının adı
e) Həyat yoldaşının adı
ə) Övladları:
f) Şəhid olduğu tarix:

Daha öncə isə həzrət Fatimənin (səlamullahi əleyha) şəxsi anket məlumatlarını ayrı-ayrı kağızlara yazırıq. Sonra isə şagirdlərə tapşırırıq ki, divardakı pasportda olan boş yerlərə uyğun məlumatları yapışdırsınlar.

Qeyd: Tam doldurulmuş pasportu sinifdə uyğun bir yerdən asa bilərik.

7. Dünyadakı müsəlman qadın alimlərin şəkillərini uşaqlara göstərib bu şəkillərin həzrət Fatimənin (səlamullahi əleyha) hansı xüsusiyyətinə aid olduğunu soruşaq.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər həzrət Fatimənin (səlamullahi əleyha) həyatı barədə digər məlumatlar da öyrənəcəklər. Onun şəxsiyyətinə ehtiram göstərməklə yanaşı özləri də çalışacaqlar ki, əxlaq və davranışlarında o həzrətə oxşasınlar.

Şagirdlər dərsdə verilmiş Quran mesajını rahat şəkildə oxuyub onun məzmununu izah edə biləcəklər.

### Ailə

Uşaqlar evdə valideynlərinin köməyi ilə torpaqdan bir təsbeh düzəldib məktəbə gətirsinlər.

# Tədrisdə nümunəvi örnəklər 18
## İbtidai mərhələnin üçüncü kitabı
### Naməlum yol yoldaşı



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. İmam Səccad (əleyhissəlam) ilə dördüncü imam olaraq tanışlıq
2. İmam Səccada (əleyhissəlam), onun əməllərinə və davranışına qarşı sevgi
3. İmam Səccadın (əleyhissəlam) həyat, əxlaq və davranışından örnək götürməyə səy göstərmək
4. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) Məkkədən Mədinəyə hicrətindən 38 il sonra şaban ayının dördündə Mədinə şəhərində gözəl bir oğlan uşağı dünyaya gəlir. Adını Əli qoysalar da sonralar daha çox Zeynülabidin və Səccad ləqəbləri ilə tanınır. Onun anadan olmasından iki il sonra babası Əli (əleyhissəlam) mehrabda ibadət edərkən şəhid olmuşdur. Ondan sonra isə təxminən on il müddətində əmisi imam Həsənin (əleyhissəlam) imaməti dövründə baş vermiş hadisələrin şahidi olmuşdur.

Hicrətin əllinci ilindən başlayaraq atası imam Hüseynin (əleyhissəlam) Müaviyə, ardınca da oğlu Yezidin hakimiyyəti dövrünə təsadüf edən imamətinin enişli-yoxuşlu on bir ilini atası ilə birlikdə keçirmişdir. Hicrətin altmış birinci ilinin məhərrəm ayında atası imam Hüseyn (əleyhissəlam) Kərbəla hadisəsində şəhid olduqdan sonra müsəlman cəmiyyətinin rəhbərliyini öhdəsinə götürərək imam olmuşdur.

Bilmək lazımdır ki, ... 

1- Məsumların tanıtdırılmasında mənfi cəhətlərdən biri onları birtərəfli təqdim etməkdir. Belə ki, imam Zeynülabidin (əleyhissəlam) barəsində bizim təsəvvürümzdə olan o həzrətin həmişə namaz halında olması, vaxtının əsas hissəsini ibadətlə keçirməsi, ehtiyacı olanlara əl tutması olmuşdur. Lakin onun, eləcə də digər imamların həyatının başqa sahələrinə bir o qədər də diqqət yetirmirik. Bu dərsdə səy göstərilmişdir ki, imam Zeynülabidinin (əleyhissəlam) həyatının digər sahələrinə də işarə edilsin. O cümlədən:

a) O həzrət həmişə cəmiyyətdə olmuş, onlarla birlikdə səfərlərə çıxmışdır. Səfərdə olarkən həmişə çalışmışdır ki, yol yoldaşlarına xidmət etsin, susuz olanlara su versin. Uşaqlarla oynayıb onların başını qatar, karvandan geri qalanlara kömək edərmiş.

b) Bu dərsin "öyrənək" tapşırığında verilmiş başqa bir məqam isə imam Zeynülabidinin (əleyhissəlam) ehtiyacı olanlara kömək etməkdən, həddən artıq çox ibadətlə məşğul olmasından və "Səhifeyi-Səccadiyyə" kitabındakı duaları oxumasından əlavə Quranı da çox gözəl səslə oxumasının və ömrünün sonuna qədər zalımlara qarşı mübarizə aparmasının qeyd edilməsidir.

Qeyd: Çalışmaq lazımdır ki, məsumların həyatında onların daha az qabardılmış cəhətləri ön plana keçirilib o haqda daha ətraflı məlumat verilsin.

2- Bu dərsdə toxunulmuş məqamlardan biri də imam Zeynülabidinin (əleyhissəlam) səfərdə çox gözəl yol yoldaşı olmasıdır. Hədislərdə də nəql edilmişdir ki, səfər zamanı başqa vaxtlardan daha artıq xoşəxlaq olun. Daha çox təbəssüm edin, bir-birinizə əl tutun ki, yol yorğunluğunu çox hiss etməyəsiniz. İmam Zeynülabidin (əleyhissəlam) də məhz belə edərmiş.

## Gözəl başlangıc

1. Kitabda verilmiş əhvalatı uşaqların köməyi ilə səhnəcik şəklində nümayiş etdirə bilərik.

2. Dərsə başlamazdan qabaq gənc bir Quran qaresinin gözəl səslə oxuduğu bir neçə ayənin videogörüntüsünü təqdim edək. Dərsin gedişatında isə şagirdlərdən soruşaq ki, dinlədiyimiz Quran qiraəti imam Zeynülabidinin (əleyhissəlam) hansı xüsusiyətinə işarə edir?

3. Kitabın tapşırıqlarındakı şəkilləri də uşaqlara göstərib soruşa bilərik ki, şəkillərdən hər biri imam Zeynülabidinin (ə) hansı xüsusiyyətinə işarə

edir?

Bu şəkillər aşağıdakılardır:
Yaşlı qadına kömək edən bir uşaq şəkli
Səcdə halında olan bir uşaq şəkli
Quran oxuyan bir uşaq şəkli

4. Şagirdlərin bir-birinə yaxından kömək etdiyini əks etdirən bir ekskursiyanın videogörüntüsünü təqdim etmək.

5. Bir ailənin uşaqlarının bir-birinə kömək etmədiyini və ailənin qarşılaşdığı problemləri əks etdirən film və ya cizgi filmindən videogörüntü təqdim etmək. Videogörüntü başa çatdıqdan sonra uşaqlarla fikir mübadiləsi aparaq. (Əgər belə bir videogörüntü tapa bilməsək, sujeti uşaqların köməyi ilə səhnələşdirmək də mümkündür.)

6. Kitabdakı "Tamamlayın" tapşırığında verilmiş cədvəli doldurmaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

7. Vərəqlər hazırlayıb üzərinə səfər və ya ekskursiya zamanı qarşılaşa biləcəyimiz müsbət və ya mənfi işləri yazaq. Sonra isə uşaqlardan soruşaq ki, siz səfərə gedərkən kağızlar üzərində yazılmış hansı işləri görmək istərdiniz?

**Qeyd:** Vərəqlərin arasında bir neçəsini boş saxlayın. Uşaqlar səfər və ya ekskursiya zamanı qarşılaşa biləcəkləri, lakin vərəqlərdə qeyd edilməmiş işlər haqqında şifahi məlumat versinlər.

## Qiymətləndirmə

Ümid edirik ki, dərsin sonunda uşaqlar imam Səccadın (əleyhissəlam) şəxsiyyəti barədə başqa məlumatlar da verəcəklər. O həzrətə sevgi və ehtiramını bildirməklə yanaşı, həyatda özlərini ona oxşatmağa çalışacaqlar.

Habelə şagirdlər dərsdə verilmiş Quran mesajını rahat şəkildə oxuyub onun məzmununu izah edə biləcəklər.

### Ailə

Bir həftə ərzində valideynləriniz üçün etdiyiniz işlərin siyahısını tutub sinifdə oxuyun. Valideynlərinizin rəftarında imam Səccadın (əleyhissəlam) rəftarına bənzər hansı halları müşahidə etmisiniz?

# Dördüncü fəsil - Din təlimləri (İslam əxlaqı və ədəb qaydaları)

## Tədrisdə nümunəvi örnəklər 19 İbtidai mərhələnin üçüncü kitabı

### Cənnət ətri



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Ata-anaya ehtiramın vacibliyi və yolunu öyrənmək

2. Ata-ananın çəkdiyi zəhmətlərin qədrini bilib onlara təşəkkür etmək hissi

3. Ata-anaya hörmət göstərmək

4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Mətn Üveys Qərəni haqqındadır. Üveys Yəməndə yaşlı anası ilə birgə yaşayır. O, Peyğəmbərin (səlləllahu əleyhi və alih) gözəl əxlaqına heyran olur. Hələ bircə dəfə də olsun Peyğəmbəri görməyib. Onunla görüşmək həvəsi onu Mədinəyə getməyə vadar edir. Ancaq anasının ona ehtiyacı var idi. Anası ona yalnız bu şərtlə icazə verir ki, Mədinədə çatdığı gün geri dönsün, daha orada qalmasın. Üveys Mədinəyə gəlib çatanda həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) şəhərdə deyildi, səfərə getmişdi. Buna görə də Üveys onu görə bilmir.

Anasına söz verdiyi üçün daha Mədinədə qalmayıb geri qayıdır. Həmin

günün axşamı Peyğəmbər (səlləllahu əleyhi və alih) Mədinəyə qayıtdıqda Mədinədən cənnətin ətrini hiss edir. Evdə olanlardan evə kimin gəldiyini soruşduqda xidmətçi cavab verir ki, Yəməndən Üveys adlı bir sarvan gəlmişdi. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) bunu eşitdikdə buyurur ki, Üveys anasına etdiyi xidmətə görə Allah-taala onu çox sevir.

Bilmək lazımdır ki, ... 

1. Quranın dörd surəsində Allahın təkliyi məsələsindən bilavasitə sonra valideynə yaxşılıq etmək mövzusu qeyd edilmişdir. Bu, İslam dininin valideynə həddən artıq böyük önəm verdiyini göstərir. Bu dörd surə aşağıdakılardır:

Bəqərə surəsi, 83-cü ayə:

لاَ تَعْبُدُونَ إِلاَّ اللّهَ وَبِالْوَالِدَيْنِ إِحْسَاناً

(Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə ... yaxşılıq edin!)

Nisa surəsi, 63-cü ayə:

وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

(Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya ... yaxşılıq edin!)

Ənam surəsi, 151-ci ayə:

أَلاَّ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

(Ona (Allaha) heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin!)

İsra surəsi, 32-ci ayə:

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا

(Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur.)

* Ata-anaya ehtiram o qədər vacib və önəmli məsələdir ki, istər Quranda, istərsə də hədislərdə valideynlər kafir olsalr belə, onların ehtiramının qorunmalı olduğu açıq şəkildə bildirilmişdir. Loğman surəsinin 15-ci ayəsində deyilir: "Əgər (ata-anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə. (Qalan) dünya işlərində onlarla gözəl keçin (onlara itaət et)."

* Quran ata-anaya ən kiçik hörmətsizliyə belə imkan vermir. İmam Sadiqdən (əleyhissəlam) nəql edilmiş bir hədisdə deyilir: “Əgər “uf” sözündən daha kiçik bir hörmətsizlik olsaydı, Allah Quranda həmin sözü işlədərdi. Bu, ata-anaya hörmətsizliyin ən aşağı həddidir.”

* Quranda ata-anadan razılıq Allahın nemətləri qarşısında şükr etməklə birlikdə işlədilmişdir. Allahın nemətləri saya gəlməz. Bu da onu göstərir ki, ata-ananın insan üzərindəki haqqı həddən artıq böyükdür. Necə ki, Loğman surəsinin 14-cü ayəsində Allah-taala belə buyurur: “أَنِ اشْكُرْ لِي وَلِوَالِدَيْكَ” (Mənə və ata-anana şükür et.)

2. Bu dərsdə ata-anaya hörmətdən danışılır. Şagirdlərə ata-anaya hörmət barədə ətraflı məlumat verilməlidir.

3. Bu dərsdə o da izah edilir ki, ata-anaya hörmət etmək, onların istəklərini yerinə yetirmək hətta Peyğəmbəri (səlləllahu əleyhi və alih) görməkdən də vacibdir.

4. Dərsdə bildirilir ki, Peyğəmbəri (səlləllahu əleyhi və alih) görmək ananın sözündən çıxmağa səbəb olmamalıdır. Əgər vəziyyət belədirsə, onda oyun oynamaq, televizora baxmaq və s. işlərdə də ata-ananın sözündən çıxılmamalıdır.

5. Dərsdə həmçinin aşağıdakı məsələlərə də toxunulmuşdur:

* Biz uşaq olarkən ana qayğısına möhtac olduğumuz vaxt anamız bizə baxdığı kimi, ata- ana da qocalıb qayğıya ehtiyac duyduqda biz onların qulluğunda durmalıyıq.

* Harasa getməzdən qabaq ata-anadan icazə almaq lazımdır.

* Ata-ananın yanında ədəbli oturmaq lazımdır.

* Ev işlərində ata-anaya kömək etmək lazımdır.

6. Sizin hansı peşə sahibi olmağınızdan, varlı, yoxsa kasıb olmağınızdan asılı olmayaraq siz o vaxt Cənnətin ətrini duya bilərsiniz ki, Allaha iman gətirib yaxşı işlər görmüş olasınız.

### Gözəl başlanğıc

1. “Mədinənin xoş ətri” cizgi filmini nümayiş etdirmək, ya da altıncı kitabdakı ictimai mütaliələri bu dərs üçün ən gözəl başlanğıc ola bilər.

2. Tanınmış dini və ya ictimai xadimlərin ata-anaya ehtiramı ilə bağlı digər maraqlı əhvalatları qeyd etmək də sinifdəki atmosferi yaxşıya doğru dəyişə bilər.

3. Şagirdlərin köməyi ilə iki səhnəcik hazırlayaq. Səhnəciklərdən birində ata-anasına ehtiram göstərən övlad nəzərdə tutulsun, digərində isə ata-anasının sözlərinə qulaq asmayan övlad. (Valideynlərin uşaqlar haqqında dediyi bəzi yanlış hərəkətlərini də səhnəciyin ssenarisinə əlavə etmək olar. Bu yolla uşaqlar öz səhvlərini başa düşüb onu aradan qaldırmağa çalışarlar.)

4. Bu dərs üçün ən gözəl başlanğıclardan biri də dərslik kitabının "birlikdə oxuyaq" tapşırığında verilmiş "Dedim baş üstə" şeiri ilə başlamaq ola bilər.

5. Ölkənin tanınmış adamlarının (idmançılar, incəsənət xadimləri, hər bçilər, alimlər və s.) valideynə hörmətlə bağlı klip və videogörüntülərini təqfim etmək.

6. Quran mesajını birlikdə oxumaq, yaxud onun audiofaylını səsləndirmək və Quran mesajının məzmununu sinifdə səhnələşdirməklə də bu dərsə gözəl başlanğıc edə bilərik.

7. Valideynlərə övladları tərəfindən edilən köməklər haqqında videogörüntü təqdim etmək və bu barədə fikir mübadiləsi aparmaq. (Valideynə ehtiram göstərməyin müxtəlif formaları vardır. Bu barədə də uşaqlara məlumat vermək lazımdır.)

8. Qocalar evində yaşayan valideynlərin arzu və istəklərini əks etdirən videogörüntünün təqdim edilməsi də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

9. Ata-ananın sevgi və mehribanlığı mövzusunda şeirlər oxumaq.

10. Keçmiş və ya müasir dövrdə böyük alimlər və tanınmış şəxsiyyətlərin həyatında ata-anaya hörmətin təsiri haqqında uşaqlar üçün söhbət etmək.

11. Ata-anaya ehtiram nümunələri ilə bağlı bir neçə şəkili sinifə gətirək. Şəkilləri uşaqlara göstərib onlardan soruşaq ki, siz bu işlərdən hansı birini seçərdiniz? Şəkillərdə təsvir olunan işləri ayrı-ayrı vərəqlər üzərinə yazıb uşaqların hər birinə bir vərəq çəkməsini deyək. Şagirdlərə tapşıraq ki, hər biri öz vərəqində yazılanı bu gün evdə valideyninə qarşı həyata keçirsin. Misal üçün:

1) Ata-ananın əlini öpmək

2) Ata-anaya bir bağlama gül vermək

3) Anaya kömək məqsədilə bulaşıq qabları yumaq

4) Atanın zəhmətlərinə görə ona sevgi dolu bir məktub yazmaq

5) Ataya icazə verdiyi işlərdə kömək etmək

6) Ata-ananın üzündən öpmək

7) Ananın zəhmətlərinə görə ona sevgi dolu bir məktub yazmaq

8) Ata-ana üçün sevgi dolu bir ürək sözlərini söyləmək

9) Gözəl bir rəsm əsəri çəkib onu ehtiramla ata-anaya təqdim etmək

Sıralamanı daha da artırıb şagirdlərə verə bilərsiniz.

**Qeyd:** Dini və əxlaqi məsələlərin qarşı tərəfə təsir göstərməsinin əsas səbəblərindən biri də başqalarını yaxşı işlərə dəvət edən şəxsin özünün dediklərinə əməl etməsidir. Bunu nəzərə alaraq yaxşı olar ki, müəllim özü də həmin vərəqlərdən birini seçib şagirdlərə desin ki, mən də bu gün evə getdikdə vərəqdə yazılanı ata-anama qarşı yerinə yetirəcəyəm. Müəllimlə şagirdlər arasındakı belə səmimi söhbət birtərəfli tövsiyədən qat-qat təsirli olar. Müəllim evdə ata-anasına qarşı görəcəyi işin şəkillərini çəkib sinifdə şagirdlərə göstərsin. Sizin göstərəcəyiniz şəkillər heç vaxt şagirdlərin yadından çıxmayacaq.

### Ailə

Dərsdə verilmiş tapşırıqlardan biri də ata-ana ilə bağlı əvvəlki kitablarda keçirilmiş bir Quran mesajını seçib yazmaqdır.

Uşaqlara vərəq paylayıb deyə bilərik ki, evdə valideynləri övladlarının davranışı barədə öz fikirlərini yazsınlar. Uşaqlar vərəqləri sinifə gətirdikdə onlardan müsbət fikirləri sinifdə oxuya bilərik.

Uşaqlara başqa bir vərəq də paylayıb deyə bilərik ki, valideynlərinin öz ata-anaları ilə qarşılaşdıqda necə davranması barədə yazsınlar. Valideynlərinin öz ata-analarına qarşı hansı gözəl davranışı onların diqqətini cəlb edib?

Valideynlərə tapşıraq ki, ata-ana ilə bağlı klassik bir şeir və ya mahnını evdə uşaqlar üçün oxusunlar. Yaxud da uşaqlar valideynlərindən öz ata-analarına kömək etməklə bağlı gözəl bir xatirə danışsınlar. Növbəti dərsdə uşaqların hər biri öz valideynlərinin ata-anaları haqqındakı xatirəsini sinifdə danışsın.

# Tədrisdə nümunəvi örnəklər 20
# İbtidai mərhələnin üçüncü kitabı
## Danışan güzgü



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Şəxsi işlərdə intizamlı olmağı öyrənmək
2. Şəxsi işlərdə intizamlı olmaq istəyi
3. Şəxsli işlərdə intizamlı olmağa səy göstərmək
4. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

"Danışan güzgü" hekayəsində Rza adlı bir oğlandan söhbət açılır. Rza yuxuda bir güzgünün onunla danışdığını görür. Güzgü Rzanın pinti olduğuna görə ona xəbərdarlıq edir. Rza yuxudan oyandıqdan sonra pinti uşaq olmasa da, güzgünün xəbərdarlığına ciddi yanaşıb səliqə-sahmanına daha çox fikir verməyə başlayır.

Bilmək lazımdır ki, ... 

Bu dərsdə aşağıdakı məqamlara toxunulmuşdur:

a) Bu dərs uşaqlara həyatda səliqəli, intizamlı olmağı öyrədir. Burada səliqəli, intizamlı olmaq uşaqlara iki cəhətdən izah edilir. Biri insanın zahiri görünüşünə görə səliqəli olması. Məsələn,

saçlarının daranması, geyiminin təmiz və qaydasında olması və s. Digəri isə şəxsi əşyalarını səliqəli olması, yəni, hər şeyin öz yerinə qoyulmasıdır.

b) Uşaqlara başa salmaq lazımdır ki, otaq və evlərinin səliqəli olmasını istəyirlərsə, götürüb istifadə etdikləri hər bir şeyi sonra öz yerinə qoysunlar. Yaxud da günün sonunda yatağa girməzdən qabaq hər şeyi günün əvvəlindəki kimi öz yerinə qoysunlar.

c) Dərs əsnasında uşaqlarla danışarkən onlara demək lazımdır ki, otaq və evimizin səliqəli olmasını, bulaşmamasını istədiyimiz kimi, küçə, məhəllə və şəhərimizin də təmiz və səliqəli olmasını istəməliyik, yerə zibil atmamalıyıq.

## Gözəl başlanğlc

1. Səhər tezdən təmiz olan bir sinif, küçə, məhəllə və ya şəhərin saatlar keçdikcə çirklənməsini əks etdirən videogörüntü ilə dərsə başlamaq gözəl başlanğıc ola bilər.

2. Bir təmiz və səliqəli, bir də çirkli və səliqəsiz otaqdan çəkilmiş şəkilləri göstərmək də məqsədəuyğun sayılar. Sonra da uşaqlardan soruşaq ki, sizin otağınız bu iki otaqdan hansına daha uyğun gəlir?

3. Sinifə bir güzgü gətirib aşağıdakı sualları vermək:

a) Güzgünün funksiyası nədən ibarətdir?

b) Güzgü bizə nələri göstərir?

c) Güzgü bizim dostumuzdur, yoxsa düşmənimiz? Nə üçün?

ç) Güzgü sizin zahiri görünüşünüzü özündə əks etdirdikdə siz nə hiss keçirirsiniz? Narahat olursunuz, yoxsa sevinirsiniz?

d) Bu vaxta qədər güzgünün işindən narazı qaldığınız hal olubmu? Nə üçün?

4. Şagirdlərdən könüllü olaraq istəyənləri lövhəyə çıxarıb onlardan güzgü rolunu oynamasını, özlərini sinif yoldaşlarına təqdim etməsini istəyək. Onlar nə iş görəcəklər?

5. Şagirdlər öz otaq və evlərinin şəklini çəksinlər.

6. Kitabdakı “bax və danış” tapşırığında verilmiş şəkili uşaqlara göstərək və onlardan şəkildəki səliqəsizliyi göstərməsini istəyək.

7. Təbiətdəki nizam-intizam, planetlərin Günəşin ətrafında fırlanması, gecə ilə gündüzün yaranması, fəsillərin əmələ gəlməsi haqqında fikir mübadiləsi aparmaq da bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

8. Sinifə bir təqvim gətirək, yaxud da şagirdlərdən biri təqvim rolunu oynasın. Ona belə bir suallar verək:

a) Hörmətli təqvim, sizin işiniz nədən ibarətdir?

b) Siz nə üçün yaranmısınız?

c) Siz nələri özünüzdə əks etdirirsiniz?

ç) Siz olmasanız, nələr baş verə bilər?

d) Siz Günəşi tanıyırsınızmı? Sizinlə onun arasında nə kimi bağlılıq var?

9. Bir cədvəl hazırlayb uşaqlara paylayaq. Onlara tapşıraq ki, məktəbdən evə getdikdən sonra yarım günlük işlərini cədvəldə qeyd edib sinifə gətirsinlər. Yeri gəlmişkən cədvəlin aşağı hissəsində şagirdlərin valideyni uşaqlarının evdə təmizlik, səliqə və intizamı barədə öz fikirlərini qeyd etsinlər. Dərsin sonunda valideynləri uşaqlarının evdəki təmizliyindən razılığını bildirmiş şagirdlərə təşəkkürümüzü bildirək.

10. Dərsə gözəl başlanğıc etmək üçün imam Əlinin (əleyhissəlam) öz övladlarına xitabən buyurduğu: “Sizə təqvalı və işlərinizdə nizam-intizamlı olmağa tövsiyə edirəm” cümləsini yazı lövhəsinə yazıb uşaqlara bu barədə məlumat vermək də məqsədəuyğun sayılar. Sonra isə uşaqlardan yazılmış cümlədə hansı sözlərin onlara tanış olduğunu və mənasını bildiyini soruşaq. Cümləni əvvəlcə özümüz yavaş-yavaş oxuyub sonra şagirdlərə sual veririk.

11. Mağaza sahibləri səhər tezdən dükanlarının qabağını süpürüb sulayan kiçik bir bazardan videogörüntü təqdim etmək.

12. Bəzi heyvanların və quşların öz yuvalarını və ətrafını təmizləməsini əks etdirən videogörüntü təqdim etmək.

14. Uşaqlara deyək ki, əgər pinti və səliqəsiz bir şəxs haqqında məlumatları varsa, onun barəsində sinif yoldaşlarına danışsınlar.

15. Şanapipik quşunun şəklini və ya videogörüntüsünü təqdim etmək də bu dərs üçün gözəl və maraqlı başlanğıc ola bilər.

Şanapipik quşunun başında nə üçün darağa bənzər bir şey olmasını araşdırmaq çox maraqlı olub şagirdlərin təxəyyül gücünü təhrik edə bilər.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər təmizlik, səliqə və nizam-intizam barədə xeyli nümunələr göstərə biləcəklər. Eyni zamanda özləri də çalışacaqlar ki, səliqəyə və nizam-intizama riayət etsinlər. Dərsin mesajında verilmiş imam Əlinin (əleyhissəlam) kəlamının mənasını başa düşüb bu barədə nümunələr qeyd edərək onun əhəmiyyəti barədə fikir mübadiləsi aparacaqlar.

### Ailə

Dərslikdə verilmiş "ailə ilə" tapşırığında verilmiş cədvəl doldurulub şagirdlərin evdəki səliqə və nizam-intizamı barədə məlumat veriləcək.

# Beşinci fəsil - Din təlimləri (Şəriət hökmləri)

## Tədrisdə nümunəvi örnəklər 21

## İbtidai mərhələnin üçüncü kitabı

### Həddi-büluğa çatma bayramı



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Həddi-büluğa çatmağın hökmləri və qaydaları ilə tanışlıq
2. Həddi-büluğa çatmaq bayramında iştirak etmək istəyi (qızlar üçün)
3. Həddi-büluğa çatmaq bayramında iştirak (qızlar üçün)
4. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Məktəbi, məktəbin namaz otağını və sinifi bəzəmək üçün bəzək avadanlığı
4. Həddi-büluğ bayramı ilə əlaqədar şəkil və videogörüntülər

Öyrənmə və öyrətmə metodları

"Həddi-büluğ bayramı" bilavasitə dərsin mövzusuna işarə edən bir addır.

Həmin il və o ilin o günü ilin digər günlərindən fərqləndirilməlidir. Şagirdlər həddi-büluğ yaşına çatıb dini öhdəliklərini yerinə yetirməli olduqları gün onlar üçün sözün həqiqi mənasında bayram sayılır. Onların həddi-büluğa çatması münasibətilə "həddi-büluğ bayramı" tədbirini təşkil etmək onlar üçün unudulmaz bir xatirəyə çevriləcək. Bundan sonra onlar öz istəkləri ilə Allahın vacib buyurduğu əməlləri yerinə yetirəcəklər.

Bilmək lazımdır ki, ... 

1. Şagirdlərin "dini öhdəlikləri yerinə yetirmək üçün 9 yaş tez deyilmi?" sualına dərsdə "İbadət məktəbi" mətnində mələklərin məktubunda dolayısı yolla cavab verilmişdir. Şagirdlər 6 və ya 7 yaşında məktəbə gedib dərs oxumağa, gündəlik tapşırıqları yerinə yetirməyə hazır olduğu kimi, 9 yaşında da (qızlar) dini öhdəlikləri və Allahın vacib buyurduqlarını yerinə yetirməyə hazır olurlar. Deməli, məktəbə getmək üçün 6 və ya 7 yaş tez olmadığı kimi, ibadət məktəbinə getmək üçün də 9 yaş (qızlar üçün) tez sayılmamalıdır.

Adi məktəblə ibadət məktəbi arasında bir sıra oxşar cəhətlər vardır. O cümlədən:

* Məktəbdə elmi məsələləri gözəl bilən müəllim həmkarlar vardır. Onlar məktəbin və sinifin bu və digər işlərində yaxındanköməklik göstərdiyi kimi, ibadət məktəbində də dini məsələləri gözəl bilən alimlər vardır. Onlar məktəbdə olanlara dini məsələlərdə yaxından kömək edirlər.

* Məktəbdə şagirdlərin illik göstəricilərinin qeyd edildiyi sənəd olduğu kimi, ibadət məktəbində də hər bir insanın yaxşı və ya pis olmasından asılı olmayaraq gündəlik əməlləri mələklər tərəfindən qeyd edilir.

* Dərsdəki mətndə mələklər tərəfindən məktub yazılmasının mənası o deməkdir ki, mələklər insanların bütün əməllərini görürlər. Hər insana nəzarət edən iki mələk vardır. Onlardan biri insanların yaxşı, digəri isə pis əməllərini qeyd edir.

2. Bu dərs qızların həddi-büluğ bayramı haqqında olsa da oğlan şagirdləri də unutmaq olmaz. Dərsin mətnində də Mühəddisə adlı qızın Hüseyn adlı qardaşına işarə edilmişdir. Hüseynə deyilir ki, indidən şəriət qaydalarını öyrənsin, həddi-büluğa çatanda daha çətinlik çəkməsin.

3. Qızlar hicri-qəməri təqvimi ilə 9 yaşında həddi-büluğa çatırlar. Bu,

miladi təqvimi ilə səkkiz yaş, səkkiz ay, iyirmi bir gün edir. Müctehidlərin risalələrində qızların doqquz yaşında həddi-büluğa çatdığı deyildikdə məhz hicvri-qəməri təqvimi ilə doqquz yaşın tamamlanması nəzərdə tutulur. Lakin miladi təqvimi ilə götürsək, qızlar səkkiz yaş, səkkiz ay, iyirmi bir gündə həddi-büluğa çatır.

## Gözəl başlanğıc

1. “İbadət bayramı” şeiri ilə bu dərsə gözəl başlanğıc etmək olar.

2. Dərsə başlamazdan qabaq şagirdlərə Həddi-büluğ bayramı üçün lazım olan işləri müəyyənləşdirmək lazımdır. Məktəbin namaz otağını bəzəyib ağ çadra geyinməklə, şirniyyatla bayram tədbirində daha da gözəl atmosfer yaratmaq olar. Bu bayram tədbirindəki işlərdən biri də “mələklərin məktubu” adlı mətni mələk rolunda çıxış edən bir şagirdin əzbərdən oxumasıdır. Bayram tədbiri keçirildikdən sonra növbəti dərsdə tədbirlə bağlı fikirlərimizi müzakirə edə bilərik.

3. Dərsə belə bir başlanğıc da edə bilərik ki, üçüncü sinifdə oxuyan qızlar üçün keçən ilki üçüncü sinif qızlarının həddi-büluğ bayramı tədbirindən çəkilmiş videogörüntünü təqdim edək. Sonra isə (əvvəlcədən planlaşdırıldığı kimi) ikinci və ya dördüncü sinif şagirdlərindən birini mələk şəklində sinifə dəvət edək. O, sinifə daxil olub zərfdə olan məktubu sinif nümayəndəsinə versin. Sinif nümayəndəsi isə dərsin gedişində məktubu sinif yoldaşları üçün oxusun. Sonra isə mələk şəklində dəvət etdiyimiz şagird Quran mesajını – “الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ” (iman gətirib yaxşı işlər görənlərin xoş halına!) ayəsini oxuyub özü ilə gətirdiyi şokoladları uşaqlara paylasın. Daha sonra bir neçə zərfdə olan sualları qruplara bölünmüş dəstələrin qrup başçılarına versin ki, dərsn gedişində uşaqlar həmin sualları müəllimə versinlər. Bundan sonra mələk şəklində dəvət etdiyimiz şagird sinifi tərk etsin.

4. Əgər məktəbdə bütün siniflər varsa, yaxşı olar ki, hər sinifdən bir şagirdi dəvət edək. Onlar gəlib öz həddi-büluğ bayramı ilə bağlı xatirələrini danışsınlar. Həmin tədbirdən olan şəkilləri də özləri ilə gətirib şagirdlərə göstərsinlər.

5. Əvvəlki illərdə məktəbdə keçirilmiş həddi-büluğ bayramından çəkilmiş fotoqalereya və videogörüntülər təqdim etmək də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

6. Uşaqların köməyi ilə sinifin bəzədilməsi və şirini təşkil edilməsi də mövcud atmosferi gözəlləşdirə bilər.

7. Şarlar hazırlayıb üzərinə həddi-büluğa çatmış şəxsin görməli olduğu və uzaq durmalı olduğu işləri yazaq. Sonra da şagirdlərə deyək ki, yazılanlar arasından haram olanları müəyyən etsinlər.

8. Dərsə başlayarkən Quran mesajında verilmiş ayənin audiofaylını səsləndirmək və yaxud həmin ayəni uşaqlarla birlikdə oxuyub onun barəsində müzakirə aparmaqda gözəl başlanğıc sayıla bilər.

9. “Öhədlik” sözünü yazı lövhəsinə yazıb uşaqlardan soruşaq ki, bu sözü gördükdə nələri xatırlayırsınız? Sonra isə “öhdəlik” sözü ilə tərkibi vəziyyətdə işlənən bəzi birləşmələri yazıb şagirdlərə suallar verək. Məsələn, soruşaq ki, müəllimin şagird qarşısındakı öhdəliyi nədir? Atanın övlad qarşısındakı öhdəliyi nədən ibarətdir? Ananın övlad qarşısındakı öhdəliyi nədir?

Daha sonra isə “öhdəlik” sözünün mənasını izah etməyə başlayırıq. Bu, “həddi-büluğ bayramı” dərsinə giriş üçün gözəl bir başlanğıc olar.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər “həddi-büluğ bayramı” ilə əlaqədar qaydaları mənimsəyəcəklər. Eləcə də bu tədbiri keçirib onda iştirak etmək istədiklərini bildirəcəklər. Habelə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah edə biləcəklər.

### Ailə

Kitabın tapşırıqlarından birində verilmiş mələklərin məktubuna cavabın evdə valideynlərlə birlikdə yazılması tövsiyə edilmişdir. Valideynlərin həddi-büluğ bayramı haqqındakı xatirələrini yazmaq da bu tapşırığın bir hissəsi ola bilər.

Şagirdlərin valideynlərinin həddi-büluğ bayramından şəkil və görüntülərini də hazırlayıb sinifə gətirmək olar.

# Tədrisdə nümunəvi örnəklər 22
# İbtidai mərhələnin üçüncü kitabı
## Allahla danışmaq



### Dərsin tədrisində nəzərdə tutulanlar

1. Dördrükətli namazın hissələri ilə tanışlıq
2. Təharət, dəstəmaz və namazın vacib əməlləri ilə tanışlıq
3. Namaz qılmaq istəyi
4. Təharət, dəstəmaz və namazın qaydalarına riayət etmək hissi
5. Gündəlik namazları düzgün şəkildə qılmağa çalışmaq
6. Dördrükətli namazı düzgün şəkildə qılmaq
7. Təharət, dəstəmaz və namazın qaydalarına riayət etməyə çalışmaq
8. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

Əvvəlki kitabda şagirdlər namaz vaxtları və ikirükətli namazın qılınma qaydasını öyrəndiyi üçün bu dərsdə üçrükətli və dördrükətli namazları və təharət qaydalarını öyrənəcəklər. Yaxşı olar ki, şagirdlərə namazın ilk vaxtında qılınmasının müsəlman üçün gözəl bir üstünlük olduğunu onların diqqətinə çatdıraq. Habelə şagirdləri vaxtı-vaxtında namaz qılmağa, namazlarına səhlənkar yanaşmamağa həvəsləndirək.

Bilmək lazımdır ki, ... 

1. Bu dərsə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) sünnəsini nəzərə alaraq namazın bəzi qaydalarının izahı ilə başlanılmışdır. Əvvəlki kitablarda həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) haqqında, onun gözəl davranışı barədə bəzi məlumatlar verilmişdir. O həzrətin cəlbedici xüsusiyyətləri uşaqları onu özlərinə örnək qərar verməyə sövq edəcəkdir. O həzrətin sünnəsinə istinad edərək namazın bəzi qaydaları aşağıdakılardan ibarətdir:

Namazdan qabaq dişləri fırçalamaq, namazda təmiz və gözəl paltarlar geymək, zahiri baxımdan bəzənib ətirlənmək.

Bu işlərə riayət etmək namazımızla daha artıq savab əldə edəcəyimizlə nəticələnər.

2. Bu dərsdə verilmiş bəzi məsələlər namazın qılınma qaydalarına, bəzisi isə taharət məsələlərinə aiddir. Yaxşı olar ki, bunları qeyd edək. Dişləri fırçalamaq, təmiz və gözəl paltarlar geymək, zahiri baxımdan bəzənib ətirlənmək namazın ədəb qaydalarından hesab olunur. Namaz qılan şəxsin bədəninin və ya paltarının sidik və yaxud qanla murdar olması isə taharət mövzusuna aid olan məsələlərdəndir.

3. Bəzi şagirdlər elə bilirlər ki, namaz qılan şəxsin bədəni və ya paltarı qana bulaşarsa, onu dəsmal vasitəsilə təmizləməklə paklamaq olar. Dərsdə açıq şəkildə qeyd edilmişdir ki, bədənin və ya paltarın qana bulaşmış hissəsini yalnız su ilə paklamaq mümkündür.

4. Mütəmadi olaraq qeyd etməli olduğumuz məsələlərdən biri də odur ki, namaz ilk vaxtında və imkan daxilində məsciddə camaatla birlikdə qılınsın. Kitabda da həzrət Peyğəmbərin (səlləllahuəleyhi və alih) namazı ilk vaxtında və məsciddə camaatla birlikdə qıldığı dəfələrlə qeyd edilmişdir.

## Gözəl başlanğıc

1. Dərslik kitabındakı tapşırıqda verilmiş “tövhid sədası” şeirinin audiofaylını səsləndirməklə, yaxud həmin şeiri uşaqlarla birlikdə oxumaqla bu dərsə gözəl başlanğıc etmək olar.

2. Bu dərsə verilmiş Quran mesajının audiofaylını səsləndirməklə, yaxud da şagirdlərdən birinin onu oxuması ilə də başlaya bilərik.

3. Gözəl bir azan səsi ilə də dərsə başlamaq mümkündür. Azan audiofaylını səsləndirdikdən sonra uşaqlardan azan səsini eşitdikdə hansı hissləri keçirdiyini soruşaq. Bu barədə aparılan fikir mübadiləsi dərsə giriş üçün gözəl bir başlanğıc sayılar.

4. Suallar vermək. Məsələn: Çox yaxın bir dostunuzu gördükdə hansı hissləri keçirirsiniz? Yaxın bir dostunuzu gördükdə nə iş görmək istəyirsiniz? Yaxın dostunuz sizin üçün bir nemətdir. Bu neməti sizə kim verib? “Allah” sözünü eşitdikdə hansı hissləri keçirirsiniz? Allahla görüşüb danışmağa nə qədər istəklisiniz?

Bu qəbildən olan suallar dərsə başlamaq üçün əlverişli şərait yaradır.

5. Keçən il öyrəndiyimiz ikirükətli namazı təkrarlamaq məqsədilə, həm də Allahın bizə verdiyi nemətlərə görə təşəkkür əlaməti olaraq məktəbin namaz otağında şagirdlərlə birlikdə ikirükətli bir namaz qılaq. Sonra isə üçrükətli və dördrükətli namazların qılınma qaydası barədə söhbət edək.

6. Məscidə getmək istəyən bir nəfərin məscidə getməzdən qabaq görməli olduğu işləri uşaqların köməyi ilə səhnələşdirək.

7. Təsbihati-ərbəə zikrini oxuyub uşaqlardan bu zikrin nə üçün təsbihati-ərbəə adlanmasının səbəbini və onunla həzrət Fatimənin (səlamullahi əleyha) zikrinin fərqini soruşaq. Bu sual da üçrükətli və dördrükətli namaz dərsinə başlamaq üçün gözəl başlanğıc sayıla bilər.

**Qeyd:** Şagirdlərin çoxu təsbihati-ərbəə zikrini və onunla həzrət Fatimənin (səlamullahi əleyha) zikri arasında nə fərq olduğunu bilmir. Elə bilirlər ki, təsbihati-ərbəə zikri ilə həzrət Fatimənin (səlamullahi əleyha) zikri eyni şeydir.

Bunu nəzərə alaraq yaxşı olar ki, bu barədə uşaqlara məlumat verək. Məsələn, soruşaq ki, təsbihati-ərbəə zikri nədir? Bu zikri kim və harada eşidib? Təsbihat sözünün mənası elə zikr deməkdir, bəs ərbəə sözü nə mənasını verir? Ərbəə sözü ərəb dilində “dörd” deməkdir. Deməli “təsbihati-ərbəə” sözünün ərəbcədən tərcüməsi “dörd zikr” deməkdir. İndi isə həmin dörd zikri birlikdə oxuyaq. Dörd zikri yavaş-yavaş deyə-deyə eyni zamanda yazı lövhəsinə də yazaq.

Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər

Dörd zikrin hər biri bir-birinə “və” bağlayıcısı vasitəsilə birləşmişdir.

Bu dörd zikr birlikdə adlanır təsbihati ərbəə.

Sonra şagirdlərdən soruşaq ki, kim həzrət Fatimənin (səlamullahi əleyha) zikrini deyə bilər? Həzrət Zəhranın (səlamullahi əleyha) zikri necə idi? Bu zikri də birlikdə oxuyub yazı lövhəsinə yazırıq.

Allahu əkbər, əl-həmdu lillah, subhanəllah. Həzrət Zəhranın (səlamullahi əleyha) zikri ilə təsbihati ərbəənin bir-biri ilə nə kimi oxşar cəhəti var? Bəs onların fərqli cəhəti nədir?

Beləliklə, şagirdlərdəbu iki zikr barədə düzgün anlayış formalaşdırırıq.

8. Dərsə başlayarkən üçrükətli və ya dördrükətli bir namazın videogörüntüsünü təqdim edirik.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsdən sonra uşaqlar taharət, dəstəmaz və namazın qaydalarını düzgün şəkildə öyrənib nümunələrlə izah etməyi bacaracaq, həmçinin gündəlik namazları düzgün qıla biləcəklər. Eləcə də dərsdə verilmiş Quran mesajını düzgün oxuyub onu mənasını misallar vasitəsilə izah edəcəklər.

### Ailə

Kitabdakı tapşırıqlardan biri valideynlərin köməyi ilə namaz mövzusunda gözəl bir şeir və ya hekayə hazırlamaqdır.

Uşaqlara tapşıraq ki, ata və ya anaları ilə birlikdə məscidə getsinlər və bu barədə təqdimat hazırlayıb sinifə gətirərək sinif yoldaşları üçün oxusunlar. Təqdimatda məscidə getməzdən qabaq hansı işləri gördüklərini, məscidə daxil olduqda nələr etdiklərini və hansı namazı hansı formada qıldıqlarını qeyd etsinlər.

# Tədrisdə nümunəvi örnəklər 23
# İbtidai mərhələnin üçüncü kitabı
# Allahın qonaqlıq ayı



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Oruc anlayışı və onun bəzi qaydaları ilə tanışlıq
2. Oruc tutmaq həvəsi (xüsusilə qızlarda)
3. Ramazan ayında oruc tutmağa çalışmaq (xüsusən qızlar)
4. Ramazan ayında oruc tutmağa hazırlıq (oğlanlar üçün)
5. Quran mesajı ilə tanışlıq

## Öyrənmə və öyrətmə metodları

"Allahın qonaqlıq ayı" mətnində səy göstərilmişdir ki, şagirdlər oruc anlayışı və onun bəzi qaydaları ilə tanış olmaqla yanaşı onlarda oruc tutmağa həvəs oyadılsın. Beləliklə, uşaqlar Allaha onları doğru yola yönəltdiyi üçün təşəkkür etmiş olur, həm də Allahın mərhəmətinə nail olub böyük savab qazanarlar.

Bilmək lazımdır ki, ... 

1. Hicri təqvimi ilə doqquz il miladi təqvimi ilə səkkiz il, səkkiz ay, iyirmi bir günə bərabərdir. Bu hekayədə Səhərin yaşı hicri təqvimi ilə nəzərdə tutulmuşdur. Əgər onu miladi təqviminə çevirəsi olsaq, bir qız uşağı səkkiz yaş, səkkiz ay, iyirmi bir günündə həddi-büluğ yaşına çatır.

2. Oğlanların bu yaşda hələ həddi-büluğa çatmadığını nəzərə alaraq bu dərsdə Səhərin həddi-büluğa çatmamış qardaşından da danışılır. O, gələcəkdə namazı daha yaxşı qıla və orucu daha yaxşı tuta bilməsi üçün indidən namaz qılmağa və mübarək ramazan ayının bəzi günlərini oruc tutmağa başlamışdır.

3- Bu dərsdə mübarək ramazan ayının bəzi xüsusiyyətlərindən danışılır. O cümlədən:

* Oruc tutanların ehtiyaclı insanlara xüsusi diqqəti

* Oruc tutmaq və iftar məclisləri təşkil etmək

* Məscidlərə daha çox toplaşmaq

* Quranla daha çox ünsiyyətdə olmaq

* Qədr gecələri mərasimlərini təşkil etmək və s.

4. Ramazan ayı Allahın qonaqlıq ayı kimi təqdim edilmişdir. Bu ad hədislərə əsaslanır. Yaxşı olar ki, mübarək ramazan ayının Allahın qonaqlıq ayı adlandırılmasının səbəbini uşaqlar üçün izah edək. Bu ayda insanlar Allahın qonağı olur. Biz qonağımız gələrkən onu ən gözəl şəkildə qarşılayıb dadlı yeməklər bişirdiyimiz kimi, Allah da bu ayda Öz qonaqlarını ən gözəl mükafatla mükafatlandırır. Məsələn, bu ayda Qurandan bir ayə oxuyan insan bütün Quranı oxumuş insanın savabını əldə edir. Yaxud Qədr gecəsini ibadətlə keşirən insan sanki Allaha min il ibadət edən şəxsin savabını qazanır. Beləliklə də Allah-taala Öz qonaqlarını ən gözəl şəkildə qarşılayıb mükafatlandırır.

5. Bu ayda oruc tutanlar ehtiyacı olan insanlara xüsusi diqqət yetirməlidirlər. Məhəllə və şəhərin ehtiyaclılarına baş çəkib onların vəziyyətindən, güzaranından xəbərdar olmaq, yeri gəldikdə onlara əl tutmaq lazımdır. Özümüz tanımasaq da bu ayda, eləcə də digər aylarda məsciddə camaat namazı qılarkən ehtiyaclı insanlar haqqında maraqlanmaq lazımdır. Etibarlı və inanılmış şəxslərin vasitəsilə yaşadığımız ərazidəki ehtiyaclı insanlara yardım edə bilərik.

**Qeyd:** Ehtiyaclı insanlara yarıdm etmək təkcə ramazan ayına xas olan bir cəhət deyil. İlin bütün aylarında onlara kömək etməklə cəmiyyətdə düzgün yardım mədəniyyəti formalaşdırmaq lazımdır.

6. Səmavi hədiyyələr kitabındakı dərslərin bu və digər münasibətlərlə əlaqədar keçirildiyini nəzərə alaraq yaxşı olar ki, bu dərs ramazan ayının günlərindən birində, ya da oruc tutulması tövsiyə edilmiş günlərdən birində keçirilsin.

## Gözəl başlanğıc

1. Dərsə başlamazdan qabaq mübarək ramazan ayında səhərlər oxunan duadan bir hissəsinin audiofaylını səsləndirərək uşaqlardan soruşaq ki, bu dua sizə nəyi xatırladır?

2. “Allahın süfrəsi” şeirini birlikdə oxuyaraq dərsə başlamaq da gözəl başlanğıc ola bilər.

3. Yazı lövhəsinə “qonaq” sözünü yazıb uşaqlardan soruşaq ki, bu söz sizə nəyi xatırladır?

4. Dərsdəki Quran mesajında verilmiş Bəqərə surəsinin 183-cü – (Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki, (bunun vasitəsilə pis əməllərdən) çəkinəsiniz!) ayəsinin audiofaylının səsləndirək və ya şagirdlərdən biri həmin ayəni oxusun.

5. Bir oyun təşkil etmək. Məsələn, yazı lövhəsində ortada “oruc” sözünü yazıb uşaqların hər birinə bir tapşırıq verək. Məsələn:



## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda uşaqlar orucun mənası və onun bəzi qaydaları ilə tanış olacaqlar. Qız şagirdlər növbəti Ramazan ayında oruc tutmağa çalışacaqlar. Oğlan uşaqları isə çalışacaqlar ki, növbəti Ramazan ayında hazırlaşaraq mehriban olan Allaha daha da yaxınlaşsınlar.Habelə dərsdə verilmiş Quran mesajını düzgün oxuyub onun mənasını izah edə biləcəklər.

Bu dərsdə verilmiş gözəl və yaddaqalan tapşırıqlardan biri də ailə üzvləri ilə yerinə yetirilməli olan tapşırıqdır. Uşaqlara tapşırılmışdır ki, valideynlərin köməyi ilə hansı idman növünün orucu batil etdiyini müəyyənləşdirsinlər.

* Müəllim özü də əlavə tapşırıqlar hazırlayıb uşaqlara verə bilər. Məsələn, uşaqlara sual verə bilərik ki, hansı zikr və ya dua valideynlərinizə mübarək ramazan ayının xoş xatirələrini xatırladır? Onları yazıb sinifə gətirərək sinif yoldaşları üçün oxusunlar.

* Mübarək ramazan ayının hansı gecəsi və ya günü siz özünüzü Allaha daha yaxın hiss edib sanki yenidən dünyaya gəldiyinizi düşünürsünüz?

**Qeyd:** Uşaqlara tapşıraq ki, valideynlərinin onlarla keçirdiyi gözəl hissləri anlayıb onlar da həmin hissləri keçirməyə çalışsınlar.

Ümid edirik ki, şagirdlər uyğun İslam geyim tərzini müxtəlif geyim formaları üslubunda öyrənib onu öz həyatlarında tətbiq etməyə çalışacaqlar. Habelə dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub mənasını izah edə biləcəklər.

Qeyd: Müəllim çalışmalıdır ki, şagirdlərə dediklərinə ilk növbədə özü əməl etməklə onlar üçün gözəl örnək olsun.

### Ailə

Evdən kənarda geyilməli olan geyim forması haqqında bir rəsm çəkib sinifə gətirmək.

Valideynlərin doğulduğu ərazilərin geyim tərzi ilə bağlı şəkillər gətirmək

# Altıncı fəsil - Din təlimləri (İslami mərasimlər)

## Tədrisdə nümunəvi örnəklər 24

## İbtidai mərhələnin üçüncü kitabı

## Onuncu gün



**Dərsin tədrisində nəzərdə tutilanlar:**

1. İmam Hüseynin (əleyhissəlam) qiyamı və aşura günü ilə tanışlıq
2. Aşura mərasimlərində iştirak etmək istəyi
3. İmam Hüseyn (əleyhissəlam) və vəfalı dostlarının şəhadəti ilə bağlı təşkil edilmiş məclislərdə iştirak etmək
4. Quran mesajı ilə tanışlıq

**Metodik vəsaitlər**

1. Dərslik kitabı
2. Müəllim kitabı
3. Bayraq, alına bağlanan lent, şəkil və plakat
4. Videogörüntü və ya cizgi filmi

**Öyrənmə və öyrətmə metodları**

“Onuncu gün” mətnində İslam tarixində baş vermiş ən önəmli hadisələrdən biri – Aşura hadisəsi izah edilir.

Qeyd: Səmavi hədiyyələr kitabındakı dərslərin bu və digər münasibətlərlə əlaqədar keçirildiyini nəzərə alaraq yaxşı olar ki, bu dərs məhərrəmlik ayında, ya da imam Hüseynin (əleyhissəlam) qiyamı ilə bağlı günlərdən birində, məsələn imam Hüseynin (əleyhissəlam) şəhadətinin qırxıncı günündə keçirilsin.

Bilmək lazımdır ki, ... 

1. Bu dərsdə əsas məqsəd imam Hüseyn (əleyhissəlam) üçün təşkil edilən əza məclislərinin adət-ənənələri, o cümlədən qara paltar geymək, mərsiyə oxumaq, və s. barədə məlumat verməkdir. Yaxşı olar ki, hörmətli həmkarlar hərə öz yaşadığı bölgədə məhərrəmlik məclisləri ilə bağlı adət-ənənə haqqında məlumat versin.

2. Aşura günündəki aədt-ənənələrdən biri də imam Hüseynin (əleyhissəlam) aşura günü qıldığı zöhr namazını simvolizə edərək zöhr namazını camaatla birlikdə qılmaqdır. Dərslərdən birində buna da toxunulmuşdur. Kimsə bu gözəl ənənəyə qoşulmasa, böyük yanlışlığa yol vermiş olar. Ümumiyyətlə, namazı ilk vaxtında qılmağa heç bir iş mane olmamalıdır.

3. Bu dərsdə şagirdlərin düşüncə səviyyəsi nəzərə alınaraq imam Hüseynin (əleyhissəlam) zalımlara qarşı mübarizəsi izah edilir. Həzrət İbrahim (əleyhissəlam) peyğəmbər öz dövrünün zalım hökmdarı Nəmruda qarşı mübarizə apardığı kimi, imam Hüseynin (əleyhissəlam) də öz canınnı, övladlarını bu yolda qurban verdiyi, zülmə boyun əymədiyi qeyd edilir. Kitabdakı tapşırıqlarda da bu məsələyə işarə edilmişdir.

4. Uşaqları imam Hüseynin (əleyhissəlam) əza məclislərində iştirak etməyə həvəsləndirmək də bu dərsin tədrisində nəzərdə tutulmuş məqsədlərdən biridir.

**Qeyd:** Daha öncə də qeyd etdiyimiz kimi, bu dərsdə imam Hüseyn (əleyhissəlam) üçün təşkil edilən əza məclislərinin adət-ənənələrindən danışılır. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün əza məclislərində yanlış olaraq bəzi musiqi alətlərindən istifadə olunur. Dərsdə biz musiqi alətlərindən qətiyyən söz açmamışıq. Dərsdə sadəcə imam Hüseyn (əleyhissəlam) üçün əzadarlıq keçirilməsinə, o həzrətin məzlumiyyəti üçün, ona və ailəsinə qarşı edilmiş haqsızlığa görə göz yaşı tökmək məsələsinə toxunulmuşdur. İmam Hüseynin (əleyhissəlam) qiyamının mahiyyəti və aşura günündə baş vermiş hadisələri şərh etməyə diqqət yetirəsi olsaq, onda dərsdən çox yayınmış olarıq. Çünki bu dərsdə əsas məqsəd imam Hüseyn (ə) üçün düzgün şəkildə əzadarlıq keçirilməsinin izah edilməsidir.

## Gözəl başlanğıc

1. Uşaqlar arasında mərsiyə oxumağı bacaran varsa, onu digər sinif yoldaşlarının müşayiəti ilə bir qədər mərsiyə oxumağa dəvət edək.

2. Kitabın mətnini oxuyarkən azan verilməsinin lazım olduğu qeyd edilən yerdə azanın audiofaylını səsləndirmək.

3. Şagirdlərlə köməkləşib məhərrəmlik ayına aid kiçik bayraq, plakat, şəkil və şüarlar gətirib sinifdən asmaq.

4. Üzərində "Ya Hüseyn", "Ya Əbülfəzl", "Ya Zeynəb" yazıları yazılmış lent gətirib dərs başlamazdan qabaq uşaqlara paylamaq. Uşaqlar həmin lentləri alınlarına bağladıqdan sonra dərsə başlamaq olar. Yeri gəlmişkən, uşaqlara da tapşıra bilərik ki, əgər evdə alına bağlanan bu cür lentlərdən varsa, özləri ilə məktəbə gətirib alınlarına bağlasınlar.

5. Kitabın 28-ci səhifəsindəki Quran mesajı ilə bağlı tapşırıqda, yaxud da ibtidai mərhələnin altıncı kitabında Quranla bağlı verilmiş mətni oxumaqla bu dərsə gözəl başlanğıc etmək olar.

6. Uşaqların iştirakı ilə keçirilən əza məclislərindən görüntülər təqdim etmək. Və yaxud da qabaqcadan uşaqlara tapşıraq ki, öz yaşadıqları ərazidəki əzadarlıq məclislərindən şəkillər hazırlayıb sinifə gətirsinlər. Dərsi izah edərkən həmin görüntüləri uşaqlara göstərək və ya uşaqların gətirdiyi şəkilləri bir həftə qabaq sinif guşəsindən asaq. Şəkilləri gətirmiş uşaqlar da gətirdiyi şəkillər barədə məlumat versinlər.

7. Televiziyada xəbərlər büllütenində aşura günü ölkə ərazisində təşkil edilmiş əza məclislərindən fraqmentlər göstərmək də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

8. İmam Hüseyn (ə) üçün düzgün şəkildə əza məclisləri keçirilməsi barədə danışarkən söhbət əsnasında uşaqladan hamı birlikdə uca səslə "ya Hüseyn" deməsini istəyək. Bu, sinifdəki atmosferi daha da yüksəldəcək.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər imam Hüseyn (əleyhissəlam) üçün düzgün şəkildə keçirilən əza məclislərinin adət-ənənəsi barədə dolğun məlumata sahib olub özləri də aşura günü keçirilən əza məclislərində aktiv şəkildə iştirak edəcəklər. Eləcə də dərsdə verilmiş quran mesajını düzgün şəkildə oxuyub dərk edərək onun mənasını izah etməyi bacaracaqlar.

### Ailə

Növbəti dərsdə sinifdə oxumaq üçün valideynlərin köməyi ilə uyğun bir mərsiyə seçib məşq etmək.

# Yeddinci fəsil - Din təlimləri (Axirət dünyası)

## Tədrisdə nümunəvi örnəklər 25

## İbtidai mərhələnin üçüncü kitabı

### Buğdadan buğda bitər



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Əməlin həyatdakı uyğunluğu və nəticəsi
2. Axirət dünyası ilə mükafat və cəza yeri olaraq, həm də dünyəvi nümunələrə əsasında tanışlıq
3. Əməllərin yaxşılığı və pisliyi, onların axirət dünyasındakı nəticəsi
4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Quran və ağıl baxımından bəzi əməllər yaxşı və bəyənilən, bəzisi isə pis və bəyənilməyən hesab olunur. Əməlin yaxşı və ya pis olmasından asılı olmayaraq bütün işlərin nəticəsi insanın özünə aiddir.

Bilmək lazımdır ki, ... 

1. Yaxşı əməlin nəticəsi mükafat, pis əməlin nəticəsi isə cəza olacaq. (Məada diqqət!)

2. Dünya axirətin əkin tarlasıdır.

**Gözəl başlanğıc**

1. Bir əkinçinin tarlada işləməsini və məhsul (buğda, üzüm, nar və s.) götürülən zaman çəkilmiş görüntüləri əks etdirən videogörüntü və ya cizgi filmi təqdim etmək.

2. Öz əkin sahəsinə yaxşı qulluq etməyən bir əkinçinin əkin sahəsindən fotoqalereya və ya videogörüntü təqdim etmək.

3. Bir məktəbdə tədris ilinin başa çatdığı vaxt şagirdlərin illik qiymətlərinin verilməsini, bəzi şagirdlərin sevinməsi, bəzilərinin isə narahat olmasını əks etdirən videogörüntü təqdim etmək.

4. Hər bir insanın əməllərinin nəticəsinin onun özünə qayıtmasından bəhs edən filmlərdən qısa videogörüntülər təqdim etmək.

5. Gözəl meyvə ağacları ilə dolu olan səliqəli bir kənddən, ondan bir qədər aralıda isə çirkli, heç bir ağacı olmayan başqa bir kənddən görüntülər təqdim etmək bu dərsə gözəl başlanğıc ola bilər.

6. Biri dərs oxuyub mütaliə etməklə, digəri isə ancaq yeyib-içib yatmaq, oyun oynama, kinoya baxmaqqla vaxt keçirən iki şagirdin görüntülərini təqdim etmək. Sonra da uşaqlar hər iki şagird barədə öz fikirlərini bildirsinlər. Şagirdlərə deyək ki, bu iki şagirdin hər birinin işinin nəticəsinin nə olacağını təxmin edərək yazı lövhəsinə yazsınlar.

7. Yazı lövhəsinə “tarla” sözünü yazıb uşaqlardan soruşaq ki, bu söz sizə nələri xatırladır? İndiyə qədər siz heç bir əkin sahəsi görmüsünüzmü?

8. Uşaqlara tapşıraq ki, evdə ayrı-ayrı kiçik dibçəklərdə toxumlar (buğda, mərci, lobya və s.) əksinlər. Hər dibçəyin üzərinə əkdiyi toxumun adını yazsınlar.

Toxum cücərdikdən sonra dibçəkləri məktəbə gətirsinlər. Dərsi daha da maraqlı etməkdən ötrü şagirdlərin əkdiyi toxumlara baxıb qəsdən səhv toxum adı deyək. Məsələn, buğda əkilmiş dibçəyə baxıb deyək ki, mənə elə gəlir sən bu dibçəkdə mərci əkmisən. Şagird dərhal deyəcək

ki, xeyr, müəllim, bu, buğda toxumudur, onu mən özüm əkmişəm. Hər şagirdə qarşı bu cür yanlış fikir bildirək və dolayısı yolla onların öz əməllərinin nəticəsini öyrənmiş olaq.Axırda isə onlara bildirək ki, deməli, buğdadan yalnız buğda bitər. Nə əkərsən, onu da biçərsən.

9. Müəllim əlini yavaşca divara sürtüb uşaqlara deyir ki, mən əlimi divara necə sürtdümsə, o da eyni şəkildə qarşılıq verdi. Sonra isə müəllim əlini bir qədər möhkəm şəkildə divara vurub özünü sanki əli ağrayırmış kimi göstərsin. Sonra da uşaqlara desin ki, mən əlimi divara möhkəm vurduğuma görə bunun nəticəsi əlimdə yaranmış ağrı oldu. Deməli, hər bir işin öz nəticəsi vardır.

10. Müəllim tənəffüs zamanı məktəbin həyatində gəzişərkən görüb müşahidə etdiyi yaxşı işləri yazı lövhəsinə yazaraq bu barədə şagirdlərə məlumat versin.

11. Müəllim uşaqlara belə bir sual versin ki, əgər sizin dünənki gününüzü videoya çəksələr, günün hansı hissəsinin göstərilməsini istəyərdiniz?

12. Kütləvi informasiya vasitələrində dərc edilmiş və şagirdlərin psixologiyasına uyğun olan bəzi yaxşı və pis xəbərləri seçib onlara oxuyaq. Sonra da onlara deyək ki, indi yaxşı xəbərlə pis xəbəri bir-birindən ayırın.

13. Dünən gördüyünüz və ya eşitdiyiniz ən gözəl xəbər və ya yaxşı iş hansı olub?

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda yaxşı və pis işləri nümunələr qeyd etməklə bir-birindən fərqləndirməyi bacaracaq və axirət dünyasını dünyəvi işlərin mükafat və ya cəza yeri olaraq qəbul edəcəklər. Həzrət Peyğəmbərin (səlləllahuəleyhi və alih) buyurduğu hədisi də oxuyub mənasını düzgün şəkildə izah etməyi bacaracaqlar.

### Ailə

Şagirdlər evdə ata və ya ananın köməyi ilə yaxşı, ya da pis bir işin nəticəsi barədə təqdimat hazırlayıb məktəbə gətirərək sinif yoldaşları üçün oxusunlar. Yaxud da öz həyatlarında qarşılaşdığı yaxşı və ya pis bir işin nəticəsini ata-ananın köməyi ilə yazıb sinifə gətirsinlər.

# Səkkizinci fəsil - Din təlimləri (Dini şəxsiyyətlər)

## Tədrisdə nümunəvi örnəklər 26

## İbtidai mərhələnin üçüncü kitabı

### Qəhrəman qadın



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Həzrət Zeynəblə (səlamullahi əleyha) ilə mömin qadınlardan biri olaraq tanıışlıq
2. Həzrət Zeynəbə (səlamullahi əleyha) qarşı sevgi hissi
3. Həzrət Zeynəbin (səlamullahi əleyha) həyat, əxlaq və davranışından örnək götürmək
4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Həzrət Zeynəb (səlamullahi əleyha) qardaşı imam Hüseynin (əleyhissəlam) aşura qiyamının məqsəd və məramını Kufə, Şam, Mədinə və bacardığı hər bir yerə çatdırmışdı. Yorulmaq bilmədən, bütün çətinliklərə dözərək hamıya imam Hüseynin (əleyhissəlam) qiyamının mahiyyətini izah edib onun haqqın dirçəlməsinə xidmət etdiyini başa salmışdı. Həzrət Zeynəb (səlamullahi əleuha) şücaət, natiqlik, idarəşilik sahəsində babası Peyğəmbər (səlləllahu əleyhi və alih), atası Əli (əleyhissəlam), anası Fatimə (səlamullahi əleyha) və qardaşları Həsənlə (əleyhissəlam) Hüseyndən (əleyhissəlam) öyrəndiklərini layiqincəsinə həyata keçirmişdi. Zərrə qədər də olsun geri addım atmamış, düşmən qarşısında özünü zəif göstərməmişdi. “Qəhrəman qadın” mətnində həzrət Zeynəbin (səlamullahi əleyha) aşura qiyamındakı rolu bəyan

edilməklə yanaşı şagirdlərə o fədakar və qəhrəman qadının sevimli siması təqdim edilməyə səy göstərilmişdir.

Mümkün olduğu təqdirdə bu dərsin məhərrəmlik və ya səfər aylarında, ya da həzrət Zeynəblə (səlamullahi əleyha) əlaqədar günlərdən birində keçirilməsi tövsiyə olunur.

Bilmək lazımdır ki, ... 

1. Bu dərsdə əsas məqsəd həzrət Zeynəbin (səlamullahi əleyha) şəxsiyyəti ilə tanış olmaqdır. Əsirlikdə keçirdiyi günlər onun necə böyük bir şəxsiyyət olmasından xəbər verir.

2. Həm imam Hüseynin (ə) və ailəsinin məzlumiyyəti, həm də Yezid və tərəfdarlarının rəhimsizliyi izah olunsun deyə, bu dərsdə həzrət Zeynəbin (səlamullahi əleyha) əsirlik dövründə çəkdiyi bir sıra əziyyətlərə işarə edilmişdir.

3. Bu dərsdə aşağıdakı məqamlara toxunulmuşdur:

a) Əgər kimsə Allaha xatir iş görüb Ona xatir danışarsa, hətta Allahın ən böyük və ən güclü düşmənləri də həmin şəxsdən qorxub çəkinər, onun əzəməti qarşısında təslim olarlar. Eynilə həzrət İbrahim (əleyhissəlam) peyğəmbərin əhvalatında olduğu kimi.

b) Kərbəla əsirləri əsir olsalar da, əslində onlar həzrət Zeynəbin (səlamullahi əleyha) rəhbərliyi altında Yezid və onun əlaltılarına qarşı elə rəftar edirdilər ki, sanki əsir olan onlar deyil, Yezid və əlaltılarıdır. “Sanki biz heç əsir deyilik” cümləsi də məhz bu həqiqətə işarə edir.

c) İstənilən şəraitdə haqqı demək lazımdır. Haqq heç bir halda aradan getməz.

ç) İslam dini imam Hüseynin (ə) ailəsi və vəfalı dostları kimi azadlıqsevər insanların qanı, canı və əsir götürülməsi bahasına əldə edilmişdir. Biz də Allahın göstərişlərinə əməl etməklə bu dinin qorunması uğrunda əlimizdən gələni etməliyik ki, din rəhbərlərimizin çəkdiyi əziyyətlərin qədrini bilək.

### Gözəl başlanğıc

1. “Fədakar uşaq” adlı bir hekayə bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

Bir gün bir neçə uşaq bir yerdə oynayırdılar. Onların oynadığı yerin yaxınlığında bir su quyusu var idi. Camaat o quyudan su götürürdü. Uşaqlardan biri quyunun kənarından keçərkən ayağı sürüşür, az qalır ki, quyuya düşsün. Onun bu vəziyyətini görən başqa bir uşaq cəld tərpənərək özünü yetirib onu tutur. Uşağın anası gəlib uşağını qucağına alaraq sevincək halda fəryad edir ki, afərin, bu mehriban uşağa! Sonra isə üzünü ətrafdakılara tutaraq deyir ki, görün bu uşaq mənim uşağımı necə ölümdən qurtardı! Ətrafda olanların hamısı fədakar uşağı alqışlayıb ondan soruşurlar ki, sənin adın nədir? Uşaq:

"Əli" – deyə cavab verir. Ətrafdakılar uşaqdan soruşurlar ki, kimin oğlusan? Uşaq cavab verir ki, Əbutalibin oğluyam.

Həzrət Əli (əleyhissəlam) uşaq vaxtlarından fədakar və cəsur olmuşdur.

2. Dərslik kitabında bu hadisə ilə əlaqədar verilmiş birinci şəkil, yaxud da aşura gününün günorta vaxtına aid şəkillərdən istifadə etmək və bu barədə fikir mübadiləsi aparmaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

3. Müsəlman alim qadınlar, ziyalı xanımların şəkillərini təqdim edərək uşaqlara sual verə bilərik ki, bu şəkillərin hər biri həzrət Zeynəbin (səlamullahi əleyha) hansı xüsusiyyətinə işarə edir?

4. Uşaqlara belə bir sual verə bilərik ki, aşağıdakı adları eşitdikdə fikrində nələr canlanır? Nəzərdə tutduğumuz adları əvvəlcədən hazırladığımız vərəqlərə yazıb uşaqlara göstərə bilərik. Adlar bunlardır: həzrət Mühəmməd (səlləllahuəleyhi və alih), həzrət Əli (əleyhissəlam), həzrət Fatimə (səlamullahi əleyha), İmam Həsən (əleyhissəlam), imam Hüseyn (əleyhissəlam), həzrət Zeynəb (səlamullahi əleyha) və imam Səccad (əleyhissəlam).

Yeri gəlmişkən, bu adların hər birinin həzrət Zeynəblə (səlamullahi əleyha) qohumluq münasibətini də uşaqlardan soruşa bilərik.

5. Quran mesajında verilmiş Ənfal surəsinin 46-cı – "وَاصْبِرُواْ إِنَّ اللّهَ مَعَ الصَّابِرِينَ" (səbir edin, çünki Allah səbir edənlərlədir) ayəsini uşaqlarla birlikdə oxumaqla və ya həmin ayənin audiofaylını səsləndirməklə də bu dərsə başlaya bilərik.

6. Həzrət İbrahimin (əleyhissəlam) peyğəmbərin Nəmrud qarşısında cəsarətlə dayanıb mübarizə aparmasına, dini dəyərləri qorumasına dair şəkillər nümayiş etdirmək də bu dərsə gözəl başlanğıc ola bilər.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda uşaqlar həzrət Zeynəbin (səlamullahi əleyha) digər xüsusiyyətlərini qeyd edib onu ehtiramla yad edəcəklər. Eləcə də çalışacaqlar ki, davranışlarında həzrət Zeynəbə (səlamullahi əleyha) oxşasınlar. Habelə uşaqlar dərsdə verilmiş Quran mesajını düzgün oxuyub onun mənasını misallarla izah etməyi bacaracaqlar.

### Ailə

Dərslik kitabında ailə ilə birlikdə işlənilməli olan tapşırıqda verilmiş cümlə qurmaqdan əlavə uşaqlara tapşıraq ki, evdə valideynlərindən soruşsunlar: "Həzrət Zeynəbdən (səlamullahi əleyha) hansı davranışı öyrənmisiniz?" Veriləcək cavabı yazaraq sinifdə oxusunlar.

# Doqquzuncu fəsil - Din təlimləri (Quran)

## Tədrisdə nümunəvi örnəklər 27

## İbtidai mərhələnin üçüncü kitabı

### Səmavi sözlər



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Quranla müsəlmanların səmavi kitabı olaraq tanışlıq
2. Quran oxumaq və onunla ünsiyyətdə olmaq istəyi
3. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

İmam Rzanın (ə) yanında Qurandan söhbət düşdükdə o həzrət belə buyurdu: "Allah-taala həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) yalnız din kamilləşdikdən sonra Öz dərgahına apardı. Allah ona Quran nazil etmişdi. Quran hər şeyə aydınlıq gətirir. Onda halal və haram, insanların ehtiyac duyduğu hər şeyin hökmü müəkəmməl şəkildə öz əksini tapmışdır. Zaman keçdikcə Quran köhnəlmir. O, bütün əsrlər boyunca hamı üçün dəlil və sübutdur."

Bilmək lazımdır ki, ... 

1. Bu dərsdə bilavasitə olmasa da, dolayısı yolla işarə edilmiş məqamlardan biri də Quranın ecazı, ondakı ifadələrin gözəlliyidir. Uşaqlara Quranın ecazı barədə danışmağa ehtiyac yoxdur. Onların Quranın ifadə tərzinin çox yüksək səviyyədə olduğunu bilməsi kifayətdir. Növbəti kitablarda bu məsələ daha aydın şəkildə izah ediləcək.

2. Allahın düşmənləri, müşrik və kafirlər Quran ayələrini həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) dilindən eşitmək istədiyi halda biz müsəlmanların Quranı sevdiyimizi iddia ediriksə, onda ona qarşı laqeyd olmağımız, ondan faydalanmamağımız təəssüf doğurar. Buna görə də çalışmaq lazımdır ki, hər gün müəyyən qədər Quran oxuyaq.

3. Uşaqlara izah edilməlidir ki, Quran təkcə oxunması lazım olan müqəddəs bir kitab deyil, o eyni zamanda həyat kitabıdır. Dərs ilinin başlanğıcında müəllim şagirdlərə il boyunca keçiriləcək mövzuların proqramını verdiyi kimi, Allah-taala da Quranın vasitəsilə insanlara belə bir həyat proqramı vermişdir. İnsanlar onu oxuyub ayələri barədə düşünməli, başa düşdüklərinə əməl etməlidirlər.

## Gözəl başlanğıc

1. Uşaqlar dərslik kitabında verilmiş “Səmavi sözlər” mətnini birlikdə oxumaqla bu dərsə gözəl başlanğıc edə bilərlər.

2. Fil süvariləri haqqında videogörüntünü təqdim edib bu bardə fikir mübadiləsi aparmaqla da dərsə başlamaq olar.

3. Dərsdəki Quran mesajında verilmiş ayələri oxumaqla bu dərsə gözə başlanğıc etmək mümkündür. Çalışmaq lazımdır ki, verilmiş ayələri oxuyarkən onların barəsində düzgün şəkildə düşünə bilək.

4. Bu dərs üçün gözəl başlanğıclardan biri də kitabın “birlikdə oxuyaq” tapşırığında verilmiş “Quran bağı şeiri”ni birlikdə oxumaq və ya həmin şeirin audiofaylını səsləndirmək ola bilər.

## Quran bağçası

Mənim arzum budur ki,
Atam kimi oxuyum
Gül ətriylə qoxuyan
Quranı mən də bir gün!

Bir guşədə əyləşib,
Onun qissələrindən
Düşünərək dərindən
Oxuyum aram-aram.

Bilirəm ki, bu Quran
Səma hədiyyəsidir.
Onun hər bir cümləsi
Allahın kəlməsidir!

Quran mənimçün, sanki
Xoş ətirli bir bağdır!
Sevib ona sarılsan,
Güvənilən bir dağdır!

Əfsanə Şaban Nejat

5. Bu dərsə gözəl başlanğıc üçün Kövsər, Kafirun, Qüreyş, Qədr surələrinin, yaxud da şagirdlərin bilik səviyyəsinə uyğun olan həzrət Musa (əleyhissəlam), həzrət Yusuf (əleyhissəlam), həzrət İbrahim (əleyhissəlam) və s. kimi hekayələrin cizgi filmlərindən fraqmentlər də təqdim etmək olar.

6. Sinifdəki yazı lövhəsinə “Quran” sözünü yazmaq. Habelə xüsusi vərəqlərə “Allahın kəlamı”, “Tövrat”, “müsəlman”, “İncil”, “həzrət

Mühəmməd (səlləllahu əleyhi və alih)", "xristian", "həzrət Musa (əleyhissəlam)", "bəşər kəlamı" kimi söz və ifadələr yazıb sonra da uşaqlara belə bir tapşırıq vermək olar: "Vərəqlərdə yazılmış söz və ifadələrdən hansıların yazı lövhəsindəki sözlə bağlılığı olduğunu tapıb izah edin."

7. Şagirdlərin "Səmavi hədiyyələr"in ikinci kitabında on ikinci dərsə qədər, eləcədə "Quran dərsi"nin birinci, ikinci və üçüncü kitablarında öyrəndikləri Quran mesajlarını yazıb ayrı-ayrı kartonlar üzərinə yapışdıraq. Sonra isə kartonları bir-bir uşaqlara göstərib onun mənasını deməsini istəyək. Hər kartonun arxasında da orada verilmiş Quran mesajının tərcüməsini yazaq ki, uşaqlar cavab verdikdən sonra kartonu çevirərək şagirdin doğru cavab verib-vermədiyini uşaqlara göstərək.

8. Namazın audiofaylını səsləndirmək, yaxud da şagirdlərdən biri dördrükətli bir namazı qılaraq göstərsin. Audiofayl səsləndikdən və ya şagirdlərdən biri dördrükətli namazı qılıb bitirdikdən sonra uşaqlara sual verək:

1. Namazda hansı surələr oxundu?
2. Gündəlik namazlarda neçə dəfə Quran oxuyuruq?

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər kiçik bir mətn formasında, yaxud da şifahi şəkildə Quranı təqdim etməyi bacarıb onunla tanış olmağa çalışacaqlar. Eləcədə dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını sadə dillə izah etməyi bacaracaqlar.

## Ailə

Şagirdlərə tapşırıq verilsin ki, evdə ata-ana, yaxud da onların yanında olan başqa şəxslər üçün (Quran kitabı dərsliyindən) bir qədər Quran oxusunlar.

Ailə üzvlərinin köməyi ilə Quran mesajlarından birini gözəl xətlə kitaba yazıb bəzəsinlər.

Üçüncü hissə

3

# Tədrisdə nümunəvi örnəklər
# Din təlimləri
## (səmavi hədiyyələr)

İbtidai mərhələnin dördncü kitabı

## Birinci fəsil - Din təlimləri (Allahıtanıma)

### Tədrisdə nümunəvi örnəklər 28

### İbtidai mərhələnin dördüncü kitabı

### Cücərmək istəməyən toxum



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Allahın insanların və digər varlıqların müxtəlif ehtiyaclarını aradan qaldıran varlıq olaraq nemətləri vasitəsilə Onun bilikli və qüdrətli olması ilə tanışlıq
2. İnsanın və başqa varlıqların ehtiyaclarından nümunələrlə və həmin ehtiyacların aradan qaldırılmasında Allahın nemətləri ilə tanışlıq
3. Allahın bizim üçün faydalı olan bütün şeylərdən xəbərdar olmasını bilmək
4. Allaha qarşı sevgi hissi
5. Allahla danışmaq üçün münasib dualardan faydalanmaq istəyi
6. Allahın verdiyi nemətlərə görə Ona şükr etmək
7. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

"Səmavi hədiyyələr"in üçüncü kitabında Allahın nemətlərini yad etməyin, verdiyi nemətlərə görə Allaha şükr etməyin lazımlılığından və Allahın bağışlayan olması üçün bu nemətləri bizə verdiyindən

danışmışdıq. Bu dərsdə isə Allahın nemətlərindən Onun bilikli və qüdrətli olmasına bir sübut olaraq bəhs edəcəyik. Allahın hər bir varlığa verdiyi nemət həmin varlığın ehtiyacı miqdarındadır. Bu isə onu göstərir ki, əvvəla Allah bütün varlıqların ehtiyacından xəbərdardır. İkincisi də Allah bu ehtiyacları qarşıladığına və hər bir varlığa lazımi qədər nemət verdiyinə görə deməli, qüdrətlidir.

Bu dərs cücərib inkişaf etməkdən qorxan bir toxumun dilindən danışılır. O, cücərib torpaqdan baş qaldırdıqdan sonra hansı hadisələrlə qarşılaşacağından qorxduğu üçün cücərib inkişaf etmək istəmir. Dərsin davamında bu mərhələdən keçmiş varlıqların təcrübəsindən danışılır ki, cücərməkdən qorxan toxum Allahın hər bir varlığın ehtiyacınlardan xəbərdar olmasını bilib daha qorxmasın.

Bilmək lazımdır ki, ... 

* "Səmavi hədiyyələr"in üçüncü kitabında Allahın nemətlərini çatışmazlıq baxımından izah edirdik. Yəni, bu və digər nemətin olmaması bizə həmin neməti xatırladırdı. Bu dərsdə isə həmin nemətləri var olması baxımından izah etməyə çalışacağıq. Şagirdlərə məlumat verməyə çalışacağıq ki, hətta varlıqlar yaranmazdan və özləri ehtiyaclarından xəbər tutub onun aradan qaldırılmasını istəməzdən qabaq Allah-taala lazımi imkanları onların ixtiyarında qoymuşdur. Düşünürük ki, bu metod Allahın nemətlərini tanıyıb onların qədrini daha da yaxşı bilməkdə təsirli olacaq.

* Bu dərsdə istifadə edilə biləcək məqamlardan biri də ətrafımızda olan varlıqlar haqqında dərindən düşünməkdir.

* İnsanın öz bədənindəki nemətlərdən kənar olaraq toxumun cücərməsi neməti seçilmişdir ki, həm şagirdlər onu asanlıqla başa düşüb gözləri ilə görə bilsinlər, həm də həyat bilgisi fənnindən olan məlumatları ilə uyğun gəlsin.

* Ola bilər ki, şagirdlər bitkilərin yetişməsini insanların əməyinin zəhməti olaraq qəbul edib ona Allahın bir neməti kimi baxmasınlar. Belə olan halda onlara başa salmaq lazımdır ki, əvvəla, insanların əkin-biçin üçün sərf etdiyi gücü də onlara Allah vermişdir. İkincisi, bitkilərin cücərməsində insanlar onları sadəcə əkirlər. Onlara yetişib cücərmə qabiliyyətini verən isə Allahdır. Bu mövzuya Vaqiə surəsində yaradılışdakı üç nümunə ilə – insan amili, yağış yağması və bitkilərin cücərməsi faktoru ilə işarə edilmişdir. İlk baxışda elə təsəvvür yarana

bilər ki, bu üç məsələdə Allahın heç bir rolu yoxdur, sadəcə təbiətlə insan rol oynayır. Vaqiə surəsinin 63 və 64-cü ayələrində Allah-taala bu məsələyə toxunaraq belə buyurur: "Bəs əkdiyinizə (toxuma) nə deyirsiniz? Onu bitirən sizsiniz, yoxsa Biz?!" Toxum əlverişli və münbit şəraitdə yetişdirildiyi təqdirdə onun içərisində diri bir hüceyrəni yaradan məhz Allahdır. Bu diri hüceyrə əvvəlcə toxumun öz daxilindən qidalanaraq inkişaf edir, toxumu yarıb cücərdikdən sonra isə rişələnib yerdəki qidalar vasitəsilə qidalanaraq sürətlə inkişaf etməyə başlayır. Axırda da bir toxumdan onlarla, hətta yüzlərlə digər toxum əmələ gəlir.

### Gözəl başlanğıc

1. Körpə uşaqlar və onların inkişaf mərhələlərini əks etdirən videogörüntü təqdim etmək
2. Dərsə başlamazdan qabaq sinifdəki uşaqların körpəlik illərində çəkilmiş şəkillər göstərmək
3. Dişlərin forması və onların funksiyasını əks etdirən görüntülər təqdim etmək və ya sinifə protez diş gətirib uşaqlara bəzi məlumatlar vermək
4. Gündəlik həyatdakı ehtiyaclarımız üçün yazı lövhəsində bir cədvəl çəkmək və cədvəldə ehtiyaclarımızı ödəyəcək vasitələrin adını qeyd etmək
5. Şagirdlərdən biri "düşünüb fikirləşək" tapşırığında verilmiş Quran ayəsini oxusun, ya da həmin ayənin audiofaylını səsləndirək.
6. Sinifdə körpə bir uşağın gülüş və ya ağlama səsini səlnədirib sonra da uşaqlara müxtəlif suallar verək. Məsələn: Uşaq nə üçün ağlayır? Uşaq nə üçün gülür? Əgər biz uşaq olarkən gülməyi və ya ağlamağı bacarmasaydıq, nə baş verərdi?
7. Bu dərsi keçməzdən iki həftə qabaq uşaqlara tapşıraq ki, evdə dibçəkdə istənilən bir toxumu əkib sinifə gətirsinlər. Sonra isə onlara müxtəlif suallar verək. Məsələn: Bu toxumun daha yaxşı inkişafı üçün nələrə ehtiyacı var? Nə üçün bəzi tanışlarınızın əkdiyi güllər daha təravətli, bəzilərinin əkdiyi güllər isə bir qədər solğundur? Bu toxumu əkməkdən ötrü hansı işləri gördünüz?
8. Bir neçə vərəqə insanın müxtəlif ehtiyaclarını yazaq. Digər vərəqlərə isə həmn ehtiyacları aradan qaldıra biləcək vasitələrin adını qeyd edək. Sonra isə şagirdlərə tapşıraq ki, hansı ehtiyac hansı vasitə tərəfindən təmin edilirsə, onları müəyyənləşdirsinlər.
9. Dərs ili boyunca bu və digər münasibətlə şagirdlərə öyrədə

biləcəyimiz bəzi dua nümunələri seçib onlara öyrədək. Sonra isə onlara tapşıraq ki, digər nümunələr də hazırlasınlar. Həmin nümunələrdən bəzisinə diqqət yetirək:

* Ey quşları soyuqdan və istidən qorunmaq və yaxşı uça bilməsi üçün onlara qanad vermiş Allah! Bizə də gözəlliklər səmasında uça bilməyimiz üçün iradə qanadı ver!

* Ey bəzi heyvanlara daşlıq və qayalıq ərazidə əzilmədən gəzə bilməsi üçün iti dırnaq və caynaqlar verən Allah! Bizə də saysız-hesabsız nemətlərinə şükr etmək bacarığı ver!

* Ey bülbülü gülə dost edən Allah, bizi də Özünə dost et!

* Ey yazmaq və digər işlərimi görə bilməyim üçün əlimi yaratmış Allah, mənə başqalarının (ehtiyacı olanın) da əlindən tutmağa kömək ol!

10. Uşaqların ağlamasına və onun səbəblərinə aid sənədli bir film təqdim etmək.

11. Heyvanlar və onların balaları haqqında bir videogörüntü təqdim etmək də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

12. "Cücərməkdə olan toxum" mövzusunda bir videogörüntü təqdim etmək.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Cürbəcür nemətlərin vasitəsilə insan və digər varlıqların müxtəlif ehtiyaclarının ödənilməsini Allahın bilikli və qüdrətli olmasına dair nümunələr qeyd etməyi bacaracaqlar.

* Kiçik bir mətn şəklində dua hazırlayıb verdiyi nemətlərə görə Allaha şükr edəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

### Ailə

Ailə üzvlərinin köməyi ilə bir toxum əkin. Onun əkilməsi və inkişafı üçün görülən işlərdən şəkillər çəkib sinifə gətirin.

# İkinci fəsil - Din təlimləri (Allahın peyğəmbərləri)

## Tədrisdə nümunəvi örnəklər 29

## İbtidai mərhələnin dördüncü kitabı

## Suda uşaq



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Allahın böyük peyğəmbərlərindən biri kimi həzrət Musa (əleyhissəlam) ilə tanışlıq.
2. Həzrət Musaya (əleyhissəlam), onun əməllərinə və davranışına qarşı sevgi
3. Allahın böyük peyğəmbərlərindən biri kimi həzrət Musaya (əleyhissəlam) ehtiram
4. Mömin qadınlardan biri kimi Asiya xanımla tanışlıq
5. Asiya xanıma, onun əməllərinə və davranışına qarşı sevgi
6. Asiya xanımın həyat və əxlaqından örnək götürməyə çalışmaq
7. Allahın Öz bəndələrinə kömək etməsi nümunələri ilə tanışlıq
8. Allaha bağlılıq hissi
9. Allahın nemətlərinə görə Ona şükr etmək
10. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

Şagirdlər əvvəlki kitablarda həzrət Musa (əleyhissəlam) peyğəmbərin uşaqlıq dövrü ilə tanış olmuşlar. Bu dərsdə isə bir daha o həzrət barəsində Allahın böyük peyğəmbərlərindən biri olaraq məlumat öyrənməklə yanaşı Fironun həyat yoldaşı Asiya xanım haqqında da mömin qadınlardan biri olaraq məlumat əldə etmiş olacaqlar.

Bu dərsdə şagirdlər həm də onu öyrənəcəklər ki, Allahın dininə və bəndələrinə kömək etmək üçün kişivə ya qadın olmağın fərqi yoxdur. Bu işdə hərə əlindən gəldiyi qədər kömək edə bilər. Necə ki, Asiya xanım Fironun zülmləri qarşısında dözüm nümayiş etdirib axırda şəhid oldu. Allah-taala da onu möminlər üçün gözəl və mömin qadın örnəyinə çevirdi.

Bu dərsdə eyni zamanda şagirdlər Allah-taalanın bəndələrin ehtiyaclarından xəbərdar olmasını və müxtəlif yollarla onları aradan qaldırmasını öyrənəcəklər. Onlar başa düşəcəklər ki, heç nə Allahın bilik çərçivəsindən kənar deyil. O, hər şeyə qadir, hər şeydən xəbərdardır. Sadəcə olaraq Öz hikmət və məsləhətinə uyğun olaraq bu və digər bəndənin hər hansı bir ehtiyacını əlverişli zamanda və ən münasib formada aradan qaldırır. Şagirdlərin bu bilgisi onlarda ümid hissini oyadıb xüsusilə də maddi imkanların məhdud olduğu hallarda onları ümidsizlikdən uzaqlaşdıracaq.

Bilmək lazımdır ki, ... 

* Bu dərsdə dörd müxtəlif mövzu – Allahıtanıma, peyğəmbərlik, dini şəxsiyyətlər və Qurani-Kərim mövzuları birləşdirilmişdir.

* Allahıtanıma mövzusu ilə bağlı şagirdlər ikinci kitabda Allahın məxluqlara nemət verməsi ilə Onun mehriban, üçüncü kitabda isə bağışlayan olmasını öyrənmişlər. Bu dərsdə isə uşaqlar həzrət Musa (əleyhissəlam) peyğəmbərin uşaqlıq dövrü və Asiya xanımla, eləcə də Alahın bəndələri istənilən halda qoruması və onların ehtiyaclarını müxtəlif vasitələrlə aradan qaldırılması ilə tanış olacaqlar.

* Peyğəmbərlik mövzusu ilə bağlı uşaqlar daha əvvəlki kitablarda həzrət İbrahim (əleyhissəlam) peyğəmbərlə tanış olmuşlar. Bu dərsdə isə onlar Allahln böyük peyğəmbərlərindən biri kimi, həzrət Musanın (əleyhissəlam) həyatı haqqında bilgi əldə edəcəklər. Həzrət Musa (əleyhissəlam) peyğəmbərin mübarək adının Quranın 34 surəsində ümumilikdə 136 dəfə təkrar edilməsi onun və Bəni-İsrailin həyatında baş vermiş hadisələrdən ibrət götürülməsi məqsədini güdür.

* Musa sözü fonetik baxımdan iki sözdən təşkil olmuşdur. Bunlar “su” mənasını verən “mu” və “ağac” mənasını verən “sa” sözləridir. Musa peyğəmbər körpə ikən sandığa qoyuluaraq suya atılması və onun suda bir ağacın yanından tapılması ilə əlaqədar olaraq onu məhz bu cür adlandırmışlar.

## Gözəl başlanğıc

1. Həzrət Musanın (əleyhissəlam) filmindən dərsə uyğun gələn hissəsinin fraqmentlərini təqdim etmək bu dərs üçün olduqca gözəl başlanğıc sayıla bilər.

2. Dərsin mətni ilə uyğun gələn Quran ayələrindən və “bax və de” tapşırığındakı şəkillərdən istifadə etmək.

3. Verilmiş əhvalata uyğun şəkillər hazırlayıb yazı lövhəsindən asaq. Sonra da əhvalatı uşaqlar üçün danışaq.

4. Su üzərində üzən kiçik bir sandığın şəkil və ya videogörüntüsünü uşaqlara göstərib onlardan bu barədə danışmasını istəyək. Bu barədə sual-cavab edək. Məsələn, belə suallar verək: Sizcə bu sandıq nə üçün sudadır? O sandıq haradan gəlib? Bu çay hara gedib çıxır? Sizcə bu sandığın içərisində nə var? Bu kimi suallarla dərsə maraqlı başlanğıc etmək mümkündür.

5. Sinifə bir əsa gətirib uşaqlarla onun barəsində fikir mübadiləsi aparaq. Əsanın hansı işlərə yaradığını, ondan hansı məqsədlər üçün istifadə edildiyini soruşaq. Uşaqlara bəzi suallar verək. Məsələn: Siz bu əsadan harada görmüsünüz? Əgər sizin belə bir əsanız olsa, onunla nə iş görərsiniz? Bu əsa sizə hansı peyğəmbəri xatırladır? Bu suallar da dərs üçün gözəl başlangıc sayıla bilər.

6. Bu dərsə Musa (əleyhissəlam) peyğəmbər haqqında bir şeirlə də başlaya bilərik.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda uşaqlar:

* Həzrət Musanın (əleyhissəlam) Allahın böyük peyğəmbərlərindən biri olaraq həyatı ilə tanış olub ona və əməllərinə sevgi və ehtiramını göstərəcəklər. Habelə o həzrətin həyatı ilə bağlı müxtəlif əhvalatlar qeyd edib onun həyatından, əməllərindən örnək götürməyə çalışacaqlar.

* Asiya xanıma qarşı mömin qadınlardan biri kimi sevgi və ehtiram göstərib onun həyatından bir əhvalat qeyd etməyi bacaracaqlar. Eləcə də çalışacaqlar ki, həyatda həmişə onun davranış və əməllərindən örnək götürsünlər.

* Allahın verdiyi nemətlər görə Ona şükr etməklə yanaşı Allahın Öz bəndələrinə köməyi ilə bağlı müxtəlif nümunələr qeyd edəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah edə biləcəklər.

## Üçüncü fəsil - Din təlimləri (imamət)

## Tədrisdə nümunəvi örnəklər 30

## İbtidai mərhələnin dördüncü kitabı

### İki günbəzli hərəm



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Yeddinci imam olaraq imam Kazim (əleyhissəlam) ilə tanışlıq

2. İmam Kazimə (əleyhissəlam), onun əməllərinə və davranışına qarşı sevgi

3. İmam Kazimin (əleyhissəlam) həyatından, əxlaq və davranışından örnək götürməyə çalışmaq

4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə uşaqlara şagirdlərdən birinin ziyarət təəssüratları formasında imam Kazimin (əleyhissəlam) şəxsiyyətinin bəzi cəhətləri barədə məlumat verilmişdir. Səy göstərilmişdir ki, uşaqlar imam Kazimə (ə) sevgi və ehtiram göstərməklə yanaşı onun həyatından, əxlaq və davranışından örnək götürsünlər.

Tövsiyə edirik ki, bu dərs mümkün olduğu təqdirdə imam Kazimin (əleyhissəlam) mövlud,ya da şəhadət günündə keçirilsin.

## Bilmək lazımdır ki, ... 

* Kazimeyn hərəmi yeddinci və doqquzuncu imamların türbəsidir. İmam Musa ibn Cəfər (əleyhissəlam) ilə Cavad ləqəbi ilə tanınmış imam Mühəmməd Təqiyə (əleyhissəlam) ikisinə birlikdə Kazimeyn deyildiyi üçün onların dəfn edildiyi yerin adı da məhz Kazimeyn və ya Kazimiyyə adlandırılmışdır. Bu ərazi Başdadın şimal istiqamətində yerləşir. İmam Kazim (əleyhissəlam) imam Rzanın (əleyhissəlam) atası, imam Cavad (əleyhissəlam) isə imam Rzanın (əleyhissəlam) oğludur.

* Kazim, Babül-həvaic və Əbi-saleh ləqəbləri ilə tanınmış imam Musa ibn Cəfər (əleyhissəlam) hicri qəməri tarixi ilə 128-ci il səfər ayının 7-də Məkkə və Mədinə şəhərləri arasındakı Əbva kəndində anadan olmuşdur. İmam təxminən on dörd il Harun ər-Rəşidin zindanında həbsdə olub əzab-əziyyətə, işkəncələrə məruz qalmışdır. Hicri 183-cü il rəcəb ayının 25-də abbasi xəlifəsi Harun ər-rəşidin Bağdaddakı həbsxanasında, 55 yaşında olarkən Harunun göstərişi ilə zəhərlənərək məzlumcasına şəhid edilmişdir.

### Gözəl başlanğıc

1. Dərslik kitabındakı "araşdırın" tapşırığında verilmiş tapşırığın səhnələşdirilməsi bu dərsə gözəl başlanğıc sayıla bilər.

### Söymək əvəzinə

Gözü imama sataşan kimi onu və əcdadlarını söyməyə başladı. ... İmam isə onun bu ədəbsizliyinə qarşı yalnız təbəssüm etməklə cavab verirdi. O, bir gün həmişəki kimi, yenə də İmamı söyməyə başladıqda imamın səhabələri narahat olub dedilər ki, bu adam öz ədəbsizliyinin cəzasını almalıdır. Onun İmamla bu cür danışmağa haqqı yoxdur. İmam gülümsəyərək buyurdu: "Dostlar, səbirli olun. ... O, öz səhvini başa düşəcək." Günlər ötür, həmin adam öz ədəbsizliyinə davam edərək İmamı söyürdü. İmamın dostları isə hər dəfə daha da artıq əsəbləşir narahat olurdular. Ancaq İmam onlara icazə vermirdi ki, həmin adamı tənbeh etsinlər. Bir gün imam öz səhabələrindən soruşur ki, neçə vaxtdr həmin adam görünmür. Onun harada yaşadığını bilirsinizmi? Səhabələr cavab verirlər ki, onun Mədinənin kənarında bir tarlası var, orada işləyir. İmam həmin adamın tarlasına gedir. İmamın səhabələri buna çox təəccüblənirlər. Tarla sahibi imamın gəldiyini gördükdə əlindəki beli torpağa sancıb əlini belinə qoyaraq qaş-qabağını tökür. əsəbi səslə qışqırıb İmamdan tarlanı tərk etməsini istəyir. Lakin İmam gülümsəyərək irəli gedir. Tarla sahibi həmişəki kimi İmamı söymək istədikdə İmam ona mehribancasına salam verib əhvalını soruşur.

Tarla sahibi başqa bəhanə tapa bilmədiyi üçün İmama deyir ki, tarlaya girib məhsulumu korladın. İmam isə ona çox qiymətli bir hədiyyə verərək onunla səmimi şəkildə söhbət etməyə başlayır.

... Beləliklə, İmam Kazim (əleyhissəlam) həmin adama qarşı öz sevgisini nümayiş etdirir. Öz ədəbsizliyinə qarşı İmamın bu cür rəftarını görən tarla sahibi öz hərəkətinə görə çox utanıb titrək səslə deyir: “Mən pis olsam da, sizi narahat etsəm də, siz mənə qarşı mehribanlıq etdiniz. Siz çox alicənabsınız. Xahiş edirəm məni bağışlayın.” Ondan sonra həmin adam həmişə İmama və onun səhabələrinə qarşı hörmət edərdi.

2. Şagirdlərdən biri dərsdə verilmiş Quran mesajını oxuyub yazı lövhəsinə yazsın. Onun mənası barədə fikir mübadiləsi aparılsın.

3. Məsumların (imam Əli (əleyhissəlam), imam Hüseyn (əleyhissəlam), imam Musa Kazim (əleyhissəlam), imam Rza (əleyhissəlam), imam Cavad (əleyhissəlam), imam Əli Hadi (əleyhissəlam) və imam Həsən Əskərinin (əleyhissəlam) hərəmlərindən və türbələr üzərindəki günbəzlərdən fotoqalereya təqdim etmək.

4. Şagirdlərdən Kərbəla ziyarətinə getmiş birini lövhəyə dəvət etmək. Həmin şagird bu gözəl ziyarət haqqında olan təəssüratlarını sinif yoldaşları üçün danışsın.

Kərbəla ziyarətinə getmiş insanların, uşaqların videogörüntüsünü də təqdim etmək olar.

5. “Düşüncə dayanacağı” tapşırığının şagirdlər tərəfindən səhnələşdirilməsi, habelə dərsdə verilmiş digər tapşırıq və sualların həll edilməsi.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər:

* İmam Kazim (əleyhissəlam) ilə bağlı bəzi əhavaltlar və o həzrətin bir sıra xüsusiyyətlərini qeyd edəcəklər.

* İmam Kazimin (əleyhissəlam) həyatı ilə tanış olub ona və əməllərinə sevgi və ehtiramını göstərəcək, o həzrətin həyatından, əxlaq və davranışından örnək götürməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

## Ailə

Uşaqlar evdə ailə üzvləri ilə birlikdə əsəblərinə hakim çıxmağı bacaran insanla əsəblərinə hakim çıxa bilməyən insanın xüsusiyyətlərini araşdırıb nəticəni qeyd edərək təqdimat hazırlayacaqlar.

# Dördüncü fəsil - Din təlimləri
# (İslam əxlaqı və ədəb qaydaları)

## Tədrisdə nümunəvi örnəklər 31

## İbtidai mərhələnin dördüncü kitabı

### Üç dəfə təkrar edilmiş söz



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Bir müsəlmanın qonşular qarşısındakı vəzifəsi ilə tanışlıq
2. Qonşulara qarşı vəzifəni yerinə yetirməyə çalışmaq
3. Quran mesajı ilə tanışlıq

### Öyrənmə və öyrətmə metodları

İctimai həyat tərzi bir sıra yazılmamış qanunlar tələb edir. O cümlədən, qonşularla ünsiyyət, onlarla ünsiyyətin yolları və s. Bu kimi məsələlər İslam dinində olduqca diqqət mərkəzində saxlanılmışdır. Hətta insanın dünya və axirət səadətini təmin edəcək işlərdən birinin məhz yaxşı qonşuluq etmək və yaxşı qonşuya sahib olmaqdır.

Yaxşı olar ki, şagirdlər elə kiçik yaşlarından qonşuluq haqqında lazımi məlumat əldə etsinlər ki, oyun və əyləncə vaxtı bir-birinin hüquqlarını qorusunlar.

Bilmək lazımdır ki, ... 

* Qonşuluq dairəsinin əhatə çərçivəsi barədə imam Məhəmməd Baqir (əleyhissəlam) belə buyurmuşdur: “Bütün istiqamətlərdən, sağ, sol, ön və arxa tərəfdən qırx ev qonşu sayılır.” Qonşuluqla bağlı imam Sadiq (əleyhissəlam) buyurmuşdur: “Yaxşı qonşuluq ruzinin artmasına, məmləkətlərin abadlaşmasına səbəb olar.”

* Qonşuluq haqqına İslam dinində o dərəcədə önəm verilmişdir ki, Əmirəlmöminin Əlinin (ə) vəsiyyətlərində o həzrətin belə buyurduğunu görürük: “Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) qonşu barəsində o qədər tövsiyə etdi ki, elə bildik qonşudan-qonşuya miras payı da çatacaq.”

* Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) qonşu barədə buyurduğu bəzi kəlamları qeyd etmək yerinə düşər:

1. Qonşun səndən kömək istədikdə ona köməyə tələs.

2. Qonşun səndən borc istədikdə, ver.

3. Qonşunun ehtiyacı yarandıqda ehtiyacını aradan qaldır.

4. Qonşuna bir bəla üz verdikdə, ona toxtaqlıq ver.

5. Qonşunun xoş günündə onu təbrik et.

6. Qonşun xəstələndikdə ona baş çəkməyə get.

7. Qonşun vəfat etdikdə dəfnində iştirak et.

8. Qonşun razı olmayınca öz evini onun evindən hündür tikib ona hava çatmasının qarşısını kəsmə.

9. Özün üçün mer-meyvə aldıqda qonşuna da ver. Ya da meyvəni evə elə apar ki, görünməsin.

10. Öz uşağına mer-meyvə verib küçəyə göndərmə. Çünki qonşunun uşağı sənin uşağında meyvə görüb narahat olar.

11. Evində bişən yeməyin iyi ilə qonşunu narahat etmə. Ya da bişirdiyin yeməkdən qonşun üçün də göndər.

## Gözəl başlanğıc

1. Dərsin mətnini oxumaq bu dərs üçün gözəl başlanğıc ola bilər. Ancaq bunun üçün uşaqlardan dörd nəfəri seçib birini mətni oxuyan, üçünü isə mətndə adı çəkilən şəxslərin (həzrət Əli (əleyhissəlam), Əbuzər və Salmanın) roluna qoymaq lazımdır. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mətndə verilmiş: "Kimin qonşusu ondan narahat olarsa, o, müsəlman deyil" kəlamını sinifdə hamı uca səslə təkrar etsin.

Qeyd: Mətnin aparıcı rolunu müəllim özü də ifa edə bilər. Digər üç şagird isə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mətndə verilmiş kəlamını uca səslə təkrar edər.

2. Dərsin mətnində verilmiş hekayəni səhnələşdirmək və şagirdlərin həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mətndə verilmiş kəlamını üç dəfə uca səslə təkrar etməsi də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

3. Quran mesajını oxuyub onun mənası barədə fikir mübadiləsi aparmaq.

4. "Bir-birinizlə danışın" və "tamamlayın" tapşırığında verilənləri səhnələşdirmək.

5. Öz qonşusunu düşünərək onun üçün bəzi işlər görən bir uşaq haqqında videogörüntü təqdim etmək.

6. Şagirdlər öz qonşusu üçün hansı işləri görüblərsə, onu sinifdə səhnələşdirsinlər. (Kollektiv şəkildə)

7. Qonşunu narahat edə biləcək və ya sevindirəcək işləri işarələrlə göstərin və şagirdlər işarələrin köməyi ilə həmin işləri təxmin edib tapsınlar.

8. "Səmavi hədiyyələr"in ikinci kitabında verilmiş "Ayın xatirəsi" dərsinə aid görüntüləri təqdim etmək. İmam Həsən (əleyhissəlam) görür ki, anası həzrət Fatimə (səlamullahi əleyha) sübh namazından sonra qonşuların bir-bir adını çəkib onlar üçün dua edir. İmam Həsən (əleyhissəlam) anasından soruşur ki, anacan, sən bütün möminlər və qonşular üçün dua etdin, bəs özün üçün niyə dua etmədin? Həzrət Fatimə (səlamullahi əleyha) oğlu Həsənin üzünə baxaraq buyurur: "Oğlum, əvvəlcə qonşu, sonra ev." Bu mövzu dərsə başlamaq üçün olduqca uyğun bir başlanğıc sayılar.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda uşaqlar:

* Bir müsəlmanın qonşu qarşısındakı vəzifələrini və onun nəticəsini izah edə biləcəklər.

* Çalışacaqlar ki, qonşular qarşısındakı vəzifələrinə həmişə riayət etsinlər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

### Ailə

Şagirdlər valideynlərin köməyi ilə qonşuların qonşuluq barədə nə düşündükləri barədə araşdırma aparıb təqdimat hazırlayaraq sinifə gətirsinlər.

# Beşinci fəsil - Din təlimləri (Şəriət hökmləri)

## Tədrisdə nümunəvi örnəklər 32

## İbtidai mərhələnin dördüncü kitabı

### Biz məscidə gedirik



**Dərsin tədrisində nəzərdə tutulanlar**

1. Məscidə getməyin və camaat namazında iştirak etməyin ədəb qaydaları ilə tanışlıq
2. Camaat namazının bəzi qaydaları ilə ilə tanışlıq
3. Məscidə gedib camaat namazında iştirak etmə və onun qaydalarına riayət etmək istəyi
4. Camaat namazında iştirak və onun qaydalarına riayət etmək istəyi
5. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Məscid sözünün ərəbcə leksik mənası "səcdə və ibadət edilən yer" deməkdir. Camaat namazı qılmaq üçün məscid ən gözəl yer olaraq göstərilmişdir. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) Mədinəyə hicrət etməsi ilə eyni vaxtda məscidin tikilməsinə başlanılması məscidin müsəlman cəmiyyətinin Cahiliyyə ənənələrindən fərqləndirilməsində də müstəsna rolunun olmasından xəbər verir.

Bilmək lazımdır ki, ...

* Mümkün olduğu təqdirdə bu dərsin məsciddə keçirilməsi tövsiyə olunur. Qoy şagirdlər sinif otağından çıxıb məscidə getməklə cəmiyyətlə ünsiyyətdə olsunlar. Həm də məsciddəki mənəvi atmosferlə bağlı onlarda xoş xatirələr yaransın.

* Namazın camaatla birlikdə qılınmasının üstünlüyü barədə həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) belə buyurmuşdur: "Camaat namazının üstünlüyü tək qılınan namazın üstünlüyündən iyirmi beş dəfə artıqdır." İmam Rza (əleyhissəlam) camaat namazının fəlsəfəsi barədə belə buyurmuşdur: "Camaat namazının fəlsəfəsi odur ki, qoy hamı İslamı, tövhidi və Allaha bəndəçiliyi görsün."

* İmam Həsən Müctəba (ə) ilə bağlı mənbələrdə qeyd edilir ki, o, namaz vaxtı ən gözəl paltarlarını geyinərmiş. Ondan nə üçün ən gözəl paltarlarını geyinməsinin səbəbini soruşduqda belə cavab verərmiş: "Allah gözəldir və gözəlliyi də sevir. Buna görə də mən öz Rəbbimlə razü-niyaz etməkdən ötrü ən gözəl paltarlarımı geyinirəm. Çünki O, məscidə gedərkən bəzənməyi əmr etmişdir."

## Gözəl başlanğıc

1. Dərsə başlamazdan qabaq uşaqlara müsəlmanların ən əsas məscidləri hesab olunan Məscidül-həram, Məscidün-Nəbi, Kufə məscidi, Məscidül-əqsa, Qoba məscidlərindən müxtəlif şəkillər göstərmək bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

2. Bu dərsi keçməzdən bir həftə qabaq uşaqlara tapşırılsın ki, hərə öz məhəllə məscidindən müxtəlif şəkillər (pişnamazın şəklini, camaat namazından və məsciddə təşkil edilən digər müxtəlif tədbirlərdən görüntülər) çəkib gətirsin. Bu dərs keçirilərkən həmin görüntüləri uşaqlara təqdim edək.

Qeyd: Uşaqların məscidlərdə çəkilmiş şəkillərini nümayiş etdirmək onlarda məscid haqqında praktiki məlumat formalaşdırmış olacaq.

3. "Allahın elçisi" filmindən məscidin inşa edilməsi fraqmentini təqdim etmək də bu dərs üçün gözəl başlanğıc ola bilər.

4. Bu dərsə Quran mesajında verilmiş ayəni şagirdlərdən birinin oxuması və ya həmin ayənin audiofaylının səsləndirilməsi, daha sonra isə onun mənası barədə fikir mübadiləsi aparmaqla da başalaya bilərik.

5. Dərsin əvvəlində “Meh kimi” şeirini dərsin əvvəlində uşaqlarla birlikdə oxuyaq. Yaxud da bir həftə qabaqdan həmin şeiri uşaqlara verib əzbərlətdirək, bu dərsə başladıqda isə uşaqlarla birlikdə onu əzbərdən deyək. Bu, dərsə başlamaq üçün sinifdə gözəl atmosfer yarada bilər.

6. Məscidlərdən birində dördrükətli bir namazın qılınmasından videogörüntü təqdim etmək.

7. Bu dərs üçün gözəl başlanğıclardan biri də azan audiofaylını səsləndirmək olar.

8. Mümkün olduğu təqdirdə bu dərsə din xadimlərindən birini sinifə dəvət etmək. (Adətən, məktəbin yerləşdiyi ərazidəki məhəllə məscidinin pişnamazı dəvət edilir.) Bu iş sinifdə səmimi bir atmosfer yaradıb şagirdlərin məscidə getməsinə yaxşı zəmin yaradar.

9. Texnologiya dərsində uşaqlara rəngli kağızlar və yapışqandan istifadə edərək bir məscid hazırlamasını tapşıraq.

10. Mümkün olduğu təqdirdə məktəb rəhbərliyinin icazəsi ilə bütün uşaqları camaat namazında iştirak etmək üçün məktəbin yerləşdiyi ərazidəki məhəllə məscidinə aparaq. Bunu öncədən planlaşdırmaq lazımdır.

11. Məscidə getmək mümkün olmadığı təqdirdə müəllim uşaqlarla birlikdə dəstəmaz alıb onları məktəbin namaz otağına aparsın. Yaxud da məktəbin həyətində müəllimin pişnamazlığı ilə camaat namazı qılınsın.

Qeyd: Namaz otağında camaat namazı ilə təklikdə qılınan namazın fərqi uşaqlara əyani şəkildə izah edilsin. Bunun üçün uşaqların daha əvvəldən öyrəndikləri bəzi məlumatlardan, məsələn, tək və cüt ədədlər anlayışından istifadə edilsin.

12. Dərslik kitabında verilmiş şəkillərdən istifadə etməklə də bu dərsə başlaya bilərik.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər:

* Camaat namazının qayda və faydaları, eləcə də camaat namazı ilə təklikdə qılınan namazın fərqi barədə məlumat verməklə bərabər camaat namazlarında iştirak edəcəklər.

* Məscidə getmək və camaat namazında iştirak etməyin ədəb qaydalarını izah edib camaat namazına qatılacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

### Ailə

Şagirdlərə tapşırılsın ki, çalışsınlar ailə üzvləri ilə birlikdə məscidə gedib məsciddə yerinə yetirilən ibadətləri izləsinlər. Sonra isə həmin ibadətlər barədə sinifdə məlumat versinlər.

# Altıncı fəsil - Din təlimləri
# (İslami mərasimlər)

## Tədrisdə nümunəvi örnəklər 33

## İbtidai mərhələnin dördüncü kitabı

### Ən parlaq gecə



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Məbəs bayramı və bayram tədbiri haqqında məlumat
2. Məbəs bayramı tədbirində iştirak etmək istəyi
3. Məbəs bayramı tədbirinin təşkilində iştirak etmək
4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Məbəs günü həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) bütpərəstliyə qarşı mübarizə aparmaq, Allah tərəfindən nazil olmuş göstərişləri insanlara çatdırmaq üçün peyğəmbər seçildiyi gündür.

Mümkün olduğu təqdirdə bu dərsin rəcəb ayında, ya da həzrət Peyğəmbərlə (səlləllahu əleyhi və alih) bağlılığı olan bir gündə, məsələn o həzrətin mövlud günündə, yaxud digər islami bayramlardan biri ərəfəsində keçirilməsi tövsiyə edilir.

**Gözəl başlanğıc**

1. "Mühəmməd Allahın elçisi" cizgi filmindən həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) Həra mağarasında peyğəmbər seçilməsi fraqmentini təqdim etmək.

2. Dərsdə verilmiş Quran mesajının şagirdlərdən biri tərəfindən oxunması və yaxud həmin ayənin audiofaylını səsləndirmək.

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ

(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə oxu!

Ələq surəsi, 1-ci ayə

3. Məscidül-həram, Məscidün-Nəbi, Hira mağarası və Nur dağından müxtəlif görüntülər təqdim etmək həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) peyğəmbər seçilməsinə aid olan bu dərs üçün gözəl başlanğıc sayıla bilər. Şagirdlər təqdim edilən şəkillər arasındakı bağlılığı qısa cümlələrlə ifadə etsinlər.

4. Sinif otağının bəzəkli kağız, parça və şagirdlərin daha öncədən çəkib hazırladığı şəkillərlə bəzədilməsi.

5. Yazı lövhəsinə "nur, işıq" sözünü yazıb onun xüsusiyyətləri barədə məlumat vermək. Yaxud da yazı lövhəsinin bir tərəfində "nur", digər tərəfində isə "zülmət" sözlərini yazıb hər birinin altından öz xüsusiyyətlərini qeyd edək. Sonra da şagirdlərə nur və zülmətin xüsusiyyətlərinin bu dərs ilə nə bağlılığı olduğunu izah edək.

6. Dərsin başlanğıcında "Məkkə mirvarisi" şeirini uşaqlarla birlikdə oxumaq.

7. Üzərinə "seçilmək", "məbəs", "Əmin", "Həra mağarası", "Cəbrail", "Ələq surəsinin 1-ci ayəsi" və bu kimi söz və birləşmələri yazılmış xüsusi vərəqlər hazırlayaq. Sonra isə şagirdlərin hər birindən bir vərəq çəkməsini istəyək. Hər şagird çəkdiyi vərəqdə yazılmış söz və ya birləşmə haqqında 1 dəqiqə məlumat versin.

8. Sinifə şirniyyat və ya konfet gətirib şagirdlərə paylayaraq bu günü digər günlərdən fərqləndirməklə də bu dərsə gözəl başlanğıc etmiş olarıq.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda uşaqlar:

* Məbəs bayramı haqqında müsəlmanların böyük bayramlarından biri olaraq ətraflı məlumata yiyələnib onunla əlaqədar təşkil edilən tədbirlər haqqında məlumat verə biləcəklər.

* Məbəs bayramı ilə əlaqədar təşkil edilən tədbirlərdə iştirak edəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün oxuyub onun mənasını ətraflı şəkildə izah etməyi bacaracaqlar.

# Yeddinci fəsil - Din təlimləri (Axirət dünyası)

## Tədrisdə nümunəvi örnəklər 34

## İbtidai mərhələnin dördüncü kitabı

## Həmişə açıq olan gözlər



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Bütün əməllərimizin qeyd edilməsi və Allahın onlardan xəbərdar olması
2. Axirət aləmində mükafat əldə etməkdən ötrü yaxşı işlər görməyə çalışmaq
3. Allahın Cənnətdəki nemətlərindən faydalana bilməkdən ötrü yaxşı işlər görməyə çalışmaq
4. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Aşkarda və yaxud gizlində görülməsindən asılı olmayaraq yaxşı iş gözəl və bəyənilendir. Bu dərsdə videokameranın fəaliyyəti misal göstərilmişdir ki, insanların əməllərinin necə qeyd edilməsini başa düşmək uşaqlar üçün asan olsun.

Bilmək lazımdır ki, ...

* Bir nəfər imam Sadiqdən (ə) soruşur: “Biz Allahın bütün işlərimizdən xəbərdar olduğunu bildiyimiz halda daha yaxşı və pis əməllərimizi qeyd edən mələklərə nə ehtiyac var?” İmam Sadiq (ə) onun cavabında belə buyurur: “Allah-taala həmin mələkləri Ona ibadət etməyə dəvət edib onları bəndələrin əməllərinə şahid tutdu ki, bəndələr mələklərin onların əməllərini qeyd etdiyini bilib Allaha daha müti olsunlar, Ona asi çıxmasınlar. Elə bəndələr var ki, günah etmək fikrinə düşdükdə mələkləri yadına salıb günah fikrindən daşınır, deyir ki, Allahım məni görür, mələklər də şahiddir.”

## Gözəl başlanğıc

1. Uşaqlara müxtəlif şəkillər göstərməklə yaxşı işləri tapmalarını istəyək.





2. Dərsdəki Quran mesajında verilmiş ayəni şagirdlərdən biri oxuduqdan sonra onun mənası barəsində fikir mübadiləsi aparılsın və yuxarıdakı tapşırıqda göstərilmiş şəkillərlə ayənin nə kimi bağlılığı olduğu izah edilsin.

أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

Məgər (insan) bilmir ki, Allah (onun bütün əməllərini) görür?!

Ələq surəsi, 14-cü ayə

3. Aşağıda verilmiş cədvəlin surətini çıxarıb uşaqlara paylayaq. Uşaqlar isə cədvəldə verilənləri doldursunlar.

Allahın olduğu yerləri rənglə.

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Eşidən | Maşının içi | Çöllük | | | Səhra Suyun altı Güclü Kitabxananın arxası | Səma | Şəhər | Məktəb | Yorğanın altı | Sinif |
| | | | | | | | | Anbar | | Həyat |
| | | | | | | Küçənin daxili | | | Prospekt | Ölkə |
| Müqəddəs | Stolun altı | | Dağın yuxarısı | | | Sandığın iş | | Okean | | |
| | | | | Qa-fur | Xalçanın altı | | Canlı | | | Xəbərdar |
| | Yeəanə | Bağışlayan | | | Həkim | | | Mehriban | | |
| Qapının arxası | Yerin altı | | Səhra | | | Yer kürəsi | | Meşə | | Ev |
| Künc | Ağacın altı | | | | Hazır | Gü-clü | Park | | Ağıllı | |

Nöqtələrin yerinə uyğun gələn sözü yaz:

**Allah .................... dir.**

**Qeyd:** Şagirdlərə onu da başa salmaq lazımdır ki, bu cədvəli doldurarkən də Allah onları görürdü. Cədvəlin sirri də buna şahiddir. Cədvəldə rənglənməmiş sözlər Allahın sifətləridir. Yaxşı olar ki, uşaqlar onları ayrı-ayrı vərəqlərə yazıb sinifdəki tablodan assınlar.

4. (Mağazalarda, küçə və prospektlərdə, magistral yollarda, parklarda və s. yerləşdirilmiş) gizli müşahidə kameralarından görüntülər göstərmək də bu dərs üçün gözəl başlanğıc ola bilər.

5. Bu şəkili gördükdə nə hiss keçirirsiniz?




*Diqqət, diqqət! Ərazi videokamera vasitəsilə müşahidə olunur.*

Hörmətli həmkar, siz bu dərsə gözəl başlanğıc etmək üçün nə edə bilərsiniz? Öz gözəl başlanğıcınızı email ünvanımıza göndərin. Sizin ideyanız saytda öz adınızla veriləcək.

## Qiymətləndirmə

Ümid edirik ki, uşaqlar bu dərsin sonunda:

* Allahın bəndələrin bütün əməllərindən xəbərdar olmasını qeyd etməklə yanaşı əməllərin qeyd edilməsini nümunə və misallar vasitəsilə izah edəcəklər.

* Yaxşı işlər görməyə meyilli olduqlarını bildirməklə yanaşı axirət dünyasında mükafat əldə etməkdən ötrü həmişə yaxşı işlər görməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

## Səkkizinci fəsil - Din təlimləri (Axirət dünyası)

### Tədrisdə nümunəvi örnəklər 35

### İbtidai mərhələnin dördüncü kitabı

### İlk müsəlman qadın



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Mömin bir qadın olaraq həzrət Xədicə (səlamullahi əleyha) ilə tanışlıq

2. Həzrət Xədicəyə (səlamullahi əleyha), onun əməllərinə və rəftarına qarşı sevgi

3. Həzrət Xədicənin (səlamullahi əleyha) həyatından, əxlaq və davranışından örnək götürməyə çalışmaq

**Öyrənmə və öyrətmə metodları**

Həzrət Xədicənin (səlamullahi əleyha) həyatını müsbətə doğru dəyişiklik və təkamülün ən bariz nümunəsi kimi qəbul etmək olar. Çünki həzrət Xədicə (səlamullahi əleyha) ömrünün böyük bir hissəsini Cahiliyyət dövründə keçirsə də sonradan cəmiyyətdəki mövcud təzadlara qarşı çıxaraq İslamı qəbul etmişdir. İlk islami birliyə qoşulmuşdu. Onun həyatı əvvəli cahiliyyət, sonu isə İslam dövrünə gedib çıxan bir körpüyə bənzəyir. Bu baxımdan onun həyatındakı önəmli hadisələri araşdırmaq gözəl örnək əldə etməkdə bizə yardımçı, cəmiyətin bütün təbəqələri, xüsusilə də həyatlarında bayağı mədəniyyətləri təcrübə etmiş qadınlar

üçün faydalı ola bilər.

Həzrət Xədicə (səlamullahi əleyha) həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) ilə keçirdiyi bütün ömrü boyu həmişə ona arxa-dayaq çıxıb dəstək olmuşdur.

Bilmək lazımdır ki, ... 

* Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) nəql edilmiş bir hədisdə deyilir: "Cənnət qadınlarının ən üstünü dörd xanımdır. Xüveylidin qızı Xədicə, Mühəmmədin qızı Fatimə, İmranın qızı Məryəm və Fironun həyat yoldaşı – Müzahimin qızı Asiya."

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Qüreyş müşrikləri tərəfindən əziyyətə məruz qaldıqda, dedikləri təkzib edildikdə həzrət Xədicə (səlamullahi əleyha) ona mənəvi dayaq olub təskinlik verirdi. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) həzrət Xədicənin (səlamullahi əleyha) dəfələrlə tərifləmiş, digər qadınlardan üstün olduğunu bildirmişdir. Onu o qədər tərifləyərmiş ki, bir dəfə Aişə xanım belə deyibmiş: "Mən Peyğəmbərin xanımları arasında Xədicə qədər heç kimi qısqanmamışam." Bunun da səbəbi Peyğəmbərin Xədicəni həddən artıq tərifləməsi olmuşdur.

### Gözəl başlanğıc

1. Həra mağarası, Nur dağı, Kəbə evi, Əbutalib dərəsi kimi yerlərin görüntülərini təqdim etmək və uşaqlardan bu görüntülərlə dərsin nə kimi bağlılığı olduğunu soruşmaq.

2. Şagirdlərdən biri bu dərsin hekayəsini Nur dağının dilindən nəql etsin. Digər şagirdlər isə Həra mağarası və Nur dağına aid şəkilləri əllərində tutub onların dilindən bəzi məlumatları verə bilərlər.

3. Bu dərsi keçməzdən bir həftə qabaq şagirdlərə tapşırılsın ki, həzrət Xədicə (səlamullahi əleyha) barəsində məlumat toplayıb hekayə hazırlayaraq sinifə gətirsinlər. Sonra isə hazırladıqları hekayə əsasında həzrət Xədicənin (səlamullahi əleyha) üç mühüm xüsusiyyəti barədə danışsınlar.

4. “Məhəmməd Allahın elçisi” cizgi filmindən həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih) Həra mağarasına getməsi, orada ona peyğəmbərlik verildikdən sonra evə qayıtması, eləcədə müsəlmanların Əbutalib dərəsində mühasirədə qalıb çətinliklər çəkməsi,həmin vaxt Peyğəmbərin (səlləllahu əleyhi və laih) əmisi və həyat yoldaşının vəfat etməsi fraqmentini təqdim etmək.

5. Yazı lövhəsinə “kədər ili” ifadəsini yazıb bu barədə fikir mübadiləsi aparmaq. Yalnız şagirdlər özləri bu barədə bildiyi məlumatları danışsınlar. Müəllim isə sadəcə istiqamət verməklə kifayətlənsin. Uşaqların verəcəyi suallara gəldikdə isə “Allahın elçisi” filmindən müsəlmanların Əbutalib dərəsində mühasirədə qaldığı fraqmenti təqdim etməklə imkan yaradaq ki, şagirdlər suallarına filmdən cavab tapsınlar.

6. Uşaqlara belə bir sual verilsin ki, “kədər ili” və yaxud “fil ili” ifadələri sizə nələri xatırladır?

Əgər siz həmin il üçün bir ad seçməli olsaydınız, hansı adı seçərdiniz?

Qeyd: Bu ilin həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) tərəfindən “kədər ili” adlandırılması həzrət Xədicə (səlamullahi əleyha) ilə Peyğəmbərin əmisi Əbutalibin necə önəmli şəxslər olduğundan xəbər verir. Şagirdlərlə bu barədə söhbət zamanı çalışmaq lazımdır ki, həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) hisslərini uşaqların başa düşə biləcəyi hadisələrlə uzlaşdıraq.

## Qiymətləndirmə

Ümid edirik ki, uşaqlar bu dərsin sonunda:

* Həzrət Xədicəni (səlamullahi əleyha) həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyat yoldaşı, ilk müsəlman qadın və həzrət Fatimənin (səlamullahi əleyha) anası kimi təqdim edib onun ömrünün sonuna qədər Peyğəmbərə dəstək olduğunu izah etməyi bacaracaqlar.

* Həzrət Xədicəyə (səlamullahi əleyha) sevgi bildirməklə yanaşı həmişə onun həyat, əxlaq və davranışından örnək götürməyə çalışacaqlar.

Üçüncü hissə

3

# Tədrisdə nümunəvi örnəklər Din təlimləri (səmavi hədiyyələr)

İbtidai mərhələnin beşinci kitabı

# Birinci fəsil - Din təlimləri (Quran)

## Tədrisdə nümunəvi örnəklər 36

## İbtidai mərhələnin beşinci kitabı

### Səmadan bir dəstə gül



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Quranın verdiyi mesajların bizim üçün faydalı olması ilə tanışlıq
2. Quranın verdiyi mesajlara əməl etməklə və onun nəticəsi ilə tanışlıq
3. Bir müsəlmanın Quranı yaxşı bilməli, oxuyub yaxşı anlamalı və ona əməl etməli olduğunu bilmək
4. Quranı düzgün oxuyub başa düşməyin nəticəsinin ona əməl etmək olduğunu bilmək
5. Quranı düzgün oxuyub başa düşmək istəyi
6. Quran oxuyub onu başa düşməyə çalışmaq

**Öyrənmə və öyrətmə metodları**

İbtidai mərhələnin üçüncü kitabındakı "Səmavi sözlər" dərsində şagirdlər Qurani-Kərimin müsəlmanların səmavi kitabı olduğunu öyrənmişlər. Bu dərsdə isə Qurandakı mövzuların ümumi məzmunu ilə nisbətən geniş şəkildə tanış olacaqlar.

Həmçinin Quranın verdiyi mesajlara əməl etməyin lazım olduğunu və onun nəticəsini öyrənəcək, Quranı düzgün şəkildə oxuyub mənasını anlamaq istəyərək daha çox Quran oxumağa çalışacaqlar.

Bu dərsdə Quran səmadan enmiş bir dəstə gülə bənzədilmişdir. Bu gülün hər ləçəyi sanki özündə bir mesaj ehtiva edir. İnsan həmin mesajlara əməl etməklə hər iki dünyanın səadətini təmin etmiş olur. Eyni zamanda insan Allahın sevimli bəndəsinə çevrilir. Bu dərsdə nümunə üçün bəzisi birinci, bəzisi isə ikinci dərəcəli olmaqla səkkiz mövzuya toxunulmuşdur. Bu mövzular ibadət, gözəl davranış, gözəl düşüncə, gözəl söz, sevgi və məhəbbət, təqvalı olmaq, qohumlarla görüşmək, yaxşı qonşuluq mövzularıdır. Məlum məsələdir ki, bu kitab çox az nümunələr verməklə kifayətlənməli olduğumuzu tələb edir. Bununla belə hörmətli həmkarlarımız Quran təlimlərinin hərtərəfli və əhatəli olmasına çalışmışlar.

**Bilmək lazımdır ki, ...** 

* Mümkün olduğu təqdirdə bu dərsin Quranın nazil olduğu mübarək Ramazan ayında, yaxud Quran müsabiqəsi kimi bir yarışın keçirildiyi ərəfədə və ya həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) ilk vahy nazil olan gün məbəs bayramında keçirilməsi tövsiyə olunur.

* Həzrət Əli (əleyhissəlam) Quranı bir dəryaya bənzədərək buyurur: “Quran elə bir dənizdir ki, onun dibinə baş vurmaq mümkün deyil.” Bu bənzətmədə bəzi incəliklər gizlənmişdir. O cümlədən:

1. Dəniz cəlbedici bir yer olub insanı özünə cəzb edir. Ona baxan hər insanın gözünü öz tərəfinə cəlb etməyi bacarır. Quranda da bir çox həqiqətlər vardır ki, həqiqət axtarışında olan hər bir insanın qəlbini və düşüncəsini özünə cəlb edə bilir.

2. İnsan dənizə nə qədər yaxınlaşırsa, onun əzəmətini bir o qədər artıq hiss etməyə başlayır. Quran da elə bir kitabdır ki, insan onunla nə qədər çox ünsiyyətdə olarsa, onun əzəmətini bir o qədər artıq anlaya bilər.

3. Dənizin dibinə baş vurmaq mümkün olmadığı kimi, Quran maarifinin də sonuna gedib çatmaq mümkün deyil.

4. Dənizdən hər insan öz tutumu qədər istifadə edə bildiyi kimi, Quran maarifindən də hərə öz elmi tutumu qədər faydalana bilir.

5. Dəniz insanın maddi ehtiyaclarını təmin etdiyi kimi, Quran maarifi də insanın mənəvi ehtiyaclarını təmin edir.

6. Dəniz Allahın nişanələr toplusu olub ona baxan insana Allahın əzəmətini xatırladır. Quran da insana Allahı xatırladır.

7. Dəniz insanı rahatlaşdırdığı kimi, Quran da insana rahatlıq verir.

8. Dalğıclar dənizin dibinə baş vurduğu kimi, elm dalğıcları da Quran maarifinin dibinə baş vuruaraq ondan faydalanırlar.

9. Dənizdəki nemətlər tükənməz olduğu kimi, Quran maarifi də tükənməzdir.

10. Dəniz bəşəriyyətin maddi həyatında böyük rol oynadığı kimi, Quran maarifi də bəşəriyyətin həm maddi, həm də mənəvi həyatında müstəsna rola malikdir.

11. İnsanlar dənizin əzəməti qarşısında özlərini kiçik hiss etdiyi kimi, Quranın əzəməti qarşısında da özlərini kiçik hiss edirlər.

## Gözəl başlanğıc

1. Sinifə 8 dəstə gül gətirib güldana qoyuruq. Sonra verilmiş şeiri şagirdlərlə birlikdə oxumağa başlayırıq. Şeirdəki "ibadət, gözəl davranış, gözəl düşüncə, gözəl söz, sevgi və məhəbbət, təqvalı olmaq, qohumlarla görüşmək və yaxşı qonşuluq" ifadələrinə çatdıqda hər gül dəstəsini seçilmiş səkkiz şagirdə veririk. Şagirdlərə tapşırırıq ki, hərə öz gülünə verildiyi adı yadında saxlasın. Çünki bir qədər sonra hərə öz gülünün adını uca səslə deməlidir. Məsələn, biri deyəcək ki, mən ibadət gülüyəm. Digəri deyəcək ki, mən gözəl davranış gülüyəm və s.

Quran nurlu bir aydın kitabdır,
Quran həmişəlik tər novbahardır,
Rəhmətlə dolu bir dərin dəryadır,
Səmadan hədiyyə əsli bahardır.
***
Hər bir budağı salxımlı barlı,
Allahdan hədiyyə bir novbardır.
Aydan da, Günəşdən də işıqlı,
Bağdan da, bahardan da gözəldir.
***

Bir şaxəsinin adı ibadət,
Bir şaxəsinin adı ədalət.
Bir şaxəsinin adı düşüncə,
Bir şaxəsinin adı bəyandır.
***
Bir şaxəsinin adı məhəbbət,
Bir şaxəsinin adı ləyaqət,
Bir şaxəsinin adı siley-rəhm ,
Bir şaxəsisə rəhmi-cəvardır.
***
Belə bir çələngi hədiyyə etmiş,
Aləmin alimi gözəl Rəbbimiz.
Misilsiz ətriylə onun nuruyla,
Gözəllik gətirmiş bizim dünyaya.

2. "De görüm" tapşırığında verilmiş tapşırığı nəzərə alaraq ya tənəffüsdə, ya da texnologiya dərsində şagirdlərlə birlikdə rəngli kağızlardan beş müxtəlif rəngdə gül hazırlayıb ağ bir kağızın üzərinə yapışdıraq. Hər gülün üzərinə tapşırıqda verilmiş ayəni yazaq. Məsələn, güllərdən birinin üzərinə belə yazaq: Ata-anaya yaxşılıq edin – İsra surəsi, 23-cü ayə və s. Sonra isə verilmiş şeirə uyğun olaraq hər bir gülün adını yazırıq.



3. Şagirdlərdən biri Hucurat surəsinin 10-cu – (həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!) ayəsini oxusun. Ayə oxunmazdan əvvəl müxtəlif vərəqlər hazırlayıb hər birinin üzərinə “sevgi və məhəbbət, təqvalı olmaq, gözəl davranış, yaxşı qonşuluq, gözəl düşüncə” ifadələrindən birini yazaq. Ayə oxunulan zaman şagirdlərə tapşıraq ki, yazılmış vərəqlər arasından bu ayədə deyilənlərə uyğun olanları yuxarı qaldıraraq bizə göstərsinlər.

Qeyd: Yuxarıdakı tapşırıq üçün sinifə gətirdiyimiz təbii güllərdən də istifadə edə bilərik. Hər gül bir ifadəni təmsil edəcək. Qeyd olunmuş ayə oxunarkən ayədə deyilənlərlə uyğun olan güllər yuxarı qaldırılacaq.

Qeyd: Yaxşı olar ki, bu dərs keçirilərkən sinifə Quran gətirilisin. Hər iki şagirdin bir Quranı olarsa, kifayətdir.

4. Yaxşı olar ki, “düşünək” tapşırığına başlamazdan qabaq əvvəlcə şagirdlər verilmiş ayələri birlikdə oxusunlar və ya həmin ayələrin audiofaylı səsləndirilsin.

وَلَا تَسْتَوِي الْحَسَنَةُ وَلَا السَّيِّئَةُ ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ

Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!)

Fussilət surəsi, 34-cü ayə

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

... Qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər.

Ali-İmran surəsi, 134-cü ayə

5. İmam Musa Kazim (ə) və imam Cəfər Sadiqlə (ə) bağlı şəkilləri təqdim etmək və şagirdlərin bununla bağlı daha əvvəlki məlumatlarından faydalanmaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

6. Dəniz şəkilləri və yaxud onun dalğalarının səsi və s. haqqında sənədli bir filmdən fraqmentlər təqdim etmək də bu dərsin “düşüncə dayanacağı” tapşırığında verilmiş imam Əlinin (əleyhissəlam): “Quran heç vaxt qurumayacaq bir dənizdir” kəlamının izahı üçün gözəl başlanğıc sayıla bilər.

7. “Axtar tap” tapşırığı üçün gözəl başlanğıc odur ki, şagirdlərdən biri ikirükətli namaz qılsın. Digər şagirdlərə isə deyək ki, sinif yoldaşının namazın qunutunda dediyi duanı təkrar etsinlər. Müəllim köməyi ilə həmin dua yazı lövhəsinə yazılsın. “Üçüncü kitabın qunut duası”

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Quranın müxtəlif məzmunlu mesajlarını qeyd etməyi bacaracaqlar.

* Qurandakı müxtəlif məzmunlu əməllər və onların gözəl nəticələrindən nümunələr qeyd edəcəklər.

* Quranı düzgün oxuyub başa düşmək istəyib onu daha gözəl şəkildə oxumağa çalışacaqlar.

### Ailə

* Kitabdakı tapşırıqlardan birində uşaqlara evdə valideynlərin köməyi ilə Tin surəsinin 1-ci, ər-Rəhman surəsinin 68-ci və Nəhl surəsinin 66-cı ayələrinə müraciət edərək bir neçə meyvə və ya qida məhsulunun adını yazmaq tapşırılmışdır.

* Həmçinin valideynlərə də tapşırılmışdır ki, uşaqların yanında bir qədər Quran oxusunlar. Uşaqlar isə valideynləri üçün hər gün bacardıqları qədər Quran oxusunlar. Eləcədə valideynlər uşaqlarla birlikdə bir qədər Quran oxusunlar.

* Uşaqlar hansı Quran mesajının valideynlərinə daha çox təsir etdiyini qeyd edib sinifə gətirsinlər.

## İkinci fəsil - Din təlimləri (Allahıtanıma)

## Tədrisdə nümunəvi örnəklər 38

## İbtidai mərhələnin beşinci kitabı

## Yalnız O



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Yaradılış aləmindəki nizam-intizamla Allahın təkliyinə dəlalət edən bir sübut olaraq tanışlıq
2. Allahın təkliyi və şəriksiz olması ilə tanışlıq
3. Allaha sevgi və Onu müqəddəs sanmaq
4. Bəzi sözlər və bəzi əməllərlə Allahı müqəddəs sanmaq
5. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə yaradılış aləmindəki nizam-intizamın Allahın təkliyinə dəlalət edən bir sübut olaraq tədrisi nəzərdə tutulmuşdur. Bu baxımdan şagirdlərə demək lazımdır ki, özləri və ətrafındakılara diqqətlə baxıb Allahın nişanələrinin üzərindən ötəri şəkildə keçməsinlər. Ətrafdakı hər bir varlığın özündəki nizam-intizama və digər varlıqlarla bağlılığına diqqət yetirsinlər. Bu nizam-intizam onlarda belə bir fikir formalaşdıracaq ki, bu nizam-intizamın arxasında bu dünyanı idarə edən bir qüvvə vardır. Beləliklə, onlar dünyadakı nizam-intizam vasitəsilə Allahın təkliyini anlamış olacaqlar.

Bilmək lazımdır ki, ... 

* “Səmavi hədiyyələr”in dördüncü kitabında şagirdlər Allahın mehriban, bağışlayan (nemət verən), qüdrətli və bilikli olması ilə tanış olmuşdular. Bu kitabda isə dünyadakı nizam-intizamın vasitəsilə Allahın tək və şəriksiz olmasını öyrənəcəklər. Dünyada hakim olan nizam-intizam həqiqətən də dünyanı idarə edən vahid bir qüvvənin olduğundan xəbər verir.

* Ola bilər ki, şagirdlər bu və digər məhsulun yetişməsini insan əməyinin nəticəsi hesab edib ona Allahın neməti kimi baxmasınlar. Belə olan halda onlara başa salmaq lazımdır ki, əvvəla, bu və digər məhsulun yetişməsi üçün lazım olan bilik və qüvvəni də insana Allah-taala verib və bu, onun bilik və qüdrət sahibi olduğunu göstərir. İkincisi, bu və digər məhsulun ərsəyə gəlməsində insan müəyyən rol oynasa da, bitkiyə yetişib cücərmə qabiliyyətini verən Allahdır. Bu mövzuya Vaqiə surəsində yaradılışdakı üç nümunə ilə – insan amili, yağış yağması və bitkilərin cücərməsi faktoru ilə işarə edilmişdir. İlk baxışda elə təsəvvür yarana bilər ki, bu üç məsələdə Allahın heç bir rolu yoxdur, sadəcə təbiətlə insan rol oynayır. Vaqiə surəsinin 63 və 64-cü ayələrində Allah-taala bu məsələyə toxunaraq belə buyurur: “Bəs əkdiyinizə (toxuma) nə deyirsiniz? Onu bitirən sizsiniz, yoxsa Biz?!” Toxum əlverişli və münbit şəraitdə yetişdirildiyi təqdirdə onun içərisində diri bir hüceyrəni yaradan məhz Allahdır. Bu diri hüceyrə əvvəlcə toxumun öz daxilindən qidalanaraq inkişaf edir, toxumu yarıb cücərdikdən sonra isə rişələnib yerdəki qidalar vasitəsilə qidalanaraq sürətlə inkişaf etməyə başlayır. Axırda da bir toxumdan onlarla, hətta yüzlərlə digər toxum əmələ gəlir.

* Bu dərsdə şagirdlərin diqqətinə çatdırılmalı olan digər bir məqam isə ondan ibarətdir ki, əgər Allah-taala bir toxumun cücərməsi üçün ən böyük məxluqları bir araya gətirirsə,onda belə bir Allahın qədrini bilmək lazımdır. Onun nemətlərindən istifadə etdikdə Onun göstərişlərinə tabe olub əmrlərindən çıxmamalıyıq. Mütəal Allaha verdiyi nemətlərə görə şükür etməliyik.

## Gözəl başlanğıc

1. Şagirdlərdən biri dərsdə verilmiş Quran mesjındakı ayəni oxuduqdan sonra onun mənası barədə fikir mübadiləsi aparılsın.

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا

Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı.

Ənbiya surəsi, 22-ci ayə

2. Günəş sistemi və qalaktika, yerin hərəkəti, gecə və gündüzün yaranması, fəsillərin əmələ gəlməsi və s. haqqında video görüntülər təqdim etmək.

3. Lobya, mərci, paxla və bu kimi dənli bitkilərdən əkib sinifə gətirmək də bu dərs üçün gözəl başlanğıc ola bilər. Təbii ki, bu barədə uşaqları bir həftə qabaqcadan məlumatlandırmaq lazımdır.

4. Su dəyirmanı haqqında video görüntünün təqdim edilməsi də bu dərsin "düşünək" bölməsindəki tapşırıqlar üçün gözəl başlanğıc sayıla bilər.

5. Tənəffüs orqanı, ürək döyüntüləri və digər bədən üzvləri haqqında görüntülər təqdim etməklə də bu dərsə gözəl başlanğıc etmək olar.

6. Bu dərsin "düşünək" bölməsindəki tapşırıqları yerinə yetirmək üçün ən gözəl başlanğıc isə tapşırıqlara başlamazdan qabaq dərsin Quran mesajındakı ayələrin audiofaylını səsləndirmək olar. Yaxud da həmin ayələri şagirdlərdən biri oxusun.

وَفِي أَنفُسِكُمْ أَفَلَا تُبْصِرُونَ .وَفِي الْأَرْضِ آيَاتٌ لِّلْمُوقِنِينَ

Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır. Sizin özünüzdə də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. Məgər görmürsünüz?

Zariyat surəsi, 20-21-ci ayələr

7. Qabaqcadan müəllim həmkarlarınızdan biri ilə razılaşıb eyni vaxtda ikiniz də sinifə daxil olun. Hər müəllim eyni vaxtda eyni şagirddən ayrı-ayrı mövzu haqqında sorğu-sual etsin. Belə ki, şagirdlər iki müəllimin bu hərəkətindən çaş-baş qalıb hansı müəllimə qulaq asmalı, hansının sualına cavab verməli olduğunu müəyyənləşdirə bilməsinlər. Şagirdlər etiraz edənə qədər bu işi davam etdirin.

8. Şagirdlərin köməyi ilə bir dəstənin iki başçı tərəfindən idarə edilməsini göstərən bir səhnəcik hazırlayın.

9. İki qaz və iki tormoz pedalı olan və iki sürücü tərəfindən idarə edilən bir maşın şəkili göstərib uşaqlardan soruşun ki, sizcə bu maşın hansı aqibətlə üzləşəcək?

10. "Axtar tap" tapşırığını yerinə yetirərkən yaxşı olar ki, əvvəlcə azanın audiofaylı səsləndirilsin. Sonra isə şagirdlərdən biri azanın sözlərini yavaş-yavaş desin, digər şagirdlər isə azanda Allahın təkliyinə dəlalət edən cümlələri yazsınlar.

Qeyd: Bu tapşırığı yerinə yetirərkən üçünci kitabda verilmiş azan tablosunu və ya namazın zikrləri tablosunu sinifdə bütün uşaqların görə biləcəyi bir yerdən asmaq olar.

11. Bəzi heyvan və ya həşəratların kollektiv yaşamasını əks etdirən videogörüntü təqdim etmək. Məsələn, quşlar, arılar, qarışqalar, cənub qütbündə yaşayan heyvanlar, suda yaşayan heyvanlar və s.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Yaradılışdakı müxtəlif məxluqların varlığındakı nizam-intizamı Allahın təkliyinə dəlalət edən bir sübut olaraq qeyd edəcəklər.

* Allaha sevgilərini bildirməklə yanaşaı kiçik bir mətn, şeir, rəsm əsəri və ya digər işlər vasitəsilə Onun təqdis edəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənası barədə izah verməyi bacaracaqlar.

### Ailə

Əgər evdə heyvanların kollektiv şəkildə yaşamasına dair videogörüntü və ya sənədli filmdən fraqmentlər varsa, şagirdlər onu məktəbə gətirsinlər.

Yaxud şagirdlər heyvanların kollektiv şəkildə yaşaması haqqında valideynlərindən məlumat toplayaraq təqdimat şəklində yazıb sinifə gətirsinlər.

# Üçüncü fəsil - Din təlimləri (Allahın peyğəmbərləri)

## Tədrisdə nümunəvi örnəklər 38

## İbtidai mərhələnin beşinci kitabı

### Uşaqdan soruşun



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Allahın böyük peyğəmbərlərindən biri kimi həzrət İsa (əleyhissəlam) ilə tanışlıq
2. Həzrət Musaya (əleyhissəlam), onun əməllərinə və davranışına qarşı sevgi
3. Allahın böyük peyğəmbərlərindən biri kimi həzrət İsaya (əleyhissəlam) ehtiram
4. Həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) gəlişini müjdə verən həzrət İsa peyğəmbərlə tanışlıq
5. Həzrət İsa (əleyhissəlam) ilə imam Zamanın (əccələllahu fərəcəh) zühuru zamanı onunla birlikdə gələcək şəxslərdən biri olaraq tanışlıq
6. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Qurani-Kərimdə həzrət İsa (əleyhissəlam) peyğəmbərin həyatından bəzi məqamlara işarə edilmişdir. Misal üçün, Məryəm surəsinin 16-36-cə ayələrini qeyd etmək olar. Həmin ayələrdə həzrət İsanın (əleyhissəlam) dünyaya gəlişinə toxunulmuşdur. Bu dərsdə həmin məqamlardan bəzisi şagirdlərin diqqətinə çatdırılacaq.

Bilmək lazımdır ki, ... 

* Mümkün olduğu təqdirdə bu dərsin yeni il ərəfəsində, həzrət İsanın (əleyhissəlam) mövludu günlərində keçirilməsi tövsiyə edilir.

* İsa (əleyhissəlam) peyğəmbər Allah tərəfindən göyə çəkilənə qədər insanlara yalnız iki məqama sahib olduğunu bildirmişdir. Bunlardan biri Allahın bəndəsi, digəri isə Onun peyğəmbəri olmasıdır.

* Qurani-Kərimdə İsa (əleyhissəlam) bir sıra möcüzələri qeyd edilmişdir. Onlardan bəzisini diqqətinizə çatdırırıq.

وَرَسُولاً إِلَى بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ
الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ
وَأُحْيِي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي
ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ

Və onu İsrail övladına (yəhudilərə) peyğəmbər göndərəcək. (İsa onlara deyəcək:) “Mən, həqiqətən, Rəbbinizdən sizə möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri dirildərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda (peyğəmbər olduğuma) bir dəlil vardır.

Ali-İmran surəsi, 49-cu ayə

* İsa (əleyhissəlam) həm bu dünyada, həm də axirətdə şərəfli, Allaha yaxın bəndə olmuşdur.

وَجِيهًا فِي الدُّنْيَا وَالآخِرَةِ

... Dünyada və axirətdə şanı uca (şərəfli) olanlardandır.

Ali-İmran surəsi, 45-ci ayə

* O, eyni zamanda Allaha yaxın bir bəndə olmuşdur.

وَمِنَ الْمُقَرَّبِينَ

... Və (Allaha) yaxın olanlardandır.

Ali-İmran surəsi, 45-ci ayə

* Allah-taala onu hər bir çirkinlikdən uzaq tutub pak saxlamışdır.

وَمُطَهِّرُكَ مِنَ الَّذِينَ كَفَرُواْ

... Səni kafirlərdən pak edərəm (tərtəmiz ayıraram).

Ali-İmran surəsi, 55-ci ayə

* Düşmənləri onu öldürə bilməmişdir.

وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَكِن شُبِّهَ لَهُمْ وَإِنَّ الَّذِينَ اخْتَلَفُواْ فِيهِ لَفِي شَكٍّ مِّنْهُ مَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِلاَّ اتِّبَاعَ الظَّنِّ وَمَا قَتَلُوهُ يَقِينًا

(Onların lənətə düçar olmalarının bir səbəbi də:) “Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük”, -demələridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqda ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişlər.

Nisa surəsi, 157-ci ayə

* Həzrət İsa (əleyhissəlam) salam göndərilən şəxslərdəndir.

وَالسَّلَامُ عَلَيَّ يَوْمَ وُلِدتُّ وَيَوْمَ أَمُوتُ وَيَوْمَ أُبْعَثُ حَيًّا

Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim (qiyamətdə qəbirdən diri olaraq qaldırılacağım) gün də (Allahdan) mənə salam olsun!

Məryəm surəsi, 33-cü ayə

## Gözəl başlanğıc

1. “İsa peyğəmbər” filmindən İsanın (əleyhissəlam) körpə ikən anasının qucağında dilə gəlib danışması fraqmentini təqdim etmək bu dərs üçün gözəl başlanğıc ola bilər.

2. Dərslik kitabındakı “axtar tap” tapşırığının həlli də bu dərsə gözəl başlanğıc sayıla bilər.

Məryəm, hicri təqvimi, dirilmək, miladi təqvimi, İncil, Əhməd, Asiya söz və birləşmələrini rəngli kağızlar üzərinə yazıb sonra isə uşaqların hər birinə bir vərəq seçməsini tapşırırıq. Hər şagird seçdiyi vərəqdə yazılmış söz ilə həzrət İsa (əleyhissəlam) peyğəmbər arasında olan bağlılıq haqqında məlumat versin.

3. Dərslik kitabındakı “düşünək” tapşırığının həlli də bu dərs üçün gözəl başlanğıc ola bilər. Şagirdlərdən biri həmin tapşırıqda verilmiş ayəni oxusun və ya ayənin audiofaylı səsləndirilsin.

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ

Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm!”

Səff surəsi, 6-cı ayə

Daha sonra isə uşaqlarla bu ayə barəsində fikir mübadiləsi aparılıb aşağıdakı məzmunda suallar verilsin:

Əhməd hansı peyğəmbərin adıdır?

İsa (əleyhissəlam) peyğəmbər həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) dünyaya gəlməsindən neçə il əvvəl bu müjdəni verib?

Həzrət İsa (ə) nə üçün özündən sonrakı peyğəmbərin gələcəyi barədə müjdə verib?

4. Dərslik kitabındakı "düşüncə dayanacağı" tapşırığının həlli də bu dərs üçün gözəl başlanğıc ola bilər. Bu tapşırıqdakı iki əhvalatı şagirdlərdən iki dəstəsi səhnələşdirməlidir. Səhnəcikdən sonra uşaqlarla sual-cavab etmək üçün sinifdə maraqlı bir atmosfer yaradırıq.

5. Bəzi peyğəmbərlər vardır ki, Allah-taala onlara salam göndərmişdir.

## Qiymətləndirmə

Ümid edirik ki, bu dərsin sonunda şagirdlər:

* Həzrət İsa (əleyhissəlam) peyğəmbərin həyatı ilə bağlı bəzi əhvalatları qeyd etməklə yanaşı onu həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) gəlişini müjdə verən və imam Zamanın (əccələllahu fərəcəh) zühurunda onunla birlikdə gələcək şəxslərdən biri kimi təqdim edəcəklər.

* Həzrət İsa (əleyhissəlam) peyğəmbərə sevgi və ehtiramını bildirməklə yanaşı onun həyat, əxlaq və davranışından örnək götürməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənası barədə izah verməyi bacaracaqlar.

### Ailə

Uşaqlar evdə valideynlərin köməyi ilə Qurandan istifadə edərək həzrət İsa (əleyhissəlam) peyğəmbərin bəzi xüsusiyyətləri haqqında təqdimat hazırlayıb sinifə gətirsinlər.

* Yaxşı olar ki, uşaqlar evdə əziz valideynləri üçün həzrət Məryəm (səlamullahi əleyha) və həzrət İsaya (əleyhissəlam) aid ayələri onların mənasına diqqət yetirərək oxusunlar.

# Dördüncü fəsil - Din təlimləri (İmamət)

## Tədrisdə nümunəvi örnəklər 39

## İbtidai mərhələnin beşinci kitabı

## Bulud arxasındakı günəş



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. İmam Mehdi (əccələllahu fərəcəh) ilə müsəlmanların on ikinci imamı olaraq tanışlıq

2. İmam Mehdinin (əccələllahu fərəcəh) xüsusiyyətləri ilə tanışlıq

3. Həzrət Mehdinin (əccələllahu fərəcəh) anadan olması hadisəsi ilə tanışlıq

4. Həzrət Mehdinin (əccələllahu fərəcəh) sağ və bizim imamımız, sadəcə qeybdə olmasını bilmək

5. Həzrət Mehdinin (əccələllahu fərəcəh) öz ardıcıllarına diqqət yetirib kömək etdiyini bilmək

### Öyrənmə və öyrətmə metodları

İbtidai sinif şagirdləri ikinci kitabdan başlayaraq imamət mövzusu ilə bağlı hər kitabda üç imamın həyatı və xüsusiyyətləri barədə məlumatlarla tanış olmuşlar. İmamət mövzusu ilə bağlı bu kitabın sonuncu dərsi olan bi dərsdə həzrət Mehdinin (əccələllahu fərəcəh) dünyaya gəlməsi, onun on

ikinci imam olaraq xüsusiyyətləri və qeybdə olması barədə məlumatlar öyrənəcəklər. Bu dərsdə şagirdlərə başa salmaq lazımdır ki, həzrət Mehdi (əccələllahu fərəcəh) öz tərəfdarlarına diqqət yetirir. O, gözlərə görünməsə də, qeybdə olsa da, hər halda bizim aramızdadır. Buna görə də onun öz tərəfdarlarına kömək etməsi tamamilə mümkün olna bir işdir.

Bilmək lazımdır ki, ... 

* Mümkün olduğu təqdirdə bu dərsin həzrət Mehdinin (əccələllahu fərəcəh) mövlud günü (şaban ayının on beşində) və ya o həzrətin imamətə çatdığı günlər ərəfəsində (rəbiül-əvvəl ayının doqquzu) keçirilməsi tövsiyə olunur.

## Gözəl başlanğıc

1. Bu dərs on ikinci dərsdir. Dərsin nömrəsi ilə İmam Zaman (əccələllahu fərəcəh) hansı bağlılığın olmasını aydınlaşdırmaq bu dərs üçün gözəl başlanğıc ola bilər.

2. Dərsə başlamazdan qabaq balaca bir qız uşağının imam Zamanla (əccələllahu fərəcəh) söhbətini əks etdirən videoklipi təqdim etmək.



3. Fərəc duasının audiofaylını səsləndirmək və audiofaylın müşayiəti ilə uşaqların duanı birlikdə oxuması da bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

4. Bir uşağın dünyaya gəlməsinin səsini, eləcə də İraqın Samirra şəhərindən görüntülər təqdim etmək. Habelə imam Həsən Əskərinin (əleyhissəlam) hərəmi və Cəmkəran məscidindən görüntülər göstərmək, azan və iqamənin audiofaylını səsləndirmək. Sonra isə uşaqlardan soruşmaq lazımdır ki, bu görüntülərlə səsləndirilmiş səslərin bağlılığını izah etsinlər. Kim daha doğru məlumat verə bilər?

5. Sinif otağını bəzəmək, uşaqlara üzərində "Ya Mehdi", "Ya Qaim Ali-Mühəmməd" şüarları yazılmış lentlər və şirniyyat paylamaq. Habelə sinifə nərgiz gülü gətirmək və ya onun görüntülərini təqdim etmək. (Üzərində nərgiz gülünün şəkli olan açıqcalar da paylamaq olar.)

6. Dərsə başlamazdan qabaq həzrət Musa (əleyhissəlam) peyğəmbərin Fironun əlindən qurtulmasını əks etdirən videofraqmenti təqdim etmək də bu dərs üçün gözəl başlanğıc ola bilər.

7. Səma, günəş, buludlar və günəşin buludların arxasında olduğunu əks etdirən görüntülər təqdim edib onların barəsində fikir mübadiləsi aparmaq.

8. Üzərində məsumların, o cümlədən imam Zamanın (əccələllahu fərəcəh) adları və ləqəbləri yazılmış xüsusi vərəqlər hazırlamaq. Şagirdlərə tapşıraq ki, hər imamın adı ilə ləqəbini ayırıb bir-birinin yanına qoysunlar. Bunu uşaqları ayrı-ayrı dəstələrə bölərək yarışma şəklində icra etmək də olar.

On ikinci imamın ləqəbləri: Qaim, Mehdi, Mənsur, Vəliyyi-əsr, imam Zaman.

9. "Birlikdə oxuyaq" tapşırığını oxumaq da bu dərs üçün gözəl başlanğıc ola bilər.

10. "Araşdırın" tapşırığına başlanğıc üçün Məscidün-Nəbi, həzrət Musa (əleyhissəlam) peyğəmbərin Nil çayından azad olması, həzrət Nuh (əleyhissəlam) peyğəmbər və Cəmkəran məscidinə aid şəkillər göstərmək çox yaxşı olar.

Şagirdlər bu şəkillərə baxdıqdan sonra əvvəlcə hər bir şəklin haraya və kimə aid olduğunu deməli, ondan sonra isə həmin şəklin imam Zaman (əccələllahu fərəcəh) ilə nə kimi bağlılığı olduğunu izah etməlidirlər.

Namı gözəl, əziz olan İmamım,
Adın gül tək açır, dodağımızda.
Ülvi bir məhəbbət dastanı kimi,
Gözəl hekayəsən hər obamızda.
***
Adın peyğəmbərin adına bənzər,
Fatimə bağının bir qönçəsisən.
Öncülsən, misilsiz şücaətinlə,
Rəhbərsən hamıya məhəbbətinlə.
***

Seyr edir ətrafı, dağı, dərəni,
Aram-aram, hər küçəni, şəhəri.
Hamıyla isti bir ünsiyyət qurur,
Bilir qəlbimizdən keçən xəbəri.
***
O bir günəşdir, ki, həmişə parlaq,
Aləmə nur saçan gur aydınlıqdır,
Ümid kölgəsidir, nicat sahili,
Qəlbləri oxşayan bir aramlıqdır.

Seyyid Muhəmməd Muhacirani

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Həzrət Mehdinin (əccələllahu fərəcəh) dünyaya gəlişi hadisəsini nəql edib onun on ikinci imam olaraq xüsusiyyətləri barədə məlumat verməyi bacaracaqlar.

* Şagirdlər imam Zamana (əccələllahu fərəcəh) sevgi və ehtiramını göstərəcək, o həzrətin həyatından, əxlaq və davranışından örnək götürməyə çalışacaqlar.

* İmam Zamanın (əccələllahu fərəcəh) sağ və qeybdə olmasını qeyd etməklə yanaşı, onun öz tərəfdarlarına kömək etdiyini bildirəcəklər.

### Ailə

Uşaqlar evdə valideynlərinin köməyi ilə adlarını qeyd etmədən imam Zamana (əccələllahu fərəcəh) ürək sözlərini yazıb bir zərfə qoysunlar. Zərfi bəzəyib sinifə gətirsinlər. Müəllim də imam Zamana (əccələllahu fərəcəh) öz ürək sözlərini yazıb zərfə qoysun. Təyin olunmuş gündə zərflər hamısı qarışdırılıb bir-bir açılaraq sinifdə oxunsun.

# Beşinci fəsil - Din təlimləri
# (İslam əxlaqı və ədəb qaydaları)

## Tədrisdə nümunəvi örnəklər 40

## İbtidai mərhələnin beşinci kitabı

### İki məktub



Dərsin tədrisində nəzərdə tutulanlar:

1. Bəzi davranış qaydaları ilə tanışlıq. Söyüş söymək, hədələmək, xəbərçilik etmək və rişxənd etməkdən çəkinmək

2. İslam ədəb qaydalarına riayət etmək istəyi, ünsiyyət

3. Ünsiyyət zamanı uyğun olmayan davranışdan çəkinməyə cəhd

4. Söyüş söymək, böhtan atmaq, xəbərçilik etmək və başqalarını ələ salmaqla bağlı nümunələrlə tanışlıq

5. Başqaları ilə ünsiyyət zamanı ədəb qaydalarına riayət etməməyin bəzi arzuolunmaz nəticələri ilə tanışlıq

6. Allahın başqalarına qarşı yaxşı rəftar edən insanları sevməsi ilə tanışlıq

7. Quran mesajı ilə tanışlıq

## Öyrənmə və öyrətmə metodları

İnsan ictimai varlıqdır. Bu, hamının qəbul etdiyi bir həqiqətdir. Sadəcə onun səbəbləri haqqında fikir ayrılığı ola bilər. İnsanın ictimai varlıq olması onu başqaları ilə necə davranmalı olduğunu bilib öz davranışına fikir versin. Qəbul edilmiş ictimai qanunların və əxlaqi təlimlərin böyük əksəriyyəti məhz insanlarla davranış formasına və onların necə tənzimlənməsinə aiddir.

İslam bir din və insanların yaşam tərzi olaraq bu məsələyə böyük önəm vermişdir. Sağlam ictimai əlaqələr ziyandan uzaq olub Quran təlimləri əsasında səadətə çatmaqdan ibarətdir. Başqaları ilə ünsiyyətin bəşər həyatında böyük rolu vardır.

Bu dərsdə ünsiyyət qaydaları iki şagirdin bir-biri ilə mübahisə etməsi və onların bir-birinə məktub yazması formasında təqdim edilmişdir.

Bilmək lazımdır ki, ... 

Yetkinlik və gənclik yaşlarında insanın qəzəb qüvvəsi güclü olduğu üçün ola bilər ki, qarşı tərəfə güzəştə getmək, onu bağışlamaq bir qədər çətin olsun. Bunu nəzərə alaraq şagirdlərə güzəştə gedib bağışlamağın nə dərəcədə önəmli olması və hansı hallarda bağışlamaq lazım olduğu barədə məlumat vermək yerinə düşər.

* Quran ayələrində və hədislərdə də qeyd edilmiş güzəşt məsələsi başqalarının səhvlərinə göz yummaq , pisliyə pisliklə cavab verməmək, başqalarının üzərində olan haqqımızdan keçmək və səhv edən insana güzəşt etmək deməkdir.

Güzəştə getmək əxlaqi dəyərlərdən biri olaraq səbrirli olmaq və qəzəbə hakim olmaq kimi digər əxlaqi dəyərlərlə çox bağlılığı vardır. Hədislərdə güzəştə getməyin savabının şəhidin savabına bərabər olduğu qeyd edilmişdir. Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) nəql edilmiş bir hədisdə deyilir:

“Qəzəbinə hakim çıxıb müsəlman qardaşının səhvinə göz yuman, onun xoşagəlməz hərəkətinə qarşı səbirli olan şəxsə Allah-taala şəhidin savabını verər.”

İmam Sadiq (əleyhissəlam) buyurmuşdur: “Cəzalandırmaq imkanı olduğu halda güzəştə getmək peyğəmbərlərin sünnəsindəndir.”

## Gözəl başlanğıc

1. Dərsdə verilmiş hekayəni səhnələşdirmək və səhnəcik barədə şagirdlərlə fikir mübadiləsi aparmaq.

2. “Tamamlayın” tapşırığında verilmiş cədvəli doldurmaq da bu dərs üçün gözəl başlanğıc sayıla bilər.




Cədvəli tamamladıqdan sonra imam Sadiqin (əleyhissəlam) aşağıdakı kəlamını yazı lövhəsinə yazın:

“Allah dərgahında ən pis insan o şəxsdir ki, camaat onun ................ şərindən amanda deyil.”

Nöqtələrin yerinə uşaqlar cədvəldəki uyğun ifadəni yazsınlar.

**Qeyd:** Şagirdlərə başa salmaq lazımdır ki, cədvəldən də göründüyü kimi, günahların çoxu dil vasitəsilə həyata keçirilir. Buna görə də dili qorumaq lazımdır ki, başqalarını narahat etməyək.

3- "Axtar tap" tapşırığına gözəl başlanğıc etmək üçün verilmiş Quran ayələrinə uyğun gələn şəkilləri və şəkillərdən hər birinin hekayənin qəhrəmanları olan Fərhad, Əmin və Rzadan hansına aid olduğunu tapmaq ola bilər.

4- Hərəsi bir davranış qaydasına aid olan Quran mesajlarını sinifdə səhnələşdirmək də mümkündür. Hər səhnəcikdən sonra şagirdlərdən biri həmin səhnəciyə aid Quran ayəsini uca səslə oxusun.

لَا يَسْخَرْ قَوْمٌ مِّن قَوْمٍ ...وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ

Bir qövm digərini lağa qoymasın ... və bir-birinizi pis ləqəblərlə (ey kafir, ey fasiq, ey münafiq və s.) çağırmayın.

Hucurat surəsi, 11-ci ayə,7

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ

... Qəzəblərini udar, insanların günahlarından keçərlər.

Ali-İmran surəsi, 134-cü ayə

وَلاَ تَعَاوَنُواْ عَلَى الإِثْمِ وَالْعُدْوَانِ

Günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin.

Maidə surəsi, 2-ci ayə

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِّنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ

Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır.

Hucurat surəsi, 12-ci ayə

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* İslami ədəb qaydalarından bir çox nümunələr qeyd edib onların barəsində məlumat verəcəklər.

* Ünsiyyət zamanı ədəb qaydalarına riayət etməklə yanaşı, pis vərdişlərdən uzaq durmağa çalışacaqlar.

* Söyüş söymək, böhtan, xəbərçilik, başqalarını ələ salmaq haqqında nümunələr qeyd etməklə yanaşı, başqaları ilə ünsiyyət zamanı ədəb qaydalarına riayət etməməyin arzu olunmaz nəticələri haqqında məlumat verəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

**Ailə**

Uşaqlar ata-analarından soruşaraq ata, ana, baba, nənə, bacı, qardaş və yaxınlarının gözəl xasiyyətləri barədə məlumat yazıb dərsdə sinif yoldaşları üçün oxusunlar.

Ailə üzvlərinin fikrincə siz hansı gözəl xasiyyətlərə sahibsiniz?

# Altıncı fəsil - Din təlimləri (Şəriət hökmləri)

## Tədrisdə nümunəvi örnəklər 41

## İbtidai mərhələnin beşinci kitabı

## Camaatın malı



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Halal və haram mal anlayışı ilə tanışlıq
2. Şagirdlərin gündəlik həyatındakı halal və haram mal nümunələri ilə tanışlıq
3. Halal ruzidən istifadə etmək istəyi və haram maldan çəkinmək
4. Həyatda halal maldan istifadə və haram maldan çəkinməyə səy göstərmək
5. Halal maldan istifadə və haram maldan çəkinməkdə hər bir müsəlmanın vəzifəsi
6. Həyatda bir sıra ümumi mal nümunələri ilə tanışlıq
7. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Dini təlimlərdə halal tikə yaxşı əməlin başlanğıcı olaraq göstərilmişdir. Başqa sözlə desək, bitkinin suya ehtiyacı olduğu və suyun nə qədər şirin

olarsa, bitkinin də təmiz və məhsulunun keyfiyyətli olacağı kimi, eləcə də əksinə, bitkiyə verilən su nə qədər acı olarsa, onun məhsulunun da bir o qədər acı olacağı kimi, insanın əməli də sanki onun ömrünün məhsulu hesab olunur. Haram tikə də sanki insanın cismini, canını korlayan acı suya bənzəyir. İnsanın cismi korlandıqda onun nəinki heç bir ibadət və duası qəbul olmaz, hətta istər-istəməz mənəvi süquta uğrayar. Eləcə də cəmiyyətdə haram tikənin yayılması insani dəyərlərin aradan getməsinə gətirib çıxarar. Deməli, haram tikə təkcə insanın özünü və nəslini deyil, eyni zamanda bütün cəmiyyəti korlayar. Cəmiyyətdə insani dəyərlərin, əxlaqi keyfiyyətlərin aradan getməsi nəticəsində hərc-mərclik yaranar, laqeydlik baş alıb gedər.

Bu dərsdə şagirdlərin öz gündəlik həyatlarında halal və haram mal haqqında təsəvvürləri yaransın deyə, üç əhvalat qeyd edilmişdir. Verilmiş tapşırıqlar da dərsin mövzusunun daha da təkmilləşməsinə xidmət edir ki, şagirdlər halal maldan istifadə etmək və haram maldan uzaq olmağın hər bir müsəlmanın vəzifəsi olduğunu öyrənsinlər.

Bilmək lazımdır ki, ... 

## Haram malın təsirləri

* Həzrət Mühəmməd (səlləllahuəleyhi və alih) buyurmuşdur: “Haram tikə yeyən insanın namazı qırx gün qəbul olmaz. Onun duaları da qırx gün müstəcab edilməz.”

* İmam Hüseyn (əleyhissəlam) aşura günündə iki dəfə xütbə söyləsə də onun sözləri kufəlilərə təsir etməmişdi. Sözlərinin sonunda o həzrət belə buyurmuşdu: “Mənim sözlərimin sizə təsir etməməsinin səbəbi qarnınıza doldurduğunuz haram tikələrdir.”

* Əmirəlmöminin Əli (əleyhissəlam) buyurmuşdur: “Mömin bir şəxsin malını haqsız yerə yeyən insan heç vaxt mənim dostum ola bilməz.”

### Gözəl başlanğıc

1. Şagirdlər dərsdə verilmiş üç əhvalatı səhnələşdirsinlər. Sonra isə hər dəstə ilə səhnəciklər haqqında fikir mübadiləsi aparılsın.

2. Yazı lövhəsinə “öz malım”, “camaatın malı” ifadələrini yazaq. Sonra isə şagirdlərə tapşıraq ki, onlar da bir vərəqdə öz mallarının siyahısını, vərəqin arxa tərəfində isə camaatın mallarının siyahısını yazsınlar. Sonra da uşaqların yazdıqlarının səbəbi barədə fikir mübadiləsi aparılsın.

3. Şəxsi və ümumi mallar haqqında şəkillərdən istifadə edərək şagirdləri dəvət edək ki, hərəsi gəlib bir şəkil seçib onun kimə məxsus olması və onun səbəbi barədə məlumat versin.

4. İnsanların ümumi mallardan istifadə etməkdə qaydalara riayət etməsi barədə videogörüntü və ya cizgi filmi təqdim etmək.

5. Sinif uşaqlarından birinin Quran mesajında verilmiş ayəni oxuması “düşünək” tapşırığı üçün gözəl başlanğıc ola bilər.

Südə su qataraq satan bir nəfərin görüntülərini əks etdirən videogörüntünü təqdim etmək. Həmin adam südə su qataraq onun həcmini artırıb camaata satmaqla özünə sərvət, mal-qara toplamışdı. Güclü bir sel isə onun topladığı bütün sərvətini, mal-qarasını yuyub aparır.

6. Bəzi satıcıların çəkidə əskik satmasından bəhs edən bəzi görüntülər təqdim etmək.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Halal və haram mal, onun gündəlik həyatımızdakı nümunələri barədə nümunələr qeyd edərək ətraflı məlumat verəcəklər.

* Halal ruzidən istifadə etmək istəyini bildirməklə yanaşı, həyatda ömür boyu haram maldan uzaq olmağa çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah etməyi bacaracaqlar.

## Ailə

* Şagirdlər evdə ailə üzvlərinin köməyi ilə halal və haram mal barədə çoxlu nümunələr qeyd etsinlər.

* Şagirdlər səfər zamanı ümumi malları qorumaq üçün hansı işlər görmülər?

* Çəkidə (ölçüdə) əskik satmağın nəticəsi nədir?

## Yeddinci fəsil - Din təlimləri (İslami mərasimlər)

### Tədrisdə nümunəvi örnəklər 42

### İbtidai mərhələnin beşinci kitabı

### Böyük bir bayram!



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Qədir-xum hadisəsi ilə tanışlıq
2. Qədir-xum bayramı və onun mərasimi ilə tanışlıq
3. Qədir-xum bayramı tədbirində iştirak etmək istəyi
4. Qədir-xum bayramının təşkil edilməsində iştirak etmək
5. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

İslam tarixində baş vermiş iki böyük hadisədən biri peyğəmbərlik, digəri isə imamətlə nəticələnmişdir. Birinci hadisə həzrət Mühəmmədə (səlləllahu əleyhi və alih) vəhyin nazil olması olmuşdur ki, bu, o həzrətin peyğəmbər seçilməsinə gətirib çıxarmışdır. İkinci mühüm hadisə isə hicrətin onuncu ilində, zilhəccə ayının on səkkizində, həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) vida həccindən qayıdarkən baş vermişdir.

Həmin gün İslam Peyğəmbəri (səlləllahu əleyhi və alih) Allahın əmrinə əsasən həcc ziyarətindən qayıdarkən Qədir-xum (Cöhfə) adlı bir ərazidə özündən sonra həzrət Əlini (əleyhissəlam) müsəlmanların rəhbəri olaraq təyin etmişdir. Həzrət Əlinin (əleyhissəlam) Qədir-xumda imam təyin edilməsi əslində həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) peyğəmbərlik missiyasının davamı olmuşdur. Deməli, Qədir-xum günündə həzrət Əlinin (əleyhissəlam) imam təyin edilməsi məbəs günündə həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) peyğəmbər seçilməsi qədər önəmli olmuşdur.

Bu dərsdə Qədir-xum günündə baş verənlər Günəşin dilindən mistik bir canlı olaraq nəql edilmişdir.

Bilmək lazımdır ki, ... 

Mümkün olduğu təqdirdə bu dərsin zilhəccə ayında, ya da həzrət Əliyə (əleyhissəlam) bağlılığı olan bir gündə, məsələn o həzrətin mövlud günündə, yaxud digər islami bayramlardan biri ərəfəsində keçirilməsi tövsiyə edilir.

### Gözəl başlanğıc

1. Sinif otağının bəzəkli kağızlar, üzərində həzrət Əlinin (əleyhissəlam) adı yazılmış rəngli bayraqlarla bəzədilməsi və şagirdlərin köməyi ilə bayram tədbiri, səhnəcik, yarış və s. təşkil etmək.
2. Dərsə başlamazdan qabaq şagirdlərə şirniyyat və ya konfet paylamaq.
3. Adı Əli olan şagirdləri mükafatlandırmaq.
4. Müsəlman ölkələrində keçirilmiş Qədir-xum bayramından videogörüntü təqdim etmək.
5. Dərsə başlamazdan qabaq şagirdlərlə birlikdə "Günəş və Ay" şeirini oxumaq. Yaxşı olar ki, Günəş və Ayın böyük şəkillərini də hazırlayıb sinifə gətirək. Şagirdlərdən biri günəş rolunu ifa edərək əlində günəşin şəklini, başqa bir şagird isə ay rolunu ifa edərək əlində ayın şəklini tutsun. Şeirdə "mehriban günəş dedi" misrasına çatdıqda qabaqcadan hazırlaşmış şagirdlər əlində ayın şəklini tutmuş şagirdə işarə edərək: "Bu ay ən yaxşısıdır, mən olmayan gün sizin günəşiniz o olsun" desinlər.

## Günəş və ay

Həmin gün göy üzündə,
Həmin o gözəl gündə,
Günəş və Ay var idi,
Səhrada yan yanaşa.
Bir səma dolu ulduz,
Tamaşasında idi,
Ay günəş də onların,
Əhatəsində idi.
Bir əlində günəş var,
Bir əlində nirlu ay.
Ulduzlardan gözəldir,
Parıldayan gözləri.
Günəş sakitçə dedi:
"Bu ay ən gözəl aydır,
Bir gün əgər olmasam,
Sizin günəş o aydır".
Ulduzların gözü də,
Bulaq kimi qaynayır.
Gözlərinin içində,
Əksi var ay günəşin.

Seyyid Muhəmməd Muhacirani

6. Qədir-xum hadisəsi ilə bağlı cizgi filmini təqdim etmək də bu dərs üçün gözəl başlanğıc ola bilər.

7. Şagirdlər Qədir-xum bayramı ilə bağlı xatirələrindən danışsınlar. Bu gün hansı əməllərin görülməsi və onların özlərinin hansı işləri görməsi haqda məlumat versinlər.

8. Sinifdəki şagirdərin arasında neçə nəfəri seyyiddir? Yaxud neçəsinin babası və ya nənəsi seyyiddir? Həmin şagirdlərin söhbəti ilə dərsə başlaya bilərik.

9. "Bir-birinizlə danışın" tapşırığında veriləni səhnələşdirmək olar. Məktəb direktoru bir neçə günlük səfərə getmək istədiyi üçün müavinini öz yerinə təyin edir. Yaxud ananın evdə olmadığı təqdirdə işlərin böyük bacının öhdəsinə keçməsi ilə bağlı səhnəcik göstərmək olar.

10. Dərsin başlanğıcında şagirdlərdən birinin Quran mesajında verilmiş ayəni qiraət etməsi də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ

Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (insanlara) çatdır. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan.

Maidə surəsi, 67-ci ayə

11. “Bax və de” tapşırığında verilmiş ayələrin şəkillərindən istifadə etmək

Ayələrin yazıldığı şəkilləri əvvəlcə rəqəmləyirik. Uşaqlara tapşırırıq ki, hansı ayə oxunarsa, onun rəqəmini göstərib mənası barədə fikir mübadiləsi aparaq.



Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım.

Maidə surəsi, 3-cü ayə



Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.

İnsan surəsi, 8-ci ayə



Sizin başçınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirib namaz qılan, rükuda olduqları halda zəkat verən kimsələrdir.

Maidə surəsi, 55-ci ayə

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي

Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım.

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا

Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

Sizin başçınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirib namaz qılan, rükuda olduqları halda zəkat verən kimsələrdir.

Maidə surəsi, 55-ci ayə

12. Hicri təqvimindəki müəyyən əlamətdar hadisələrin miladi təqvimi ilə gününü yazı lövhəsinə qeyd edib uşaqlara tapşıraq ki, evdə valideynlərin köməyi ilə o gündə hansı əlamətdar hadisənin baş verdiyini tapsınlar. Həmin hadisənin hicri təqvimi ilə də tarixini ayrıca bir vərəqə yazıb sinifə gətirsinlər.

Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Qədir-xum hadisəsini tam şəkildə danışa biləcəklər.

* Qədir-xum bayramının müsəlmanların böyük bayramlarından biri olduğunu qeyd edəcək və bu bayram tədbirində iştirak etmək istədiklərini bildirəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənası barədə izah verə biləcəklər.

**Ailə**

Dərslik kitabında təklif edilmiş tapşırıq Qədir-xum günündə yerinə yetirilməsi tövsiyə edilmiş əməllər barədə təqdimat hazırlayıb sinifə gətirməkdən ibarətdir.

# Səkkizinci fəsil - Din təlimləri (Axirət dünyası)

## Tədrisdə nümunəvi örnəklər 43

## İbtidai mərhələnin beşinci kitabı

### Divar qəzetləri



**Dərsin tədrisində nəzrədə tutulanlar:**

1. Hesab günü ifadəsi ilə qiyamətin adlarından bir olaraq tanışlıq
2. Əməllərin hesablanacağı ilə bağlı hədislərlə tanışlıq
3. Axirətdə əməllərimizin tez və asan hesablanması üçün öhdəmizə düşən vəzifələrimizi yerinə yetirmək istəyi
4. Əməllərin hesablanmasına çalışmaq
5. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Allah-taala insanı bu dünyada yaratmışdır ki, öz potensial və bacarığından istifadə edərək dünya həyatını qət edib özünü əbədi axirət həyatına hazırlasın. Axirətdə insanların mövqeyi bir-birindən tamamilə fərqli olacaq. Çünki Allah ədalətli olduğu üçün hər bir insanı öz əməllərinə uyğun şəkildə dəqiq sorğu-suala çəkib mükafat və ya cəza verəcək. Biz bu dərsdə qiyamətin müxtəlif adları arasından yalnız əməllərin sorğu-sualı ilə bağlı olanı – "hesab günü" adı haqqında məlumat verməyə çalışmışıq. Quran ayələri və hədislərə əsaslanaraq hesab gününü xüsusiyyətləri haqqında qısaca bilgi vermişik.

Bilmək lazımdır ki, ... 

* Mümkün olduğu təqdirdə bu dərsin şagirdlərin summativ qiymətləndirilməsi zamanı keçirilməsi tövsiyə olunur.

* İnsanın özünü sorğu-suala çəkməsinin faydası barədə Əmirəlmöminin Əlidən (əleyhissəlam) nəql edilmiş bir hədisdə belə deyilir: “Özünü (əməllərini) sorğu-suala çəkən insan ğz eyiblərindən və günahlarından xəbərdar olduğu üçün günahına görə tövbə edib eyiblərini aradan qaldırmağa çalışar.” O həzrət başqa bir kəlamında belə buyurur: “Öz əməllərinin sorğu-sualını edən insan xoşbəxt olar.” Həmçinin buyurur: “Sorğu-sual ağacının bəhrəsi nəfsin islah olunmasıdır.”

## Gözəl başlanğıc

1. Dərslik kitabında verilmiş hekayənin şagirdlər tərəfindən səhnələşdirilməsi və səhnəcik barədə fikir mübadiləsi aparılması

2. İmam Əlinin (əleyhissəlam) kəlamını yazı lövhəsinə yazıb səhnəcik və onun barəsində fikir mübadiləsi başa çatdıqdan sonra uşaqlara deyək ki, bu kəlam barəsində hər biri öz fikrini bildirsin.Bu kəlamın dərsin mövzusu ilə nə kimi bağlılığı vardır?

اليومَ عَمَلٌ و لا حِسابَ وغداً حسابٌ و لا عملَ

Bu gün əməl günüdür, sorğu-sualı yoxdur. Sabah isə sorğu-sual günüdür, əməl olmayacaq.

3. Bu dərsi keçməzdən bir gün qabaq şagirdlərə tapşırılsın ki, dərslik kitabındakı “tamamalayın” tapşırığında verilmiş həyat cədvəlini doldurub sinifə gətirsinlər. Cədvəlin şagirdlər tərəfindən doldurulması bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

4. Bu dərsin keçirilmə vaxtı elə planlaşdırılsın ki, şagirdlərin summativ qiymətləndirilməsi vaxtı ilə üst-üstə düşsün. Bu, əməllərin nəticəsi barədə danışmaqdan daha səmərəli ola bilər.

5. Qabaqcadan bir cədvəl tərtib edib onda şagirdlərin Quran, səmavi hədiyyələr, həyat bilgisi, riyaziyyat, ana dili və s. fənləri öyrənməkdə əsas məqsədlərini qeyd edək. Summativ qiymətləndirmədən bir həftə əvvəl həmin cədvəlləri şagirdlərə paylayıb hərənin öz summativ nəticəsi barədə

təxmin etdiyi qiyməti yazmasını bldirək. Cədvəli evdə doldurduqdan sonra sinifə gətirsinlər. Hər bir şagird öz yazısı barədə şifahi şəkildə məlumat verib summativ qiymətləndirmədə hansı nəticəni gözlədiyini bildirsin. Uşaqların cədvəlləri doldurub sinifə gətirəcəyi gün yazı lövhəsinə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) aşağıdakı kəlamını yazaq.

| Həyat cədvəli | | | | | |
|---|---|---|---|---|---|
| Sıra | Dərsdəki məqsəd | Əla | Yaxşı | Orta | Zəif |
| 1 | Namazlarımı vaxtında qılıram. | | | | |
| 2 | Cümə qüslünün necə alınmasını bilir və onu almağa çalışıram. | | | | |
| 3 | Başqasının icazəsi olmadan onun malından istifadə etməyi haram hesab edirəm. | | | | |
| 4 | İsrafdan uzaq olub şəxsi əşyalarımdan istifadədə qənaət edirəm. | | | | |
| 5 | Söyüş söyməkdən və başqalarına pis ləqəblər verməkdən çəkinirəm. | | | | |
| 6 | Hər həftə Qurandan bir səhifə oxumağa çalışıram. | | | | |
| 7 | Quranın göstərişlərinə əməl etməyə çalışıram. | | | | |
| 8 | Başqalarına işlərində kömək etməyə çalışıram. | | | | |
| 9 | Bacardığım qədər ümumi malları və beytül-malı qorumağa çalışıram. | | | | |
| 10 | Əziz məsum imamları çox sevirəm və onların həyatı ilə daha yaxından tanış olmağa çalışıram. | | | | |
| 11 | ............................................................ | | | | |
| 12 | ............................................................ | | | | |

Həzrət Peyğəmbər "səlləllahu əleyhi və alih" buyurmuşdur:

حاسِبُوا أَنْفُسَكُمْ قَبْلَ أَنْ تُحاسَبُوا

(Sorğu-suala çəkilməzdən qabaq özünüzü sorğu-suala çəkin!)

6. Şagirdlərə tapşıraq ki, dostları, ata-anaları, qohumları, ümumiyyətlə sevdikləri hər bir şəxs üçün dua etsinlər. Onlar dua etdikcə hamı birlikdə amin deyək. Hamı dua edib qurtardıqdan sonra aşağıda verilmiş Quran ayəsini yazı lövhəsinə yazıb dua şəklində oxuyaq.

رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

Ey Rəbbim! Haqq-hesab çəkilən gün (qiyamət günü) məni, ata-anamı və möminləri bağışla!

İbrahim surəsi, 41-ci ayə

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Qiyamətin "hesab günü" adlanmasının səbəbini sadə və uşaq dili ilə izah etməyi bacaracaqlar.

* Əməllər barədə sorğu-sual olunacağına dair hədislər qeyd edib onların barəsində izah verəcəklər.

* Öz əməllərini daim nəzarətdə saxlayıb həmişə yaxşı işlər görməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını izah edə biləcəklər.

### Ailə

Şagirdlər evdə bir cədvəl hazırlayıb gündəlik işlərini orada qeyd edəcəklər.

# Doqquzuncu fəsil - Din təlimləri (Dini şəxsiyyətlər)

## Tədrisdə nümunəvi örnəklər 44

## İbtidai mərhələnin beşinci kitabı

## Qurani-kərimdə adına surə olan xanım



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Tarixin böyük qadınlarından biri olaraq həzrət Məryəmlə (səlamullahi əleyha) tanışlıq
2. İsa (əleyhissəlam) peyğəmbərin anası olaraq həzrət Məryəmlə (səlamullahi əleyha) tanışlıq
3. Allaha ibadət edən bir qadın olaraq həzrət Məryəmlə (səlamullahi əleyha) tanışlıq
4. Həzrət Məryəmə (səlamullahi əleyha), onun əməllərinə və davranışına qarşı sevgi
5. Həzrət Məryəmin (səlamullahi əleyha) həyat, əxlaq və davranışından örnək götürməyə çalışmaq
6. Quran mesajı ilə tanışlıq

**Öyrənmə və öyrətmə metodları**

Quran həzrət Məryəmi (səlamullahi əleyha) Allah tərəfindən seçilmiş, pak, təmiz, təqvalı, öz dövrünün ən üstün qadını, möminlər üçün örnək,

ibadət edən bir qız, həddən artıq düz danışan, mələklərlə söhbət edən bir şəxs olaraq təqdim etmişdir. Quran onu Asiya xanımla birlikdə kişi və ya qadın olmasından asılı olmayaraq bütün möminlər üçün örnək göstərmişdir.

Bu dərsdə şagirdlər tarixin ən böyük qadınlarından biri olaraq həzrət Məryəmin (səlamullahi əleyha) həyatı ilə Quranın dedikləri əsasında tanış olacaqlar.

Bilmək lazımdır ki, ... 

* Mümkün olduğu təqdirdə bu dərsin yeni il ərəfəsində keçirilməsi tövsiyə olunur.

* Həzrət Məryəm (səlamullahi əleyha) Allah tərəfindən seçilmiş bir qadın olduğu üçün mələklər ona nazil olaraq deyirdilər: “Ey Məryəm, Allah səni seçib təmizləmiş və bütün dünya qadınlarından üstün etmişdir.” Bu söz həzrət Məryəmin (səlamullahi əleyha) necə böyük bir məqam sahibi olmasından xəbər verir. Mələklərlə danışan şəxsə din terminologiyasında “mühəddisə” deyilir. Həzrət Məryəm (səlamullahi əleyha) də məhz mühəddisə olmuşdur.

* Həzrət Məryəm (səlamullahi əleyha) Allah tərəfindən seçilmişdi. Xatırlayın ki, mələklər bir zaman Məryəmə belə demişdilər: “Ey Məryəm, Allah səni seçmiş, paklamış və bütün dünya qadınlarından üstün etmişdir.”

**Gözəl başlanğıc**

1. “Həzrət Məryəm” filmindən həzrət Zəkəriyyanın (əleyhissəlam) məbəddə həzrət Məryəmin (səlamullahi əleyha) otağına daxil olarkən onun ibadət halında, otağın bir küncündə isə meyvə ilə dolu bir qabın olduğunu görməsi, habelə həzrət İsanın (əleyhissəlam) dünyaya gəlişi və dilə gələrək danışması fraqmenti təqdim etmək.

2. Quran dərsliyinin dördüncü kitabında, səkkizinci dərsdə verilmiş həzrət Zəkəriyya (əleyhissəlam) və həzrət Məryəmlə (səlamullahi əleyha) bağlı şəkillərdən istifadə etmək bu dərsin “De görüm” tapşırığı üçün gözəl başlanğıc ola bilər. Şagirdlərə deyək ki, şəkillər barədə məlumat versinlər.

3. Əvvəlki kitablarda həzrət Xədicə (səlamullahi əleyha), həzrət Fatimə (səlamullahi əleyha) və həzrət Asiyanın (səlamullahi əleyha) həyatı ilə bağlı verilmiş şəkillərdən istifadə etmək bu dərsin "bir-birinizlə danışın" tapşırığı üçün ən gözəl başlanğıc ola bilər.











4. "Allahın elçisi" cizgi filmindən həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) göstərişinə əsasən müsəlmanların Həbəşistana hicrət etməsi, həzrət Əlinin (əleyhissəlam) qardaşı Cəfərin Həbəşistan hökmdarının qarşısındakı çıxışı və hökmdarın onun sözlərinə reaksiyası fraqmentini təqdim etmək bu dərsin "yaradıcılıq dayanacağı" tapşırığı üçün gözəl başlanğıc sayıla bilər.

يَا مَرْيَمُ اقْنُتِي لِرَبِّكِ وَاسْجُدِي وَارْكَعِي مَعَ الرَّاكِعِينَ

Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et! (Namaz qılanlarla bir yerdə namaz qıl!)”

Ali-İmran surəsi, 43-cü ayə

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Həzrət Məryəmin (səlamullahi əleyha) müxtəlif xüsusiyyətləri barədə məlumat verəcək, onu sevgi və ehtiramla anacaq, onun əxlaq və davranışından örnək götürməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənası barədə izah verə biləcəklər.

### Ailə

Şagirdlər evdə valideynlərinin yanında Qurandan Məryəm surəsinin bir hissəsini onun mənasına diqqət yetirərək oxusunlar.

Üçüncü hissə

3

# Tədrisdə nümunəvi örnəklər Din təlimləri (səmavi hədiyyələr)

İbtidai mərhələnin altıncı kitabı

## Birinci fəsil - Din təlimləri (Allahıtanıma)

### Tədrisdə nümunəvi örnəklər 45

### İbtidai mərhələnin altıncı kitabı

### Vahid



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Dinin ilk təməl prinsipi olaraq tövhidlə tanışlıq
2. Allahın biliklilərin ən biliklisi, qüdrətlilərin ən qüdrətlisi, mehribanların ən mehribanı, bağışlayanların ən bağışlayanı olması kimi fikirlərlə tövhiddən nümunələrlə tanışlıq
3. Bəzi söz və cümlələri ifadə etməklə Allaha ibadət etmək bacarığı ilə tanışlıq
4. Allahın ibadət idelməyə layiq olduğunu anlamaq və tək olan Allaha sevgi bildirmək
5. Quran mesajı barədə düşünmək bacarığı və onun dərsin mövzusu ilə bağlılığını anlamaq

**Öyrənmə və öyrətmə metodları**

Əvvəlki kitablardakı tövhid dərslərində şagirdlər Allahın mehriban, bağışlayan (nemət verən), bilikli, qüdrətli və tək olmasını öyrənmişdilər. İbtidai mərhələnin altıncı kitabında isə əvvəlki kitablarda Allahın tək və şəriksiz olmasına bir daha ötəri nəzər saldıqdan sonra tövhid prinsipi ilə tanış olacaqlar. Bu dərs şagirdlərlə eyni yaşda olan bir uşağın dilindən

münacat şəklində qeyd edilmişdir. Belə ki, təbiətdə və ətrafında olanların gözəlliyinə diqqət yetirib Allahın sifətlərindən bəzi nümunələr qeyd etməklə şagirdlərdə Allaha ümid bağlamaq hissinin güclənəcəyini düşünürük.

Bilmək lazımdır ki, ... 

* İbtidai mərhələnin altıncı kitabında tövhid prinsipi ilə tanış olmaqla yanaşı eyni zamanda əvvəlki kitablardakı tövhidlə bağlı mövzular xülasə edilmişdir. Şagirdlər başa düşəcəklər ki, tək olan Allahın heç bir bənzəri və şəriki yoxdur.

* Tövhid sözünün ətraflı izahı və tövhidin dəlilləri mövzusuna qətiyyən toxunmaq lazım deyil. Yetər ki, şagirdlər tövhidin üsuliddinin əsas prinsiplərindın biri olduğunu və Allahın mehribanlıq, bağışlamaq və s. kimi sifətlərdə tək olması anlamına gəldiyini bilsinlər.

* Allahı tanıma mövzusunu izah edərkən vasitəli metodlardan, mövzunun başqa bir şəxsin dilindən deyilməsindən istifadə etməkdən və ətraf mühitə diqqət yetirməkdən istifadə edilsin.

## Gözəl başlanğıc

1. Qurandan “Qul huvəllahu əhəd” ayəsini yazı lövhəsinə yazıb şagirdlərdən onun mənasını soruşmaq.

2. Riyaziyyatdakı vahid ifadəsini qeyd edib şagirdlərdən onun mənasını misallar vasitəsilə izah etməsini istəyək. Vahiddən böyük və kiçik kəsr hansıdır? “Vahid” sözünün “qul huvəllahu əhəd” ayəsi ilə nə kimi bağlılığı olduğunu və bu sözün “əhəd” kökündən götürüldüyünü izah edək.

3. “Tamamlayın” tapşırığını həll etmək bu dərs üçün gözəl başlanğıc ola bilər.

4. “Allah” şeirini oxumaq da bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Tövhid prinsipinin üsuliddinin ilk əsası olduğunu qeyd edərək onun barəsində misallar çəkəcəklər.

* Tövhidlə bağlı bir neçə nümunə qeyd edəcəklər.

* Bir mətn formasında Allaha olan sevgilərini bildirib Onu təqdis edəcəklər.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənası barədə misallar qeyd edətməklə izah verməyi bacaracaqlar.

# İkinci fəsil - Din təlimləri (Allahın peyğəmbərləri)

## Tədrisdə nümunəvi örnəklər 46

## İbtidai mərhələnin altıncı kitabı

### Ən gözəl bələdçilər



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Dinin peyğəmbərlərin göstəriş və təlimlər toplusu kimi təqdim edilməsi
2. Nübüvvət prinsipi ilə üsuliddin haqqında tanışlıq
3. Peyğəmbərlərin bir sıra vəzifə və xüsusiyyətləri ilə tanışlıq
4. Peyğəmbərlərin dini bələdçi və dünyəvi rəhbər olaraq təqdim edilməsi
5. Səadətə çatmaqdan ötrü Allahın hidayətinə ehtiyac hissini gücləndirmək
6. Peyğəmbərlərə qarşı sevgi hissini gücləndirmək
7. Peyğəmbərlərin həyat və davranışından örnək götürməyə çalışmaq
8. Quran mesajı barədə düşünmək bacarığı və onun dərsin mövzusu ilə bağlılığını anlamaq

## Öyrənmə və öyrətmə metodları

Bu dərsdə şagirdlərin bir dağ gəzintisi barədə məlumat verməklə Allahın hidayətinə ehtiyac duyulması və peyğəmbərlərin insanlar üçün həm dini bələdçi, həm də dünyəvi rəhbər olaraq göndərilməsinin zərurəti izah edilir. Quran ayələrinə istinad edərək peyğəmbərlərin bir sıra xüsusiyyətləri və göndərilmə səbəbləri qeyd olunur.Əvvəlki kitablarda peyğəmbərlər haqqında öyrəndiklərinə də ötəri nəzər salınır ki, şagirdlər peyğəmbərlərlə tanışlıq mövzusuna daha yaxşı təşviq olunsunlar.

Mümkün olduğu təqdirdə bu dərsin həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) peyğəmbər seçildiyi gündə və ya o həzrətin mövlud günündə keçirilməsi tövsiyə olunur.

Bilmək lazımdır ki, ... 

* Əvvəlki kitablarda şagirdlər böyük peyğəmbərlərin adları, habelə onların həyatından bəzi məlumatlar və bir sıra xüsusiyyətləri ilə tanış olublar. Bu dərsdə isə peyğəmbərlik prinsipinin dinin əsaslarından biri olduğunu öyrənəcəklər.

* Peyğəmbərliyin dinin əsaslarından biri olduğunu öyrənməklə yanaşı, şagirdlərə Allahın hidayətinə ehtiyac duyulduğu və peyğəmbərlərin gəlişinin zərurəti barədə də məlumat verilir. Burada məsumluq, vəhy, möcüzə kimi ifadələr barədə danışmağa ehtiyac yoxdur. Buna görə də ibtidai mərhələdə bu kimi məfhumların izahına girişməkdən çəkinmək lazımdır.

* Şagirdlərdə din rəhbərlərinə qarşı sevgi yaratmağın yollarından biri də odur ki, onların əməli davranışı, mehriban, qayğıkeş, böyük əxlaq sahibi olması barədə məlumat verməkdir. Bu yolla şagirdlərdə onlara qarşı sevgi yaradıb din rəhbərlərinin həyat və davranışından örnək götürmək üçün əlverişli zəmin hazırlamaq mümkündür. Yetər ki, şagirdlər gözəl, mehriban, fədakar, bilikli insanlar kimi tanıdığı peyğımbərlərin Allah-taala ilə bağlılığı olduğunu, camaatın onların göstərişlərinə qulaq asıb əməl etdiyini bilsinlər.

### Gözəl başlanğıc

1. Dağa dırmanma ilə bağlı kiçik bir sənədli film və ya videogörüntü təqdim edib onun çətinlikləri haqqında fikir mübadiləsi aparmaq.

2. "Allahın elçisi" filmindən müsəlman mühacirlərin Həbəşistan hökmdarı Nəcaşi ilə danışması səhnəsini təqdim etmək.

Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih), həzrət İsa (əleyhissəlam), həzrət Musa (əleyhissəlam), həzrət İbrahim (əleyhissəlam) və həzrət Nuh (əleyhissəlam) barəsində film və ya cizgi filmi təqdim etmək, yaxud da əvvəlki kitablarda peyğəmbərlərin möcüzələri ilə bağlı şəkillər göstərmək bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

### Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Peyğəmbərliyin dinin əsaslarından biri olduğunu misallar çəkməklə düzgün şəkildə izah edə biləcəklər.

* Gözəl və layiqli bələdçilərin hidayətinə ehtiyac hissini ifadə etməklə yanaşı peyğəmbərlərin bir neçə xüsusiyyətini qeyd edəcəklər.

* Peyğəmbərlərə sevgilərini bir mətn formasında bildirməklə onların həyat və davranışından örnək götürməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub misallar çəkməklə onun mənasını düzgün şəkildə izah etməyi bacaracaqlar.

# Üçüncü fəsil - Din təlimləri (İmamət)

## Tədrisdə nümunəvi örnəklər 47

## İbtidai mərhələnin altıncı kitabı

## Azad insanların rəhbəri



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. İmam Hüseyn (əleyhissəlam) və dostlarının dinin müdafiəsindəki rolu ilə tanışlıq
2. Həzrət Qasimin (əleyhissəlam) Kərbəla şəhidlərindən biri olaraq təqdim edilməsi
3. İmam Hüseyn (əleyhissəlam) və dostlarına sevgi bildirmək
4. Dinin müdafiəsi və haqsızlığa qarşı mübarizədə imam Hüseyn (əleyhissəlam) və dostlarından örnək götürməyə çalışmaq

**Öyrənmə və öyrətmə metodları**

Dərsin əvvəlində həzrət Qasimin (əleyhissəlam) rəşadət və şücaətindən bəhs edən hekayənin verilməsində məqsəd odur ki, təxminən onunla eyni yaşda olan şagirdlər bu yeniyetmənin şəxsiyyəti ilə tanış olub ondan örnək götürməyə çalışsınlar. Dərsin davamında aşura hadisəsinin məqsəd və səbəbləri barədə məlumat verilmişdir ki, şagirdlər imam Hüseyn (əleyhissəlam) və dostlarının fədakarlığı ilə daha yaxından tanış olub onların əldə etdiyi nəticəni qoruyub saxlamaqda onlardan örnək götürüb ilhamlansınlar.

Bu dərsin ümumu məzmununu nəzərə alaraq şagirdlərdə daha çox təsir qoya bilməsindən ötrü onun məhərrəm ayında keçirilməsi tövsiyə olunur.

Bilmək lazımdır ki, ... 

* Bu dərsdə Yezidin bəzi yaramaz əməllərinə, o cümlədən namaza və dinin digər göstərişlərinə laqeyd yanaşmasına toxunulmuşdur. Bunları qeyd etməkdə məqsəd odur ki, şagirdlər dinin göstərişlərinə laqeyd yanaşmağın Yezidə xas olan əməllərdən olduğunu başa düşsünlər.

* Müqəddəs dinimiz din rəhbərlərimizin bu qədər çətinliklər çəkməsi bahasına bizə gəlib çatmışdırsa, biz də dinin və din rəhbərlərimizin göstərişlərinə əməl etməklə həzrət Peyğəmbərin (səlləllahuəleyhi və alih) və məsum imamların zəhmətlərinin, təlimlərinin qədrini bilməli, onu göz bəbəyi kimi qoruyub saxlamalıyıq.

* Bu dərs şagirdləri öz dövrümüzdəki yezidlərlə tanış etmək üçün gözəl bir fürsətdir. Şəhid Murtaza Mütəhhərinin “Həmaseyi-Hüseyni” əsərində qeyd etdiyi kimi, Yezid 1400 il bundan qabaq ölüb, biz indi öz dövrümüzün Yezidini tanımalıyıq. Bu dərsdə Yezidin bir sıra yaramaz əməllərinə, xüsusiyyətlərinə, o cümlədən İslam dinini və həzrət Məhəmmədi (səlləllahu əleyhi və alih) məsxərəyə qoymasına, cəmiyyəti fəsada sürükləməsinə, İslam dinini aradan aparmaq cəhdlərinə işarə edilmişdir. Bu dərslə Allah dostları ilə dost olub düşmənləri ilə düşmənçilik etmək mövzusu ilə bağlı “İmanlı dəvə sarvanı” dərsi arasında da bir bağlılıq yaratmaq mümkündür. Bu yolla şagirdlərə dövrümüzün yezidlərindən uzaq durmağın, onlara nifrət etməyin lazım olduğunu başa salmaq olar.

* Bu dərs əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) mövzusundan danışan sonrakı dərsə bir növ giriş rolunu oynaya bilər. Çünki aşura qiyamının əsas mahiyyəti də məhz əmr be-məruf və nəhy əz-münkər amili olmuşdur.

* Bu dərsdə Kərbəla hadisəsində iştirak etmiş uşaqlar mövzusuna da toxunulmuşdur. O cümlədən, imam Hüseynin (əleyhissəlam) Əliəsğər kimi tanınmış altıaylıq südəmər körpəsi Əli, imam Həsənin (əleyhissəlam) oğlu Abdullah, imam Hüseynin (əleyhissəlam) qızı Rüqəyyə, o vaxt beş yaşında olmuş imam Məhəmməd Baqir (əleyhissəlam), Müslimin iki oğlu və s.

* Bu dərs həm imamət mövsuna, həm də dini şəxsiyyətlər mövzusuna aiddir.

### Gözəl başlanğıc

1. “Muxtarnamə”filmindən aşura gününün döyüş səhnəsini təqdim etmək.

2. Həzrət Nuh (əleyhissəlam) peyğəmbərin səhabələrinin gəmiyə minərək suda boğulmaqdan qurtulmasını əks etdirən videogörüntünü təqdim etmək bu dərsdə verilmiş “araşdırın” tapşırığı üçün gözəl başlanğıc ola bilər.

3. Dərsin lap başlanğıcında şagirdlərdən biri həzrət Qasim (əleyhissəlam) haqqında 10 dəqiqəlik məddahlıq etsin.

4. Həzrət Qasimin (əleyhissəlam) canfəşanlığını əks etdirən məddahlığın audiofaylını səsləndirmək.

5. Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olmuş yeniyetmə və gənclərimizin şəkillərini və ya onlara aid film təqdim etməklə də bu dərsə gözəl başlanğıc etmək olar.

6. İmam Hüseynin səhabəsi Züheyrin aşura günü döyüş meydanındakı mübarizəsi və Yezidə qarşı çıxışından bir parçanı təqdim etmək.

### Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* İmam Hüseyn (əleyhissəlam) və səhabələrinin mübarizəsinin səbəbini izah edəcək, bu mübarizənin nəticələrini qeyd etməklə yanaşı onlara ehtiramını bildirəcəklər.

* Həzrət Qasimi (əleyhissəlam) tanıtdırıb onun necə şəhid olduğunu bəyan edə biləcəklər.

* İmam Hüseyn (əleyhissəlam) və səhabələrini zülm və haqsızlığa qarşı mübarizə örnəyi kimi təqdim edib onlardan örnək götürməyə çalışacaqlar.

### Ailə

Şagirdlər evdə valideynlərinin köməyi ilə Kərbəla hadisəsində və İslamın yaşaması uğrunda daha hansı yeniyetmələrin mübarizə aparıb şəhid olduğunu araşdırsınlar.

# Dördüncü fəsil - Din təlimləri
# (İslam əxlaqı və ədəb qaydaları)

## Tədrisdə nümunəvi örnəklər 48

## İbtidai mərhələnin altıncı kitabı

## Yaşayış qaydaları



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1- Davranış qaydaları anlayışı ilə tanışlıq

2- İslamda bəzi ictimai davranış qaydaları ilə tanışlıq

3- Davranış qaydaları ilə bağlı ayələrin tərcümə edilməsi və Quran mesajlarının çıxarılması bacarığı

4- Bəyənilməz ənənələri tənqid etmək və onlara qarşı mübarizə aparmaq bacarığı

5- Gündəlik həyatda davranış qaydalarına riayət etməyə çalışmaq

**Öyrənmə və öyrətmə metodları**

Ədəb qaydaları mövzusu ilə bağlı dərslərin keçirilməsində məqsəd şagirdlərin diqqətini hər bir müsəlmanın riayət etməli və onların qarşı tərəfində duran əməllərdən çəkinməli olduğu bir sıra bəyənilmiş əməllərə cəlb etməkdir. Dərsin adından da göründüyü kimi, bu dərsdə cəmiyyət arasında və başqaları ilə ünsiyyətdə olarkən riayət edilməsi zəruri sayılan bəzi əməllər qeyd edilmişdir.

Həmçinin cəmiyyətdə, xüsusilə də şagirdlər arasında yayılmış bəzi yanlış adət-ənənəyə toxunulmuşdur.

Bilmək lazımdır ki, ... 

* Bu dərs həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) ictimai əlaqələr və ünsiyyət zamanı davranışının bəyan edilməsi ilə başlanılmışdır. Bunda məqsəd o həzrətin davranışını ictimai ünsiyyət zamanı örnək qərar vermək və düzgün ünsiyyət qaydalarına riayət etməkdir. Şagirdlər daha əvvəlki “Səmavi hədiyyələr” kitablarında həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) gözəl davranışı ilə bağlı bəzi hekayələri oxumuş və o həzrətin hamıya, ələlxüsus da uşaqlara qarşı necə mehriban olduğunu görmüşlər.

* Şagirdlərin sinif yoldaşlarını ələ salmaq, söyüş söymək, başqaları danışarkən söhbət etmək və bu kimi xoşagəlməz ənənələri vardır ki, bunlara dərsdə işarə olunmuşdur.

* Ailələr, qohumlar, dost-tanışlar arasındakı bir çox anlaşılmazlığın, eləcə də cəmiyyətdə müxtəlif xoşagəlməz əməllərin yayılmasının əsas səbəbi bəzi ictimai davranış qaydalarına riayət edilməməsidir.

### Gözəl başlanğıc

1. Dərsin əvvəlində məsumların gözəl davranışı ilə bağlı film və ya cizgi filmi nümayiş etdirmək bu dərs üçün gözəl başlanğıc sayıla bilər.
2. Cəmiyyət arasında çəkilmiş və dini inanclarımızla uyğun gələn gözəl adət-ənənələri əks etdirən videogörüntülər təqdim etmək.
3. “Düşünək” tapşırığında Quran ayələrini rəqəmləyib şagirdlərdən növbə ilə bir rəqəm seçməsini istəyək. Müəyyən bir rəqəmi seçmiş şagird həmin ayədə yazılanların mənasını əl hərəkətləri ilə şagirdlrə başa salsın, digər şagirdlər isə onun nə demək istədiyini və hansı ayə olduğunu tapsınlar.
4. “Bir-birinizlə danışın” tapşırığında verilmiş tapşırıq şagirdlər tərəfindən səhnələşdirilsin. Səhnəcikdən sonra isə onun barəsində sual-cavab edilsin.

Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Davranış qaydaları barədə məlumat verib nümunələr qeyd etsinlər. Habelə həmin qaydalara riayət etməyə çalışsınlar.

* Ədəb qaydaları ilə bağlı Quran ayələrinə toxunaraq onları tərcümə etsinlər.

* Xoşagəlməz ənənələrlə bağlı bir neçə nümunə göstərib onlara qarşı mübarizə metodunu qeyd etsinlər.

# Beşinci fəsil - Din təlimləri (Şəriət hökmləri)

## Tədrisdə nümunəvi örnəklər 49

## İbtidai mərhələnin altıncı kitabı

## Gizli bir bağ



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) məfhumu ilə tanışlıq
2. Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkərin (pis işlərdən çəkindirmənin) bəzi metodları ilə tanışlıq
3. Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkərin (pis işlərdən çəkindirmənin) faydalarının izahı
4. Həyatda əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkərin (pis işlərdən çəkindirmənin) bəzi nümunələrini müəyyən edə bilmək qabiliyyəti
5. Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) prinsipini icra etmək vəzifəsini hiss etmək
6. Quran mesajı barədə düşünmək bacarığı və onun dərsin mövzusu ilə bağlılığını anlamaq

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə həyatda baş vermiş bəzi hadisələr hekayə formasında qeyd edilmişdir ki, şagirdlər əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) anlayışını dərk edib onun nümunələri, metodları, zərurət və

faydaları ilə tanış olsunlar. Quran ayələrinə istinad edərək əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkərin (pis işlərdən çəkindirmənin) müsəlmanların bir-birinə qarşı yerinə yetirməli olduğu bir prinsip kimi qəbul etsinlər. Bu dərslə ondan əvvəlki dərs arasında bağlılıq yaradıb aşura hadisəsinin əsas səbəblərindən birinin məhz əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) olduğunu da qeyd edə bilərik. Habelə bu dərs ilə beşinci kitabda "Camaatın malı" başlığı ilə verilmiş və halal-haram maldan bəhs edən dərs arasında da bir bağlılıq yaratmaq mümkündür.

Məhərrəm ayının ilk həftəsinin əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) həftəsi olduğunu nəzərə alaraq mümkün olduğu təqdirdə bu dərsin məhz həmin ərəfədə keçirilməsi tövsiyə olunur.

### Gözəl başlanğıc

1. Dərslik kitabında verilmiş hekayənin şagirdlər tərəfindən səhnələşdirilməsi.
2. Şagirdlərin köməyi ilə biri sevincək, digəri isə narahat görünən iki insan şəkli hazırlayın. Sonra ayrı-ayrı vərəqlərə yaxşı və pis işlərdən nümunələr yazın. Daha sonra isə şagirdləri bir-bir lövhəyə çıxarıb hərəsinə bir vərəq götüzdürək. Hər şagirdin çəkdiyi vərəqdə yazılan nümunənin yaxşı, yoxsa pis olduğunu digər şagirdlər sevincək, ya da narahat adam şəklini göstərməklə müəyyən etsinlər.
3. Yaxşı və ya pis əməllərin olduğunu göstərən şəkillər nümayiş etdirmək. Hansı əməlin yaxşı, hansının pis olduğunu isə şagirdlər sevincək, ya da narahat adam şəklini göstərməklə müəyyənləşdirsinlər.
4. Yaxşı və pis işlərdən bəhs edən bir neçə videoklip təqdim edib bu barədə fikir mübadiləsi aparmaq.
5. Yaxınlarınızda görüb müşahidə etdiyiniz yaxşı və pis işlər barədə sinif yoldaşlarınıza məlumat verin.
6. Heç bu vaxta qədər sizi pis bir işdən çəkindirən olubmu?
7. Sonuncu dəfə sizi kim yaxşı işə dəvət edib? Hansı iş idi?

### Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkər (pis işlərdən çəkindirmə) məfhumu barədə təsəvvürləri olub onun bəzi metodlarını qeyd edəcəklər.

* Gündəlik həyatda əmr be-məruf (yaxşı işlərə dəvət) və nəhy əz-münkərin (pis işlərdən çəkindirmə) bəzi nümunələrini göstərməklə onun faydalarından danışacaq və ona əməl etməyə çalışacaqlar.

* Dərsdə verilmiş Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını misallar çəkməklə izah etməyi bacaracaqlar.

# Altıncı fəsil - Din təlimləri
# (İslami mərasimlər)

## Tədrisdə nümunəvi örnəklər 50
## İbtidai mərhələnin altıncı kitabı
## Müsəlmanların bayramı



**Dərsin tədrisində nəzərdə tutulanlar:**
1. Həcc ayinləri ilə tanışlıq
2. Qurban bayramının bəzi əməlləri ilə tanışlıq
3. Qurban bayramı tədbirində iştirak etmək istəyi
4. Qurban bayramı tədbirində iştirak etmək

**Öyrənmə və öyrətmə metodları**

Bu dərsdə həzrət İbrahim (əleyhissəlam), həzrət İsmail (əleyhissəlam) və Hacər xanımın həyatı, eləcə də həcc ayinləri barədə qısa şəkildə məlumat verilmişdir. Müsəlmanların iki müştərək bayramı haqqında, bu bayramların özəllikləri və faydalarından danışılır. "Müsəlmanların bayramı" dərsində səy edilmişdir ki, şagirdlər həcc ayinləri və dünyanın hər yerində müsəlmanlar tərəfindən böyük təntənə ilə qeyd edilən Qurban bayramının əməlləri ilə ötəri şəkildə tanış olub bayram tədbirlərində iştirak etməyə can atsınlar. Mümkün olduğu təqdirdə bu dərsin zilhəccə ayında, Qurban bayramı, yaxud da müsəlmanların başqa bir bayramı ərəfəsində keçirilməsi tövsiyə olunur.

Bilmək lazımdır ki, ... 

* Şagirdlərin bu yaş dövründə həcc mövzusuna yalnız ötəri şəkildə toxunmaq lazımdır. Uşaqların həcc ziyarəti barədə qısaca məlumatı olması ilə kifayətlənib həcc ayinlərinin xırdalıqlarına varmağa heç bir lüzum yoxdur.

* Uşaqların bu barədə daha ətraflı məlumatı üçün onlara deyə bilərik ki, əgər ailə üzvləri arasında həcc ziyarətində olmuş şəxs varsa, bu barədə onları maraqlandıran sualları ondan soruşa bilərlər.

## Gözəl başlanğıc

1. Bu dərs üçün ən gözəl başlanğıc hacıların Kəbə evinin ətrafında təvaf etməsini əks etdirən videogörüntü təqdim etmək ola bilər.

2. Bayram günündə deyilən təkbirlərin audiofaylını səsləndirmək də bu dərs üçün gözəl başlanğıc ola bilər.

3. Yazı lövhəsinə “bayram” sözü yazıb şagirdlərə bir neçə bayram adını qeyd etməsi tapşırılsın. Adları çəkilən bayramlar yazı lövhəsinə yazıldıqdan sonra onların barəsində fikir mübadiləsi aparılsın.

4. Şagirdlərin köməyi ilə sinif otağının bəzədilməsi. Dərs başlamazdan qabaq sinifə nərgiz gülü və şirniyyatla daxil olub sonra dərsə başlamaq olar.

5. Ailə üzvləri arasında həcc ziyarətində olmuş şagirdlərin təəssüratlarını dinləmək. Yaxud Qurban bayramı ilə bağlı əvvəlki illərdən yadda qalmış maraqlı hadisələri dinlmək.

6. Kəbə evinin həzrət İbrahim (əleyhissəlam) və həzrət İsmail (əleyhissəlam) tərəfindən təmir edilməsini əks etdirən videogörüntü və yaxud cizgi filmi nümayiş etdirmək.

7. Sinifə boş açıqcalar gətirib üzərinə “... sevinir” ifaadəsini yazıb lövhəyə yapışdırılsın. Sonra isə şagirdlərə tapşırılsın ki, Qurban bayramında kimlər sevinirsə, nöqtələrin yerinə onların adını qeyd etsinlər.

8. Qurban bayramı münasibətilə müsəlmanların bir-birini təbrik etməsi, eləcə də bu müqəddəs gün münasibətilə müxtəlif müsəlman ölkələrində keçirilən tədbirlərlə bağlı videogörüntü təqdim etmək də bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Həcc ayinləri ilə bağlı təqdim hazırlayacaqlar.

* Qurban bayramının əməlləri ilə bağlı müxtəlif nümunələr qeyd edəcəklər.

* Qurban bayramı tədbirində iştirak etmək istədiklərini bildirəcəklər.

## Ailə

Şagirdlər ailə üzvlərinin köməyi ilə əl işiləri hazırlasınlar. Mövzu Allahın evi və Qurban bayramı ilə bağlı istənilən simvol ola bilər.

# Yeddinci fəsil - Din təlimləri (Axirət dünyası)

## Tədrisdə nümunəvi örnəklər 51

## İbtidai mərhələnin altıncı kitabı

## O biri dünya



**Dərsin tədrisində nəzərdə tutulanlar:**

1. Dinin əsas prinsiplərindən biri olaraq məadla tanışlıq

2. İnsanların ölümdən sonra dirilməsinin mümkünlüyünü anlamaq

3. Məada inamın həyatdakı rolunu anlamaq

4. Məsum imamların ardıcıllarından biri kimi Əbdüləzim Həsəni ilə tanışlıq

5. Bir müsəlmanın inanclarını təqdim etmək

6. Quran mesajı barədə düşünmək bacarığı və onun dərsin mövzusu ilə bağlılığını anlamaq

## Öyrənmə və öyrətmə metodları

Əvvəlki kitablarda şagirdlərə qiyamət, Cənnət, Cəhənnəm və s. barədə məlumat verilmişdir. Bu dərsdə isə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyatı ilə bağlı bir əhvalat qeyd edilməklə Quran ayələrinə istinadən Allah-taalanın qüdrətinə, dünyanın qısa həyatının ardınca əbədi axirət həyatına, dinin əsas prinsiplərindən biri olaraq məad anlayışına toxunulur. Yekunda isə bir müsəlmanın etiqad prinsipləri mövzusuna təkid edilir.

Bilmək lazımdır ki, ... 

1 * Bu dərsdə əsas məqsəd odur ki, dinləyicinin ölüm və axirət dünyası barədə fikirlərini islah etsin. Çünki insanlar adətən ölümü təbii həyatın qorxunc şəkildə başa çatması kimi başa düşürlər. Buna görə də ölümə qarşı həmişə mənfi fikirdə olurlar. Bunu nəzərə alaraq bu dərsin əvvəlində qeyd edilir ki, ölüm də insan həyatının bir mərhələsidir. Ölümü insan həyatından ayrı təsəvvür etmək olmaz.

* Məad mövzusuna yalnız o həddə toxunulsun ki, bu dünyadan sonra başqa bir dünya da var və insanın ölümü ilə heç də həyat başa çatmır. O biri dünyada insan bu dünyada etdiyi əməllərin qarşılığını alacaq. Məad mövzusuna bundan artıq toxunmaq, axirətdə insanların necə cəzalandırılacağı kimi məsələləri qeyd etmək lazım deyil. Qəbir, qəbir əzabı, Qiyamət və onun qorxusu, Cəhənnəm və onun acınacaqlı əzabları haqqında danışmaq dinləyicilərdə ölüm və axirət dünyası haqqında mənfi fikir yarada bilər. Bu kimi məsələləri nisbətən yuxarı yaşlarda qeyd etmək daha münasib olar.

* Dərsdə o məsələyə də toxunulmuşdur ki, insanların əsas həyatı axirətdə olacaq. Bu mövzunu bir qonaq misalı ilə izah etmək olar. Müəyyən bir müddət haradasa qonaq qalan insan heç vaxt qaldığı yerə ürək bağlamaz.Çünki bir qədər sonra oranı tərk edib öz yaşayış yerinə qayıtmalı olduğunu bilir.

Məad mövzusu ilə bağlı dinləyicilərin diqqət yetirməli olduğu

məsələlərdən biri də odur ki, insan dünyadakı əməl və davranışına fikir verməlidir. İnsanı cənnətlik və ya cəhənnəmlik edən məhz onun öz əməlləridir. Bunu nəzərə aldıqda insan öz əməllərinə daha çox diqqət yetirər. Nəticədə hər hansı bir işi görməzdən qabaq Qiyaməti xatırlayıb yerinə yetirmək istədiyi bu və digər əməlin cavabını verə biləcəyini düşünər.

## Gözəl başlanğıc

1. Sinifə bir qədər plastilin gətirək. Şagirdlərə tapşıraq ki, texnologiya dərsində plastilindən bir fiqur hazırlayıb səmavi hədiyyələr dərsinə gətirsinlər. Sonra isə onlara deyək ki, düzəltdikləri fiqurları dağıdıb təzədən hazırlasınlar. Daha sonra isə uşaqlardan soruşaq ki, həmin fiquru birinci dəfə düzəltmək daha çətin idi, yoxsa ikinci dəfə? Niyə?

2. “Bax və de” tapşırığında verilmiş tapşırığı həll etməklə dərsə başlamaq da bu dərs üçün gözəl başlanğıc sayıla bilər.

3. Əbdüləzim Həsəninin türbəsinə aid fotoqalereya və videogörüntü təqdim etmək. Əgər uşaqlar arasında bu imamzadənin ziyarətgahında olanı varsa, öz xatirələrini sinif yoldaşları üçün danışsın.

4. “Düşünək” tapşırığında verilmiş Quran ayələrini yazı lövhəsinə yazmaq və şagirdlərdən birinin həmin ayələri oxuması da bu dərs üçün gözəl başlanğıc olar.

5. Şəkilə baxıb danışmaq. Şagirdlərə tapşırılsın ki, verilmiş şəkilə baxaraq fikirlərini bildirsinlər.

## Qiymətləndirmə

Ümid edirik ki, şagirdlər bu dərsin sonunda:

* Ölülərin dirildilməsinin mümkünlüyünü misalla izah edib məadın dinin əsas prinsiplərindən biri olduğunu aydınlaşdıra biləcəklər.

* Məada inamın həyatdakı rolu ilə bağlı bir müsəlmanın inanclarını misal vasitəsilə izah etməyi bacaracaqlar.

* Əbdüləzim Həsəni barədə məlumat verməklə yanaşı, dərsdəki Quran mesajını düzgün şəkildə oxuyub onun mənasını misal çəkməklə izah edəcəklər.

Dördüncü hissə

4

# Şagirdlərin dərsi mənimsəməsinin qiymətləndirilməsi metodu

## Dördüncü hissə:

## Şagirdlərin dərsi mənimsəməsinin qiymətləndirilməsi metodu

Bu kitabda şagirdlərin dərsi mənimsəməsinin qiymətləndirilməsi metodu əsas etibarı ilə summativ qiymətləndirməyə əsaslanır. Summativ qiymətləndirmə zamanı aşağıdakılar nəzərə alınmalıdır:

Summativ qiymətləndirmənin əsas özəlliklərindən biri məlumat toplamaqdan ötrü müxtəlif vasitələrdən istifadə edilməsidir. Hər hansı bir məlumat toplayarkən şagirdin müxtəlif vasitələrdən istifadə etməsi qiymətləndirmə zamanı onun qiymətinin yüksək olmasına şərait yaradır. Digər fənlərin tədrisindəki gözləntilər, eləcə də şagirdlərin fərdi bacarıqları nəzərə alınmaqla müxtəlif vasitələrdən istifadə etmək səyləri qiymətləndirmə zamanı öz əksini tapmalıdır.

1. Summativ qiymətləndirmə zamanı tapşırıqların həllində müxtəlif vasitələrdən istifadə etmək onlardan eyni vaxtda istifadə edilmək anlamına gəlmir. Bu, o deməkdir ki, dərsin mənimsənilməsi üçün bu və digər vasitədən istifadə etmək dərsin tədrisində nəzərdə tutulanlarla uyğun gəlməlidir. Başqa sözlə desək, hər hansı bir dərsin tədrisi zamanı bu və digər vasitədən istifadə etmək həmin dərsin mənimsənilməsində müəllim və şagirdə fayda verməzsə, ondan istifadə etməyin heç bir mənası olmayacaq.

2. Summativ qiymətləndirmənin əsas məqsədlərindən biri şagirdlərin öyrənilməsi mövzuları daha yaxşı mənimsəməsinə kömək etməkdir. Bu məqsədə o vaxt çatmaq mümkündür ki, dərsi tədris edən müəllim hər bir dərsin tədrisində nəzərdə tutulmuş əsas məqsədi bilsin. Mövzunun mənimsənilməsində hər hansı bir nöqsan müşahidə etdikdə nöqsanın aradan qaldırılması üçün digər metodlardan, əlavə tapşırıqlardan istifadə etsin. Deməli, müəllimin dərsin tədrisində nəzərdə tutulmuş əsas məqsədi bilməməsi qiymətləndirmə zamanı çətinliklər yarada bilər.

3. Şagirdlərin dərsi keyfiyyət və kəmiyyət baxımından mənimsəməsinin qiymətləndirilməsi üçün lazım olan materiallar müəllim tərəfindən hazırlanmalıdır. Toplanılmış əlavə materialların düzgünlüyündən arxayın olmaq üçün müxtəlif vasitələrdən istifadə

etmək mümkündür. Müxtəlif vasitələr deidkdə buraya izləmə, sınaq, layihə, özünü qiymətləndirmə, eyni yaşda olanlar arasında müqayisə aparılması aiddir.

Məlum məsələdir ki, qiymətləndirmə metodları və qiymətləndirmə vasitələri nəzərdə tutulmuş mövzunun tədrisindəki əsas məqsədlərə uyğun şəkildə aparılmalıdır. Bu metodlardan bəzisi aşağıdakılardan ibarətdir:

**a) Müşahidə (izləmə)**

Müşahidə vasitəsilə material toplanılmasında aşağıdakı vasitələrdən istifadə etmək olar:

1- Siyahı tutmaq

2- Hadisələrin miqyasını sıralamaq

3- Hadisəni yazmaq

**b) İmtahan (sınaq)**

İmtahanların da müxtəlif növləri vardır. Aşağıda bunları diqqətinizə çatdırırıq:

Yazılı imtahanlar: Yazılı imtahanların iki növünü qeyd etmək olar:

a) Açıq tipli suallar vermək

Burada bir neçə düzgün cavabı olan, düzəldilməli, düzgün və yalnış cavablar əks olunur. İmtahanın bu növündə həm suallar, həm də cavablar şagirdlərə verilirki, düzgün cavabları tapa bilsinlər.

b) İzah olunası suallar

Bu cür imtahanları da cavabı ətraflı və ya qısa olmaqla iki növə bölmək olar. Belə imtahanlarda şagirdlərə bir və ya daha artıq sual verilərək tapşırılır ki, cavabı təhlil edərək, aydınlaşdıraraq xülasə şəkildə yazsınlar.

Şifahi imtahanlar: İmtahanın bu formasında müəllimlər şagirdlərin bilik səviyyəsinin yüksəlməsi məqsədilə onlara bir sıra şifahi suallar verirlər. Belə imtahanda müəllimlə şagird qarşı-qarşıya olduğu üçün şagirdin dərsin mənimsənilməsindəki hər hansı problemi dərhal özünü göstərir. Belə olan halda müəllim dərhal müdaxilə edərək çətinliyi aradan qaldırmağa çalışır.

Reaksiya xarakterli imtahanlar: Reaksiya xarakterli imtahanlar o imtahanlara deyilir ki, şagirdlər öyrəndikləri materialları bilavasitə müəllimə çatdırırlar. İmtahanın bu formasında şagirdlərin bilik və bacarığı nəzərə alınır. Belə imtahanlarda müəllim tərəfindən elə bir vəziyyət yaradılır ki, şagirdlər mənimsədiyi bilik və bacarığı dərhal büruzə verirlər. İmtahanın bu növü şagirdlərin bacarığını qiymətləndirmək üçün olduqca gözəl vasitədir. Üstəlik belə imtahanlarda şagirdlərin yaradıcılıq qabiliyyəti də özünü göstərir. Belə ki, onlar dərsdə öyrəndiklərini səhnələşdirməyi bacarırlar.

Reaksiya xarakterli imtahanların növləri

Reaksiya xarakterli yazılı imtahan

Tanışlıq imtahanı

Səhnəcik zamanı reaksiya bildirmə

İşin nümunəsi

Reaksiya xarakterli yazılı imtahan: Reaksiyanın qiymətləndirilməsində yazılı imtahan da faydalı ola bilər. Belə imtahanda adətən şagirdlərin öz biliklərini nümayiş etdirərkən və ya öyrəndiklərini səhnələşdirərkən göstərdikləri reaksiya qiymətləndirilir. Adi yazılı imtahnlarla reaksiya xarakterli yazılı imtahanlar arasında fərq var. Adi yazılı imtahanda şagirdin əsasən bilik səviyyəsi qiymətləndirilir. Reaksiya xarakterli yazılı imtahanda isə şagirdlərin öyrəndiklərini nümayiş etdirərkən və ya səhnələşdirərkən lazım olan anda verəcəyi reaksiya qiymətləndirilir. Belə imtahanlarda ya şagirdlərin yekun qiymətləndirməsinin nəticələri, ya da bu və digər məqamlarda göstərdiyi reaksiyanın ortalaması əsas götürülərək qiymətləndirilir. Reaksiya xarakterli yazılı imtahan bu və digər şagirdin ilkin bilikləri ilə bağlı yerinə yetirəcəyi işi qiymətləndirmək üçün bir vasitə rolunu oynaya bilər. Məsələn, qısa bir hekayə yazmaq, yaxud riyazi bir məsələ verib onu həll etmək və ya bir elmi görüş haqqında təqdimat hazırlamaq.

### c) Layihə

Şagirdlərin summativ qiymətləndiriilməsi yollarından biri də onların öyrəndiyi mövzularla bağlı layihə hazırlamaqdır. Əgər layihə hazırlanması nəzərdə tutulmuş tapşırıqların həllində şagirdlərin hazırlayacağı layihələrə düzgün istiqamət verilərsə, onların baza məlumatları elm və bacarığın müxtəlif sahələrində daha faydalı, daha səmərəli ola bilər. Çünki şagirdlər öyrəndiklərini praktiki olaraq həyata keçirdikdə onu daha yaxşı yadda saxlaya bilirlər.

Layihə hazırlanması nəzərdə tutulmuş tapşırıqlar şagirdlərə bildiklərini praktiki olaraq həyata keçirmək imkanı verir. Əsasən dərs proqramını ehtiva edən şagird layihələri adi tapşırıqlardan nisbətən çətin olur. Belə layihələri şagirdlər həm fərdi, həm də qrup halında həyata keçirə bilərlər. Layihənin adını isə şagird və ya müəllim, yaxud da hər ikisi birlikdə seçə bilər. Layihənin icrasına gəldikdə isə bunu həm sinifdə, həm də sinifdən kənarda, yaxud da bir hissəsini sinifdə, bir hissəsini isə sinifdən kənarda icra etmək mümkündür.

Müəllimin dərs tapşırıqları arasına layihə əlavə etməsi şagirdlərin fərdi bacarıqları arasındakı fərqi nəzərə almasına imkan yaradıb onların hər birinə öz maraq göstərdiyi sahəyə aid mövzuda layihə hazırlayaraq potensialına üzə çıxarmasına şərait yaradır. Şagirdlər fərdi və ya qrup halında hər hansı bir layihəni icra edərkən müəllimin onlara öz bacarıqlarını nümayiş etdirməsinə imkan verəcəyini gözləyirlər. Əgər şagirdin hazırladığı layihə sinifdə və hamının gözü qarşısında icra ediləcəksə, onda şagird müəllim və ya sinif yoldaşlarının suallar verə biləcəyini nəzərə alıb layihənin bütün xırdalıqlarına qədər ciddi hazırlaşmalı olur. Hətta əgər onun bir hissəsini evdə ailə üzvləri və ya başqaları ilə birlikdəhazırlayıbsa da, yenə həmin hissəni dəqiq şəkildə nəzərdən keçirməli olacaq.

**Şagirdlərin hazırladığı layihə necə istiqamətləndirilməli və necə qiymətləndirilməlidir?**

Şagirdlər istər fərdi, istərsə də qrup halında hər hansı bir layihə icra etmək qərarına gəldikdə aşağıdakıları nəzərə almalıdırlar:

1. Şagirdlər layihənin məqsədini və layihədən nə kimi gözləntilər olduğunu bilməlidirlər.

2. Şagirdlərin valideynləri də layihənin məqsədini və ondan nə kimi gözləntilər olmasından xəbərdar olmalıdırlar.

3. Şagirdlər istər fərdi, isətrsə də qrup halında icra edəcəyi layihənin icra ediləcəyi vaxtı müəllimlə məsləhətləşərək qabaqcadan müəyyənləşdirməlidirlər.

4. Layihənin təqdimatı üçün nəzərdə tutulmuş vaxtda şagird və ya şagirdlərə layihəni tam şəkildə təqdim etmək üçün kifayət qədər vaxt verilməlidir.

5. Layihə təqdim edən şagird və ya şagirdlər layihədən olan gözləntilər ardıcıllığı əsasında və öz fikirləri də öyrənilməklə qiymətləndirilməlidir.

Bu vacib bilgidən sonra indi hər bir dərsin qiymətləndirilməsinə diqqət yetirək:

**a) Quran təlimi dərsinin qiymətləndirilməsi (İbtidai mərhələnin birinci kitabı)**

Ümid edirik ki, birinci kitabı bitirmiş uşaqlar dərs ilinin yekununda aşağıdakı bacarıqlara yiyələnəcəklər:

1. Samit və saitləri birləşdirməyi bacaracaqlar.

2. Dərslik kitabında verilmiş sözləri hecalara bölərək oxuya biləcəklər.

Bu bacarıqlara yiyələnmiş şagird həvəsləndirilərək ən yüksək balla qiymətləndiriləcəklər. Kitabda verilmiş sözləri yavaş-yavaş oxuya bilən şagirdlər isə xüsusilə fərqləndirilməlidirlər.

Yuxarıdakı iki bacarığa yiyələnməklə yanaşı Quran təlimi dərsində ibtidai mərhələnin birinci kitabını bitirmiş şagirdin aşağıdakılara da yiyələnməsi nəzərdə tutulmuşdur:

**a) Qiraət**

1. Dərslik kitabında verilmiş Quran ifadələri və ayələrini hecalara bölərək oxumaq bacarığı

2. Dərslik kitabında verilmiş bəzi surələri oxumaq bacarığı

3. Dərslik kitabında verilmiş bəzi surələri qismən əzbərləmək

4. Kitabda verilmiş bəzi surələri avazla oxumaq bacarığı

### b) Mənanı anlamaq

1. Dərslik kitabındakı Quran mesajında verilmiş ayələrin mənasını çatdırmaq

2. Dərslik kitabında verilmiş Quranın bəzi sadə sözlərini tərcümə etmək bacarığı

3. Dərslik kitabında verilmiş quran hekayələrinin məzmun və mənasını çatdırmaq

### c) Düşünmək

1- Quran mesajları barədə fikir mübadiləsi aparmaq və onların yeni nümunələrini axtarıb tapmaq bacarığı

### b) Din təlimləri dərsinin qiymətləndirilməsi (Səmavi hədiyyələr)

Səmavi hədiyyələr dərsinin qiymətləndirilməsi müntəzəm şəkildə, özü də müşahidə vasitələrindən istifadə etməklə aparılmalıdır. Buna görə də müəllim sinifə daxil olduğu andan dərs başa çatana qədər qiymətləndirmə apara bilər.

Qiymətləndirmədə hansı hallar müşahidə olunur və bunların hər birinin nişanəsi nədir?

### 1- Məna və məzmunu anlamaq

Bu bölmədə şagirdlər ümumi məna və məzmunla tanış olub onları başa düşərək öz bilgiləri sırasına əlavə edirlər.

Burada bizim üçün əsas məqsəd sonrakı mərhələlərin, xüsusilə də baxış və yanaşma mərhələsinin (bu, olduqca böyük əhəmiyyət kəsb edir) məqsədinin təmin edilməsidir. “Səmavi hədiyyələr” dərsinin proqramı ibtidai mərhələdə uşaqların öyrəndiyi bilgilərə bir o qədər də təkid etmir. Hətta proqramın tərtibatçıları qətiyyətlə bildirirlər ki, uşaqların müxtəlif və dolaşıq məfhumlarla yüklənməsindən mümkün qədər uzaq olmaq lazımdır.

Şagirdlərin biliyini qiymətləndirmək üçün onlara kifayət qədər fürsət vermək lazımdır ki, öyrəndiklərini özlərinə xas olan dildə ifadə edə bilsinlər. Dərsdə verilmiş nümunə və misallardan

əlavə yeni-yeni nümunələr, misallar gətirsinlər. Bir məfhumun nümunəsini digər məfhumun nümunəsindən ayıra bilsinlər. Hər hansı bir məfhuma aid müxtəlif nümunələri fərqli formalarda müəyyənləşdirə bilsinlər. Bu və digər mövzunun digər mövzularla bağlılığını axtarıb tapa bilsinlər. Yeri gəldikdə onu müxtəlif formalarda həyata keçirə bilsinlər. Onun bəzi nəticələrini öncədən təxmin etməyi, onun əksini də tanımağı bacarsınlar

### 2- Bacarıqlara yiyələnmək

Dini bacarıqları, dini tədbirlərdə fəal şəkildə iştirak etmək və qrup halında yerinə yetirilən tapşırıqlarda iştirak etməyi ehtiva edən bu bölmədə şagirdlər təkrar və məşq etməklə dini əməllər zəminində bacarıqlara yiyələnirlər. Onu da öyrənirlər ki, mövzuların daha yaxşı başa düşülməsi üçün başqaları ilə birlikdə çalışmalı, başqalarının fikrinə hörmətlə yanaşmalı, öz fikrini bildirməli, bir sözlə, qoşulduğu qrupun fəal bir üzvü olmalıdır. Burada əsas diqqət sırf ibadətlə bağlı bəzi əməllərin öyrənilməsinə, lazım gəldikdə isə onu praktiki şəkildə icra edilməsinə yönəlir. Buna misal olaraq dəstəmaz almağı, azan verməyi, namaz qılmağı və s. göstərə bilərik.

Bu bölmədə həmçinin şagirdlərin qrup halında yerinə yetirilən çalışmalarda iştirakı də diqqət mərkəzində saxlanılır. Bu zaman şagirdin hər hansı bir dini əməli düzgün şəkildə yerinə yetirə bilməsi ilə yanaşı, həmin əməldə məqsədin nədən ibarət olmasını bilmək də əhəmiyyət kəsb edir.

Şagirdin bu və digər işin icrası zamanı bacarığının qiymətləndirilməsi onun həmin əməli necə yerinə yetirməsini müşahidə etməklə aparılır. Bacarığın qiymətləndirilməsində heç bir şey təkrar və məşq etməkdən daha əhəmiyyətli ola bilməz.

### 3- Anlayış və bacarıqlardan istifadə etmək

Məna və anlayışların artırılmasından ibarət olan bu bölmədə bu və digər anlayışın başqa yerlərdə işlədilməsi , mənalar arasında bağlılıq yaratmaq, ətraf mühitlə əlaqə qurmaq, məsələnin həlli və son olaraq yaradıcı reaksiya nümayiş etdirmək nəzərdə tutulur. Burada şagird

müxtəlif məna və məfhumlar arasındakı bağlılığı tapmağa çalışaraq öz yaradıcılıq qüvvəsindən istifadə etməklə onların arasındakı bağlılığı tapıb ortaya çıxarır, daha sonra isə onları başqa yerlərdə də istifadə edir. Şagird öyrəndiyi bacarıqlardan məsələnin həllində istifadə etməyə çalışır.

**4- Tənqidi təhlil və fikirlərin tənzimlənməsi**

Bu bölmədə mövqe və şərait, fikir yürütmə, qiymətləndirmə, tənqidi düşüncə, qərar qəbul etmə və münasibət bildirmə halları təhlil edilir. Din təlimlərinin ən önəmli bölməsi hesab olunur. Burada şagird ilk üç bölmədə əldə etdiyi bacarıqları iman və qəlbi inam üçün hazır vəziyyətə gətirir. Ona əvvəlki üç bölmədə əldə etdiyi bacarıqlar sayəsində özünə bir mövqe seçərək fikir bildirməsinə imkan yaradılır. Bu bölmə əsasən yazı sahəsinə aid olduğu üçün ən çox tapşırıq da burada olur.

**Qiymətləndirmə üçün əlverişli vasitələr hansılardır?**

Bir dərsin qiymətləndirilməsi üçün dərsin tədrisi zamanı şagirdlərə verilmiş mətn, şəkillər, eləcədə onların fərdi bacarıq və qabiliyyəti qiymətləndirmə vasitələri olaraq qəbul edilməlidir.

Bu metodla qiymətləndirmədə müəllimin böyük rolu vardır. Çünki burada müəllim həm şagirdin göstərdiyi nəticələri müşahidə edir, həm də bu barədə mühakimə yürüdüb qərar verir. Buna görə də müəllim hər hansı bir dərsin tədrisində nəzərdə tutulan mövzunu obyektiv şəkildə qiymətləndirmək üçün bir neçə tapşırığı meyar qərar verməlidir ki, qiymətləndirmə zamanı düzgün qərar qəbul edə bilsin.

**a) Dərsin tədrisində nəzərdə tutulanlar – müəllimin ixtiyarında münasib bir vasitə**

| Dərsin tədrisində nəzərdə tutulanlar | Öyrənməli tapşırıqlar (Dərsin tədrisində nəzərdə tutulanlara uyğun olaraq) | | | | |
|---|---|---|---|---|---|
| | | Mövzuların anlaşılması | Bacarıqların mənimsənilməsi | Mövzulardan və bacarıqlardan istifadə edilməsi | Tənqidi təhlil və fikirlərin tənzimlənməsi |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

Misal üçün, dərsin tədrisində nəzərdə tutulan sütunun qarşısında üçüncü sütunda (mövzulardan və bacarıqlardan istifadə edilməsi) “x” işarəsi qoyularsa, bunun mənası o deməkdir ki, mövzulardan və bacarıqlardan istifadə edilməsində nəzərdə tutulmuş məqsədə nail olmuşuq.

b) Qeyd etdiyimiz kimi, proqramın qiymətləndirilməsi müəllim tərəfindən hazırlanmış xüsusi cədvələ (cədvəllərə) əsasən aparılır. Beləliklə, müəllim şagird tərəfindən yerinə yetirilmiş tapşırıqlara əsasən onun barəsində keyfiyyət və kəmiyyət baxımından lazımi məlumat toplayır. Sonra da müvafiq sütunun qarşısında ona qiymət (bal) yazır. 272-ci səhifədəki cədvəldə təklif edildiyi kimi, hörmətli müəllimin belə bir imkanı vardır ki, hər bir şagird haqqında məlumatı müntəzəm olaraq əlinin altında saxlayıb mütəmadi olaraq ona nəzər yetirsin.

Hər bir şagird üçün 272-ci səhifədəki cədvəldən bir nüsxə lazımdır. Müəllim hər şagirdin qiymətləndirilməsi ilə əlaqədar olaraq cədvəldəki müvafiq sütunlarda qiymət, yaxud bal yaza və ya müəyyən qeydlər apara bilər.

Hörmətli müəllimlər hər yarım ildə hər bir şagirdi ən azı beş dəfə summativ qiymətləndirməli və hər qiymətləndirmə zamanı ona qiymət yazmalıdır.

## Qiymətləndirmə qaydası

Səmavi hədiyyələr dərsində hörmətli müəllimlər bütün şagirdlərin sayı qədər qiymətləndirmə vərəqi hazırlayırlar. Hər dərsdə bütün şagirdlərlə məşğul olsalar da hər gün bir neçə şagirdi diqqətdə saxlayıb qiymətləndirmə aparırlar.

Qiymətləndirmə şagirdlərin davranış və tapşırıqları əsasında müəllim tərəfindən aparılır. Hər şagird üçün ayrıca nəzərdə tutulmuş qiymətləndirmə vərəqlərinə qiymət və ya bal yazılır. Yarım ilin yekununda bir şagirdin aldığı bütün qiymətlər toplanaraq ortalama qiymət çıxarılır. İkinci və üçüncü kitabın qiymətləndirməsi şifahi, dördüncü və beşinci kitabın qiymətləndirməsi isə yazılı formada aparılır. Müəllimlər sualların tərtib edilməsində son dərəcə diqqətli olmalıdırlar. Çünki "Səmavi hədiyyələr" kitabı müntəzəm qiymətləndirməyə uyğun olaraq tərtib edilmişdir. Buna görə də bu dərsdə sualların hazırlanması böyük önəm kəsb edir.

Suallar ümumi şəkildə tərtib edilməlidir. Belə ki, ilboyu dərsdə iştirak etmiş şagird onlara cavab verə bilməlidir. Uşaqları qiymətləndirmək üçün “1”-dən “3”-dək rəqəmlərdən istifadə edilə bilər. Yaxud üç fərqli rəngdən və ya üç fərqli həndəsi fiqurdan da istifadə etmək mümkündür. Habelə “orta”, “yaxşı” və “əla”, eləcə də “ortadan yuxarı”, “qənaətbəxş” və “daha yaxşı olmalıdır” kimi işarələrdən istifadə etmək olar.

Qiymətin yazılmasına gəldikdə isə önəmli olan odur ki, dərsə başlamazdan qabaq hər bir qiymətin meyarı müəllim üçün aydın olmalıdır. Əgər şagirdin verdiyi cavab sualı tamamilə əhatə etmişdirsə, onu “əla” və yaxud “3” , əgər nisbətən əhatə etmişdirsə, onu “yaxşı” və ya “2”, əgər qismən əhatə etmişdirsə, onu “orta” və ya “1” qiymətləri ilə qiymətləndirmək lazımdır.

### Bu dərsin sullarından nümunələr

1. İstəyirik ki, imam Rzanın (əleyhissəlam) ziyarətinə gedək. Ziyarətgaha daxil olmaq üçün hansı əməlləri yerinə yetirərdiniz?

(Şagirdlərin verəcəyi istənilən cavab, məsələn, dəstəmaz almaq, ehtiram göstərmək, dua etmək, Quran oxumaqvə s. məqbul hesab olunur.)

2. Əgər imam Zaman (əccələllahu fərəcəh) bizim aramızda olsaydı, ondan nə istəyərdiniz?

3. Allahın sizə verdiyi nemətlər barəsində bir siyahı tutun.

4. Əgər uşaq vaxtı ağlaya və ya gülə bilməsəydik, nə baş verərdi?

5. Nə etməliyik ki, bizim oynamağımız başqalarını narahat etməsin?

6. Allah bizi çox sevir. Çünki bizə çoxlu nemətlər vermişdir. O cümlədən ...

7. Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) və yaxud imamların (əleyhimussəlam) mövludunu keçirmək üçün hansı işləri görürsünüz?

8. Bir neçə gözəl və münasib əməl qeyd edin.

9. Mən mehriban olan Allah ilə danışıb Ona demək istəyirəm ki, ...

10. Dostunuzun pis hərəkətinə qarşı necə reaksiya verərsiniz?

- İş dəftərinin səhifələrindən istifadə
- Yarımçıq qalmış cümlələrdən istifadə
- Kitabdakı şeirlərdən istifadə

**Son**